# Heydər ƏLİYEV: "Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək".


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN






№ 225 (9392) 15 OKTYABR 2023-cü il BAZAR | AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI | QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## MÖHTƏŞƏM 20 İL 2003 2023

# Qüdrətli Azərbaycanın və Böyük Zəfərin müəllifi

**Azərbaycanın son 20 ildə möhtərəm Prezident İlham Əliyevin müəllifliyi ilə yazılan inkişaf salnaməsi möhtəşəm nailiyyətlərlə, sonsuz zəfərlərlə zəngindir. Bu tarixin hər bir səhifəsi xalqımızın qürur mənbəyidir.**

Gözlərimizin önündə Azərbaycan hər gün daha da böyüyür, onun gücü, qüdrəti gündən-günə daha da artır. Azərbaycan öz hədəflərinə doğru inamla və əmin addımlarla irəliləyir. Bu gün müstəqil Azərbaycan dövləti çoxəsrlik dövlətçilik tarixinin ən qüdrətli dövrünü yaşayır. Şübhə yoxdur ki, Azərbaycanı gələcəkdə də parlaq günlər gözləyir. Hər bir azərbaycanlıda bu əminliyi, bu sarsılmaz inamı yaradan isə möhtərəm Prezident İlham Əliyevdir. Ona görə də biz cənab İlham Əliyevin Azərbaycanda hakimiyyət olimpinin zirvəsinə seçildiyi 2003-cü ilin 15 oktyabr tarixini, onun xalqımızın dövlətçilik tarixində yeri və rolu barədə danışarkən, ölkəmizin müasir, müstəqil inkişaf mərhələsində müstəsna əhəmiyyətə malik, taleyüklü təqvimlərdən biri kimi dəyərləndiririk.

### Azərbaycanın qazandığı misilsiz nailiyyətlər Heydər Əliyev siyasətinin təntənəsidir

Əlbəttə, 2003-cü ildə Azərbaycan xalqının öz Ümummilli Lideri Heydər Əliyevin "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" müraciətinə dəstək verməsinin çox ciddi əsasları vardır. Bu, bir tərəfdən xalqımızın xilaskarının, Ulu Öndərin dövlətimizin gələcəyi naminə işarə etdiyi doğru yola, Onun seçiminə sonsuz etibarın göstəricisi olmuşdursa, eyni dərəcədə də cənab İlham Əliyevin şəxsiyyətinə, bacarığına, dövlət xadimi və lider kimi böyük potensialına olan etimada əsaslanmışdır. Çünki cənab İlham Əliyev prezident vəzifəsinə seçilənədək siyasi karyerasında və dövləti fəaliyyətində kifayət qədər nailiyyətlər əldə etmiş, özünün yüksək təşkilatçılıq və liderlik qabiliyyətini, siyasi və diplomatik səriştəsini təsdiq etmişdir.


→ 4


## Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili

**Oktyabrın 14-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevin həmsədrliyi ilə Bakıda, "Gülüstan" sarayında "Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili" mövzusunda konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizin qazandığı nailiyyətlərə və tarixi qələbələrə dair məruzələr dinlənilib.

Konfransı açan Baş nazir Əli Əsədov bildirib ki, Azərbaycanın yeni əsrdə yeni lideri olan İlham Əliyevin birinci müddətə Prezident seçilməsinin iyirmi illiyi tamam olur. Ötən illərdə əldə olunan uğurları diqqətə çatdıran Əli Əsədov qeyd edib ki, "Güclü iqtisadiyyat ən önəmli şərtdir", - deyən Prezident İlham Əliyevin hakimiyyəti illərində Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) real ifadədə 3,6 dəfə artıb. Bu, son iki onillikdə qlobal miqyasda əldə olunan ən yaxşı iqtisadi nailiyyətlərdən biridir. Dövlət başçısı iqtisadiyyatın şaxələndirilməsini milli iqtisadiyyat qarşısında əsas çağırış olaraq qoyub və bu istiqamətdə görülən işlər nəticəsində ötən 20 il müddətində qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfə, dövlət büdcəsinin xərcləri 30 dəfə artıb. Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3500 manatdan çoxdur. Xarici ticarət dövriyyəsi 10,8 dəfə, o cümlədən ixrac 16,1 dəfə artıb. 2003-cü illə müqayisədə 2022-ci ildə adambaşına düşən ÜDM 3 dəfəyə yaxın artaraq, 13 min 256 manat təşkil edib. Aparılan çoxşaxəli iqtisadi siyasət nəticəsində davamlı inkişaf təmin olunub. Birbaşa xarici borcun həcmi azalaraq hazırda ümumi daxili məhsulun 9,3 faizini təşkil edir. Azərbaycanın xarici valyuta ehtiyatları son 20 ildə 47 dəfədən çox artaraq 66 milyard ABŞ dollarını keçib və hazırda birbaşa xarici borcumuzu 10 dəfə üstələyir. Bu dövr ərzində sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onun 190 milyard dolları qeyri-enerji sektoruna yatırılıb. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində son 20 ildə qeyri-neft ixracı 8 dəfədən çox artıb.


→ 3



Hər ili möhtəşəm olan 20 il → 10

Müasir, bütöv Azərbaycanın qurucusu → 6

Milləti qalib edən Lider → 11

Uğurlu enerji strategiyasının müəllifi → 9

Tarixin ən güclü Azərbaycanını yaratmış Lider → 13

YOL → 15

Zəfərin memarı → 17

Müxalifətdən Prezidentə minnətdarlıq: *"İlham Əliyevin bütün tarixi zəfərlərdə silinmaz və parlaq imzası var"*

AMİP ötən 20 ili uğurlu inkişaf yolu kimi səciyyələndirir → 16



azerbaijan-news.az

# Azərbaycan daim Türk dünyasının birliyi amallarına sadiqdir



**Oktyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Türk dünyası xalqlarının bir-biri ilə tarixi bağlılığına söykənən əlaqələrinin genişləndirilməsindən və xalqlarımız arasında humanitar, mədəniyyət, təhsil, idman sahələrində əməkdaşlığın genişləndirilməsi üçün imkanların mövcud olmasından məmnunluq ifadə edilib.

Bu xüsusda, səmərəli platforma kimi Türk Dövlətləri Təşkilatının rolunu xüsusi qeyd edən Azərbaycan Prezidenti Türk dünyası xalqlarının bundan sonra da müxtəlif sahələrdə əlaqələri inkişaf etdirəcəyinə ümidvar olduğunu bildirib. Dövlətimizin başçısı Azərbaycanın həmişə Türk dünyasının sıx birləşməsinə öz töhfəsini verdiyini və bundan sonra da Türk dünyasının birliyi amallarına sadiq qalacağını qeyd edib.



Görüşdə Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatı çərçivəsində müşahidəçi üzv kimi fəaliyyətindən danışılıb. Qeyd edilib ki, Şimali Kipr Türk Cümhuriyyəti artıq uzun müddətdir İqtisadi Əməkdaşlıq Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı yanında müşahidəçi statusuna malikdir. Ona görə də Türk Dövlətləri Təşkilatı yanında da Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi statusunun olması tam məntiqlidir.

Ersin Tatar öz növbəsində Azərbaycanın suverenliyini tam təmin etməsi münasibətilə Prezident İlham Əliyevi təbrik etdi. O, həmçinin Bakıda təşkil olunan Şimali Kiprin Mədəniyyət Günləri çərçivəsində keçirilən tədbirlərdən məmnunluq ifadə edərək, yaradılan şəraitə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi.

Görüşdə turizm, elm, təhsil və tələbə mübadiləsi sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

Sonda Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# YAP Sədrinin müavini Nepalda keçirilən AEPF-nin 5-ci iclasında iştirak edib

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov oktyabrın 14-də Nepalın paytaxtı Katmanduda keçirilən və 16 ölkədən 26 siyasi partiya nümayəndəsinin qatıldığı Asiya-Avropa Siyasi Forumunun (AEPF) 5-ci iclasında iştirak edib.**









Məlumat verilib ki, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) və Avropa Parlamentindəki Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun (ECR) birgə platforması olan AEPF-nin yaradılmasında məqsəd Asiya və Avropanın aparıcı siyasi partiyaları arasında əlaqələri genişləndirməkdir.

İclasda ICAPP Daimi Komitəsinin Sədri, Koreya Respublikasının keçmiş xarici işlər naziri Çunq Eu-yonq, Nepalın sabiq baş naziri, Nepal Kommunist Partiyasının (UML) sədri Xadqa Prasad Şarma Oli, ICAPP Daimi Komitəsinin üzvü, AEPF-nin həmsədri, Nepal Kommunist Partiyasının Beynəlxalq əlaqələr şöbəsinin müdiri Racan Bhattaray və Nepal parlamentinin üzvü, Nepal Konqresi Partiyası Mərkəzi Komitəsinin üzvü, sabiq baş nazir müavini və xarici işlər naziri xanım Sucata Koirala açılış nitqi ilə çıxış ediblər.

Sonra AEPF-nin həmsədri, Avropa Parlamentinin Çexiyadan olan deputatı və ECR-in üzvü Yan Zahradilin moderatorluğu ilə "Dayanıqlı turizmin təşviqi" mövzusunda birinci sessiya keçirilib.

Racan Bhattarayın moderatorluğu ilə "Pandemiyadan sonrakı dövrdə maliyyə sabitliyinin qorunması" mövzusunda keçirilən ikinci sessiyada YAP Sədrinin müavini Tahir Budaqov da çıxış edib. Koronavirus pandemiyasının geniş vüsət aldığı ilk vaxtdan etibarən həm əhalinin sağlamlığını qorumaq, həm də sosial-iqtisadi immunitet yaratmaq məqsədilə respublikamızda həyata keçirilən effektiv mübarizə tədbirlərindən bəhs edən Tahir Budaqov Azərbaycan iqtisadiyyatının pandemiyadan sonrakı mərhələyə hazırlanmasına elə pandemiya dövründə başlandığını vurğulayıb. YAP Sədrinin müavini çıxışında Azərbaycanın pandemiya dönəmində dövlət siyasətinin təkcə milli məzmun kəsb etmədiyini, eyni zamanda beynəlxalq əhəmiyyət daşıdığını söyləyərək bu kontekstdə Prezident İlham Əliyevin qlobal səviyyədə göstərdiyi təşəbbüsləri - Azərbaycanın uğurla sədrlik etdiyi Türk Şurasının və Qoşulmama Hərəkatının pandemiyaya qarşı mübarizəyə həsr olunmuş Zirvə görüşlərinin keçirilməsini, 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi sessiyasının baş tutmasını diqqətə çatdırıb. Azərbaycanın dünya miqyasında "peyvənd millətçiliyi"nə qarşı çıxması, Prezident İlham Əliyevin müxtəlif beynəlxalq təşkilatların tribunalarından birmənalı şəkildə peyvəndlərin ölkələr arasında qeyri-bərabər bölüşdürülməsinin yolverilməzliyi barədə çıxışları, eləcə də Azərbaycanın peyvəndlərə əlçatanlığı olmayan bir neçə ölkəyə vaksinlər və digər yardımlar göndərməsi, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində vəsait ianə etməsi də xüsusi qeyd olunub. Tahir Budaqov çıxışında Azərbaycanın pandemiya ilə mübarizədə uğurlarının həm də Ermənistanın növbəti hərbi təxribatlarına cavab olaraq başlayan və Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi, ərazi bütövlüyünü təmin etməsi və tarixi ədaləti bərpa etməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi fonunda əldə edildiyini vurğulayıb: "Lakin həmin müharibənin yekunu olaraq Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən imzalanmış Bəyanatla Ermənistanın faktiki olaraq kapitulyasiyanı qəbul etməsinə baxmayaraq, həmin sənədlə öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi, Rusiya sülhməramlı qoşunlarının müvəqqəti yerləşdirildiyi ərazilərdə hərbi təxribatları davam etdirməsi, Azərbaycanın suverenliyinə və konstitusiya quruluşuna təhdid yaradan revanşist hərəkətlərin günü-gündən artması Azərbaycanı 2023-cü il 19 sentyabr tarixində lokal xarakterli antiterror tədbirlərinin keçirilməsinə məcbur etmiş və 24 saat ərzində qanunsuz hərbi birləşmələrin ləğv olunması, ölkənin bütün ərazisi üzərində suverenliyimizin tam bərqərar olunması təmin edilmişdir. Növbəti mərhələdə Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun bərpası və orada yaşayan erməniəsilli əhalinin reinteqrasiyası, investisiyaların cəlb olunması, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi ölkəmiz qarşısında duran prioritet vəzifələrdir".

Tahir Budaqov çıxışının sonunda siyasi partiyaları maliyyə sisteminin sabitliyini qorumaq və iqtisadi inkişafın davamlılığını təmin etmək üçün tərəfdaşlıq əlaqələrini gücləndirməyə, bilik və təcrübələrini bölüşməyə, daha sıx koordinasiyalı fəaliyyət qurmağa çağırıb.

İclasın sonunda AEPF-nin yenilənmiş fəaliyyət qaydaları və aparılmış müzakirələrin əsas nəticələrini özündə əks etdirən Katmandu Bəyanatı qəbul edilib. Günün sonunda iştirakçılar Nepal Kommunist Partiyasının sədri Şarma Olinin adından verilən şam yeməyinə qatılıblar.

Səfərin sonuncu günü, oktyabrın 15-i mədəni proqram çərçivəsində iştirakçıların Himalay dağlarının ətəyində yerləşən Dhulikhel və Nepalın qədim mədəniyyət mərkəzi olan Bhaktapur şəhərlərinə ziyarəti nəzərdə tutulub.

# "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Özbəkistan Respublikasının Yenidənqurma və İnkişaf Fondu arasında Özbəkistan Respublikasının ərazisində məhdud məsuliyyətli cəmiyyət formasında Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin yaradılması haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2023-cü il iyulun 18-də Şuşa şəhərində imzalanmış "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Özbəkistan Respublikasının Yenidənqurma və İnkişaf Fondu arasında Özbəkistan Respublikasının ərazisində məhdud məsuliyyətli cəmiyyət formasında Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin yaradılması haqqında Saziş" təsdiq edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 oktyabr 2023-cü il*

# Azərbaycan XİN AŞ PA-nın son qətnamə və tövsiyəsini şiddətlə qınayıb

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) 2023-cü il 12 oktyabr tarixli 2517 (2023) saylı qətnaməsini və 2260 (2023) saylı tövsiyəsini qətiyyətlə rədd edir və şiddətlə qınayırıq.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin AŞ PA-nın son qətnamə və tövsiyəsinə dair şərhində bildirilib.

Qeyd edilib ki, bu qurum Azərbaycana münasibətdə növbəti dəfə qərəzsiz yanaşma nümayiş etdirmək imkanına malik olmadığını göstərir. AŞ PA Ermənistana məxsus separatçı rejim və ərazisindəki qeyri-qanuni erməni silahlı qüvvələri tərəfindən təhlükəsizliyinə və ərazi bütövlüyünə əsas təhdidin aradan qaldırılması istiqamətində Azərbaycanın həyata keçirdiyi tədbirləri alqışlamaq əvəzinə, əsassız şayiələrə və müəyyən dövlətlərin bölgəmizdə Azərbaycanı ləkələyən məkrli siyasətinə əsaslanan yanaşma nümayiş etdirməkdə davam edir.

Bu sənədlər Avropa Şurasının beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə də bütün üzv dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə hörmətlə bağlı öhdəliklərini bir daha təsdiq edən əsas qərar və sənədlərinə açıq şəkildə zidd olmaqla yanaşı, Ermənistanı Azərbaycana qarşı növbəti təcavüzə və revanşizmə təhrik edir.

Terrorçuluğa qarşı 24 saatlıq lokal mübarizə tədbirlərinə aparan hadisələrin təhrif olunmuş şəkildə təqdim edilməsi, habelə BMT-nin regiona həyata keçirilən iki missiyası və Ermənistandakı BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən müsbət qiymətləndirildiyi və Azərbaycanın hər hansı zorakılıq tətbiq etmədiyi təsdiqləndiyi kimi, Azərbaycanın humanitar hüquqa hörmətinə və erməniəsilli yerli mülki sakinlərin insan hüquqlarının pozulmasının qarşısını almaq üçün ölkəmiz tərəfindən həyata keçirilmiş lazımi tədbirlərə məhəl qoyulmaması, AŞ PA çərçivəsində Azərbaycana qarşı uzunmüddətli qərəzin göstəricisidir.

Diqqətə çatdırılıb ki, bundan əlavə son on ayda Laçın yolundan hərəkətlə bağlı AŞ PA-nın əsassız iddiaları və Ermənistanın Laçın sərhəd nəzarət-buraxılış məntəqəsi ilə bağlı iddialarını yekdilliklə rədd edən Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 6 iyul tarixli qərarına məhəl qoyulmaması ilə yanaşı, məhkəmənin qərarlarının yanlış şərh edilməsi qəbuledilməzdir. Həmçinin 4000-ə yaxın itkin düşmüş azərbaycanlının taleyinə, 44 günlük müharibədən sonra zərərçəkənlərin sayını 333-ə çatdıran mina təhlükəsinə, əvvəllər işğal altında olan Azərbaycan ərazilərində qeydə alınan dağıntıların miqyasına aydınlıq gətirilməməsi də dərin narahatlıq doğurur.

Otuz ilə yaxın müddət ərzində azərbaycanlı məcburi köçkünlərin və Ermənistandan zorla qovulmuş etnik azərbaycanlı qaçqınların insan hüquqlarının pozulmasına göz yumulmaqla yanaşı, Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin könüllü surətdə yerdəyişməsi ilə bağlı böhtan və hədsizlik nümayiş etdirən arqumentlər bu qurumun insan hüquqları ilə bağlı öhdəliklərinin açıq şəkildə pozuntusudur. AŞ PA etnik ermənilərin hüquqlarını mövcud olmayan təhlükələrdən müdafiə etməklə bərabər, Ermənistandan qovulmuş azərbaycanlıların hüquqlarının bərpası və ləyaqətlə geri qayıtmaları ilə bağlı müraciətlərə məhəl qoyulmur.

"AŞ PA Azərbaycan və Ermənistan arasında sülh səylərinin perspektivlərinə xələl gətirən Azərbaycana qarşı əsassız və qərəzli addımları dayandırmalıdır. Eyni zamanda Avropa Şurasının mexanizmlərindən Azərbaycana qarşı istifadəyə yönəlmiş uzaqgörən olmayan cəhdlər tamamilə əks nəticə verir, bu kimi cəhdlər Azərbaycanın regionda davamlı sülhün təmin edilməsi və Azərbaycanın Qarabağ bölgəsində yerli erməni sakinlərlə bağlı reinteqrasiya planları istiqamətində fəaliyyətini davam etdirmək əzmini sarsıda bilməz", - deyə açıqlamada vurğulanıb.

# Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili



*Əvvəli 1-ci səh.*

Bildirilib ki, Prezident İlham Əliyevin diqqət və qayğısı, eyni zamanda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyi ilə ölkə üzrə təhsil, səhiyyə və mədəniyyət ocaqlarının tikintisi və yenidən qurulması sahəsində irimiqyaslı layihələr həyata keçirilib. Son 20 ildə paytaxtda və regionlarda 3630 məktəb, 760-dək səhiyyə müəssisəsi tikilib və ya əsaslı təmir olunub. Əhalinin sosial müdafiəsi, xüsusilə ən həssas kateqoriyadan olan insanların sosial təminat məsələləri, bütövlükdə əhalinin sosial-iqtisadi rifah halının yaxşılaşdırılması Prezidentin daim diqqət mərkəzində olub. Hər il dövlət büdcəsi tərtib edilərkən büdcənin sosialyönümlü olmasına xüsusi diqqət yetirilib. Bunun nəticəsidir ki, 2003-2023-cü illərdə sosial təyinatlı büdcə xərcləri 20 dəfədən çox artıb.

Baş nazir qeyd edib ki, Prezident İlham Əliyev dövlətimizin başçısı kimi 20 illik fəaliyyəti dövründə xalqa verdiyi bütün vədləri uğurla yerinə yetirib: "Biz qalib xalqın nümayəndələri, qalib dövlətin vətəndaşlarıyıq. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər və birgünlük lokal antiterror tədbirlərinin uğurlu nəticəsi 30 ildən artıq müddətdə Ermənistanın işğal altında saxladığı ərazilərimizin qapılarını Böyük qayıdışa açmışdır. Qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 7 milyard ABŞ dolları vəsait ayrılıb. Böyük qayıdışa dair I Dövlət Proqramı qəbul edilib və uğurla icra olunur. Prezident İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birgə azad edilmiş torpaqlarımızı addım-addım, qarış-qarış gəzərək möhtəşəm quruculuq işlərinə bilavasitə başçılıq edir".

Sonra Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev çıxış edib. Qeyd edib ki, ötən 20 il ölkəmizin qarşısında duran strateji hədəflərə nail olunması, cərəyan edən proseslərin, baş vermiş hadisələrin zənginliyi, ən əsası, əldə edilmiş nəticələr baxımından müstəsna əhəmiyyət kəsb edən və çoxəsrlik milli dövlətçiliyimizin ən parlaq səhifəsinə çevrilmiş yeni bir mərhələdir: "Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-2023-cü illər çoxəsrlik milli dövlətçilik tariximizə bənzəri olmayan qızıl dövr kimi düşmüş, əsrlərlə bölünmüş, ağır məhrumiyyətlərə məruz qalmış, amma öz qürurunu və milli dövlətçilik ənənələrini qoruyub saxlamış Azərbaycan xalqının həyatında silsilə qələbələr, misli görünməmiş yüksəliş və tərəqqi illəri olmuşdur. Məhz buna görədir ki, ötən dövr ərzində keçirilmiş 4 prezident seçkisində Azərbaycan xalqı öz gələcəyini yalnız Prezident İlham Əliyevə etibar edib. Xalqımız hər zaman Prezident İlham Əliyevə dəstək olur, ətrafında sıx birləşərək ardınca irəliyə doğru addımlayır".





Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan uzun illər iqtisadi inkişaf parametrlərinə görə dünyada lider mövqeyə malik olub. 2003-2022-ci illərdə Azərbaycanda ümumi daxili məhsul 7,3 milyard dollardan 78,7 milyard dollara yüksəlib. 2003-2023-cü illərdə dövlət büdcəsinin xərcləri 1,2 milyard manatdan 36,6 milyard manata çatıb. Strateji valyuta ehtiyatları 2003-cü ildə 1,4 milyard dollardan 2023-cü il oktyabrın 1-nə 66,1 milyard dollara qədər artıb. 2003-2022-ci illərdə ölkə iqtisadiyyatına yatırılan ümumi investisiya həcmi 310,4 milyard dollar təşkil edib. 2003-cü illə müqayisədə 2022-ci ildə yoxsulluq səviyyəsi 44,7 faizdən 5,5 faizə enib, orta aylıq əməkhaqqı 77,4 manatdan 839,4 manata yüksəlib.

"Nə Ermənistan rəhbərliyi, nə də Qarabağdakı hərbi xuntanın başçıları ehtimal belə etmirdilər ki, gün gələcək Azərbaycan təkcə Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Şuşada deyil, eləcə də Xankəndidə, Ağdərədə, Xocalıda, Xocavənddə nəzarətini bərpa edəcək, xalqımıza qarşı cinayətlər törətmiş separatçılar isə Azərbaycan məhkəməsi qarşısında cavab verməli olacaqlar", - deyən Prezident Administrasiyasının rəhbəri bildirib ki, 2023-cü il sentyabrın 20-də 24 saatdan az vaxt çəkən lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan Silahlı Qüvvələrinin həmin ərazidəki bütün tör-töküntülərini, hərbi infrastrukturunu sıradan çıxardı və hərbi xuntanı ağ bayraq qaldırmağa məcbur etdi. Bundan sonra separatçılara özünü buraxmaq barədə qərar qəbul etməkdən başqa çıxış yolu qalmadı.

"Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri həm Vətən müharibəsində, həm də lokal antiterror tədbirləri zamanı peşəkarlığını, qarşısına qoyulmuş vəzifələri ən yüksək səviyyədə icra etmək məharətinə malik olduğunu bir daha nümayiş etdirdi", - deyə S.Nuriyev əlavə edib.

Daha sonra konfransda Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini Əli Əhmədov, xarici işlər naziri Ceyhun Bayramov, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, iqtisadiyyat naziri Mikayıl Cabbarov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və elm və təhsil naziri Emin Əmrullayev çıxış ediblər.

Çıxışlarda bildirilib ki, 2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev Ümummilli Liderimizin siyasi irsini davam etdirərək və Ulu Öndərin səyləri nəticəsində yaradılmış möhkəm təmələ əsaslanaraq dövlətimizi strateji hədəflərə doğru uğurla aparır. Bunun nəticəsində Azərbaycan regionun ən inkişaf etmiş iqtisadiyyatına malik olmaqla yanaşı, həm də söz və nüfuz sahibinə çevrilib.

Diqqətə çatdırılıb ki, ötən illərdə ölkəmizdə 17 min kilometrdən çox avtomobil yolu, 500-dən çox körpü və tunellər, 3300-dək məktəb, 450-dən çox uşaq bağçası, 550-dən çox tibb müəssisəsi, 41 Olimpiya İdman Kompleksi tikilib və ya təmir olunub. Dövlət başçısının tapşırığına əsasən, Naxçıvanın sosial-iqtisadi inkişafına dair proqramın və strateji layihələrin icrasına başlanılıb ki, bu da muxtar respublikada rifahın yüksəlməsinə, biznes fəaliyyətinin genişlənməsinə münbit şərait yaradacaq.

Çıxışlarda Prezident İlham Əliyevin şəhid ailələri və müharibə əlillərinə xüsusi qayğısından danışılıb, onların təqaüdünün ötən dövrdə 6 dəfə artırıldığı qeyd olunub. Həmçinin şəhid hərbçilərin ailələrinə və müharibə əlillərinə birdəfəlik ödəmələr verilib. Bildirilib ki, şəhid ailələri və müharibə əlilləri üçün mənzil təminatı proqramı da 5 dəfə genişlənib. Son 3 ildə bu qəbildən olan şəxslərə 5300, ümumilikdə isə 14100 mənzil və fərdi ev təhvil verilib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 7500 avtomobil verilib. Bundan başqa, postmüharibə dövründə Prezidentin göstərişi ilə 124 min şəxsə 309 min xidmət göstərilib. O cümlədən 103 min şəxsə sosial ödəniş təyin olunub, 20 min şəxsin məşğulluğu təmin edilib, 51 min şəxsə reabilitasiya xidməti (o cümlədən 458 yüksək texnologiyalı protez) təqdim olunub.

Vurğulanıb ki, Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin nəticəsi olaraq ötən 20 ildə ölkəmizdə dövlət büdcəsinin illik sosial müdafiə xərcləri 20 dəfədən çox artıb. Bu dövrdə minimum əməkhaqqı 38 dəfə, orta aylıq əməkhaqqı 12 dəfə, minimum pensiya 14 dəfə, orta aylıq pensiya 18 dəfə, yaşa görə orta aylıq pensiya 19 dəfə, əlilliyə görə pensiya 14 dəfə, ailə başçısını itirməyə görə pensiya 19 dəfə artıb. Pensiya üzrə ödənilən illik vəsait həmin dövrdə 30 dəfə artaraq 6 milyard manata çatıb.

Sonda Azərbaycan Televiziyası (AzTV) tərəfindən hazırlanan və Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizin qazandığı nailiyyətlərə həsr olunan sənədli film nümayiş etdirilib.



# Qüdrətli Azərbaycanın və Böyük Zəfərin müəllifi



Əvvəli 1-ci səh.

O, çalışdığı bütün vəzifələrdə yüksək peşəkarlıq, bacarıq nümayiş etdirmiş, üzərinə götürdüyü məsuliyyətli vəzifələri layiqincə yerinə yetirmişdir. Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin ən yaxın silahdaşı olaraq, gərgin, təlatümlü vaxtlarda Ümummilli Liderin xilaskarlıq missiyasında layiqli rol almışdır. O, prezident kimi Azərbaycan dövlətinə rəhbərlik etməyə başlayandan sonra isə yeni şəraitdə daha ağır və daha məsuliyyətli missiyanı öz xalqının lideri olaraq həyata keçirməyə başlamış, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursu yeni dövrün tələblərinə uyğun olaraq, uğurla həyata keçirərək, həm Ümummilli Liderimizin etimadını, həm də xalqımızın inamını ən yüksək səviyyədə doğrultmuşdur. 2003-cü ildən bu günə qədər Azərbaycanın qazandığı misilsiz nailiyyətlər Heydər Əliyev siyasətinin təntənəsidir.

Biz Azərbaycanın 20 il ərzində əldə etdiyi misilsiz uğurları sadalayarkən milli birlik, sabitlik amillərini mütləq qeyd etməliyik. Çünki hər bir inkişafın əsasında sabitlik dayanır və bu gün bir çox dövlətin və xalqın yaşadığı faciəvi hadisələrdən də göründüyü kimi, sabitliyin olmadığı yerdə inkişafdan, uğurdan söhbət belə gedə bilməz. Ona görə də cənab Prezident İlham Əliyev ilk növbədə əsası Ümummilli Liderimiz tərəfindən qoyulan ölkəmizdə sabitlik və təhlükəsizlik mühitinin qorunmasını və daha da möhkəmlənməsini təmin etmiş, Azərbaycan xalqını milli ideya və məqsədlər ətrafında yumruq kimi birləşdirməyi bacarmışdır. Xalq - iqtidar birliyi, ölkə vətəndaşlarının Prezident İlham Əliyevə sonsuz dəstəyi Azərbaycanın əldə etdiyi misilsiz uğurların çıxış nöqtəsi, möhkəm sütununa çevrilmişdir. Bu sarsılmaz birlik son 20 ildə Azərbaycanda bir neçə dəfə sabitliyi pozmağı hədəfləyən cəhdlərin qarşısına sipər çəkmiş, ölkəmizə qarşı məkrli planların puça çıxmasını şərtləndirmişdir.

## Konseptual yanaşma, islahatlar yolu ilə davamlı tərəqqi

Azərbaycanın son 20 illik inkişaf yolunun mühüm göstəricilərindən biri ölkəmizin iqtisadi müstəqilliyini əldə etməsi və onu möhkəmləndirməsidir. Çünki yalnız güclü iqtisadiyyata malik, iqtisadi cəhətdən müstəqil olan dövlətlər digər sahələrdə də müstəqil siyasət həyata keçirə bilərlər. Bu gün Azərbaycanın dünyada öz siyasətini inamla həyata keçirməsi, milli mənafe və maraqların qorunması istiqamətində dönməz qətiyyət nümayiş etdirməsi ölkəmizin güclü iqtisadi dayaqlara malik olması ilə əlaqədardır. Güclü iqtisadi dayaqlar siyasi müstəqilliyə də təkan verir. Prezident İlham Əliyev dünyada cərəyan edən mürəkkəb proseslərin yaratdığı narahatlıqlara baxmayaraq, Azərbaycanın uğurlu və dayanıqlı inkişafını təmin etmişdir.

Prezident İlham Əliyevin dövlət idarəçilik fəlsəfəsində bütün sahələrin inkişafına kompleks yanaşmaq, ən yeni nəsil islahatlar yolu ilə davamlı tərəqqiyə nail olmaq vacib yer tutur. O, dövlət başçısı kimi fəaliyyətə başlayandan sonra Azərbaycan xalqına müraciətində də bu istiqamətdə həyata keçiriləcək genişmiqyaslı tədbirlərin anonsunu vermiş, qısa müddətdə imzalanan dövlət proqramları, fərman və sərəncamlarla yeni iqtisadiyyat quruculuğu prosesinə başlamışdır. Görülən məqsədyönlü tədbirlər nəticəsində sürətli iqtisadi inkişaf, dövlətin maliyyə imkanlarının genişlənməsi, makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın neft-qaz amilindən asılılığının əhəmiyyətli dərəcədə azaldılması, iqtisadi şaxələndirmə siyasətinin uğurla həyata keçirilməsi, regionların sürətli sosial-iqtisadi inkişafı təmin olunmuş, Azərbaycan geniş investisiya imkanlarına malik olan donor ölkəyə çevrilmişdir.

Azərbaycanın inkişafını tərənnüm edən vacib tezislərdən biri də ölkəmizdə həyata keçirilən iqtisadi islahatların uğurlu siyasi islahatlarla tamamlanması, vəhdət təşkil etməsidir. Ölkəmizin iqtisadi nailiyyətləri Azərbaycanda siyasi islahatlara da geniş meydan və imkanlar yaratmış, siyasi sistemin təkmilləşdirilməsi, möhkəm əsaslara malik hüquqi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsini təmin etmişdir. Bu sahədə reallaşdırılan islahatların məntiqi nəticəsi olaraq, ölkəmizdə siyasi dialoq mühitinin möhkəmləndirilməsi, yeni siyasi konfiqurasiyanın yaranması, demokratik təsisatların fəaliyyətinə geniş imkanların yaradılması, plüralizmin, söz və ifadə azadlığının, insan hüquq və azadlıqlarının qorunması, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə dövlət dəstəyinin gücləndirilməsi Azərbaycanın demokratik inkişafına xidmət etmişdir. Altıncı çağırış Milli Məclisin və onun komitələrinin rəhbərliyində hakim Yeni Azərbaycan Partiyası ilə yanaşı, müxalif partiyaların nümayəndələri də təmsil olunmuşlar. Hakimiyyətin müxtəlif qolları arasında əməkdaşlıq əlaqələri daha da möhkəmlənmiş, iqtidarla müxalifət arasında müntəzəm dialoq qurulmuşdur. Azərbaycan Milli Məclisi möhtərəm Prezidentin tövsiyələrinə uyğun olaraq, islahatlar kursuna və Azərbaycanda qanunvericilik bazasının daha da təkmilləşdirilməsinə, parlament diplomatiyasının uğurla həyata keçirilməsinə özünəməxsus töhfələr verir.

## Prezident İlham Əliyevin təşəbbüsləri bir çox qlobal problemin həllində əvəzolunmaz rol oynamışdır

Prezident İlham Əliyev böyük nüfuza malik, sözünün imzası qədər dəyəri olan siyasətçidir. O, iştirak etdiyi bütün görüş və tədbirlərin ən arzuolunan qonağıdır. Həmkarları, tanınmış siyasətçilər üçün O, ən maraqlı tərəfdaşlardandır. Serbiya Prezidenti Aleksandar Vuçiçin Azərbaycanın dövlət başçısı haqqında söylədiyi bu fikirləri yenidən xatırlayaq: "Əziz dostum, görürəm ki, indi Siz Avropada çox məşhurlaşmısınız.

Mən Sizinlə əlaqə saxlamaq istəyirəm. Mən onunla dəfələrlə danışmışam. O, Avropada çox məşhurlaşıb. Bu arada bilmirəm, o nə edib, amma etiraf edim ki, bunun sirrini mən də bilmək istərdim".

Azərbaycan Prezidentinə beynəlxalq arenada böyük nüfuz qazandıran, onun dünya liderləri sırasında özünəməxsus yer və rolunu təmin edən səbəblər ilk növbədə cənab İlham Əliyevə xas olan yüksək liderlik keyfiyyətləri ilə əlaqədardır. O, dürüst siyasətçidir, etibarlıdır, cəsarətlidir, təşəbbüskardır. Prezident İlham Əliyev hansı platformada varsa, harada təmsil olunursa, orada uğur qazanacağı heç kəsdə şübhə doğurmur. Onun nüfuzu, təşəbbüsləri bir çox qlobal problemin həllində əvəzolunmaz rol oynamışdır. Biz bunu Azərbaycan Prezidentinin beynəlxalq təşkilatlara sədrliyində də aydın müşahidə etmişik. Gəlin bir də nəzərdən keçirək: Azərbaycan BMT Təhlükəsizlik Şurasına formal xarakterli sədrlik etmədi, Prezident İlham Əliyev bu yüksək kürsüdən beynəlxalq münasibətlər sistemində, o cümlədən BMT-nin özündə mövcud olan qüsurları, problemləri açıq və cəsarətlə qınadı, islahatlara çağırış etdi. Yaxud, bu gün Qoşulmama Hərəkatına üzv olan ölkələrin liderləri də etiraf edirlər ki, Azərbaycan və onun rəhbəri bu təşkilata sədrlik etməyə başlayana qədər Qoşulmama Hərəkatı faktiki olaraq hərəkətsiz, qeyri-effektiv bir qurum təsiri bağışlayırdı. Azərbaycan və onun lideri bu təşkilata ikinci həyat bəxş etdi. Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması təşkilatın institusional inkişafında mühüm rol oynayan hadisələr olmuşdur. Türk dövlətləri arasında birliyin, əməldə həmrəyliyin təmin olunması, müsəlman ölkələri arasında əməkdaşlığın gücləndirilməsi məhz Azərbaycanın və onun liderinin bu təşkilatlarda aktiv fəaliyyətinin nəticələridir.

Azərbaycanın xarici siyasətlə bağlı yanaşmaları kifayət qədər konseptual və uğurludur. Müstəqil, xoşniyyətli, əməkdaşlığı təşviq edən və Azərbaycanın milli maraqlarını qətiyyətlə müdafiə edən siyasət ölkəmizin beynəlxalq münasibətlər sisteminin ən fəal aktorlarından biri olmasını şərtləndirmişdir. Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan nəhəng layihələr ölkəmizin inkişafını təmin etməklə yanaşı, daha geniş geosiyasi məkanda da sülh və əməkdaşlıq mühitinin güclənməsinə xidmət edir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, XXI əsrin ən böyük infrastruktur layihələrindən biri olan "Cənub qaz dəhlizi" kimi nəhəng layihələr Avrasiya məkanında enerji təhlükəsizliyində mühüm rol oynayır. Ölkəmizin enerji resurslarının xarici bazarlara ixrac coğrafiyası ildən-ilə daha da genişlənir, Azərbaycan Avropanın enerji xəritəsini dəyişdirir. Ona görə də Azərbaycan ən etibarlı və dayanıqlı enerji təchizatı mənbəyi və ən etibarlı tərəfdaş hesab olunur. Avropa ölkələri Azərbaycanla əməkdaşlığa can atır, enerji təhlükəsizliklərini təmin etmək üçün ölkəmizə üz tuturlar və Azərbaycanın təşəbbüsləri Avropa üçün həyati əhəmiyyət kəsb edir. Bu məqamda Macarıstanın Baş naziri Viktor Orbanın bu fikrinə istinad etmək yerinə düşür: "Azərbaycan əsas ölkədir, Azərbaycansız biz enerji müstəqilliyinə malik ola bilmərik".

Azərbaycanın qlobal təşəbbüsləri sadəcə enerji sektoru ilə məhdudlaşmır. Açıq dənizə çıxışı olmayan Azərbaycan bu gün qlobal nəqliyyat habına çevrilir, yolları, kommunikasiyaları birləşdirir. "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması, transmilli layihələrin icrası ilə Azərbaycanın beynəlxalq münasibətlər sistemində aktiv rolu durmadan artır.

## Ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır

Prezident İlham Əliyev Azərbaycanın gələcəyi üçün hər zaman böyük işlər düşünür, möhtəşəm planlar qurur. Bir zaman sonra biz Azərbaycanın gündən-günə dəyişən, inkişaf edən mənzərəsi fonunda cənab Prezidentin düşüncələrinin reallığa çevrildiyinin şahidi oluruq. Bir çox dövlətin, hətta dünyanın böyük xalqlarının əsrlərlə əldə edə bilmədiyi nailiyyətləri Azərbaycanın dövlət başçısı səriştəsi və idarəçilik bacarığı sayəsində bir neçə ilə qazanmaq bacarığı nümayiş etdirir. Bəlkə də illər öncə Azərbaycanın məhdud saylı kosmik ölkələr sırasında yer alacağını söyləsəydik, etiraf edək ki, bu, xəyal kimi görünə bilərdi. Bu gün isə Azərbaycan dünya miqyasında ən mötəbər tədbirlərdən biri olan Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edir, dünyanın ən nüfuzlu elm xadimlərini Bakıda bir araya gətirir. Paytaxtımız qlobal gündəmi, trendləri müəyyənləşdirən müasir innovasiyalar məkanı kimi qəbul edilir. Bu, eyni zamanda Azərbaycan dövlətinin rəqabətli insan kapitalı, intellektual cəmiyyət quruculuğu istiqamətində həyata keçirdiyi siyasətin təntənəsidir.

İnsan amili, insan faktoru möhtərəm Prezidentin həyata keçirdiyi siyasətin nüvəsini təşkil edir. Ali kürsüdə fəaliyyətinin ilk anından etibarən "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" deyən möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan siyasət sayəsində ölkənin imkanları genişləndikcə sosial müdafiə tədbirlərinin coğrafiyası da durmadan genişlənir, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlər dönməz xarakter daşıyır. Dövlətimizin başçısının sosial sahəyə xüsusi diqqət və qayğısı, imzaladığı fərman və sərəncamlar, qəbul etdiyi mütərəqqi qərarlar, sosial-dəstək paketləri bütün əhali qruplarının etibarlı sosial müdafiə sistemi ilə əhatə olunmasına şərait yaratmışdır. Bu dövr ərzində müəyyənləşdirilən strateji kursa uyğun olaraq, respublikamızda maaş və pensiyalar dəfələrlə artmış, sosial müdafiə tədbirləri böyük vüsət almış, sosial infrastruktur quruculuğunun əhatə dairəsi genişləndirilmişdir. Əhalinin həssas və xüsusi qayğıya ehtiyacı olan təbəqələri, şəhid ailələri, müharibə iştirakçıları, müharibədə sağlamlığını itirmiş vətəndaşlarımız ən yüksək dövlət qayğısı ilə əhatə olunmuşlar. Hətta qlobal pandemiya dövründə belə Azərbaycanda sosial tədbirlər nəinki ixtisara salınmış, əksinə, bu istiqamətdə həyata keçirilən tədbirlərin miqyası daha da genişlənmiş, vətəndaşların pandemiyadan daha az zərər görməsi üçün dövlət bütün addımları atmışdır.

Əlbəttə, biz ölkəmizdə həyata keçirilən uğurlu sosial müdafiə tədbirlərindən bəhs edərkən ilk növbədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşkilatçılığı ilə həyata keçirilən çoxşaxəli işləri də qeyd etməliyik. Hörmətli Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyəti vətəndaşlara dövlətin diqqəti və qayğısının gücləndirilməsində, cəmiyyətin bütün təbəqələrini əhatə edən uğurlu sosial siyasətin həyata keçirilməsində mühüm amildir. Mehriban xanım Əliyevanın fəaliyyəti ölkəmizin tərəqqisi, ayrı-ayrı sahələrdə mühüm inkişaf göstəricilərinin əldə olunması baxımından böyük əhəmiyyətə malikdir. Onun sosial və humanitar sahələrdə təşəbbüsləri, gördüyü mühüm işlər ölkəmizdə həyata keçirilən sosial müdafiə tədbirlərinin miqyasının genişlənməsində əhəmiyyətli rol oynayır. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun elm, təhsil, mədəniyyət, səhiyyə sahələrinin inkişafına verdiyi əvəzsiz töhfələr, xüsusi qayğıya ehtiyacı olan insanlara əl tutması Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir və hər zaman dəstəklənir.

## Prezident İlham Əliyev qlobal miqyaslı şəxsiyyət, dünyanın ən nüfuzlu liderlərindən biridir

Azərbaycan Şərqlə Qərbin qovşağında yerləşən, əlverişli coğrafi mövqeyə malik olan bir ölkədir. Əlbəttə, respublikamızın geosiyasi qələbələri onun uğurlu coğrafi koordinatlara malik olması ilə rabitəli deyil. Azərbaycan öz liderinin uzaqgörən siyasəti sayəsində əlverişli coğrafi mövqeyini üstünlüyə çevirmiş və bu, Azərbaycanın beynəlxalq mövqeyinə əhəmiyyətli təsir göstərmişdir. Bütün siyasi analitiklərin, ekspertlərin birmənalı mövqeyi ondan ibarətdir ki, cənab İlham Əliyev bu gün nəinki öz xalqının qürur mənbəyi olan böyük rəhbərdir, Azərbaycan Prezidenti həm də qlobal miqyaslı şəxsiyyət, dünyanın ən nüfuzlu liderlərindən biridir. Onun iştirak etdiyi tədbirlər, görüşlər, nitq və çıxışları sadəcə Azərbaycan ictimaiyyəti üçün gündəmi təyin etmir. Dövlətimizin başçısının təşəbbüsləri beynəlxalq ictimaiyyətin də ciddi maraq və müzakirələrinə səbəb olur.

Prezident İlham Əliyev qətiyyətli liderdir. O, beynəlxalq münasibətlər sistemində özünə yer etmiş şantajla, təhdidlə dövlətlərin milli siyasətlərinə təsir göstərməyə vərdişkar olan güc mərkəzlərinə qarşı cəsarətli lider nümunəsi ortaya qoyaraq, milli mənafe və maraqları ən üst səviyyədə müdafiə və təmin etməyə qadir olduğunu nümayiş etdirir. Dövlətimizin başçısı "Heç kəs bizimlə diktat dili ilə danışa bilməz!" nidasına paralel olaraq, "Azərbaycan rəqabət məkanı deyil, əməkdaşlıq məkanıdır", "Azərbaycan maraqları birləşdirən ölkədir" tezislərini irəli sürərək, bizə dost, tərəfdaş kimi müraciət edən hər kəsə qapımızın açıq olduğunu, Azərbaycanı təzyiqlə özlərinin maraqlarına tabe etmək istəyənlərə isə yerlərini göstərir.

## Prezident İlham Əliyev xalqımızın milli-mənəvi dəyərlərinin, mədəniyyətinin böyük hamisidir

Öz milli dəyərlərini qorumaq, onu gələcək nəsillərə ötürmək xüsusilə qloballaşma şəraitində hər bir xalqın qarşısında duran tarixi və taleyüklü vəzifələrdən biridir. Bu, sadəcə xalqların öz tarixi qarşısında mənəvi borcu deyil, eyni zamanda bu günü və gələcək müqəddəratını təyin edən çox mühüm bir missiyadır. Azərbaycan xalqı da qədim və zəngin tarixə, mədəniyyətə, milli-mənəvi dəyərlərə malikdir və əsrlərboyu bu dəyərləri qoruyub inkişaf etdirmişdir. Hətta tarixin müəyyən dövrlərində milli mədəniyyətimizə, mənəvi dəyərlərimizə qarşı repressiv münasibət olsa da, Azərbaycan xalqı böyüklük göstərərək, öz dəyərlərinə, milli mədəniyyətinə sahib çıxmış, onu qorumuş və bu günümüzə qədər yaşatmışdır. Bu gün isə Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası bu milli dəyərlər üzərində uğurla inkişaf edir. Prezident İlham Əliyev xalqımızın milli-mənəvi dəyərlərinin, mədəniyyətinin də böyük hamisidir. Dövlət başçısı hər zaman Azərbaycanın öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurduğunu, ənənəvi dəyərlərin bizim üçün ən böyük sərvət olduğunu bəyan edir. O, hər zaman ölkəmizin gələcəyi olan gənclərin də milli ruhda tərbiyə olunmasının, onların milli-mənəvi dəyərlərə bağlılığının vacibliyini ifadə edir.

Tolerantlıq, multikulturalizm bizim milli-mənəvi, ənənəvi dəyərlərimizin ayrılmaz tərkib hissəsidir. Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlərboyu ölkəmizdə bütün dinlərin, etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan eyni zamanda dünyada bu dəyərləri ən fəal təbliğ edən dövlətlərin sırasında öncül yerlərdə dayanır. Qlobal humanitar forumlar, dinlərarası dialoqa xidmət edən mühüm tədbirlər ölkəmizdə keçirilir.

Dövlət başçısı Azərbaycanın çoxkonfessiyalı, çoxmillətli bir ölkə olmasını, dini və etnik müxtəlifliyimizi xalqımızın böyük sərvəti kimi təqdim edərək, ölkəmizin uğurlu inkişafının, sabitliyinin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında tolerantlıq və multikultural dəyərlərin dayandığını bəyan edir. Azərbaycan öz tarixi torpaqlarını işğaldan azad etdikdən sonra dövlətimizin və xalqımızın davranışlarında bu dəyərlər növbəti dəfə təcəssümünü tapır. Azərbaycan dövləti Qarabağın erməni əhalisinin reinteqrasiyası ilə bağlı öz baxışlarını təqdim etmiş və bəyan etmişdir ki, onların dini, təhsil, mədəni hüquqları beynəlxalq konvensiyalara uyğun olaraq həll ediləcək.

## Adını xalqımızın tarixinə parlaq hərflərlə yazdırmış müzəffər sərkərdə, qalib Ali Baş Komandan

Cənab Prezident İlham Əliyev adını xalqımızın tarixinə parlaq hərflərlə yazdırmış müzəffər sərkərdə, qalib Ali Baş Komandandır. O, Azərbaycan xalqının Vətən və yurd həsrətinə son qoymuş, onun arzularını gerçəkliyə çevirmişdir. Möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan hərbçilərinin, Silahlı Qüvvələrimizin şücaəti sayəsində Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığı zəfər, torpaqlarımızın işğaldan azad olunması xalqımızın, dövlətimizin çoxəsrlik tarixində ən şərəfli hadisələrdən biri olmuşdur. Bu qələbə sayəsində Azərbaycan tarixi ədaləti bərpa etmiş, BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın kağız üzərində qalan qətnamələrini öz gücü, qüdrəti hesabına həyata keçirmişdir. Bu qələbə "Qarabağ Azərbaycandır və nida" deyərək bütün dünyaya Qarabağın əsl sahiblərinin kim olduğunu bəyan edən Ali Baş Komandanın gərgin zəhmətinin, cəsarətinin nəticəsidir. O, Şuşada, Laçında və işğaldan azad olunan digər şəhər və rayonlarımızda üçrəngli bayrağımızı dalğalandıraraq, Ulu Öndər Heydər Əliyevin vəsiyyətini də yerinə yetirmişdir.

Vətən müharibəsi dövründə Azərbaycan xalqı, o cümlədən beynəlxalq ictimaiyyət möhtərəm Prezident İlham Əliyevin yüksək sərkərdəlik məharəti ilə yanaşı, onun ali diplomatik keyfiyyətlərinin də bir daha şahidi olmuşdur. Azərbaycan Prezidenti müharibə dövründə onlarca xarici media orqanına verdiyi müsahibələrdə baş verənlərin ən müxtəlif nüanslarına işıq tutmuş, regionda yeni geosiyasətin konturlarını diqqətə çatdırmışdır.

Azərbaycan dövlətinə qarşı təhdidlərə son qoymaq üçün Ali Baş Komandanın rəhbərliyi ilə bu il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri də hərb tariximizin yeni şanlı səhifəsini təşkil etmişdir. Bu tədbirlər nəticəsində Azərbaycan ərazisində qalan qanunsuz Ermənistan silahlı birləşmələri və terrorçu qruplar darmadağın edilmiş, Ermənistanın dəstəyi ilə yaradılan kriminal xunta rejiminin fəaliyyətinə son qoyulmuş, Azərbaycanın suverenliyi onun bütün ərazisində bərpa edilmişdir.

Hazırda isə Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələ, yeni bir dövr başlamışdır. Azərbaycan dövləti 30 illik işğal dövründə tamamilə dağıdılan, talan olunan yurdlarımızın, şəhər və rayonlarımızın ən yüksək səviyyədə yenidən qurulması, orada həyatın bərpa olunması, məcburi köçkünlərin öz torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıtması üçün bütün imkanları səfərbər etmişdir. Həmin ərazilərdə ən müasir şəhərsalma nümunələri, texnologiyaları tətbiq etməklə, "ağıllı şəhər" və "ağıllı kənd"lər inşa olunur. Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımız Vətən müharibəsində və antiterror tədbirlərində göstərdiyi hünərləri Qarabağda və Şərqi Zəngəzurda geniş vüsət alan bərpa və quruculuq işlərində də nümayiş etdirir. Prezident İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva mütəmadi olaraq həmin ərazilərə səfərlər edir, həyata keçirilən işlərə birbaşa özləri nəzarət edirlər.

*Xatırlayırsınızsa, Prezident İlham Əliyev seçkilərdə əldə etdiyi parlaq qələbədən sonra "Mən hər bir azərbaycanlının prezidenti olacağam", "Mən yaxşı prezident olacağam" deyə xalqımıza vəd vermişdi. Bu gün biz müasir, qüdrətli Azərbaycanın, onun liderinin timsalında dövlətimizin başçısının bütün digər vədləri kimi, bu vədinin də həyatda əksini tapdığını aydın şəkildə görürük. Hər bir azərbaycanlının qürur duyduğu, fəxr etdiyi ən yaxşılardan yaxşısı olan LİDERi, Prezidenti var. O, nəyi necə, nə vaxt etmək lazımdır, bunu hər kəsdən yaxşı bilir, bütün məsələlər dövlətimizin başçısının iradəsi ilə zamanında həllini tapır. Və xalqımız öz liderinin ətrafında bir yumruq kimi birləşərək qələbələrinin sırasına yeni qələbələr yazdırır.*

**Sahibə QAFAROVA,**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

# Siyasətin zirvəsində



**Bu gün Prezident İlham Əliyevin Azərbaycan Respublikasının rəhbəri seçilməsindən 20 il keçir. 2003-cü il oktyabrın 15-də Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi, cənab İlham Əliyev xalqımızın etimadını qazanaraq Azərbaycan Prezidenti seçildi və bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başlandı. Azərbaycan İlham Əliyevin liderliyi ilə hazırda da möhtəşəm uğurlara imza atır və dünyanın ən nüfuzlu dövlətlərindən birinə çevrilməkdədir.**

1993-cü ilin ortalarında - Heydər Əliyev siyasi rəhbərliyə qayıtdığı dövrdə dövlət müstəqilliyini itirmək, parçalanmaq təhlükəsi ilə üzbəüz olan müstəqil Azərbaycan Respublikası Ulu Öndərin zəngin idarəetmə təcrübəsi və qətiyyəti sayəsində yeni inkişaf yoluna qədəm qoydu. Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə onun layiqli varisi İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə onu özünə rəhbər seçdi. Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Xalqın öz liderinə inam və etimadı görülməmiş dərəcədə artdı.

Hər zaman xalqın dəstəyini alan ölkə rəhbəri vətəndaş cəmiyyəti institutlarının inkişafının qarantı oldu. Ölkədəki siyasi mühitin sağlamlaşdırılması istiqamətində vacib olan bir sıra mühüm addımlar atıldı. 2018-ci ilin aprelində xalqın təkrarən yüksək etimadını qazanaraq ölkə Prezidenti seçilmiş cənab İlham Əliyev dəyişikliklərin anonsunu verdi. Qısa müddət ərzində ölkəmizdə genişmiqyaslı islahatlara start verildi. Təbii ki, aparılan islahatların əsas məqsədi Azərbaycanı daha qüdrətli dövlətə çevirmək, ölkəmizin inkişafını, xalqın sosial rifahını təmin etmək idi. Qısa müddət ərzində görülən işlər öz effektini verdi, bütün dövrlərdə korrupsiyaya qarşı mübarizə aparmış dövlət başçısının göstərişi ilə bu kimi cinayətkar əməllərə yol verən vəzifəli şəxslər cəzalandırıldı, bütün dövlət orqanlarında şəffaflıq bərqərar edildi. Rüşvət və bu qəbildən olan cinayət əməllərinə yol vermiş şəxslər cəzalandırıldı.

Habelə siyasi mühitin daha da sağlamlaşdırılması istiqamətində atılan addımlar çərçivəsində müxalif partiyalarla siyasi dialoq quruldu. Mütəmadi olaraq görüşlər keçirildi, azad və demokratik şəkildə inkişafa şərait yaradıldı. Ölkə Prezidentinin apardığı islahatlara uyğun olaraq yeni çağırışlara cavab verən Milli Məclisin formalaşması vacib məsələlərdən birinə çevrildi. Parlament növbədənkənar seçkiyə getdi və VI çağırış Milli Məclis formalaşaraq öz işinə başladı. Bu çağırış parlament özündən əvvəlkilərdən bir sıra mühüm əlamətləri ilə fərqləndi. Yeni parlamentdə ilk dəfə olaraq müxalif partiyaların nümayəndələri vitse-spiker, komitə sədri və digər yüksək postlara seçildi. Bu isə yaradılmış dialoqun ən uğurlu nəticələrindən biri idi.

Parlamentin ilk iclasında Prezidentin tövsiyə xarakterli nitqində Milli Məclisin qarşısında duran vəzifələr bəyan edildi. Yol xəritəsi olaraq müəyyən edilmiş bu çıxışdan sonra Milli Məclis öz fəaliyyətini qeyd olunan işlər istiqamətində daha da təkmilləşdirdi. Bu gün də Milli Məclisin rəhbərliyi və deputat həmkarlarımla birlikdə müəyyən edilmiş bu siyasi xətt üzrə Azərbaycan parlamenti üzərinə düşən vəzifələrin öhdəsindən gəlməkdədir.

Habelə yaradılmış siyasi dialoqun zirvəsinin biz İkinci Qarabağ müharibəsində və ondan sonrakı proseslərdə şahidi olduq. Belə ki, erməni təcavüzü, günahsız şəxslərin ölümü, habelə erməni yalanlarına qarşı mübarizədə ölkəmizdəki partiyalar dövlət başçısının ətrafında birləşərək, vahid bəyanatla çıxış etdilər.

Əsrə bərabər 20 ilin zirvəsində, təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsindəki qəti qələbəmiz və son antiterror tədbirləri nəticəsində erməni separatçılarının tam tərk-silah edilməsi, onların nəzarətində olan Xankəndi, Əsgəran, Ağdərə, Xocavənd şəhərlərinin azad edilməsi və əli Azərbaycan xalqının qanına batmış terrorçu liderlərin həbs olunaraq Bakıya gətirilməsi dayanır. Mübaliğəsiz demək olar ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız müzəffər xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni geostrateji reallıqlar yarandı.

Tarixə nəzər salsaq, görərik ki, ötən son 20 ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində nə qədər ardıcıl tədbirlər görülüb. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer alıb. Məhz bu ordu öz Ali Baş Komandanının qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşını başladı və dünyanı heyrətə salan hərbi uğurlara imza atdı. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın fəthi tariximizə Zəfər Günü kimi yazıldı. İki gün sonra isə işğalçı Ermənistan təslimolma sənədinə imza atmağa məcbur oldu. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi.

Dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir keyfiyyətini - sərkərdəlik məharətini üzə çıxardı. O, əməliyyatlara şəxsən nəzarət edir, döyüşən orduya tapşırıqları birbaşa özü verirdi. 44 gün davam edən və tarixi Zəfərimizlə başa çatan Vətən müharibəsində Müzəffər Ali Baş Komandan bütün cəbhələrdə mübarizəni tam və çevik aparırdı. Müharibənin gedişini birbaşa qərargahdan izləməklə bərabər, dünya mətbu orqanlarına müsahibələr verir, beynəlxalq ictimaiyyəti baş verənlərdən şəxsən xəbərdar edirdi. Məhz dövlət başçısının diplomatik gedişatları və xarici mətbuat orqanlarına verdiyi müsahibələri nəticəsində erməni təbliğat maşınının uydurduğu yalanların qarşısı alındı. Azərbaycanın haqq savaşı barədə ölkənin birinci şəxsinin dilindən eşidilən xəbərlər dünyaya həqiqətlərimizin çatdırılmasında güclü rol oynadı.

Bu dövrdə xalqı hər an atılan addımlar, müharibənin gedişatı barədə xəbərdar edən dövlət başçısı xalqın gücünü və dəstəyini tam şəkildə topladı. Övladını şəhid verən anaların nə olursa olsun, yetər ki, torpaqlarımız azad olunsun, deyə duaları da reallaşdı. Məhz yaralı hərbçilərimizin döyüş əməliyyatlarına qayıtmaq üçün xəstəxanaları tərk etməsi, xalqımızın cəbhəyə verdiyi dəstək, ölkəmizdə və xaricdə yaşayan azərbaycanlıların informasiya müharibəsində göstərdiyi əzm Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarının təsiri altında baş verdi.

Hər birimiz cənab Prezidentin hər gün paylaşdığı tvitləri, xəbərləri böyük intizarla gözləyirdik. Azərbaycan Ordusunun irəliləməsi, uzun illər düşmən təcavüzündə qalan ərazilərimizin işğaldan azad edilməsi şanlı tariximizə qızıl hərflərlə düşdü.

Ermənistan beynəlxalq hüququn tələblərini pozaraq, konvensiyaları tapdalayaraq Gəncəyə, Mingəçevirə, Bərdəyə və ayrı-ayrı rayon və şəhərlərimizə, mülki əhalinin yaşadığı infrastrukturlara zərbələr endirərkən məhz Prezident İlham Əliyev növbəti dəfə xalqa səsləndi, bütün günahkarların tutularaq cəzalandırılacağını bildirdi. Biz artıq qələbədən 3 il sonra da bu prosesin davam etməsinin şahidi oluruq. Günahkarlar tutularaq hüquq-mühafizə orqanları tərəfindən məsuliyyətə cəlb edilir və qanun qarşısında cavab verirlər.

Bu gün ölkəmiz yalnız regionun deyil, eləcə də dünyanın ən güclü dövlətlərindən biridir. İstər iqtisadi, istər siyasi, istərsə də uğurlu idarəçilik modelinin tətbiqində Azərbaycan fenomeni dünyada öz sözünü deməkdədir.

Əlbəttə, Vətən müharibəsində qazanılmış Qələbə həm də son 30 ildə həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. İlk növbədə, güclü və qüdrətli dövlət yaratmaq lazım gəlirdi və bu oldu. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Ötən 20 il ərzində ölkə rəhbəri xalqa verdiyi bütün vədləri yerinə yetirib.

Bu müddət ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafı müşahidə edilib, insanların sosial rifah halı daha da yaxşılaşıb, siyasi və hərbi reytinqimiz bütün dünyada nəzərəçarpacaq dərəcədə artıb. Təkcə iqtisadi və sosial sahədə qazanılmış bir neçə göstəricini diqqətə çatdırmaqla ötən 20 ildə ölkə iqtisadiyyatının nə qədər artdığını qeyd etmək olar. Belə ki, yoxsulluğun minimuma endirilməsini, 2 milyondan çox yeni iş yerinin açılmasını, əməkhaqları və pensiyaların dəfələrlə artırılmasını, hər şeydən öncə, azad edilən Qarabağ və Şərqi Zəngəzur torpaqlarında abadlıq-quruculuq işlərinin fövqəladə sürətlə aparıldığını qeyd etmək kifayətdir. Bu ərazilərdə yeni yollar çəkilir, elektrik stansiyaları tikilir. Prezident İlham Əliyev azad edilmiş rayonlara çoxsaylı səfərləri zamanı strateji infrastruktur obyektlərinin açılışını edir, yenilərinin təməlini qoyur. Füzuli beynəlxalq aeroportu artıq təyyarələri qəbul edir, Şuşaya gedən Zəfər yolunun tikintisi tamamlanıb. Ağdam və Cəbrayıl şəhərlərinin bərpasının təməli qoyulub. Dövlət başçımız vurğulayırdı ki, Qarabağ tezliklə cənnətə çevriləcək, keçmiş məcburi köçkünlər maksimum qısa müddətdə doğma yurdlarına qayıdacaqlar. İndi bu proses sürətlə aparılır.

Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir sıra transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, həmçinin etibarlı tərəfdaş kimi tanınır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran "Cənub qaz dəhlizi", TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri... ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib.

Ötən dövrdə Azərbaycanda bütün sahələrin inkişaf etməsi ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşayiət olunub. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb. Ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına uğurla sədrlik edir. Təşkilata sədrlik müddətinin daha bir il artırılması Prezident İlham Əliyevin qlobal liderlik səylərinə verilən yüksək qiymətdir.

Beləliklə, ötən 20 ildə Azərbaycan xalqı həmişə öz liderinə güvənib və inanıb, ona arxa və dayaq olub. Prezidentimiz həmişə böyük fəxrlə qeyd edir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Bu qarşılıqlı etimadın nəticəsidir ki, Prezident İlham Əliyev Azərbaycan xalqının ürəyini fəth etməyi, özünə əbədi hörmət qazanmağı və verdiyi qərarlar, atdığı misligörünməmiş addımları ilə Vətənini dünyanın sayılıb-seçilən məmləkətlərindən birinə çevirməyi bacarmışdır. Tam əminliklə demək olar ki, dövlət başçısı kimi cənab İlham Əliyevin qərarlarının ölkəmizi bundan sonra da öz arxasınca zirvədən zirvəyə, qələbədən qələbəyə aparacağı heç kəsdə şübhə doğurmur.

Bu gün istər iqtisadi, istər siyasi, istərsə də uğurlu idarəçilik modelinin tətbiqində Azərbaycan fenomeni dünyada öz sözünü deməkdədir.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdaraq, ölkənin parçalanmasının qarşısını alması, baş verən siyasi hərc-mərcliyə son qoyması ilə ölkəmiz inkişaf yoluna qədəm qoydu. Məhz 1993-cü ildə Ümummilli Liderin əsasını qoyduğu müstəqil Azərbaycanın uğurlu inkişafı özü ilə gətirəcəyi xoş günlərin anonsunu verdi. Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət Azərbaycanı bugünkü qüdrətinə çatdırdı.

20 il bundan əvvəl Ulu Öndər xalqımıza səslənərək qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, siyasi varisi, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırdı. Heydər Əliyev İlham Əliyevin siyasi konturlarını müəyyən edərək, yüksəkintellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyət olmasını qeyd etdi. Müraciətin davamında həm də Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görüləcəyini bildirdi.

Ulu Öndərin bu çağırışını Azərbaycan xalqı qəbul edərək, seçkilərdə öz gələcək liderini seçdi. Hansı ki, bu lider xalqımızın taleyüklü məsələlərinin həllində bir daha öz mövqeyini göstərdi. Ümummilli Liderin xalqa müraciətində qeyd etdiyi axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, işləri başa çatdırdı. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyən Ulu Öndərin bu sözləri reallıqda əksini tapdı.

Prezident İlham Əliyev xalqın sevgisini və dəstəyini qazanaraq, bizi dünyanın nüfuzlu dövlətlərindən birinə çevirdi. Uzun illər həllini tapmamış münaqişəni qısa müddət ərzində - 44 gündə həll etdi və bizi rəhbərlik etdiyi rəşadətli ordusu ilə bərabər Qələbədən Qələbəyə apardı. Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış bu Zəfər həm də xalqımızın qəhrəmanlıq salnaməsinə çevrildi. Məhz cənab Prezidentin "Dəmir yumruğ"u hesabına tarixi torpaqlarımız düşmən işğalından azad edildi. Beynəlxalq siyasətin mahir bilicisi olan Prezident İlham Əliyev Qarabağdakı münaqişənin sülh yolu ilə həll edilməsi məqsədilə ATƏT-dən mandat almış vasitəçilərin münaqişənin həllindən yayınmasını müəyyənləşdirdi. Tərəfləri sülhə dəvət edən vasitəçilərdən konkret nəticəyönümlü addımların atılmasını tələb edərək, münaqişənin həllinin qeyri-müəyyən tarixə təxirə salınmasının qarşısını aldı.

Azərbaycan Ordusunun tarixi Zəfəri ilə bitən Vətən müharibəsi dövlət başçısının ordu quruculuğuna ayırdığı yüksək diqqət və qayğının nəticəsi idi. Azərbaycan Ordusunun arsenalının müasir silahlarla gücləndirilməsinin, şəxsi heyətin yüksək döyüş hazırlığında yetişməsi istiqamətində atılan məqsədyönlü addımların bəhrəsini gördük. Ordumuzun göstərdiyi şücaətin əsasında isə onların Vətənə, millətə və xalqa olan bağlılıqları dayanırdı.

20 illik prezidentlik dövründə İlham Əliyev saysız-hesabsız nailiyyətlərə imza atıb. Bu nailiyyətlər siyasi, diplomatik, iqtisadi, hərbi, sosial, mədəni, idman sahələri də daxil olmaqla həyatın bütün sahələrində özünü parlaq şəkildə təzahür etdirir. Bu nailiyyətlər sırasında ölkəmizdə qaçqın və məcburi köçkünlərə 30 ilə yaxın bir dövr ərzində göstərilən qayğı xüsusi qeyd edilməlidir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, sosial siyasət Azərbaycanın dövlət siyasətinin ayrılmaz hissəsidir: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır".

Bu nailiyyətlərin, bu sahələrin hər biri ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyır. Bununla yanaşı, 44 günlük Vətən müharibəsində qazandığımız böyük zəfər, torpaqlarımızın işğaldan azad edilməsi Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü siyasətin və ümumiyyətlə, tariximizin ən böyük, misilsiz qələbəsidir, uğurudur. Bu zəfər cəbhədə, hərbi əməliyyatlar zonasında 44 gün ərzində əldə edilsə də, ona gedən yol uzun illərin ağır zəhməti, mürəkkəb çağırışları və çətin mübarizəsi ilə doludur. Bu mübarizə hərbi, iqtisadi, siyasi sahələrdən savayı beynəlxalq səviyyədə aparılan gərgin və uzaqgörən diplomatiya, mürəkkəb xarici siyasət və xaricdən, müxtəlif güc mərkəzlərindən edilən təzyiqlərə mətanətlə sinə gərmək hesabına başa gəlmişdir.

24 saatdan az müddətdə həyata keçirilmiş lokal xarakterli antiterror tədbirlərinin uğurla həyata keçirilməsi ilə suverenliyimiz tam bərqərar edildi. Buna görə dünyanın müxtəlif güc mərkəzlərindən Azərbaycana qarşı mütəşəkkil təzyiq və qarayaxma kampaniyaları aparılmış və hazırda da aparılmaqdadır. Amma Prezident İlham Əliyevin yürütdüyü müdrik siyasət bütün bu düşmən hərəkətlərini və anti-Azərbaycan kampaniyalarını uğursuzluğa düçar etmişdir.

Gənclər sahəsi xüsusilə Prezident İlham Əliyevin gündəliyində olan bir mövzudur. Azərbaycan gəncliyi ilə bağlı dövlət proqramları, gənclərin inkişaf strategiyası, eləcə də xaricdə təhsil almaları ilə bağlı müxtəlif dövlət proqramları qəbul edilərək uğurla icra edilir. Həmin siyasət nəticəsində ölkəmizdə gənclərlə iş sahəsində ciddi keyfiyyət dəyişiklikləri əldə edilib, gənclərin ictimai həyatda rolu önəmli dərəcədə artıb.

Gənclər sahəsində aparılan genişmiqyaslı fəaliyyətlərdən biri də dövlət başçısı tərəfindən Gənclər Fondunun təsis edilməsidir. Eləcə də, "Gənclər siyasəti haqqında", "Könüllü fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir.

"2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" təsdiq edilmişdir. Hər il 10 nəfər gəncimizə dövlət başçısı tərəfindən fərdi təqaüd verilir. Gənclərin ictimai həyatda iştirakını təmin etmək məqsədilə gənclər mərkəzləri, gənclər evləri, olimpiya idman mərkəzləri fəaliyyət göstərir.

Gənclərin təhsili prioritet təşkil edən məsələdir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də rəhbər tutulmuş 5 əsas müddəadan biri də rəqabətli insan kapitalıdır. Bu, Prezident İlham Əliyevin neft kapitalının insan kapitalına çevrilməsi kimi xarakterizə etdiyi proses çərçivəsində baş verir və nəticədə gənclər dünyanın müxtəlif nüfuzlu ali təhsil müəssisələrində aparıcı ixtisaslar üzrə təhsil alırlar.

Gənclər də öz növbəsində dövlətin onlar üçün yaratdığı imkanlardan səmərəli istifadə edirlər. Azərbaycan gəncliyi istər Vətən müharibəsində, istərsə də ondan sonrakı dövrdə üzərinə düşən tarixi vəzifələrin öhdəsindən layiqincə gəlmişdir.

Cənab Prezident hakimiyyətinin ilk illərindən məhz təhsil siyasətinə böyük dəstək verərək, neft kapitalının insan kapitalına çevrilməsi məqsədilə bütün imkanları səfərbər etdi. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na əsasən gənclərin xarici ölkələrdə təhsil alması məqsədilə bütün xərclər dövlət tərəfindən qarşılandı. Proqramın məzunu olan gənclər bu gün geri dönərək ölkəmizə xidmət etməkdədirlər, eləcə də xarici ölkələrdə yaşayanlar diaspor fəaliyyətimizə böyük dəstək verməklə, həqiqətlərimizin dünyaya çatdırılmasına səfərbər olub, ölkəmizi ən yaxşı səviyyədə təmsil edirlər. Bu dövlət proqramından sonra "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması", daha sonra "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün" Dövlət proqramları qəbul edildi. Nəticədə bu gün gənclərimiz dünyanın ən nüfuzlu təhsil müəssisələrində dövlət hesabına təhsil alır, elm, bilik və bacarıqlarını artırırlar.

Prezident İlham Əliyevin idmana olan marağı xalqımız tərəfindən xüsusi rəğbətlə qarşılanır. Ölkəmizdə idmana diqqət onun 1997-ci ildə Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsi ilə geniş vüsət almışdır. 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən hər il 5 mart tarixi ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd edilir. Dövlət başçısı tərəfindən idmana göstərilən yüksək diqqət və qayğı nəticəsində Azərbaycan dünyada idman ölkəsi olaraq tanınır. İstər idmançılarımızın qazandığı nailiyyətlər, istərsə də nüfuzlu idman yarışlarının ölkəmizdə yüksək səviyyədə keçirilməsi Azərbaycanda idmana verilən dəyərin əyani təcəssümüdür. Ölkəmiz I Avropa Oyunlarına, İslam Həmrəyliyi Oyunları kimi mötəbər olimpiadalara evsahibliyi edib. Formula-1 kimi beynəlxalq yarışın, ayrı-ayrı dünya çempionatlarının və birinciliklərin Azərbaycanda keçirilməsi dünyada idmanı ölkəmizin brendlərindən biri edir. İstər idman, istərsə də mədəniyyət tədbirlərinin yüksək səviyyədə təşkili ölkəmizin tanınması baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Oktyabrın 13-də Bişkekdə keçirilən Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında dövlət başçısının ölkəmizin 2025-ci ildə üçüncü MDB Oyunlarının keçirilməsi üzrə namizədliyini dəstəklənməsini qeyd etməsi onu deməyə əsas verir ki, ölkəmiz növbəti dəfə vacib bir tədbirə evsahibliyi edəcəkdir. Şübhəsiz ki, tədbir yüksək səviyyədə təşkil edilərək nailiyyətlərinin sırasına birini də əlavə edəcəkdir.

Gənclər siyasətindən danışarkən könüllülər hərəkatının inkişafını və geniş vüsət almasını qeyd etməmək olmaz. Gənclər arasında könüllülük fəaliyyətinin təbliği və yayılması onlarda humanizm və digər mənəvi dəyərləri gücləndirir. Bu fəaliyyət əmək bazarına yeni çıxan gənclərə çox vacib bir təcrübə də qazandırır. Könüllülər ölkəmizdə keçirilən beynəlxalq tədbirlərə, o cümlədən idman və musiqi yarışlarına mühüm töhfə veriblər.

Azərbaycanda nümunəvi multikulturalizm siyasətinin nəticəsidir ki, hərbçilərimiz Vətən müharibəsi dövründə ermənilərə, onların müqəddəs yerlərinə, qəbirlərinə və dini abidələrinə münasibətdə ləyaqətlə davranıblar. Prezident İlham Əliyev qeyd edir ki, Ermənistandan fərqli olaraq "Azərbaycan Ordusu bütün müharibə dövründə müharibə qanunlarına əməl edərək müharibəni ləyaqətlə apardı". Prezident onu da bildirir ki, Azərbaycan başqa cür davrana bilməzdi, çünki "bu, ümumiyyətlə, Azərbaycan xalqının xarakterinə ziddir". Azərbaycan xalqının xarakteri ölkədə yürüdülən gənclər siyasətinin ideoloji təməlində duran, ümumbəşəri dəyərlərə hörmət bəsləyən Azərbaycançılıq məfkurəsi ilə bağlıdır. Multikulturalizm siyasəti də öz növbəsində Azərbaycançılıq məfkurəsinə xidmət edir. Azərbaycançılıq məfkurəsi din, dil, etnik və digər mənsubiyyətindən asılı olmayaraq bütün soydaşlarımızın ümumi vətəni olan Azərbaycan dövlətinə bağlılığını özündə ehtiva edir. Multikulturalizm siyasəti də bu bağlılığın möhkəmlənməsinə yönəlmişdir. Ona görə də Azərbaycançılıq vətənpərvərliyin Azərbaycan nümunəsi kimi də səciyyələndirilə bilər və bu vətənpərvərlik nümunəsi Vətən müharibəsində, xüsusən də Şuşa döyüşündə öz təcəssümünün zirvəsinə çatdı.

**Bu qeydlər ona dəlalət edir ki, Azərbaycanda gənclər siyasətinin Heydər Əliyev tərəfindən 1997-ci ildə 2 Fevral Gənclər Gününün təsis edilməsi ilə başlayan epoxası ideoloji baxımdan Azərbaycançılıq məfkurəsinə əsaslanmışdır. Belə ideoloji təməl üzərində qurulmuş gənclər siyasətimizin qarşıdan gələn dövrdə əsas vəzifələrindən biri Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində orta güc konsepsiyası ilə xarakterizə edilən dövlət kimi oturuşmasında gənclərimizin rolunun gücləndirilməsinə xidmət etməkdir.**

**Adil ƏLİYEV,**
*Milli Məclis Sədrinin müavini*




# Müasir, bütöv Azərbaycanın qurucusu

**Azərbaycanın müstəqil dövlət kimi inkişafının ən çətin dövrü Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə müstəqilliyinin üçüncü ilini yaşayan Azərbaycan Respublikasının mövcudluğu böyük təhlükə altında idi və hər kəs bunu anlayırdı. Məhz belə bir dövrdə Ümummilli Lider Heydər Əliyevin xalqın ümid dolu çağırışı ilə Azərbaycan Respublikasının rəhbərliyinə gəlməsi və həyata keçirdiyi təxirəsalınmaz tədbirlər bu təhlükənin qarşısını aldı. Amma iqtisadiyyatı tamamilə dağıdılmış, talan edilmiş ölkəni ayağa qaldırmaq üçün hələ çox iş görülməli idi. İqtisadi tənəzzülün qarşısı alınmalı, inkişafın əsası yaradılmalıydı. Bununla yanaşı, ölkənin siyasi və hərbi təhlükəsizliyi də təmin edilməli idi.**

Həmin dövrdə yeni neft strategiyasının hazırlanması və xarici sərmayələrin neft sənayesinin inkişafına cəlb edilməsi ölkəmizin gələcək inkişafı və siyasi-iqtisadi müstəqilliyi üçün olduqca əhəmiyyətli bir məsələ idi. Ona görə də 4 oktyabr 1993-cü ildə keçirilən prezident seçkilərində seçicilərin 98 faizdən çoxunun səsini qazanaraq Prezident seçilən Heydər Əliyev milli təhlükəsizliyi və iqtisadi inkişafı təmin etmək məqsədilə qısa müddət ərzində yeni neft strategiyasının hazırlanmasını və gerçəkləşdirilməsini prioritet məsələ kimi müəyyən etdi. Bu məqsədlə xarici ölkələrin neft şirkətləri ilə əlverişli şərtlərlə ölkə iqtisadiyyatına xarici sərmayə qoyuluşuna nail olmaq üçün danışıqlar aparılmalı idi. Danışıqlar zamanı ölkənin milli maraqları tam təmin edilməli idi. Lakin Azərbaycan Respublikasının 1993-1994-cü illərdəki siyasi və iqtisadi vəziyyəti bunun üçün əlverişli deyildi. Burada bərabərhüquqlu tərəf kimi danışıqlarda uğur qazanmağın yeganə vasitələri peşəkar diplomatiya və siyasi nüfuz idi. Ümummilli Lider Heydər Əliyevin dünyada siyasi lider kimi kifayət qədər tanınması və böyük nüfuza malik olması, onun danışıqlarda uğur qazanmaq məharəti həlledici amillər idi. Ölkədəki siyasi vəziyyət onun uzun müddət xarici ölkələrə danışıqlara getməsinə imkan vermirdi. Dövlət üçün belə bir mühüm taleyüklü məsələnin həllində milli maraqlara sadiq və kifayət qədər səriştəli diplomata ehtiyac var idi. Bu məqamda bu böyük məsuliyyəti bütün ağırlığı ilə çiyinlərində şərəflə daşıya biləcək siyasətçi kimi seçim İlham Əliyevin üzərində oldu. İlham Əliyev 1994-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin əvvəlcə vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti vəzifəsində çalışırdı.

Dünyanın neft sənayesinin nəhəng şirkətləri ilə əlverişli sazişlərin imzanlanması istiqamətində aparılan danışıqlarda İlham Əliyevin Azərbaycan Respublikasının milli maraqlarına xidmət edən qərarların qəbul edilməsinə nail olması onun həm də mahir diplomat olduğunu göstərdi. Çünki həmin dövrdə Azərbaycana qarşı çox ciddi təzyiqlər var idi. Hətta bir neçə dəfə dövlət çevrilişinə və Prezident Heydər Əliyevin həyatına sui-qəsd cəhdləri də olmuşdu. Amma bütün bunlara baxmayaraq, siyasi iradə nümayiş etdirən Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə işləyib hazırladığı, Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsini, xalqın təhlükəsiz və firavan həyatını təmin edəcək neft strategiyası 1994-cü il sentyabrın 20-də tarixi "Əsrin müqaviləsi" ilə nəticələndi. Bu hadisə təkcə iqtisadi əhəmiyyət daşımırdı, həm də mühüm siyasi əhəmiyyətə malik idi və müstəqil dövlətin siyasi, iqtisadi və informasiya blokadasından çıxarılması baxımından son dərəcə zəruri və tarixi hadisə idi. Bu tarixi hadisə Azərbaycanın müstəqil siyasət yürüdəcək bir dövlət kimi dünyaya çıxışının qarşısını almağa çalışan qüvvələrin məkrli planlarını alt-üst etdi.

Prezident İlham Əliyevin iştirakı ilə 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. Azərbaycanın iqtisadi siyasətinin ən böyük uğurlarından sayılan BTC ölkəmizin Avrasiya regionundakı mövqeyini xeyli dərəcədə gücləndirdi və Cənubi Qafqazın liderinə çevirdi. Çünki BTC mühüm texniki-iqtisadi əhəmiyyətə malik olmaqla yanaşı, həm də böyük siyasi məzmun kəsb edirdi. Belə ki, bu kəmər dünya dövlətləri ilə Azərbaycanın yeni münasibətlərinin qurulmasına təkan verərək ölkəmizin xarici siyasətinin güclənməsinə və təsir dairəsinin genişlənməsinə gerçək zəmin yaratdı.

Azərbaycanın müstəqilliyini həzm edə bilməyən xarici dairələr ölkə daxilində milli maraqlardan deyil, şəxsi maraqlardan çıxış edən hakimiyyət hərislərinə və onların vasitəsilə baş verən hadisələrin mahiyyətini kifayət qədər düzgün qavraya bilməyən müəyyən qrup insanlara maliyyə dəstəyi göstərərək öz planlarını həyata keçirmək üçün əlverişli şəraitin yaranmasını gözləyirdi. Belə bir imkan kimi 2003-cü ildə baş tutacaq prezident seçkiləri nəzərdən keçirilirdi. Amma demokratik seçkilərdə qalib gəlmək imkanlarının olmadığını anlayan bəzi "qüvvələr" ictimai-siyasi sabitliyi pozaraq qarışıqlıq, çaşqınlıq yaratmaq və hakimiyyəti ələ keçirmək haqqında düşünürdülər. Ona görə ki, bir tərəfdən artıq Azərbaycanda dövlət çevrilişinin həyata keçirilməsi mümkün deyildi, digər tərəfdən isə seçkilər nəticəsində "demokratik qüvvələr"in hakimiyyətə gətirilməsi əsl niyyətin pərdələnməsi üçün ən "yaxşı vasitə" hesab edilirdi.

Belə bir məqamda Ümummilli Lider Heydər Əliyev 2003-cü ildə müstəqil siyasətə malik güclü dövlətin gələcək inkişafına yönəlmiş tarixi qərar qəbul etdi. O, xalqa müraciət edərək milli həmrəyliyi və dövlətçiliyi möhkəmləndirmək istiqamətində həyata keçirilən siyasətin davamlı və dayanıqlı olması üçün özünün siyasi varisini elan etdi. Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına 1 oktyabr 2003-cü il tarixli müraciətində deyirdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Dövlətin möhkəmlənməsində, ələlxüsus da yeni qurulan milli dövlətin təşəkkülündə siyasi varislik həlledici amildir. Azərbaycan 1991-1993-cü illərdə bu problemi yaşamışdı və onun ağır nəticələrini görmüşdü. Azərbaycan xalqı tarixin bu acılarını unutmamışdı və Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdaraq həm qardaş qırğınının, həm də dövlətçiliyin məhv olmasının qarşısını xalqla birlikdə aldığını, vətəndaşların təhlükəsizliyini təmin etdiyini, ölkəni xaosdan sabitliyə və inkişaf yoluna necə çıxardığını yaxşı bilirdi. Bu baxımdan 2003-cü ilin prezident seçkiləri dövlətimiz üçün növbəti tarixi sınaq dövrü idi desək, qətiyyən yanılmarıq. Bəzi xarici dairələr və onların maliyyələşdirdiyi antimilli qruplaşmalar hesab edirdilər ki, Ümummilli Lider Heydər Əliyev kimi nəhəng siyasətçidən sonra Azərbaycanı istədikləri kimi idarə edə biləcəklər. Bu, əslində, müstəqil Azərbaycan dövlətinin "ölüm-dirim" savaşı idi. Bu, xeyirlə şərin, işıqlı dünya ilə qaranlıq dünyanın savaşı idi. Bütün bu təhlükələrin qarşısını ala biləcək, xalqı öz ətrafında sıx birləşdirərək milli maraqları, dövlətçiliyi qoruyub inamla inkişaf etdirərək işıqlı gələcəyə doğru irəli aparacaq siyasi liderin meydana çıxması və bu məsuliyyəti çiyinlərinə götürməsi zamanın tarixi zərurəti idi.

Məhz tarixin həlledici məqamında Ümummilli Lider Heydər Əliyevin gənc, müstəqil, tənqidi və yaradıcı təfəkkürə, siyasi iradəyə, kifayət qədər siyasi və diplomatik təcrübəyə, elmi dünyagörüşünə malik, milli adət-ənənələrə sadiq xarizmatik siyasi liderin - İlham Əliyevin Prezidentliyə namizədliyini irəli sürməsi təsadüfi deyildi. İlham Əliyevin Prezident seçilənə qədərki siyasi fəaliyyətinə diqqət yetirsək, görərik ki, o, qısa müddət ərzində müstəqilliyini yenicə qazanmış, amma ağır siyasi-iqtisadi böhran içində olan gənc dövlətin həm iqtisadi, həm də siyasi həyatında kifayət qədər əhəmiyyətli işlər görmüşdür.

İlham Əliyev 1994-2003-cü illərdə nəinki ölkədə, eyni zamanda beynəlxalq aləmdə tanınmış güclü iradəyə malik siyasətçi kimi tanınırdı. İlham Əliyev 1995-2000-ci illərdə Milli Məclisin deputatı, 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti, 1999-cu ildə hakim Yeni Azərbaycan Partiyası Sədrinin müavini, 2001-ci ildən sədrin birinci müavini idi. İlham Əliyev Azərbaycanda Olimpiya hərəkatının inkişafında, beynəlxalq idman yarışlarında ölkəmizin tanınmasında və Azərbaycanın dostlarının sayının artmasında, həm də bacarıqlı təşkilatçı kimi yeni münasibətlərin qurulmasında genişmiqyaslı işlər görmüşdü və bu gün də bu işlər uğurla davam etdirilir.

Xüsusilə İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikasının Milli Məclisinin 2001-2003-cü illərdə nümayəndə heyətinin rəhbəri olduğu dövrdə siyasi fəaliyyətinin bəzi məqamlarına diqqət yetirmək istərdik. AŞ PA-ya üzv dövlətləri təmsil edən siyasi qüvvələrin bir çoxunun Azərbaycana münasibəti heç də birmənalı deyildi. Azərbaycana təzyiq etməklə öz maraqlarını gerçəkləşdirmək istəyən bəzi xarici dairələrin siyasi sifarişləri, həmçinin erməni lobbisinin Azərbaycana qarşı yüz ildən çox davam edən qarayaxmaları nümayəndə heyətimiz üçün əlverişli fəaliyyət mühiti yaratmırdı. Amma süni surətdə yaradılan maneələrə, ikili yanaşmalara, saxta ittihamlara baxmayaraq, İlham Əliyev qısa müddət ərzində AŞ PA-da Azərbaycanın mövqelərinin xeyli dərəcədə möhkəmlənməsinə nail oldu. İlham Əliyev Azərbaycanın milli maraqlarından bir dəfə də olsun geri çəkilmədi, dövləti və xalqı müdafiə etdi, xalqımıza və dövlətimizə hörmət qazandırdı. Cəsarətli və obyektiv çıxışları, nümayəndə heyətləri ilə konstruktiv münasibətləri ona böyük hörmət qazandırdı. Əminliklə deyə bilərik ki, İlham Əliyev artıq 2003-cü ildə Avropa siyasət məkanında dərin hörmət qazanmış siyasi iradəyə malik, ədalətli və obyektiv siyasətçi kimi tanınırdı.

İlham Əliyevin həmin dövrdəki fəaliyyəti haqqında çox danışmaq olar, amma biz yalnız bir məqama xüsusi diqqəti çəkmək istəyirik. Amerikada 2001-ci il sentyabrın 11-də terror hadisəsi baş verəndə Avropa susurdu və AŞ PA-da bu barədə heç kim danışmırdı. AŞ PA-nın plenar iclasında çıxış edən İlham Əliyev qeyd etdi ki, biz hər zaman terrora qarşı mübarizənin tərəfdarı olmuşuq və bu mübarizədə Amerika xalqının yanındayıq. Çünki iki yüz ildir on minlərlə dinc azərbaycanlı erməni terrorçuları tərəfindən öz doğma torpaqlarında qətlə yetirilib, azərbaycanlılar sistemli şəkildə soyqırımına, etnik təmizləməyə məruz qalıblar və terrorun insanlığa qarşı dəhşətli cinayət olduğunu Azərbaycan xalqı çox yaxşı bilir. O bildirdi ki, Avropanın Amerikada törədilmiş terrora susqunluğu bizi həm təəccübləndirir, həm də narahat edir. İlham Əliyev tələb etdi ki, AŞ PA bu məsələyə münasibət bildirsin və Avropa dövlətləri də antiterror mübarizəsinə qoşulsun. Yalnız bu çıxışdan və təkidli tələbdən sonra məsələ ilə bağlı AŞ PA münasibət bildirdi. Belə misalları çox çəkmək olar. Onlardan yalnız birini ona görə xatırlatdıq ki, İlham Əliyevin nəinki ölkədə, həm də beynəlxalq aləmdə öz mövqeyi olan güclü siyasi iradəyə malik lider kimi kifayət qədər nüfuzu var idi və o, Azərbaycanın təhlükəsiz və uğurlu inkişafını təmin edə biləcək yeganə siyasi liderdir.

İlham Əliyev həmişə xalqla birlikdə olub və insanlarla səmimi, açıq söhbətlər edib, uğurları da, problemləri də xalqı ilə müzakirə edib və həmişə də öz xalqına arxalanıb. Azərbaycan xalqı İlham Əliyevə böyük hörmət və ehtiram bəsləyir, ona inanırdı. İnanırdı ki, dövlətini, xalqını dərin məhəbbət və sədaqətlə sevən, insanların firavan həyatı üçün çalışan siyasi lider onun xoşbəxt gələcəyini təmin edəcəkdir. Xalq da Ulu Öndər Heydər Əliyevin dediyi kimi, özü qədər ona inanırdı və bu inam bu illər ərzində daha da möhkəmləndi.

İlham Əliyev 2003-cü il prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gələrək xalqın sonsuz inam və etimadını, məhəbbətini qazandığını bütün dünyaya bir daha nümayiş etdirdi. Əslində, bu qələbə işıqlı gələcəyin qaranlıqlar üzərində qələbəsinin təntənəsi idi. Azərbaycanı müstəqil güclü dövlət kimi görmək istəməyən xarici dairələr bundan elə sarsıldılar ki, bu gün də özlərinə gələ bilmirlər. Prezident İlham Əliyevin milli maraqlara xidmət edən uğurlu xarici və daxili siyasəti nəticəsində qazanılan yeni nailiyyətlər milli dövlətçiliyi daha da möhkəmləndirir, məğlubları isə miskin vəziyyətə salırdı.

Prezident İlham Əliyevin 2004-cü ildə regionların inkişafı ilə bağlı təsdiq etdiyi dövlət proqramı, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, insan kapitalının formalaşdırılması, yeni texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılması və digər tədbirlər qısa müddətdə öz bəhrəsini verdi. Təkcə onu qeyd etmək kifayətdir ki, 2006-cı ildə real ÜDM-nin 32.5 faiz artımına görə Azərbaycan dünyada birinci yerə yüksəldi. Əlbəttə, bu iqtisadi inkişaf möcüzəsi dünya ölkələrinin həmin dövrdə müzakirə etdiyi əsas mövzu idi. Bu başlanğıc idi və Prezident İlham Əliyevin uğurlu inkişaf konsepsiyası imkan verdi ki, 2003-cü ildə təqribən 3 milyardlıq dövlət büdcəsi son 20 ildə 10 dəfədən çox artsın və 2023-cü il dövlət büdcəsinin xərcləri 36.624.800 manata çatsın.

Regionların sosial-iqtisadi inkişafının nəticəsində 2023-cü ildə artıq respublikanın 66 şəhər və rayonunun 55-i yerli xərcləri öz büdcəsi hesabına təmin edir. Halbuki yaxın keçmişdə vəziyyət o qədər də ürəkaçan deyildi: Bakı şəhəri istisna olmaqla bütün rayon və şəhərlər mərkəzləşdirilmiş büdcədən ayrılan maliyyə vəsaiti hesabına yerli xərcləri təmin edirdilər. Deməli, Prezident İlham Əliyevin müəyyən etdiyi və 2004-cü ildən başlayaraq ardıcıl surətdə həyata keçirilən regionların sosial-iqtisadi inkişaf siyasəti qarşıya qoyulan hədəflərə çatmağı təmin edibdir.

Qısa müddətdə əldə edilən bu iqtisadi yüksəliş bir möcüzə idi, həm də elmi əsaslara söykənən düzgün idarəetmənin nəticəsi kimi təzahür edən möcüzə. İnamla demək olar ki, əhalinin sosial müdafiəsi, dövlət qurumlarının və biznesin normal fəaliyyəti üçün qeyri-neft sektorunu aparıcı amilə çevirmək strategiyası uğurla həyata keçirildi. Bütün bunlar bir daha göstərdi ki, Prezident İlham Əliyevin kifayət qədər güclü siyasi iradəsi, düşünülmüş yeni iqtisadi inkişaf modeli və innovativ, çevik idarəetmə sistemi genişmiqyaslı islahatların davamlı və uğurlu olması üçün qarşıya qoyulan hədəflərə çatmağı təmin etmişdir.

Prezident İlham Əliyevin təhsil sahəsində həyata keçirdiyi uğurlu islahatlar təhsilin bütün səviyyələrində kəmiyyət və keyfiyyət dəyişikliklərini təmin etdi. Müasir tələblərə cavab verən yüzlərlə yeni ümumtəhsil məktəbləri, məktəbəqədər təhsil müəssisələri, onlarca peşə təhsili müəssisəsi inşa edildi. Peşə təhsili şəbəkəsi sürətlə genişlənir, gənclərin yeni peşələrə yiyələnməsi üçün onun əlçatanlığı təmin edilirdi. Əmək bazarında tələb edilən rəqabətədavamlı mütəxəssis hazırlığı prioritetlərin əsas istiqamətlərindəndir. Bu müddət ərzində ali təhsil müəssisələrinin də maddi-texniki bazası möhkəmləndirilmiş, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsi gücləndirilmişdir. Əsas milli prioritet sahələrdən biri kimi təhsilin inkişafına 2023-cü ilin dövlət büdcəsindən 4 407 164 329,0 manat vəsait ayrılmışdır. Əslində, bu, bilik iqtisadiyyatına yatırılan və rifah cəmiyyətinin davamlı inkişafına yönəlik sərmayə kimi nəzərdən keçirilə bilər.

Prezident İlham Əliyevin milli maraqlara köklənmiş uğurlu xarici siyasəti nəticəsində Azərbaycan Respublikası qısa müddət ərzində beynəlxalq münasibətlər sistemində nüfuzunu artırdı və söz sahibinə çevrildi. Azərbaycanın 2011-ci ildə 155 ölkənin etimadını qazanaraq BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi də məhz ölkəmizin beynəlxalq aləmdə getdikcə artan nüfuzunun və sürətli iqtisadi inkişafının göstəricisi idi. Eyni zamanda Azərbaycan 2016-cı ildə Qoşulmama Hərəkatının liderlərinin yekdil qərarı ilə 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatının sədri seçildi. BMT Baş Assambleyasından sonra ikinci ən böyük təsisat olan və 120 ölkəni özündə birləşdirən Qoşulmama Hərəkatına Azərbaycanın sədrliyi dövründə yeni təşəbbüslər irəli sürülmüş, təşkilatın dünyada baş verən proseslərin idarə edilməsində və dizaynında rolu əhəmiyyətli dərəcədə artmışdır.

İlham Əliyevin xarici siyasət strategiyası həm də regionun siyasi statusunu artırmaq, yeni reallıqlar yaratmaq, Qarabağ probleminin həllinə və aparıcı siyasi-iqtisadi güc mərkəzinin yaradılmasına nail olmaq idi. Prezident İlham Əliyevin təşəbbüsü ilə iqtisadi layihələr müstəvisində yaradılan əməkdaşlıq platformaları qonşu ölkələr arasında daha etibarlı münasibətlərin bərqərar olmasını və regionun investisiya cəlbediciliyinin artmasını təmin edir. Bu baxımdan Azərbaycan-Rusiya-İran, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Türkiyə-Pakistan, Azərbaycan-Türkiyə-Türkmənistan kimi üçtərəfli dialoq platformaları ölkəmizin beynəlxalq statusunun artırılması ilə yanaşı, həm də nəqliyyat, enerji, təhlükəsizlik, ticarət və digər sahələri əhatə edən əməkdaşlıq əlaqələri regionun qlobal geosiyasi xəritəsində yeni statusunu müəyyən edir.

Azərbaycan logistika sahəsində böyük layihələr həyata keçirərək dünyanın nəhəng nəqliyyat hablarından birinə çevrilib. Məsələn, "Şərq-Qərb" nəqliyyat dəhlizi Çinlə Avropa arasındakı ən qısa marşrut olduğundan tranzit və yükdaşıma baxımından səmərəlidir. Orta hesabla 5400 km uzunluğunda olan "Şərq-Qərb" nəqliyyat dəhlizinin tranzit müddəti 15 gündür.

Prezident İlham Əliyevin rəhbərliyi ilə görülmüş genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində hazırda Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağıdır. Bu gün Azərbaycan Respublikası həm də "yaşıl enerji" istehsalçısı və ixracatçısı kimi bir ilkə imza atan dövlətdir.

Əminliklə deyə bilərik ki, qarşılıqlı etimada və milli maraqlara əsaslanaraq müstəqil siyasət həyata keçirən Azərbaycan beynəlxalq aləmdə siyasi sabitliyin, əmin-amanlığın, tərəqqinin, tolerantlığın məkanı kimi tanınır.

Prezident İlham Əliyev hər zaman qeyd edirdi ki, bizim əsas həll etməli olduğumuz məsələ ölkənin ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsidir və bütün qərarlarımız, həyata keçirdiyimiz tədbirlər bu taleyüklü problemin həll edilməsinə yönəlib. Ona görə də xarici siyasət, iqtisadi inkişafla yanaşı, müasir ordu quruculuğu da sürətlə həyata keçirilirdi. Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf edən Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 2003-cü ildən etibarən planlı və ardıcıl şəkildə görülmüş işlər nəticəsində dünyanın ən güclü 50 ordusu sırasına yüksəldi. Azərbaycan Silahlı Qüvvələri yenidən qurulan hərbi sənaye kompleksinin istehsal etdiyi müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları və atıcı silahlarla təchiz edildi. Bütün bunlar tarixi qələbəni yaxınlaşdırırdı.

Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq tarixi nailiyyətə imza atdı. Ölkənin 30 ilə yaxındır ki, pozulmuş ərazi bütövlüyünün bərpası və xalqımızın mədəniyyət beşiyi hesab olunan Şuşanın azad olunması Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin hərb tarixində Zəfər zirvəsidir. 200 il idi ki, böyük qələbəyə ehtiyacı olan və on illər idi ki, ermənilərin hər dəfə müxtəlif azğınlıqları ilə qarşılaşan xalqımız və dövlətimiz, nəhayət ki, qələbəyə imza ataraq tarixi ədaləti bərpa etdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində tarixi Zəfərlə sona çatdı.

Prezident İlham Əliyev Qalib sərkərdədir. O, rəşadətli ordusu ilə 44 günlük Vətən müharibəsində erməni miflərini darmadağın etdi. Və bütün dünyaya göstərdi ki, əsl qəhrəman ordu, igid əsgər və zabit sıldırım qayalardan qalxaraq doğma qalanı - Şuşanı azad edən və 8 Noyabr Zəfər tarixini yazan Azərbaycan Ordusudur. Ermənilərin isə bəşər tarixinin heç bir dövründə nə dövləti, nə ordusu, nə də qəhrəman döyüşçüləri olmuşdur. Ermənilər dünya tarixində ərazisində yaşadıqları dövlətlərə və xalqlara xəyanət edən satqın və terrorçu, quldur dəstələri yaradaraq dəhşətli, inanılmaz qətilamlar törədən, şəhər və kəndləri Yer üzündən silən "lənətlənmiş vəhşi tayfa" adı qazanıblar. Qarabağı döyüş meydanında igidliklə vuruşaraq azad edən, bu tarixi ədalət zəfərini qazanan xalqa, azərbaycanlı gənclərə milli maraqlara zidd olan heç nəyi qəbul etdirmək mümkün deyil. Dünya hərb tarixində yeni səhifə yazmış Müzəffər Ali Baş Komandan xalqı "dəmir yumruq" kimi elə birləşdirib ki, Azərbaycana xor baxanların başını yerindəcə əzməyə hazırdır!

Prezident İlham Əliyev xalqı öz ətrafında birləşdirməyə, vətəndaş həmrəyliyini təmin etməyə nail olaraq, ardıcıl siyasi, iqtisadi və sosial islahatları həyata keçirməyə və davamlı, dayanıqlı iqtisadi inkişafa nail olmuş, Qarabağın Ermənistan tərəfindən 30 ilə yaxın işğalına birdəfəlik siyasət və döyüş meydanında son qoymuş və Azərbaycan Respublikasının ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir. Bu gün Azərbaycan Respublikası regionda yeni geosiyasi reallıq yaratmış və bu reallığa uyğun olaraq yeni siyasi və iqtisadi münasibətlərin qurulmasında həlledici rol oynayır.

COVID-19 pandemiyası və 44 günlük Vətən müharibəsi dövründə də ölkənin iqtisadi inkişafının dayanıqlılığı, əhalinin sosial müdafiəsi, sağlamlığı, təhlükəsizliyi və ölkənin müdafiə qüdrəti təmin edildi.

Prezident İlham Əliyevin 20 illik Prezidentliyi dövründə Azərbaycan Respublikası qaz idxal edən ölkədən qaz ixrac edən ölkəyə, kredit alan dövlətdən kredit verən dövlətə, Avropanın və bölgənin enerji təhlükəsizliyində mühüm rol oynayan, siyasi qərarların və nəhəng regional layihələrin hazırlanmasında və gerçəkləşdirilməsində söz sahibinə malik müstəqil siyasəti olan siyasi aktora çevrilmişdir.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət və 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə nəticəsində torpaqlarımız işğaldan azad edildi və "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin təmin edilməsi məqsədi ilə mühüm tarixi və iqtisadi-siyasi əhəmiyyət kəsb edən sənəd - "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" hazırlandı. Bu tarixi sənəd xalqımız tərəfindən böyük sevinclə qarşılandı və yüksək qiymətləndirildi. Prezident İlham Əliyev deyirdi ki, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. İşğaldan azad edilmiş ərazilərin sürətlə ən yeni texnologiyalar əsasında "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasına uyğun yenidən qurulması bunun bariz nümunəsidir. Keçmiş məcburi köçkünlər Qarabağa, Şərqi Zəngəzura iftixar və sevinc hissi ilə qalib xalq kimi qayıdır. Ata yurduna əbədi həyat qayıdır!

Azərbaycan hüquqi, demokratik dövlətdir, əsas insan hüquq və azadlıqları tam təmin edilmişdir. Azərbaycan Respublikası demokratik inkişaf yolunda inamla irəliyə doğru addımlayır. Bu yolda bizə dəstək olan xarici dövlətlər və beynəlxalq təsisatlarla bundan sonra da qarşılıqlı, bərabər əməkdaşlıq münasibətlərinə hazırıq. Amma milli maraqlara, müstəqilliyə qarşı yönələn istənilən hərəkətlərə dərhal adekvat cavab veriləcək.

Bu gün müdrik dövlət başçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi nəticəsində müstəqil Azərbaycan dövləti inkişafının yeni dövrünə - İntibah dövrünə qədəm qoyub. Azərbaycan xalqı öz taleyinin sahibidir və Prezident İlham Əliyevin rəhbərliyi ilə bu inkişafda israrlıdır. Onu bu yoldan heç kim və heç nə döndərə bilməz!

*Prezident İlham Əliyev 20 illik fəaliyyəti dövründə qarşıya qoyduğu bütün vəzifələri layiqincə yerinə yetirmiş, Azərbaycan dövlətinin ən yeni tarixinin Şərəf və Zəfər tarixini yazmışdır! Hər bir azərbaycanlı öz Prezidenti ilə qürur duyur!*

*Qalib sərkərdə cənab Prezident İlham Əliyevə Azərbaycan naminə şərəfli və fədakar fəaliyyətində uğurlar arzu edirik!*

**Bəxtiyar ƏLİYEV,**
***Milli Məclisin Elm və təhsil komitəsinin sədri,***
***AMEA-nın müxbir üzvü, professor***

# Əsrə bərabər 20 il



**Tarixin inkarolunmaz dərsləri və həqiqətləri var: "Dünya insanı yox, insan dünyanı dəyişdirir". Qurub-yaradan, şəhər və kəndləri gülüstana çevirən, arzuları çiçəkləndirən, əməlləri, amalları ilə hörmət qazanan, ucalan da, müharibələr, qırğınlar törədən, ölkələri xaraba qoyan, vəhşi, zalım xisləti ilə bəşər övladına bəlalar gətirən, qan töküb ev yıxmaqdan həzz alan və sonda nifrət qazanan da insandır.**

Ulu Öndərimiz Heydər Əliyev bildirirdi ki, "Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər kəs özü seçir". Ümummilli Liderimizin fikirlərinə istinad edərək deyə bilirik ki, dünyanın xoşbəxtliyi, gələcəyi, firavanlığı, əlbəttə, insanın özündən asılıdır.

Heydər Əliyevin söylədikləri, həyata keçirdikləri qəlbdən gəlirdi və həyat amalı idi. Qurmağı, yaratmağı, insanlara səadət bəxş etməyi, vətənini, xalqını, xoşbəxt görməyi ömrünün mənası hesab edən bu dahi şəxsiyyət son nəfəsinə kimi bəşəri duyğularla, nəcib məqsədlərlə yaşadı və xalqının qəlbində əbədi bir heykəl kimi ucaldı.

Azərbaycan tarixinə qurucu, yaradıcı, islahatçı, xilaskar, qəhrəman kimi imza atan və əbədiləşən Ulu Öndərin xalq, vətən, insan qarşısında xidmətləri şərəfli ömrə, ictimai borca, vicdanlı əməllərə münasibətindən qaynaqlanırdı və həm xalqın, həm də öz ömrünü, həyatını mənalandırırdı. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə vətənin, xalqın inkişafı, rifahı üçün yaşadı, yaratdı. Geridə qalan bir respublikanı ittifaqın ən qabaqcıl regionları sırasına çıxaranda, ölkəni vətəndaş müharibəsindən, qardaş qanı tökülməsindən qurtaranda, tarixdə misli olmayan neft kontraktına, böyük layihələrə imza atanda, beynəlxalq tribunalardan ölkəmizin haqq səsini dünyaya yayıb erməni təcavüzkarlarını ifşa edəndə, məhz dövlətimizin suverenliyini, torpaqlarımızın azadlığını, xalqımızın xoşbəxtliyini və gələcək inkişafını düşünürdü.

Heydər Əliyev Azərbaycanın ictimai-siyasi, iqtisadi, mədəni həyatında tarixi dönüş yaradan, bu günümüz, inkişafımız üçün bünövrə qoyan və yüksəlişimizə nail olmağın yollarını öz ideyaları ilə əsaslandırıb təqdim edən bir rəhbər idi. O, həm də dünya azərbaycanlılarının birliyini, həmrəyliyini xoşbəxt gələcəyimizin uğuru kimi dəyərləndirən və bu istiqamətdə çox mühüm tədbirlər həyata keçirən əsl azərbaycanlı, sədaqətli, vətənpərvər vətəndaş idi.

İlham Əliyev kimi uzaqgörən, cəsarətli, milli xüsusiyyətlərə, bəşəri dəyərlərə sahib olan bir oğul, övlad tərbiyə etməsi və layiqli vətəndaş kimi formalaşdırması Azərbaycan xalqının, torpaqlarımızın xilaskarı kimi yetişdirməsi Heydər Əliyevin ən böyük xidmətlərindən biridir. O, özü kimi inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi bir oğulu Azərbaycana, xalqa bəxş etdi və İlham Əliyevin böyük siyasətinin, qalib gələn əməllərinin bəhrəsində özünün müdrikliyini, ölməzliyini bir daha sübuta yetirdi.

Cənab İlham Əliyev atasının - Ulu Öndərimizin ümidlərini şərəflə doğrultdu, inamını həqiqətə çevirdi, arzularını çiçəkləndirdi, vəsiyyətlərini ölməz amala çevirib həyata keçirdi. O, xalqına Prezident, ordusuna Ali Baş Komandan, torpağına, vətəninə vətəndaş kimi şöhrət bəxş etdi, qürur gətirdi.

Cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız son 20 ildə Azərbaycanın heç vaxt unudulmayan qəhrəmanlıq və inkişaf tarixini yazdı. Hər biri əsrə bərabər olan bu illərin mayası xalqa, vətənə, torpağa məhəbbət, bəşər övladına, insanlığa, milli-mənəvi dəyərlərə hörmət, bəşəri ideyalara sədaqətlə yoğrulduğu üçün həm qələbələrimizin memarının - cənab İlham Əliyevin, həm də ona dəstək verənlərin, rəğbət bəsləyənlərin, etimad göstərənlərin - xalqımızın başını ucaltdı, adını şöhrətləndirdi, uğurlarını möhkəmləndirdi.

Son 20 il Azərbaycanın siyasi, iqtisadi, sosial-mədəni həyatında inkişaf dövrü kimi xarakterikdir. 2023-cü ildə 1 milyard 220,9 milyon büdcə gəlirləri olan ölkəmiz indi 40 milyard manata yaxın büdcə gəlirinə malikdir. 1,8 milyard dollar valyuta ehtiyatlarına sahib olan dövlətimizin valyuta ehtiyatları 37 dəfə artmış, 67 milyard ABŞ dolları səviyyəsinə çatmışdır. Bu illər ərzində orta aylıq əməkhaqqı 77,4 manatdan 900 manata yüksəlmiş, əməkhaqları, pensiyalar, sosial müavinət və təqaüdlər üzrə ödənişlər dəfələrlə artmışdır. "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı sağlamlığı və təhlükəsizliyi dayanır" fikirlərini əməli fəaliyyətə, işə çevirən cənab İlham Əliyev bir an belə, xalqının qayğılarını unutmamış və bunu ölkənin, regionların sosial - iqtisadi inkişafı, qlobal enerji təhlükəsizliyinin təmin edilməsi, beynəlxalq əhəmiyyətli neft-qaz kəmərlərinin çəkilməsi, mühüm nəqliyyat infrastrukturunun yaradılması ilə sübut etmişdir.

Ötən 20 ildə 3 min 200-dən çox məktəb binasının, 750-dən çox tibb müəssisəsinin tikilməsi və əsaslı təmir edilməsi, 40-dan çox olimpiya mərkəzinin və yüzlərlə müxtəlif idman qurğularının inşası, 21 min kilometrə yaxın yolun çəkilməsi, körpülərin salınması, 2 milyondan artıq yeni iş yerlərinin yaradılması, yoxsulluğun səviyyəsinin 5 faizə düşməsi insanlara göstərilən qayğının, sosial siyasətin uğurlarıdır. Şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 14 mindən çox mənzilin və evin verilməsi bu qayğının bir nümunəsidir. Bu nümunələr saysız- hesabsızdır. Azərbaycanın beynəlxalq aləmdə böyük nüfuz qazanması, haqq-ədalət mübarizəsinin dəstəklənməsi, BMT Təhlükəsizlik Şurasında, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında, Türk Dövlətləri Təşkilatında, İqtisadi Əməkdaşlıq Təşkilatında dövlətimizin nüfuz və etimada malik olması, ölkəmizin çox mühüm beynəlxalq tədbirlərə evsahibliyi etməsi dövlətimizin rəhbərinə bəslənən hörmət və etimadın ifadəsidir. Cənab İlham Əliyev öz əməlləri və amalları ilə yalnız Azərbaycan xalqının deyil, bütün bəşəriyyətin xoşbəxtliyi, gələcəyi, insanların rifahı üçün mübarizə apardığını sübut etmiş və dünya xalqları tərəfindən bir humanist, vətənpərvər, uzaqgörən siyasətçi, dövlət rəhbəri kimi qəbul edilmişdir.

Dövlət rəhbərimizin vətən, xalq, tarix qarşısında ən böyük xidməti isə Azərbaycanın suverenliyinin təmin olunması, ərazilərimizin azğın düşməndən təmizlənməsi, Qarabağda separatizmin kökünün kəsilməsi, şəhidlərimizin ruhunun sevindirilməsidir. 44 günlük müharibədə qazanılan qələbə və 24 saatlıq antiterror tədbirlərində erməni təcavüzkarlarının məhvi İlham Əliyev siyasətinin, qətiyyətinin, hərbi bacarığının, vətəndaşlıq qayəsinin elə yüksək zirvəsidir ki, o zirvədən Azərbaycan hər an müstəqil, azad və qalib görünür. Cənab İlham Əliyevin fəaliyyəti sayəsində ölkədə yaradılan ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi, siyasi partiyalara və vətəndaş cəmiyyətinə göstərilən qayğı və diqqət uğurlarımızın əsasıdır. Milli təhlükəsizliyimizin təmin olunmasında da bu amillər başlıca rol oynamışdır. Cənab İlham Əliyev milli təhlükəsizlik sistemini yeni dövrün tələbləri əsasında qurmağı, təkmilləşdirməyi və ölkəmizə qarşı yönələn qəsdlərin, çağırışların qarşısını vaxtında almağı bacardı.

Əlbəttə, bütün bunlar ölkə iqtisadiyyatının sürətli inkişafına, ordu quruculuğuna, insanların rifahının yaxşılaşdırılmasına, çox mühüm beynəlxalq əhəmiyyətli layihələrin, dövlət proqramlarının həyata keçirilməsinə zəmin yaratdı. 2020-ci ilin 10 noyabrında Ermənistanın təslimçilik aktına imza atması və bu ilin 19 sentyabrında keçirilən antiterror tədbirləri Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin düşünülmüş siyasətinin, cəsarətinin, ordumuzun gücünün, məharətinin, xalqımızın birliyinin nümayişi olmaqla bərabər, həm də iqtisadiyyatımızın davamlılığının və ictimai - siyasi sabitliyin bərqərar edilməsinin nəticəsi idi.

Bu gün işğaldan azad olunan ərazilərdə infrastrukturun yaradılması, yeni yaşayış binalarının, məktəblərin, xəstəxanaların, uşaq bağçalarının tikintisi, beynəlxalq hava limanlarının istifadəyə verilməsi, elektrik stansiyalarının quraşdırılması, "ağıllı kənd", "ağıllı şəhər" layihələrinin həyata keçirilməsi və həmin tədbirlərə 7 milyarddan çox vəsaitin ayrılması göstərir ki, Azərbaycan Prezidentinin hazırladığı və istiqamətləndirdiyi strateji-iqtisadi xətt önəmlidir və davamlıdır.

İqtisadiyyatı güclü olmayan dövlətin müharibədə qalibiyyəti, ictimai həyatda uğurları, beynəlxalq aləmdə söz sahibi olması mümkünsüzdür. Cənab İlham Əliyev 20 illik fəaliyyəti dövründə məhz Azərbaycan iqtisadiyyatını inkişaf etdirməklə, çox mühüm qaz-neft, nəqliyyat layihələrinə imza atıb, onu iqtisadi yüksəlişə yönəltməklə tarixi uğurlara nail oldu.

Prezidentimiz özü bu barədə deyir: "Biz sosial, iqtisadi və siyasi həyatda mühüm nailiyyətlər əldə etmişik. Bu gün Azərbaycan sürətlə inkişaf edən, müasir və dinamik ölkədir. Bu ölkə öz ənənəvi köklərinə bağlı olmaqla yanaşı, dünyaya açıq olan müasir bir dövlətdir". Prezident sosial-iqtisadi, mədəni tədbirləri həyata keçirəndə, milli-mənəvi, əxlaqi dəyərləri önə çəkəndə, humanist gedişlərini planlaşdıranda hörmətli Mehriban xanım Əliyeva ilə birlikdədi, həmrəydir.

Cənab İlham Əliyevin uğurlarında, qələbələrində ictimai-siyasi xadim, humanist və vətənpərvər insan, həm də mehriban ana, sədaqətli həyat yoldaşı kimi Mehriban xanım Əliyevanın rolu əvəzsizdir. O, Azərbaycan qadınının həqiqət, ədalət, dəyanət, xeyirxahlıq simvolu, milli dəyərlər təbliğinin fədaisi olmaqla bərabər, öz çoxsahəli, səmərəli fəaliyyəti ilə dünyaya nümunə olan bir siyasətçi, dövlət xadimidir. Mehriban xanımın baxışlarındakı mərhəmət, qayğı, vətənpərvərlik insanlarda ona rəğbət yaradır. O, haqsızlığa, ədalətsizliyə qarşıdır. Mehriban xanım xalqına, torpağına məhəbbətindən güc alır və ali məqsədlərə xidmət edir.

Tarixin dərsləri və həqiqətləri onu dərk edənlər, öyrənənlər, qiymətləndirənlər, həm də gələcək nəsillər üçün çox vacibdir. Ulu Öndərimizin xatırlatdığı kimi, "tarix həmişə hər şeyi öz yerinə qoyur". Bəli, bu gün tarix təkrar olunur. Ümummilli Liderimiz tərəfindən əsası qoyulan Azərbaycan iqtisadiyyatı, mədəniyyəti, ordu quruculuğu, sosial həyat cənab İlham Əliyevin təşkilatçılığı və rəhbərliyi sayəsində yenidən qurulur, inkişaf etdirilir. Azərbaycan dünyaya inteqrasiya olunur, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır və sürətli inkişafı, humanist, sülhsevər çağırışları, tarixinə, dilinə, milli-mənəvi dəyərlərinə sadiqliyi ilə bəşəriyyətin rəğbətini qazanır. Erməni təcavüzkarları üzərində tarixi qələbə, ermənipərəst dövlətlərə qarşı cəsarətli mövqe, beynəlxalq normalara, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, Cənubi Qafqazda sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin olunmasına göstərilən cəhdlər, haqqın, ədalətin, demokratiyanın, insan azadlığının qorunması üçün göstərilən səylər cənab İlham Əliyevə dünya siyasətçiləri, dövlət rəhbərləri arasında böyük rəğbət qazandırmış, ona olan inamı və etimadı qat - qat artırmışdır.

20 il dövlətə və xalqa sədaqətlə xidmət etmək, insanların böyük hörmətini qazanmaq, dünyanın sülhsevər vətəndaşlarının sevimlisinə çevrilmək rəhbər üçün böyük şərəf və dəyərli qiymətdir. Azərbaycan Prezidenti bu şöhrəti və dəyəri öz fəaliyyəti, xalqına və insanlara xidməti ilə qazanmışdır. 20 illik bir yolun başlanğıcı çox çətin olsa da, dayanacağı uğurlu, keçiləcək məsafələri işıqlı və inamlıdır. Cənab İlham Əliyevin keçdiyi bu yol böyük qürur doğurur. O, bu yolda həmişə xalqı ilə, dünyanın dəyərli insanları ilə bir olub, Vətəninin mənafeyini qoruyub, xalqına sədaqətlə xidmət etməkdən, torpaqlarını qorumaqdan, Azərbaycanı ucaltmaqdan və şöhrətləndirməkdən şərəf duyub, yeni uğurlara, zəfərlərə yollar açıb.

Cənab İlham Əliyevin əməllərinin, amallarının şahidi zaman və insan, adını, şöhrətini əbədiləşdirən, unudulmaz edənsə tarixdir. Tarix Prezidentimizin adını öz səhifəsinə silinməz hərflərlə yazıb və zaman bundan sonra da onun yeni uğurlarının şahidi olacaqdır.

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Xalqlar dünyada tarixi şəxsiyyətləri ilə tanınır

**Xalqlar dünyada maddi nemətləri, təbii sərvətləri ilə deyil, tarixi şəxsiyyətləri ilə tanınır. Ulu Öndər Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycanı dünyada son 20 ildə Prezident İlham Əliyev şəxsiyyəti tanıtdı. 2003-cü ildə keçirilən prezident seçkiləri tariximizin ən önəmli seçkilərindən oldu desək, yanılmarıq.**

2003-cü il oktyabrın 15-də xalq doğru seçimini edərək, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyevə etimad göstərib Azərbaycan Prezidenti seçdi və bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başlandı. Geridə qoyduğumuz 20 ildə Azərbaycanda elə bir sahə yoxdur ki, orada islahatlar aparılmasın, inkişafa nail olunmasın. Bu 20 ildə Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrildi. Bu gün məhz İlham Əliyevin apardığı siyasətin nəticəsidir ki, hər birimiz "var imzamız imzalar içində" sözlərini qürurla deyir, Ulu Öndərin söylədiyi kimi, azərbaycanlı olmağımızla fəxr edirik. Bu gün xalq öz lideri ilə öyünür.

İlham Əliyev dünyanın nəhəng siyasətçiləri tərəfindən heyrətlə izlənilən liderdir. Cənab Prezidentin diplomatiya və dövlət idarəçiliyindəki zəngin təcrübəsi, biliyi, eyni zamanda şəxsi nüfuzu və xarizmasının nəticəsidir ki, Azərbaycana beynəlxalq arenada böyük hörmət var. Ölkəmizdə aparılan davamlı və uzunmüddətli iqtisadi islahatlar nəticəsində Azərbaycan iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətləri ilə bir sırada dayanır. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müstəqil və müasir Azərbaycanın qüdrətinə çevrildi, Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf konsepsiyası bütün azərbaycanlıların həyatına birdəfəlik daxil oldu.

İlham Əliyevin apardığı məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər nəticəsində Azərbaycanın iqtisadi və hərbi-müdafiə qüdrəti daha da gücləndi və bu, 44 günlük Vətən müharibəsində parlaq qələbəmizin qazanılmasına zəmin yaratdı. Ali Baş Komandanın qətiyyəti, Ordumuzun gücü, birliyimiz bizi 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsində qalib xalq etdi. Ali Baş Komandan İlham Əliyev tarix yazdı. Bu il sentyabrın 19-da isə Qarabağda keçirilən lokal antiterror tədbirləri nəticəsində ərazilərimiz qanunsuz erməni hərbi birləşmələrindən tamamilə təmizləndi, separatçı rejim özünü buraxdığını elan etdi. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa olundu.

Prezident İlham Əliyev tarix yazır. Dövlətimizin başçısının adı tariximizə həm də Müzəffər Sərkərdə kimi həkk olundu. Bu gün Azərbaycan dünyanı həm də işğaldan azad edilmiş ərazilərində sürətli bərpa və yenidənqurma işləri ilə heyrətləndirir. Azad edilmiş ərazilərimizdə yeni yollar çəkilir, elektrik stansiyaları tikilir, strateji infrastruktur obyektləri açılır. Bir sözlə, azad edilmiş ərazilər yenidən qurulur. Dövlətimizin başçısının dediyi kimi, Qarabağ cənnətə çevriləcək. Artıq keçmiş məcburi köçkünlər doğma yurd-yuvalarına dönürlər. Ötən 20 ildə Azərbaycan xalqı həmişə öz liderinə güvənib, inanıb, ona arxa və dayaq olub. İnanırıq ki, İlham Əliyevin prezidentliyi ilə Azərbaycan bundan sonra da zirvədən-zirvəyə, qələbədən-qələbəyə addımlayacaq.

**Oqtay ƏSƏDOV,**
***Milli Məclisin deputatı***

# 15 oktyabrdan başlayan yüksəliş

**2003-cü ilin 15 oktyabr tarixində Prezident İlham Əliyev ilk dəfə xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildi. Həmin dövrdən başlayaraq Azərbaycan bütün sahələrdə yeni inkişaf mərhələsinə qədəm qoydu, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət siyasəti bütün sahələrdə uğurla davam etdirildi.**

Ulu Öndər Heydər Əliyevin başlatdığı ordu quruculuğu işini Prezident İlham Əliyev uğurla davam etdirərək, 2020-ci ildə bölgədə yeni reallıq yaratdı, BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasını həyata keçirdi, Azərbaycan xalqını məğlub xalqdan qalib xalqa çevirdi, adını dünya tarixinə yazdırdı. Əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi qoymaqla ərazi bütövlüyümüzü bərpa etmişdiksə, sentyabrın 19-da isə suverenliyimizi tam bərpa etdik. Qarabağ bölgəmizdə yerləşən qeyri-qanuni erməni silahlı dəstələrinin silahı yerə qoyması, döyüş mövqelərindən və hərbi postlardan çıxması və tam şəkildə tərk-silah olunması, Ermənistan silahlı qüvvələri birləşmələrinin Azərbaycan ərazilərini tərk etməsi, paralel şəkildə bütün silah-sursat və ağır texnikanın təhvil verilməsi Azərbaycanın növbəti qələbəsinin təntənəsidir. Müzəffər Ali Baş Komandan, Azərbaycan xalqı və əsgəri bir daha sübut etdi ki, şəhidlərimizin qanı nahaq yerə tökülmədi.

Prezident İlham Əliyev hərbi sahədə olduğu kimi, diplomatik və informasiya savaşı cəbhəsində də misilsiz rəşadət göstərmiş, Azərbaycana qarşı informasiya blokadasını yarmış, müharibənin gedişində və müharibədən sonra onlarla aparıcı xarici media subyektlərinə müsahibələr vermişdir. Prezident İlham Əliyev, informasiya cəbhəsində də dünyanın aparıcı media qurumlarına müsahibələri ilə Ermənistanın bütün təbliğatının üzərindən xətt çəkdi.

Bu gün Azərbaycan dünyada azsaylı ölkələrdəndir ki, həssas və mürəkkəb bölgədə yerləşməsinə baxmayaraq, həm region, həm də dünya ölkələri ilə yüksək səviyyəli əlaqələrə malikdir. Bu gün Prezident İlham Əliyev dünyanın ən arzuolunan və rəğbət bəslənilən liderlərindən biridir. Müasir dövrdə Prezident İlham Əliyev bütün platformalarda Azərbaycanın haqq mövqeyini uğurla müdafiə edir.

Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və müdrik siyasət nəticəsində hazırda Azərbaycan Şərqlə Qərb arasında körpüyə, dünyanın enerji təhlükəsizliyinə mühüm töhfələr verən dövlətə çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikanın hər yerində olduğu kimi, Qarabağda və Şərqi-Zəngəzurda da böyük quruculuq və abadlıq işləri həyata keçirilir. Bütün bu addımlar tezliklə Qarabağı və Şərqi-Zəngəzuru ən abad və gözəl bölgələrdən birinə çevirəcək.

Sonda tam əminliklə söyləyə bilərik ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Dövlətimizin başçısının praqmatik xarici siyasət strategiyası ölkəmizə beynəlxalq münasibətlər sistemində müstəqil xarici siyasət həyata keçirən milli dövlət kimi etibarlı strateji tərəfdaş imici qazandırıb.

**Ceyhun MƏMMƏDOV,**
***Milli Məclisin deputatı***

# Daha qüdrətli gələcəyin təminatçısı olan rəhbər



**20 il əvvəl Ulu Öndər Heydər Əliyev xalqa öz tarixi müraciətində demişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək".**

2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş seçkilərdə xalq öz səsini Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə və ölkədə sabitliyin qorunmasına vermişdir. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. Özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi Prezident, Ali Baş Komandan tək Ümummilli Liderin deyil, hər bir azərbaycanlının ümidlərini doğrultdu. Xalqımız ona etimad göstərməklə həm də öz seçimində yanılmadığını gördü. İlk andiçmə mərasimində "hər bir azərbaycanlının Prezidenti olacağına" söz verən ölkə başçısı andına sadiq qaldı.

O zamandan 20 il ötür. Bu gün Azərbaycan özünün ən şərəfli, məsuliyyətli və tarixi dövrünü yaşayır. Bu dəyişən dünyada superdövlətlər əhatəsində olan Azərbaycan dövləti müstəqil, suveren yaşamanın formulasını araşdırır, axtarır. Belə bir mürəkkəb zamanda yeni ictimai-siyasi baxış və islahatların keçirilməsi zərurəti yaranır. Proses davamlı, dayanıqlı və Azərbaycanın maraqlarına uyğun olmalıdır. Ölkə başçısının irəli sürdüyü və həyata keçirdiyi davamlı inkişaf konsepsiyası dövlətimizin və xalqımızın tərəqqisinə, onun parlaq gələcəyinə hesablanmışdır.

Cənab İlham Əliyev öz fəaliyyəti ilə həm partiya Sədri, həm Prezident, həm də Ali Baş Komandan kimi, hər bir vətəndaşımızın maraqlarını müdafiə etmiş, hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirmişdir. O, Ümummilli Lider Heydər Əliyevin müqəddəs ideyalarını daha da inkişaf etdirərək, uğurlu daxili və xarici siyasət həyata keçirir. Bunun nəticəsində Azərbaycan müstəqil dövlət olaraq daha da güclənir, dünya miqyasında söz sahibi olan dövlətə çevrilir.

30 il həsrətində olduğumuz torpaqlarımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tərəfindən erməni işğalından azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Bu, Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Qələbədir! Azərbaycan xalqı 200 ildən çoxdur ki, erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalmışdır. Azərbaycan xalqı tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunmuşdur. Nəhayət, 2020-ci ildə Azərbaycan öz torpaqlarına sahib çıxdı, ərazi bütövlüyünü təmin etdi. Bu, bizim əsgər və zabitlərimizin qəhrəmanlığı, Ali Baş Komandan, Prezident İlham Əliyevin siyasi qətiyyəti nəticəsində baş verdi. 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində isə suverenliyimiz tam bərpa olundu. Artıq xalqımız işğal günlərini qeyd etmir. Bu gün hər birimiz bu tarixi Qələbəyə görə Müzəffər Ali Baş Komandana və ordumuza minnətdarıq.

Amma keçən dövr elə də asan olmayıb. Azərbaycanı hər zaman daxildən parçalamaq, onu inkişafdan geri salmaq, ən əsası isə Qarabağın işğalı ilə barışmağa məcbur etmək istəmişlər. Bütün çətinliklərə və təhlükələrə baxmayaraq, Prezident İlham Əliyev həmin problemləri həll etməyi bacardı. Bu isə böyük siyasi məharət, iradə, qətiyyət tələb edirdi. Azərbaycan bu illər ərzində özünü müstəqil dövlət kimi təsdiq edə bildi. Və ildən-ilə biz dövlət başçısının həm daxili, həm də xarici siyasətdə əldə etdiyi nailiyyətləri görürük. Bunu həm də dünya görür. Baxmayaraq ki, Azərbaycan kiçik bir ölkədir, Prezident İlham Əliyevin siyasi müdrikliyi nəticəsində o, hazırda bütün maraqların kəsişdiyi coğrafi məkana çevrilib. Bu gün əksər regional və ya beynəlxalq layihələr Azərbaycanın iştirakı olmadan reallaşmır. Azərbaycanın rəhbəri Cənubi Qafqazda yeni siyasi və iqtisadi vəziyyət yarada bildi və bu, dünya dövlətləri tərəfindən də qəbul edilir.

"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" deyərək bütün fəaliyyəti, amalı qurub-yaratmaq, xalqımızı daha xoş günə, daha firavan həyata qovuşdurmaq olan Prezident dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi, daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilən elektron xidmətlərə keçidin sürətləndirilməsini təmin etdi. Təsadüfi deyil ki, Azərbaycan brendi olan "ASAN xidmət"dən sonra DOST Konsepsiyası da növbəti bir uğurlu layihə kimi vətəndaşları məmnun edir. Hər iki layihə dünyada böyük maraq doğurub və bu təcrübə bir sıra ölkələr tərəfindən öyrənilir. Həyata keçirilən sosial layihələr əhalinin, xüsusilə də həssas təbəqədən olan vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin daha da gücləndirilməsinə öz mühüm və müsbət təsirini göstərir.

Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı tədbirlər görür, nəhəng infrastruktur layihələri həyata keçirir. Bu gün Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin edib. Olimpiya idman komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına, yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafına, minlərlə məktəb tikilməsi və təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi təhsilin zamanın tələblərinə uyğun qurulmasına mühüm töhfələr verir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları şəhərlə kənd arasında fərqi aradan qaldırmış və Azərbaycanın regionları bütün zəruri infrastrukturla təmin olunmuşdur.

Ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiə edilməsi dövlət siyasətinin mühüm tərkib hissələrindən biridir. Bu istiqamətdə ölkəmizdə güclü qanunvericilik bazası formalaşmışdır. Aztəminatlı və həssas qrupdan olan ailələrə xüsusi diqqət yetirilir. Bu gün qadınların öz potensiallarını reallaşdırmaları və sosial-iqtisadi sahədə fəal iştirak etmələri üçün respublikada bütün imkanlar yaradılmışdır. Xüsusilə regionlarda qadınların seçimində üstünlük təşkil edən ənənəvi sahələrin inkişafı nəticəsində həm qadınlar, həm də ölkə iqtisadi cəhətdən güclənir. Dövlət başçısının sərəncam və fərmanları ilə qəbul edilmiş xüsusi proqramlar və qanunvericilik aktları nəticəsində uşaqların fiziki və mənəvi inkişafına, onların təhsilinə dövlət qayğısı gündən-günə artır. Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın hər bir vətəndaşla - ağsaqqal, ağbirçək, orta nəslin nümayəndəsi, gənclər, uşaqlarla səmimi ünsiyyəti hər bir dövlət məmuruna gözəl nümunədir. Xüsusilə qeyd etmək lazımdır ki, Mehriban xanım Əliyevanın ölkənin birinci xanımı kimi fəaliyyəti ölkəmizin inkişafında, onun dünyada təbliğ olunması və tanınmasında, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında danılmaz rol oynamışdır.

Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən enerji siyasəti nəticəsində reallaşan layihələr regional çərçivələrdən çıxaraq qlobal miqyas almışdır. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan "Cənub qaz dəhlizi" layihəsinin aparıcı qüvvəsi kimi çıxış edir. "Trans-Anadolu" və "Trans-Adriatik" qaz kəmərlərinin çəkilməsi ilə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan "Cənub qaz dəhlizi" layihəsinin aparıcı qüvvəsidir. Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkəmizin dünya enerji sənayesində həlledici rolu olduğunu bir daha təsdiqlədi.

Dövlət başçısının müəllifi olduğu və həyata keçirdiyi davamlı inkişaf konsepsiyası dövlətimizin və xalqımızın tərəqqisinə, onun parlaq gələcəyinə hesablanmışdır. Bu gün Azərbaycan iqtisadi, siyasi, mədəni, sosial, hərbi, idman və digər sahələrdə dayanmadan inkişaf edir. Əhalinin sosial rifahının yaxşılaşdırılması, qanunvericilikdə islahatların aparılması, mədəni irsin və dəyərlərin dünyada tanıdılması, beynəlxalq təşkilatlarla və dövlətlərlə ikitərəfli və çoxtərəfli əlaqələrin, strateji əməkdaşlığın genişləndirilməsi ölkədə gedən inkişafın nəticəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxtərəfli xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilmişdir. Həyata keçirilən praqmatik xarici siyasət strategiyası ölkəmizə beynəlxalq münasibətlər sistemində müstəqil xarici siyasət həyata keçirən dövlət kimi etibarlı strateji tərəfdaş imici qazandırıb. Regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsinə, bölgədəki əməkdaşlığın dərinləşməsinə xidmət edir. Milli mənafelərlə bağlı problemlərin həllinə həssas və fəal yanaşma uzaq və yaxın xaricin də diqqətindən kənarda qalmır. Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz bir neçə il öncə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməyimiz, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməyimiz müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına da mühüm töhfələr verir. Cənab İlham Əliyev türk dünyasının birliyinin yaranması üçün sadəcə danışmır, addım-addım, çox dərindən düşünülmüş və gələcəyə hesablanmış formada, daha əsaslı şəkildə reallaşması üçün misilsiz xidmətlər göstərir.

Ötən dövr ərzində Azərbaycanın tərəqqisi naminə həyata keçirilən siyasət sayəsində ölkəmiz sosial-iqtisadi sahədə, dövlət quruculuğunda və beynəlxalq aləmdə saysız uğurlar qazanmışdır. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Vacib məsələlərdən biri də ölkədə siyasi konfiqurasiyanın təmin olunmasıdır. Mütəmadi şəkildə faktiki fəaliyyətdə olan partiyalarla görüşlər keçirilir. Bu, siyasi islahatların daha da dərinləşməsinə, ölkəmizin inkişaf etməsinə, dövlətimizin güclənməsinə xidmət edir. Eyni zamanda Yeni Azərbaycan Partiyası da zamanın tələblərinə, dövrün çağırışların, eləcə də ölkədə gedən proseslərə adekvat olaraq islahatlar həyata keçirir.

Ötən 20 ildə cənab Prezident cəmiyyətin inteqrasiyasına nail olmuş, sosial, siyasi, dini, milli müxtəliflikdən birlik yarada bilmişdir. Prezident İlham Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən biri də hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan nailiyyətlərdir. Onun siyasəti nəticəsində Azərbaycanda təkmil siyasi sistem bərqərar olunub. Qanunvericilik bazasının təkmilləşdirilməsi, hüquq və azadlıqların təmin olunması istiqamətində görülən tədbirlər, siyasi plüralizmin dəstəklənməsi, çoxpartiyalı sistemin inkişafı və digər istiqamətlər üzrə prioritet hesab olunan prinsiplər ölkədə davamlı demokratik cəmiyyətin inkişafından xəbər verir.

Ölkə başçısı İlham Əliyevin ən böyük liderlik keyfiyyətlərindən biri, milli dəyərləri təcəssüm etdirmək, xalqımızda inam və nikbinlik aşılamaq bacarığıdır. Onun yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına yönəlib. Dünyada tolerantlıq məkanı kimi qəbul edilən Azərbaycan cənab İlham Əliyevin xidmətləri sayəsində mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanınır. Prezidentin gənclərin potensialının artırılmasına, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir.

Mütəmadi olaraq təkmilləşdirilən gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaradıb. Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar.

Dövlət başçısı islamofob dairələrin və anti-Azərbaycan mərkəzlərinin ölkəmizdə yaratmaq istədikləri "idarə olunan xaos" planını məharətlə pozur. Bu plana qarşı dəqiq və olduqca incə düşünülmüş milli vətənpərvərlik, milli mədəni, mənəvi və ailə dəyərləri önə çəkilir.

Azərbaycan hazırda bütün maraqların kəsişdiyi coğrafi məkana çevrilir. Prezident İlham Əliyev Cənubi Qafqazda dünya dövlətləri tərəfindən qəbul edilən yeni siyasi və iqtisadi vəziyyət yaratmışdır. Ermənistan və onun havadarları tərəfindən edilən diplomatik və siyasi təzyiqlərə baxmayaraq, öz prinsipial mövqeyindən dönməyən dövlət başçısı bu gün də həmin qətiyyəti, siyasi iradəni Qarabağın, Şərqi Zəngəzurun, bütövlükdə Azərbaycanın inkişafı, daha güclü və sabit dövlət olması, vətəndaşının rifah halının daha da yaxşılaşması üçün göstərir.

**Hicran HÜSEYNOVA,**
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor***

# Azərbaycanı tarixinin ən möhtəşəm dövləti edən Lider

**Azərbaycan tarixinin şərəfli və qürurverici günlərini yaşayır. 3 il əvvəl 44 gün davam edən Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etdik, 30 illik işğala son qoyduq. Bu şərəfli salnamənin davamı kimi isə ötən ay keçirilən antiterror tədbirləri nəticəsində ordumuz Qarabağdakı erməni separatizminin də kökünü kəsdi.**

Bu tarixi nailiyyətlərimizin baş müəllifi isə Müzəffər Ali Baş Komandanımız, özünün müdrik siyasəti ilə ötən 20 ildə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən möhtərəm Prezident İlham Əliyevdir. Cənab İlham Əliyevin respublikamıza ilk dəfə Prezident seçilməsinin 20-ci ildönümü tariximizin belə şərəfli və fərəhli dövrünə təsadüf edir.

20 il öncə Azərbaycan xalqı öz müdrik seçimini edərək, möhtərəm İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyev siyasi kursunun davamına səs verdi. Həm 2003-cü ilin prezident seçkilərinin, həm də növbəti seçkilərin nəticələri göstərdi ki, xalqımız Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji xəttə, İlham Əliyev siyasi kursuna heç bir alternativ qəbul etmir. Çünki bu siyasət ilk növbədə inkişaf, yüksək sosial rifah, güclü müstəqillik və qüdrətli dövlətçilik deməkdir. Ötən 20 ilə nəzər salanda görürük ki, bu dövr Azərbaycanın tarixinə inkişaf, quruculuq, müstəqilliyimizin və dövlətçiliyimizin daha da qüdrətləndiyi illər kimi yazılıb.

Bu 20 ildə Azərbaycan xalqı öz rəhbərindən yalnız dövlətə və xalqa xidmət məramı görüb. Hər birimiz möhtərəm Prezidentin qətiyyətli siyasətinə, Azərbaycanı dinamik inkişaf etdirməsinə şahidlik edirik. Bu siyasətin nəticəsi kimi, Azərbaycan hələ illər öncədən regionun aparıcı dövlətinə çevrilib. Təsadüfi deyil ki, ötən 20 ildə regiondakı bütün iqtisadi layihələr məhz Azərbaycanın təşəbbüsləri ilə reallaşıb. Bu baxımdan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft, qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, "Cənub qaz dəhlizi"nin ərsəyə gəlməsi ilk növbədə cənab Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinin nəticəsi kimi həyata vəsiqə alıb. Yaxşı xatirimizdədir ki, hələ Bakı-Tbilisi-Ceyhan neft boru kəməri çəkiləndə ermənilər buna qarşı çıxır, guya bu layihənin regionda ekoloji fəlakət yaratğını iddia edirdilər. Lakin İlham Əliyev öz siyasi-diplomatik erudisiyası ilə həmin çirkin planları fiaskoya uğratdı, dövlətimizin milli maraqlarını qətiyyətlə qorudu və bu siyasətin nəticəsi kimi, hazırda Azərbaycan qlobal enerji təhlükəsizliyi dialoqunun söz sahibi olan tərəfidir.

İlham Əliyev 20 ildə Azərbaycanı dünyanın ən sürətli inkişaf edən dövlətinə çevirdi, iqtisadi inkişafın Azərbaycan modelini yaratdı. Həmin dövr ərzində Azərbaycan iqtisadiyyatının 3 dəfədən çox artması dünyada nadir rast gəlinən nümunələrdəndir. Bu illərdə Azərbaycanda yoxsulluq və işsizlik səviyyəsinin minimum həddə düşməsi, 2 milyondan çox yeni iş yerinin yaradılması, neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində əldə olunan uğurlar göstərir ki, dövlət siyasətinin mərkəzində ilk növbədə, insan amili dayanır.

Regionların inkişaf etdirilməsi də Prezident İlham Əliyevin iqtisadi inkişaf siyasətinin əsas uğurları sırasında yer alır. Əlbəttə, enerji sektorunun inkişaf etdiyi, milli gəlirlərimizin artdığı bir şəraitdə regionların iqtisadi potensialı hərəkətə gətirilməsəydi, Azərbaycanın inkişafı natamam olardı. Bu kontekstdə regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən dövlət proqramlarının icrası sayəsində bölgələrdə inkişaf proseslərinin sürətlənməsi Prezident İlham Əliyevin iqtisadi siyasətinin kompleks məzmun daşımasından xəbər verir. Milli Məclisdə təmsil etdiyim İsmayıllı rayonunun iqtisadi nailiyyətləri də Prezident İlham Əliyevin regional inkişaf siyasətinin bariz nümunəsidir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə qazandığımız uğurların miqyası olduqca böyük və çoxşaxəlidir. Bu sırada Azərbaycanın kosmik kluba daxil olmasını, regionun nəqliyyat qovşağına çevrilməsini də göstərə bilərik. Bunlar respublikamızın yüksəlişi ilə yanaşı, regionda lider dövlət kimi fərqlənməsini, dünyada söz sahibi kimi çıxış etməsini şərtləndirən mühüm siyasi-iqtisadi faktorlardır.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin və bütövlükdə müasir tariximizin ən qürurverici hadisəsi isə 30 ilə yaxın Ermənistanın işğalı altında qalan torpaqlarımızın döyüş yolu ilə azad edilməsidir. 44 günlük savaşda Prezident İlham Əliyev sərkərdə qətiyyəti ilə Azərbaycanın dövlətçilik tarixində böyük bir tarixi missiyasını yerinə yetirdi. Dövlətimizin başçısı bütün beynəlxaq təzyiqlərin qarşısını layiqincə aldı, dünya erməniliyinin respublikamıza qarşı diplomatik cəbhə açmasına imkan vermədi, erməni yalanlarını qətiyyətlə ifşa etdi. Bu savaşda qazandığımız zəfər Azərbaycanın inkişafının, tarixinin ən qüdrətli dövrünü yaşamasının, ordumuzun gücünün, əsgər və zabitlərimizin vətərpərvərliyinin, xalqımızın həmrəyliyinin döyüş meydanında təsdiqi oldu.

Ötən ay isə Qarabağda həyata keçirilən antiterror tədbirləri Vətən müharibəsindəki Zəfərimizin ardınca növbəti böyük hərbi-siyasi qələbəmiz oldu. Prezident İlham Əliyev söz anlamayan erməni separatçılarını "dəmir yumruqla" başa saldı. Antiterror tədbirləri bir daha dövlətimizin gücünün, möhtərəm Prezidentimizin qətiyyətinin təntənəsinə çevrildi. Beləliklə, cənab İlham Əliyevin respublikamıza rəhbərliyinin 20-ci ildönümü ərəfəsində Azərbaycan torpaqlarındakı 200 illik erməni separatizminə son qoyuldu. Azərbaycanın milli maraqlarını bir daha qətiyyətlə təmin edən cənab İlham Əliyev başda Fransa olmaqla həm də dünya erməniliyinə qalib gəldi. Bir daha təsdiq olundu ki, heç bir xarici təzyiq bizim iradəmizə təsir göstərə bilməz.

Qürur hissi ilə qeyd edim ki, vaxtilə prezident seçkiləri kampaniyası dövründə həm Ulu Öndər Heydər Əliyevin, həm də möhtərəm İlham Əliyevin vəkili kimi fəaliyyət göstərmişəm. Seçkilərdə vəkil kimi fəaliyyətim həm də mənə göstərilən böyük etimad idi. Yerlərdə seçicilərlə keçirilən görüşlər zamanı hər zaman xalqımızın Ulu Öndərə və onun layiqli davamçısı olan cənab İlham Əliyevə sevgisinin, etimadının şahidi olmuşam. Həqiqətən də bir lider üçün xalqın sevgisindən, etimadından uca heç nə ola bilməz. Bu 20 ildə xalqımız hər zaman Prezident İlham Əliyevin ətrafında sıx səfərbər olub, bütün seçkilərdə ona etimad göstərib.

Fərəh hissi ilə qeyd etməliyəm ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti də bu 20 ildə böyük inkişaf yolu keçib, daha güclü təşkilata çevrilib. Bu illər ərzində hər zaman cənab İlham Əliyevin xüsusi diqqət və qayğısını yaxından hiss etmişik və buna görə təşkilatımızın üzvləri adından bir daha dövlətimizin başçısına minnətdarlığımızı bildirirəm.

Bu gün Azərbaycan öz tarixinin yeni mərhələsinə qədəm qoyub. Çünki torpaqlarımızın işğaldan azad edilməsi, Qarabağda erməni separatizminə son qoyulması həm də yeni milli çağırışlar, yeni hədəflər deməkdir. Əminik ki, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə əsas milli prioritet olan Qarabağ və Şərqi Zəngəzurun bərpası da qısa müddətdə başa çatdırılacaq, Böyük qayıdış proqramı uğurla icra ediləcək və Azərbaycan öz inkişafının yeni hədəflərinə də inamla çatacaq. Bu şərəfli missiyaların həyata keçirilməsində möhtərəm Prezident İlham Əliyevə uğurlar arzu edirik!

**Novruzəli ASLANOV,**
***Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti***

# Uğurlu enerji strategiyasının müəllifi



**Elektroenergetikamızın bugünkü səviyyəyə çatması, Azərbaycanın sayılıb-seçilən enerji dövləti titulunu alması, ən müasir texniki avadanlıqlarla təchiz olunaraq rəqəmsallaşdırılması, alternativ və bərpaolunan enerjinin prioritet sahəyə çevrilməsi, qırxa yaxın yeni elektrik stansiyasının tikilməsi, yüzdən artıq yarımstansiyanın tikilərək yenidən qurulması, min kilometrlərlə müxtəlif gərginlikli ötürmə xətlərinin çəkilməsi, hazırda ölkədə istehsal olunan enerjinin 20 faizə yaxınının ixrac edilməsi və digər bu kimi məsələlər cənab Prezident İlham Əliyevin davamlı enerji strategiyasının həyata keçirilməsinin təzahürüdür.**

Ötən əsrin 90-cı illərində yeni müstəqil olan Azərbaycanın enerji sistemi ən çətin dövrünü yaşayırdı və idxaldan asılı olan ölkəmizdə işıq saatla verilirdi, tez-tez qəzalar olurdu. Ulu Öndər Heydər Əliyevin zamanında enerji sistemini bu vəziyyətdən çıxarmaq üçün ciddi addımlar atılsa da, bu, hələ yolun başlanğıcı idi. Ona görə də cənab Prezident İlham Əliyev bu strategiyanı davam etdirərək məsələyə daha kompleks yanaşdı və irimiqyaslı layihələrə start verdi. 2003-cü ildə cəmi 12 yaşı olan müstəqil Azərbaycan elektroenergetikasının qarşısında isə böyük hədəflər və həll olunası köklü problemlər dayanırdı.

*- Enerjinin istehsalı, ötürülməsi, paylanması və idarə olunması sahəsində paralel şəkildə sistemli islahatlar, tikinti və yenidənqurma işləri aparmaq:*

*- Çox yüksək səviyyədə olan texniki və kommersiya itkilərini azaltmaq;*

*- Artan tələbatı qarşılamaq üçün yeni generasiya mənbələri yaratmaq;*

*- Sovet dövründən qalan, istismar müddətini keçən elektroenergetika obyektlərini mexaniki idarəetmə sistemindən çıxararaq yenidən qurmaq, müasirləşdirmək və avtomatlaşdırmaq;*

*- Ölkəni enerji idxal edən dövlətdən ixrac edən dövlətə çevirmək.*

Bütün bunları həyata keçirmək üçün ilk növbədə zamana, külli miqdarda maliyyə vəsaitinə, dövlət qayğısına, işi peşəkarlıqla görəcək struktur və kadrlara ehtiyac vardı. Beləliklə, 2003-cü ilin sonundan başlayaraq, enerji sektorunda təxirəsalınmaz şəkildə islahat, inkişaf və tərəqqi dövrünə qədəm qoyuldu. İlk növbədə ölkədə yarıtmaz fəaliyyət göstərən "Barmek" və "Bayva" şirkətlərindən idarəetmə alınaraq dövlətə qaytarıldı.

## Enerjisistemin islahat dövrü

Prezident İlham Əliyevin 10 avqust 2006-cı il tarixli sərəncamı ilə "Bakıelektrikşəbəkə" ASC-nin fəaliyyəti bərpa edilməklə paylayıcı elektrik şəbəkələrində islahatlara start verildi. Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2015-ci il tarixli sərəncamına əsasən, "Bakıelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyətinin bazasında "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti yaradıldı.

Beləliklə, 2006-cı ildən başlayaraq, Bakı və regionlarda 150-dən artıq 110 və 35 kV-luq yarımstansiya tikilərək yenidən quruldu, minlərlə kilometr yeraltı və hava xətləri çəkildi, 5 min ədədə yaxın komplekt transformator məntəqəsi quraşdırıldı. Milyondan artıq sayğac yeniləndi. Aparılan islahat, tikinti, yenidənqurma və sayğaclaşdırma işləri itkiləri azaltdı. Nəticədə enerjinin illik istehsalı 2006-cı ildə 23,8 milyard kVts olduğu halda, 2010-cu ildə 18,5 milyard kilovatsaata düşdü. Qeyd edək ki, 2006-cı ildə Bakı şəhərində enerji haqqının yığımı 49 faiz olduğu halda 2015-ci ildə 99 faizə qaldırıldı, texniki itkilər isə 16,9 faizdən 7,8 faizə endirildi. 2015-ci ildə isə "Azərişıq" ASC yarandıqdan sonra ölkə üzrə enerji haqqının yığımı 76 faizdən 95 faizə çatdırıldı və texniki itkilər regionlar üzrə 20 faizə yaxın olduğu halda 9 faizə salındı.

## Enerjisistemin inkişaf dövrü

Cənab Prezidentin rəhbərliyi ilə aparılan islahat və inkişaf dalğası paralel olaraq enerjinin istehsalı sahəsini də əhatə edirdi. 2006-cı ildən başlayaraq, "Astara", "Şəki", "Xaçmaz", "Naxçıvan" modul tipli elektrik stansiyaları tikilərək istismara verildi. Həmin il "Naxçıvan" Qaz-Turbin Elektrik Stansiyası əsaslı yenidənqurmadan sonra dizel yanacağından qaz yanacağına keçirildi, "Vayxır" Su-Elektrik Stansiyası işə salındı. 2007-ci ildə "Bakı" və "Səngəçal", 2009-cu ildə isə "Xaçmaz" və "Sumqayıt" elektrik stansiyaları istismara verildi. Sonrakı dövrlərdə "Şahdağ", "Sumqayıt", "Biləv", "Şəmkirçay" və "Cənub" elektrik stansiyalarının və digər generasiya güclərinin açılışları oldu.

## Enerjisistemin tərəqqi dövrü

Cənab Prezidentin 20 illik enerji startegiyasının uğurları mərhələlərə bölünsə, heç şübhəsiz, son 5 il və ya 2018-ci ildən sonrakı dövrü Azərbaycan elektroenergetikasının inkişafının pik dövrü adlandırmaq olar. Çünki bütövlükdə enerjisistemin reabilitasiya proqramının həyata keçirilməsi, alternativ və bərpa olunan enerji mənbələrinin sürətlə inkişaf etdirilməsi və işğaldan azad edilən ərazilərdə görülən işlər məhz son 5 ilə təsadüf edir.

"Azərenerji" ASC-nin elektrik stansiyalarında "itirilmiş" güclərin bərpası, yenidənqurma və təmir işlərinin həyata keçirilməsi məqsədi ilə dövlət başçısının tapşırığına uyğun olaraq, 2018-ci ildə "Reabilitasiya Proqramı"nın icrasına başlanıldı. İstismar müddətini başa vurmuş Mingəçevirdəki "Azərbaycan" İstilik-Elektrik Stansiyası "Reabilitasiya Proqramı" çərçivəsində tamamilə yenidən quruldu, 12 elektrik stansiyasında təmir-bərpa işləri həyata keçirildi.

Son beş il ərzində həyata keçirilən fəaliyyət və icra edilmiş layihələrin nəticəsində 840 MVt yeni generasiya gücü istismara verildi, mövcud generasiya gücləri üzrə 1300 MVt-a qədər güc "Reabilitasiya Proqramı" çərçivəsində bərpa edildi. Bu dövr ərzində enerjisistem üzrə elektrik enerjisinin istehsalında xüsusi sərfiyyatın azalması nəticəsində 14,5 milyon manat dəyərində 239 milyon kVts və texniki itkilərin azalması nəticəsində 8 milyon manat dəyərində 128 milyon kVts elektrik enerjisinə, eləcə də 214,5 milyon manat dəyərində 1,3 milyard m3 həcmində təbii qaza qənaət edildi.

2018-ci ildən bu yana 16,5 MVt gücündə olan "Lerik" Elektrik Stansiyası, 2019-cu ildə 400 MVt gücündə "Şimal-2" Elektrik Stansiyası, 2022-ci ildə Bakının Qobu qəsəbəsi ərazisində yükötürmə gücü 1000 meqavat olan 330/220/110 kilovoltluq "Qobu" yarımstansiyası və 385 meqavatlıq "Qobu" Elektrik Stansiyası inşa olunaraq istismara verildi və ölkənin ümumi enerji sisteminə qoşuldu.

Prezident İlham Əliyevin 25 oktyabr 2022-ci ildə imzaladığı sərəncama uyğun olaraq, Mingəçevirdə yerləşən "Azərbaycan" İstilik-Elektrik Stansiyasının ərazisində müstəqillik dövrünün ən böyük elektrik stansiyası, 1280 meqavat gücündə yeni generasiya mənbəyi yaradılır. "Azərbaycan" İES-in mövcud 7-ci və 8-ci enerji bloklarının buxar turbinləri ilə 1280 meqavatlıq yeni stansiyanın əlaqələndirilməsi nəticəsində ümumi generasiya gücü 1880 meqavat təşkil edəcək.

Xəzər dənizində su səviyyəsinin kəskin düşməsi səbəbindən, "Sumqayıt" Elektrik Stansiyası üçün soyutma suyunun dənizin 5 metr dərinliyindən götürülməsini təmin edən 750 metr uzunluğunda estakada tikilərək istifadəyə verilib. Analoji inşaat işi "Şimal" Elektrik Stansiyasında da həyata keçirildi. Burada isə soyuq suyun 8 metr dərinlikdən götürülməsinə imkan verən 540 metr uzunluğunda yeni suqəbuledici estakada tikildi.

Enerjisistemin istehsal sahəsi ilə yanaşı, ötürmə sahəsində də cənab Prezident İlham Əliyevin göstərişi ilə 5 ədəd yeni yarımstansiya (1 ədəd 330 kV-luq, 2 ədəd 220 kV-luq, 2 ədəd 110 kV-luq) tikilib, 21 ədəd yarımstansiya (1 ədəd 500 kV-luq, 1 ədəd 330 kV-luq, 4 ədəd 220 kV-luq, 15 ədəd 110 kV-luq) tam yenidən qurulub. 450 km-dən artıq yeni 220-330 kV gərginlikli elektrik verilişi xətti, o cümlədən dövlətlərarası 330 kV-luq 1-ci, 2-ci "Qardabani" (2x43,7 km) və 220 kV-luq "Masallı-Astara (İİR)" (67,5 km) beynəlxalq ötürmə xətti çəkilib.

## Qarabağ və Şərqi Zəngəzurun işıqlandırılması

İşğaldan azad edilən ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsi və Azərbaycanın ümumi enerji sisteminə qoşulması ilə bağlı cənab Prezident İlham Əliyevin tapşırığına uyğun Qarabağ və Şərqi Zəngəzurun bütün istiqamətlərində "Azərenerji" tərəfindən irimiqyaslı işlərə başlanıldı. Əslində, müharibə gedən dövrdə layihələndirilmə işi aparılmışdı və 10 noyabr Bəyanatından dərhal sonra əməli işə keçildi. İlk növbədə, Füzulidən mədəniyyət paytaxtı Şuşaya iki dövrəli olmaqla çox çətin relyefdə, ağır iqlim şəraitində, minalanmış əraziləri keçməklə 75 km məsafədə ötürmə xətti çəkildi və Şuşanın girişində 110/35/10 kV-luq rəqəmsal yarımstansiya tikildi. 2021-ci il mayın 12-də isə cənab Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, qızları Leyla və Arzu Əliyevaların iştirakı ilə "Şuşa" yarımstansiyası işə salınaraq Şuşada daimi öz işığımız yandırıldı.

Bundan cəmi bir ay sonra iyunun 14-də Füzuli şəhərində "Azərenerji" tərəfindən yeni tikilən 110/35/10 kV-luq "Füzuli" və "Şükürbəyli" yarımstansiyalarının açılışı oldu.

Cənab Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə avqustun 16-da 29 ildən sonra Kəlbəcərdə öz işığımız yandırıldı və 3500 metr yüksəklikdəki Murov dağından keçərək qarlı, şaxtalı havada, sıldırımlı relyefdə 70 km məsafədə çəkilən 110 kV-luq ikidövrəli "Daşkəsən-Kəlbəcər" xətti və yeni tikilən 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyası istismara verildi.

Oktyabrın 4-də Cəbrayılın işğaldan azad olunmasının bir illiyində 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyası işə salındı. 2021-ci il oktyabrın 20-də yeni tikilən 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyasının, oktyabrın 25-də isə "Qubadlı" yarımstansiyasının cənab Prezidentin iştirakı ilə açılışı oldu.

13 fevral 2022-ci ildə isə cənab Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə minalardan təmizlənmiş ərazilərdə tikilən "Ağdam-1", "Ağdam-2" və Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzi istismara verildi.

2022-ci il mayın 26-da cənab Prezident tərəfindən Azərbaycan-Türkiyə-Avropa ölkələrarası beynəlxalq enerji layihəsi çərçivəsində 330 kV-luq "Cəbrayıl" Enerji Qovşağının təməli qoyuldu və rekord müddətdə - bir il ərzində tikilərək 2023-cü ilin mayında istismara verildi.

Beləliklə, bu günə kimi "Azərenerji" tərəfindən Qarabağ və Şərqi Zəngəzurda 12 yerdə yarımstansiya tikilərək istismara verilib və 700 kilometrdən artıq 330 və 110 kV-luq yüksəkgərginlikli ötürmə xətti çəkilərək bütün işğaldan azad edilən ərazilərə 100 faiz enerji çatdırılıb. Ən əsası bütün yarımstansiyalar Azərbaycanın ümumi enerji sisteminə qoşulub.

2023-cü il sentyabın 20-də həyata keçirilən antiterror tədbirlərindən cəmi 4 gün sonra Xankəndi şəhərinin Ermənistanın enerji sistemindən ayrılaraq Azərbaycan enerji sisteminə qoşulması təmin edilib. Artıq Xankəndi və ətraf ərazilərdə Azərbaycan işığı yanır. Hazırda "Azərenerji" tərəfindən sözügedən ərazilərdəki elektrik stansiyaları və yarımstansiyalarda təmir-bərpa işləri həyata keçirilir.

## Azad edilən ərazilər "yaşıl enerji" zonasına çevrilir

Cənab Prezidentin işğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı tapşırığına uyğun olaraq müharibə bitər-bitməz əməli işə keçilib. Nəticədə müharibənin bitməsindən cəmi üç ay sonra, 2021-ci ilin fevral ayında ermənilər tərəfindən dağıdılan, döyüşlər zamanı mərmi yağışı altında qalan Laçındakı 8 meqavat gücündə "Güləbird" Su-Elektrik Stansiyası yenidən qurularaq cənab Prezidentin və birinci xanımın iştirakı ilə istismara verildi və bu, işğaldan azad edilən ərazilərdə istifadəyə verilən ilk obyekt olaraq tarixə düşdü.

2021-ci il oktyabrın 3-də Suqovuşanın işğaldan azad olunmasının birilliyi tamam olan gün "Azərenerji" tərəfindən tam yenidən qurulan, ümumi gücü 7,8 meqavat olan "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su-elektrik stansiyalarının açılışı oldu.

26 iyun 2022-ci ildə 4,4 meqavat gücündə "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyası yenidən qurulduqdan sonra Kəlbəcər rayonunda ilk istehsal obyekti olaraq istismara verildi.

"Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyasından başqa, Kəlbəcərdə 5 yerdə yenidən qurulan 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,4 meqavat gücündə "Meydan" kiçik su-elektrik stansiyalarının cənab Prezidentin iştirakı ilə işə salınması gerçəkləşdi. Bundan başqa, Laçın rayonunda tam yenidən qurulan 8,25 MVt gücündə "Mişni" və 6 MVt gücündə "Alxaslı" kiçik su elektrik stansiyalarının 2023-cü ilin avqust ayında cənab Prezident İlham Əliyevin iştirakı ilə açılışı oldu.

Bundan bir ay sonra sentyabrın 28-də cənab Prezidentin iştirakı ilə Zəngilan rayonunda tam yenidən tikilən 10,5 MVt gücündə "Cahangirbəyli" Su-Elektrik Stansiyası istismara verildi. Hazırda Zəngilan rayonunda hər birinin gücü 10,5 MVt olmaqla 3 yerdə yaradılan "Şayıflı", "Zəngilan", "Sarıqışlaq" və Laçın rayonunda 14,25 MVt gücündə "Ağbulaq-1" su-elektrik stansiyalarında işlər tamamlanıb. Eyni zamanda Laçın və Kəlbəcər rayonlarında daha 9 yerdə tikilən su-elektrik stansiyalarında tikinti işləri həyata keçirilir. Beləliklə, bu günədək işğaldan azad edilən ərazilərdə 26 yerdə su-elektrik stansiyası tikilərək yenidən qurulub və hazırda 9 yerdə tikinti işləri davam etdirilir.

## Dövlət başçısının "yaşıl enerji" strategiyası

Prezident İlham Əliyevin elan etdiyi "yaşıl enerji" strategiyasına uyğun olaraq, təkcə ışğaldan azad edilən ərazilərdə tikilən və tikiləcək stansiyaların qoyuluş gücü 370 meqavatdan çoxdur. Üstəgəl "Sərsəng" SES və suverenliyimiz bərpa edilən digər ərazilərdə isə mövcud enerji potensialı 80 MVt-a yaxındır. "Yaşıl enerji"nin digər növlərinin də işğaldan azad edilən ərazilərdə, o cümlədən ölkənin digər yerlərində potensialı olduqca böyükdür. Bu potensial Azərbaycanın beynəlxalq aləmə çıxışını daha da genişləndirir və ölkəmizə böyük dividendlərin gətirilməsinə yaşıl işıq yandırır. Belə ki, Abşeron rayonu ərazisində 240 meqavatlıq günəş və 240 meqavatlıq külək, həmçinin Qarabağ iqtisadi rayonu ərazisində, Cəbrayıl rayonunda 240 MVt-lıq günəş, Kəlbəcər rayonunda 100 MVt-lıq külək-elektrik stansiyalarının, eyni zamanda yeni kiçik su-elektrik stansiyalarının yaradılması ilə alınan generasiya gücləri ekoloji cəhətdən təmiz enerji hesabına Azərbaycanın elektrik enerjisinin ixrac potensialının ixraca yönəldilməsinə imkan verəcək. Qeyd edək ki, dövlət başçısının enerjisistem sahəsində həyata keçirdiyi qlobal layihələrin inkişaf mərhələsinin mənbəyi məhz ölkə daxilində yaratdığı quruculuq proseslərindən bəhrələnir. Onun rəhbərliyi illərində elektrik verilişi xətləri və yarımstansiyalarla bağlı aparılan quruculuq işləri nəticəsində ölkə enerjisistemi tamamilə əlaqələndirilib.

Son olaraq qeyd edək ki, cənab Prezidentin 20 illik davamlı inkişaf strategiyasına uyğun olaraq iqtisadi, sosial, hərbi, sənaye və digər sahələrdə olduğu kimi, energetika sektoru da intibah dövrünü yaşayır. Bu gün Azərbaycanın energetika sektoru dünyanın bir çox ölkəsinə, o cümlədən inkişaf etmiş ölkələrə nümunə göstəriləcək səviyyədədir. Bu isə cənab Prezident İlham Əliyevin elektroenergetika ilə bağlı həyata keçirdiyi uğurlu enerji strategiyasının, davamlı diqqət və qayğısının nəticəsidir. Qarşıda isə növbəti hədəflər var. Cənab Prezidentin rəhbərliyi ilə suverenliyimizin tam bərpa edildiyi ərazilərdəki enerji infrastrukturunu Azərbaycanın digər ərazilərinin səviyyəsinə çatdırmaq, artan tələbatı qarşılamaq üçün işğaldan azad edilən, o cümlədən ölkənin digər yerlərində yeni generasiya mənbələri yaratmaq, rəqəmsallaşan enerjisistem konsepsiyasını tamamlamaq, "yaşıl enerji"nin istehsalını 30 faizə çatdırmaq və bu enerjinin bir hissəsini Avropaya ixrac etmək.

*Ən başlıcası isə dayanıqlı, etibarlı, fasiləsiz və keyfiyyətli enerji təchizatını qüsursuz həyata keçirmək.*

*Enerjiniz bol, yolunuz işıqlı olsun!*

***Baba RZAYEV,***
***"Azərenerji" ASC-nin prezidenti***















# Hər ili möhtəşəm olan 20 il



**Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ölkəmizə siyasi rəhbərliyi dövrü böyük bir epoxa təşkil edir. Heydər Əliyev epoxası sosializm cəmiyyəti şəraitində xalqımızı dövlət müstəqilliyinə hazırlamaqdan ölkəmizdə müstəqil dövlətçiliyin xilasına və yenidən bərpa edilməsinə, gələcək inkişafın möhkəm təməllərinin yaradılmasına qədərki ümummilli xarakterli kompleks məsələləri özündə birləşdirir. Bu tarixi epoxanın yaradıcısı və aparıcı tarixi siması olan görkəmli dövlət xadimi Heydər Əliyevin adı Azərbaycanın çoxəsrlik tarixinə əbədi həkk olunmuşdur. Heydər Əliyev epoxasının ictimai-siyasi hadisələri və tarixi nailiyyətləri xalqımızın mənəvi təkamülündə Azərbaycan cəmiyyətinin hərtərəfli inkişafında xüsusi mərhələ kimi şərəfli tarixə çevrilmişdir.**

Müstəqil dövlətçilik dövrünün inkişafında yeni tarixi mərhələ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi hakimiyyətə gəlməsi ilə başlanmışdır. Dövlət rəhbəri kimi İlham Əliyevin məqsədyönlü və uğurlu dövlətçilik fəaliyyəti siyasi varisliklə yeni tarixi epoxanın reallıqları, müasirlik və modernləşdirmə üzərində qurulmuşdur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəqil dövlətçilik təlimi yeni tarixi dövrün lideri olan İlham Əliyev tərəfindən yaradıcı şəkildə inkişaf etdirilərək, dünyada və ölkədə gedən proseslərlə əlaqəli şəkildə düşünülmüş addımlarla zənginləşdirilərək müasir dövrün daha yüksək mərhələsinə qaldırılmışdır. Prezident İlham Əliyev üçün ənənə və siyasi varislik möhkəm təməl, çoxvektorlu inkişaf, müasirləşdirmə və modernləşdirmə isə ali məqsəddir. Qətiyyətli siyasi iradə, dünyanın ictimai-siyasi gedişatını dərindən təhlil edərək vaxtında ölkə üçün taleyüklü qərarları qəbul etmək, müəyyən edilmiş strategiyanı dönmədən həyata keçirmək istedadı milli dövlətçilik tarixində İlham Əliyevin özünəməxsus obrazının yaranmasına xidmət edir. Bütün bunlar ölkəmizin tarixində yeni bir tarixi inkişaf mərhələsi olan İlham Əliyev erasını meydana çıxarmışdır. Cəmiyyət həyatında ardıcıl və çoxşaxəli inkişafın, bütün sahələrdə nailiyyətlərin qazanılması, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli dövlət anlayışlarının müqəddəs amala çevrilməsi İlham Əliyev erasının ana xətlərini təşkil edir. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun, hərbi qüdrətinin inkişaf etdirilməsi də İlham Əliyev erasının mühüm hadisələridir. Bütün bunların arxasında isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin parlaq liderlik siması dayanır. Liderlik üçün çox səciyyəvi olan müqəddəs ali dəyərlər Azərbaycan Respublikasının Müzəffər Ali Baş Komandanı İlham Əliyevi dünyada qəbul edilən görkəmli dövlət xadimi miqyasına qaldırmışdır. Atdığı düşünülmüş və qətiyyətli addımlar nəinki ölkə həyatının bütün sahələrində, eyni zamanda beynəlxalq miqyasda Prezident İlham Əliyevə əsl liderlik nüfuzu qazandırmışdır. Böyük qürur hissi ilə deyə bilərik ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev planetimizdəki ən görkəmli dövlət liderləri sırasında dayanır. Prezident İlham Əliyevin liderlik obrazında rəhbərlik etdiyi ölkənin ərazi bütövlüyü xalqı və dövləti qarşısındakı taleyüklü böyük xidmətləri və beynəlxalq aləmdə sülhə, ədalətə və təhlükəsizliyə verdiyi mühüm töhfələrlə müəyyən olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilk növbədə doğma xalqının və son nəticədə dünyanın qüdrətli liderlərindən biridir. Böyük qürur hissi ilə deyə bilərik ki, Azərbaycan xalqının bütün təbəqələrinin cəsarətli və ədalətli lider kimi sonsuz məhəbbət və ehtiram bəslədiyi İlham Əliyev beynəlxalq aləmdə də dünyanın tanınmış liderlərindən biri kimi qəbul edilir.

Dünya liderlərinin ön sıralarında təmsil olunmaq üçün Prezidentin siyasi iradəsi və xarizması ilə bərabər, mütləq onun həyata keçirdiyi islahatların, əldə etdiyi mühüm nəticələrin miqyası və əhəmiyyəti də zəruri prinsiplərdir. Fikrimcə, real və uzaqgörən ideyaları konkret böyük əməllərə çevirmək baxımından həyata keçirilmiş tədbirlərin ümummilli miqyasına, əhatə dairəsinə, hərbi-siyasi əhəmiyyətinə, iqtisadi cəhətdən faydalılıq əmsalına görə Prezident İlham Əliyevlə müqayisə edilə biləcək liderlər göstərmək asan deyildir. Təsadüfi deyildir ki, Azərbaycan xalqının Lideri üçün "Sözümüz imzamızdır, biz nəyə söz veririksə, onu da edirik, bunu bütün dünya bilir" prinsipi ölkə rəhbərinin həyatının və fəaliyyətinin əsas devizi kimi bəyan olunur. Məhz ona görə də Prezident İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi 2003-2023-cü illər ölkəmizin çoxəsrlik tarixinə möhtəşəm 20 il kimi daxil olmuşdur. Bu tarixi dövr haqlı olaraq Azərbaycan tarixində İlham Əliyev erası adlandırılır. İlham Əliyev erası - çoxəsrlik Azərbaycan tarixində xüsusi mərhələ olmaqla bərabər, həm də müstəqillik dövrünün taleyüklü məsələlərinin həlli, gələcəyə baxışı əks etdirən böyük bir mərhələdir.

İlham Əliyev erasının böyük tarixə çevrilmiş ən mühüm hadisələrindən biri və ya cəmi bir neçəsi yetər ki, hər hansı dövlət rəhbəri öz xalqının qüdrətli lideri kimi qəbul olunsun. Əhəmiyyətinə və mahiyyətinə görə Prezident İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi 20 ilin isə hər ili möhtəşəmdir. Dövlət başçımızın qəbul etdiyi dövlət proqramlarının əsasında regionların inkişaf etdirilməsinin ardıcıl surətdə həyata keçirilməsi ilə Azərbaycan kəndi özünün çoxəsrlik tarixində görünməmiş yüksəliş səviyyəsinə qalxmışdır. Dünyanın heç bir ölkəsində regionlar Azərbaycandakı qədər ardıcıl və yüksək inkişaf templərinə malik deyildir. Bu, regionların inkişaf etdirilməsinin İlham Əliyev modelidir. Bu, Azərbaycan kəndini ölkəmizin əsas məşğulluq mərkəzlərinə çevirmək vəzifələrinin həyata keçirilməsinin mükəmməl həlli hadisəsidir. Məhz regionların hərtərəfli və məqsədyönlü şəkildə inkişaf etdirilməsinin əməli nəticəsidir ki, artıq Azərbaycan Respublikasının dövlət büdcəsinin formalaşmasında neft gəlirlərindən asılılıq əsasən aradan qaldırılmış, aqrar sektorun rolu nəzərəçarpacaq səviyyədə artmışdır.

Ulu Öndər Heydər Əliyevin imza atdığı "Əsrin müqaviləsi"ni Prezident İlham Əliyev "Əsrin əfsanəsi"nə çevirmişdir. XXI əsrin ən böyük neft-qaz kəmərləri olan Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz magistralları Azərbaycan neft strategiyasının real əfsanəsidir. Son 20 ildə məqsədyönlü şəkildə həyata keçirilmiş uğurlu neft-qaz siyasəti nəticəsində Azərbaycan neft-qaz magistrallarının Avropa ölkələrinə çatdırılması, bu ölkələrin xilası və inkişafı amilinə çevrilməsi Prezident İlham Əliyev tərəfindən əfsanələrin reallığa çevrilməsi hadisəsindən ibarətdir. Artıq dünya ölkələrində də TANAP-TAP kimi beynəlxalq neft-qaz layihələrinə əsrin əfsanəsi kimi yüksək qiymət verilir. İndi bir çox Avropa ölkəsində insanların yaşayışını və iqtisadi inkişafını Azərbaycanın nefti və qazı olmadan təsəvvür etmək mümkün deyildir. Həm də dünyanın hazırkı çətin və mürəkkəb geosiyasi şəraitində İlham Əliyevin maraqlı dövlətlərin mənafelərinə toxunmadan, heç bir halda qısqanclığa və təzyiqlərə yol vermədən nəhəng neft-qaz layihələrini uğurla həyata keçirmək məharəti Azərbaycana etibarlı dostlar və tərəfdarlar qazandırır. Bu isə öz növbəsində beynəlxalq təşkilatlarda, habelə dünya ölkələri ilə ikitərəfli əlaqələrin möhkəmləndirilməsində imkanlarımızın daha da artmasına və qüvvətləndirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Nəqliyyat-logistika sahəsində aparılan möhtəşəm işlər Azərbaycanın dünya ölkələri ilə əlaqələrinin inkişaf etdirilməsinə böyük təminat yaradır. Bundan başqa, Azərbaycanın dünyanın əsas tranzit qovşaqlarından birinə çevrilməsi ölkəmizə nəqliyyat sahəsinin də iqtisadi cəhətdən gəlir gətirən əsas mənbələrdən biri statusu qazandırır. Bu cəhətdən Bakı-Tbilisi-Qars dəmir yolu çox mühüm layihədir. Avropa ilə Asiyanı əlaqələndirən bu dəmir yolunun çəkilib başa çatdırılmasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsi və uzaqgörənliyi həlledici rol oynamışdır. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolu Çin Xalq Respublikasının dövlət siyasəti səviyyəsində elan etdiyi "Bir kəmər - Bir yol" strategiyasının Qafqaz regionundakı əsas ötürücü vasitəsi kimi dünya ölkələri üçün də əlverişli nəqliyyat qovşağı hesab olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın 25 sentyabr 2023-cü il tarixdə Naxçıvan şəhərində imzaladıqları Niyyət Protokolunun müddəalarında Bakı-Tbilisi-Qars dəmir yolunun Qars-İğdır-Sədərək vasitəsilə muxtar respublikaya qədər daha bir qolunun çəkilməsinə dair razılaşdırılmanın öz əksini tapması bu magistralın Naxçıvan-Təbriz-Tehran vasitəsilə Orta Asiyaya doğru daha bir marşrutunun açılmasına şərait yaradır. Ona görə də haqlı olaraq Bakı-Tbilisi-Qars dəmir yolunu beynəlxalq aləmdə dəmir İpək yolu da adlandırırlar. Bundan başqa, Azərbaycan Respublikasının erməni işğalından azad edilmiş torpaqlarında - Füzuli şəhərində və Zəngilanda salınmış beynəlxalq hava limanları da ölkəmizin dünyaya açılan qapıları kimi mühüm əhəmiyyətə malikdir. Son günlərdə yenidən aktivləşən "Şimal-Cənub" magistralı isə Azərbaycanı avtomobil yollarının da əsas qovşaqlarından birinə çevirəcəkdir. Beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olan Zəngəzur dəhlizinin açılmasına nail olmaqla Prezident İlham Əliyev Azərbaycan Respublikasını regionun və dünyanın əsas nəqliyyat mərkəzləri səviyyələrinə çatdıracaqdır. Ölkəmizin dünyanın tranzit qovşaqlarından biri kimi çıxış etməsi iqtisadi cəhətdən səmərəli olduğu kimi, mədəni əlaqələrin də inkişafına öz töhfələrini verir. Bu isə Azərbaycanda müasir inkişafın yeni intibah mərtəbəsinə çatdırılması üçün əsas faktordur.

Beynəlxalq əlaqələrin inkişaf etdirilməsi, uğurlu xarici siyasət kursu və sabit diplomatik münasibətlər İlham Əliyev erasının mühüm göstəricilərindəndir. Dünya ölkələri və region dövlətləri ilə qarşılıqlı etimada əsaslanan sağlam münasibətlərin qurulması və inkişaf etdirilməsi İlham Əliyevin xarici siyasət kursunun reallığı və böyük uğurudur. Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının xüsusi iclasının çağırılması və dövlət başçımızın irəli sürdüyü problemlərin beynəlxalq müstəvidə müzakirəyə çıxarılması xarici siyasət sahəsində nadir tarixi hadisədir. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi də müstəqil dövlətimizin böyük uğurudur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dünyanın ikinci beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatına uğurla sədrlik etməsi dövlət başçımızın dünya liderlərindən biri olduğunu sübut edir. İslam Əməkdaşlıq Təşkilatında və İqtisadi Əməkdaşlıq Təşkilatında Azərbaycanın söz sahibi olması respublikamızın beynəlxalq nüfuzunun müasir reallıqlarıdır.

Əlbəttə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət başçısı kimi iyirmi illik fəaliyyətinin ən böyük zirvəsi 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdir. Müzəffər Ali Baş Komandanın işğalçı Ermənistan üzərində qazandığı bu tarixi Zəfər XXI əsrdə dünyada qələbə ilə başa çatmış ən ədalətli müharibə nümunəsidir. Azərbaycanın Qarabağ savaşı beynəlxalq aləmdə yeni müharibə texnologiyasının tətbiqi ilə aparılmış müharibə kimi də təkrarsızdır. Bu, dünya hərb tarixində ən qısa müddətdə qələbə ilə başa çatmış müharibə olaraq da əhəmiyyətlidir. Qalib Ali Baş Komandanın "dəmir yumruğ"u ilə 20 sentyabr 2023-cü il tarixdə cəmi bir gün ərzində Qarabağda keçirilmiş antiterror tədbirləri ilə də qüdrətli dövlət rəhbəri olan İlham Əliyev daha bir mühüm tarixi zəfərə imza atmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 illik işğaldan sonra ölkəsinin tarixi torpaqlarını düşmən əsarətindən azad edən, rəhbərlik etdiyi dövlətin tam ərazi bütövlüyünə nail olmağı bacaran liderdir. Azərbaycan Respublikasının mütləq suverenliyinin təmin edilməsi Prezident İlham Əliyevin möhtəşəm tarixi Zəfəridir.

Azərbaycanın cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, həmin istiqamətdə ölkəmizdə böyük nailiyyətlər qazanılmamış olsun. Respublikamızda inkişaf etməmiş region, yenidən qurulmamış heç bir sahə yoxdur. Böyük sürətlə inkişaf edən paytaxtımız Bakını dünyanın ən gözəl şəhərləri ilə müqayisə etmək olar. Azərbaycan 20 il ərzində kosmos ölkəsi kimi də dünyada ad qazanmışdır. Son onilliklər Azərbaycanda milli-mənəvi dəyərlərin, elm və mədəniyyətin bütün sahələrinin inkişaf etdirilməsi sahəsində qazanılmış böyük uğurlar xalqımızın və müstəqil dövlətimizin simasını müəyyən edən dəyərlər səviyyəsinə qalxmışdır. Çox böyük uğurla Avropa və İslam Olimpiya oyunları keçirən, əsas idman növləri üzrə beynəlxalq yarışlara evsahibliyi edən Azərbaycan dünyanın ən inkişaf etmiş idman ölkəsinə çevrilmişdir.

Prezident İlham Əliyevin çoxcəhətli, məqsədyönlü fəaliyyətinin uğurları sırasında elm və ədəbiyyat sahəsindəki nailiyyətlər də xüsusi yer tutur. İlham Əliyevin ədəbiyyat siyasəti xalqımızın milli-mənəvi özünüdərk proseslərinin daha da dərinləşdirilməsinə, yeni nəsil yazıçıların meydana çıxmasına və vətənpərvərlik üstündə köklənmiş müasir nəsillərin formalaşdırılmasına uğurla xidmət edir. Çoxəsrlik tariximizdə ilk dəfə keçirilmiş "Nizami Gəncəvi ili" və "İmadəddin Nəsimi ili" Azərbaycan ədəbiyyatı klassiklərinin həyatı və yaradıcılığının dərindən araşdırılaraq xalqımıza daha yaxından tanıdılması və dünyada təbliğ olunması baxımından kəşf olunmuş milli dövlət siyasətinin mükəmməl ifadəsidir. Dövlət səviyyəsində həyata keçirilən ədəbiyyat siyasəti həm də müstəqil dövlətimizin əsas dövlətçilik ideologiyası olan azərbaycançılıq təliminin zənginləşdirilməsinə və möhkəmləndirilməsinə təminat verir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə keçirilən "Heydər Əliyev İli" tədbirləri xalqımızda müstəqil dövlətçilik təfəkkürünün dərinləşdirilməsinə və möhkəmləndirilməsinə xidmət edən mühüm siyasi-ideoloji dərslərdir.

Azərbaycan elminin inkişafında da möhtəşəm 20 ilin özünəməxsus yeri vardır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 4 yanvar 2003-cü il tarixli sərəncamı ilə Milli Elmlər Akademiyası statusu qazanmış ali elmi qurumumuzun xalqımızın milli maraqlarına, ölkəmizin dövlətçilik mənafelərinə uyğun şəkildə inkişaf etdirilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmişdir. Dövlət rəhbərimizin 9 noyabr 2015-ci il tarixdə Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağında iştirakı ilə böyük tarixi əhəmiyyətə malik olan nitqi akademiyanın yeni tarixi mərhələdəki proqramıdır. Azərbaycan elmini regionda elmi sferanın ön mövqeyinə çıxarmaq vəzifəsini qarşıya qoyan dövlət rəhbərimiz azərbaycançılıq ideyasının dövlət ideologiyası səviyyəsində dərk və şərh olunmasını, elmi əsaslarla xalqa çatdırılmasını mühüm bir vəzifə kimi irəli sürmüşdür. Cənab Prezidentimizin həmin tarixi görüşdə diqqət mərkəzinə çəkdiyi aşağıdakı məsələlər bu gün dünyada süni intellektin risklərinin, kibertəhlükəsizliyin aktual olduğu dövrdə həm Azərbaycanın elmi ictimaiyyəti, həm də ümumiyyətlə, elm aləmi üçün çox aktual və əhəmiyyətlidir: "Əsrlərboyu Azərbaycan xalqını bir xalq kimi qoruyan bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, xalçaçılıq sənətimiz və digər ənənələrimiz olubdur. Bizim bu sahədəki bütün fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır. Azərbaycan dili bizi bir xalq, bir millət kimi qoruyub. Əsrlərboyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi qoruya, saxlaya bilmişik. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik… Lüğətimiz o qədər zəngindir ki, bunu qorusaq və gələcək nəsillərə əmanət kimi təhvil versək, bu, bizim bu sahədəki ən böyük nailiyyətimiz olacaqdır... Biz öz tariximizi… dünya miqyasında daha da dolğun təmin etməliyik... Tariximiz onu göstərir ki, azərbaycanlılar bu torpaqda əsrlərboyu yaşamışlar. Bugünkü Ermənistan Azərbaycan torpaqlarında yaradılıbdır... "Qarabağ", "Xankəndi" Azərbaycan sözləridir".

Milli Elmlər Akademiyasının ən müasir səviyyədə maddi-texniki bazasının yaradılması istiqamətində də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük qayğısı və diqqəti vardır. Möhtərəm Prezidentimizin şəxsən iştirakı ilə 2013-cü ildə Milli Elmlər Akademiyasının istifadəsinə verilmiş, ən yeni texnologiya əsasında inşa olunmuş Mərkəzi Elmi Kitabxana binası və Milli Ensiklopediya Mərkəzi ölkəmizdə elmin daha da inkişaf etdirilməsinə göstərilən dövlət qayğısının parlaq əməli ifadəsidir. Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə elm adamlarımızın beynəlxalq elmi resurslardan ödənişsiz istifadə etməsinə yaradılmış şərait də respublikamızda elmi mühitin dünyaya inteqrasiya olunmasına açılan geniş bir pəncərədir. Son 20 il ərzində elmi işçilərin əməkhaqlarının, doktorant və dissertantların təqaüdlərinin bir neçə dəfə artırılması alimlərimizin sosial müdafiəsi sahəsində dövlət qayğısının ardıcıllığını nümayiş etdirir. Milli Elmlər Akademiyasının 60 və 70 illik yubileylərinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar və həmin yubiley mərasimlərində dövlət rəhbərimizin iştirakı və nitq söyləməsi akademiyanın həyatında baş vermiş mühüm tarixi hadisədir. Dövlət başçımızın Milli Elmlər Akademiyasına səfərləri bu elmi təşkilatın inkişafı yolundakı mühüm ictimai-siyasi hadisədir. Prezident İlham Əliyevin Milli Elmlər Akademiyasına hər səfəri ölkəmizin ali elmi qurumunun inkişafına təkan verən, alimlərimizi daha böyük nailiyyətlərə ruhlandıran mühüm faktor olmuşdur. Eyni zamanda görkəmli elm xadimlərinin yubileylərinin keçirilməsi, fəxri adlara layiq görülməsi, təltif olunması haqqında Prezident İlham Əliyevin imzaladığı sərəncamlar və bu qərarların əsasında ölkə miqyasında və beynəlxalq masştabda həyata keçirilən tədbirlər Azərbaycan elminin nailiyyətlərinin qiymətləndirilməsi ilə bərabər, həm də gələcək elmi inkişafa böyük stimul vermişdir. Hazırda Azərbaycan alimləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimizin inkişaf etdirilməsi proseslərində daha fəal surətdə iştirak etmək, azərbaycançılıq istiqamətində, milli-mənəvi dəyərlərin yaşadılması və möhkəmləndirilməsi sahəsində məsuliyyətlə çalışmaqda davam edirlər. Bu gün Azərbaycan Milli Elmlər Akademiyası yenidən təşkilatlanaraq qloballaşmanın yaratdığı dalğalardan xalqımızın çoxəsrlik davamlı ənənələrini qorumaq və dayanıqlı inkişafa nail olmaq yolunda yeniləşmə proseslərini irəli aparmaqla xalqımızın müstəqil ideya-mənəvi təkamülünə dəstək verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin alimlərimizin dövlət quruculuğu proseslərində daha yaxından iştirak etməsi istiqamətində qarşıya qoyduğu vəzifələr dönmədən həyata keçirilməkdədir.

*Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müstəqil dövlətimizə rəhbərlik etdiyi 2003-2023-cü illər tarixə möhtəşəm 20 il kimi daxil olmuşdur. Prezident İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi 20 ilin hər ili möhtəşəmdir. Azərbaycan xalqının və dövlətinin həyatında xüsusi tarixi mərhələ olan bu 20 ilin nailiyyətləri Prezident İlham Əliyevin "Heydər Əliyev İli"nə möhtəşəm töhfəsidir. Möhtəşəm 20 il həm də xalqımızın və müstəqil dövlətimizin bundan sonrakı inkişafının da möhkəm təməli və böyük başlanğıcıdır.*

**İsa HƏBİBBƏYLİ,**
***AMEA-nın prezidenti, Milli Məclisin deputatı, akademik***



# Milləti qalib edən Lider

**Azərbaycan xalqının qədim və zəngin dövlətçilik tarixinin ən böyük strateqi, XXI əsrin görkəmli dövlət və siyasi xadimi Prezident İlham Əliyevin dövlət başçısı seçilməsinin 20 ili tamam olur. Tarix baxımından kiçik olsa da, görülən işlərin miqyasına, nəticələrinə və əhəmiyyətinə görə cahanşümul olan bu illəri ümumi elmi-nəzəri və siyasi baxımdan təhlil etmək tarixdən ibrət almaq, düzgün dərslər çıxarmaq və gələcəyə işıq tutmaq üçün faydalıdır.**
**Tarixən belə olub: hər hansı bir dövlət rəhbərinə fəaliyyətinin nəticəsinə - millətinin və dövlətinin qarşısında dayanan başlıca vəzifələri necə yerinə yetirdiyinə görə qiymət verilib. Elə isə Azərbaycan xalqının qarşısında dayanan başlıca vəzifələr nədən ibarət olub?**

## Azərbaycan xalqının qarşısında dayanan başlıca vəzifələr

Ermənistanın əsassız ərazi iddialarının başladığı 1988-ci ildən etibarən Azərbaycan xalqının və hakimiyyətlərinin qarşısında dayanan başlıca vəzifələr tarixi torpaqlarından, dədə-baba yurdlarından vəhşicəsinə qovulan azərbaycanlıların problemlərini həll etmək, Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsini dayandırmaq idi. Dövlət müstəqilliyi bərpa edildikdən sonra isə dövləti qurmaq və Ermənistanın hərbi təcavüzü nəticəsində işğal olunmuş torpaqları azad, ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa etmək olub.

Bu vəzifələr yalnız Prezident İlham Əliyevin rəhbərliyi altında 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük Vətən müharibəsi və 2023-cü il sentyabrın 19-20-də 23 saat 43 dəqiqə sürən lokal xarakterli antiterror tədbirləri nəticəsində yerinə yetirildi. Azərbaycan dövləti və milləti qarşısına qoyduğu vəzifələrin həllinə nail oldu, başlıca məqsədinə çatdı.

Bəs bu məqsədə necə nail olundu? Suala cavab verməkdən ötrü keçilən yola nəzər salmaq lazımdır.

## Azərbaycanlıların Ermənistandan, dədə-baba torpaqlarından qovulması və Azərbaycan ərazilərinin işğal edilməsi

Ermənistanın əsassız ərazi iddialarının və azərbaycanlıların dədə-baba yurdlarından qovulmasının qarşısını sovet dövrünün sonlarında və müstəqilliyin ilk illərində Azərbaycan rəhbərləri ala bilmədilər. Respublikada xaos yarandı. 1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra anarxiyanın hökm sürdüyü və hakimiyyət strukturlarının iflic halına düşdüyü bir şəraitdə Ermənistanın müdaxiləsi 1992-ci ildən etibarən açıq müharibəyə çevrildi. 1991-1992 və 1992-1993-cü illərdə bir-birini əvəzləyən bacarıqsız hakimiyyətlər Ermənistanın Azərbaycanın daxili işlərinə kobud müdaxiləsini və hərbi təcavüzünü dayandıra bilmədilər. Ərazilər işğal olundu, qaçqın və məcburi köçkünlər ordusu yarandı. Ölkə daha da geri getdi və ümumi böhran yarandı. Azərbaycan dövlət müstəqilliyini itirmək, xaricdən dəstəklənən separatçılıqla parçalanmaq təhlükəsi qarşısında dayandı. Belə bir ağır şəraitdə xalqın tələbi ilə və Konstitusiyaya uyğun olaraq hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev təkcə dövləti dağılmaqdan, ölkəni separatçılıqla bölünməkdən xilas etmədi, eyni zamanda Ermənistanın hərbi təcavüzünü dayandırmaq və işğal edilmiş əraziləri azad etmək üçün müəyyənləşdirdiyi strategiyasını mərhələ-mərhələ həyata keçirməyə başladı. Bəs həmin strategiya nədən ibarət idi?

## *1993-2003-cü illər:* ərazilərin azad edilməsinə hazırlığın ilkin mərhələsi

Ərazilərin işğaldan azad edilməsinə gətirən yol aşağıdakı mərhələlərdən keçdi. Birincisi, 1993-2003-cü illər. 1993-cü il iyunun 15-də parlament sədri, oktyabrın 3-də isə Prezident seçilən Heydər Əliyev ölkədə yaranmış ağır vəziyyəti real qiymətləndirərək 1994-cü ilin may ayında atəşkəsə getdi. Buna qədər düşmənə zərbə vurmaq haqqında qərar qəbul edildi. 1993-cü ilin sonu - 1994-cü ilin əvvəllərində uğurlu Horadiz əməliyyatı nəticəsində ərazilərin bir qisminin işğaldan azad edilməsi ilə düşmənə və bütün dünyaya göstərildi ki, Azərbaycan xalqı və dövləti torpaqlarının işğal altında qalması ilə qətiyyən barışmayacaq, bütün vasitələrlə onu azad edəcəkdir. Atəşkəsə gedərkən Heydər Əliyevin başlıca məqsədi ordu qurmaq, bərbad halda olan ölkənin inkişafının açarını tapmaq, fəal xarici siyasət yürüdərək tərəfdaşlar qazanmaq və əraziləri işğaldan qurtarmaq üçün etibarlı zəmin hazırlamaq idi.

Atəşkəsə getməklə Ermənistanın və dünya erməniliyinin havadarlarının strategiyası isə danışıqlar prosesini uzatmaq, işğalı "oldu-bitdi" kimi qələmə vermək və torpaqları boşaltmamaq idi.

Heydər Əliyev 1992-ci ildə yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyətinin nəticə verməsindən, BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrin icrasına nail olmaqdan ötrü səylər göstərdi.

İqtisadiyyatı bərbad halda olan ölkənin inkişafının açarını tapan Heydər Əliyev 1994-cü il sentyabrın 20-də dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. O, Azərbaycan tarixində ilk dəfə olaraq təbii sərvəti - nefti milli sərvətə çevirdi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin, böyük İpək yolunun, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin və digər layihələrin təməli qoyuldu.

Müstəqillik illərində ilk dəfə olaraq 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikası Milli Məclisinə seçkilər keçirildi və əsas qanun - Konstitusiya qəbul edildi. Ölkədə geniş islahatlara başlanıldı. Ölüm hökmü ləğv edildi.

Azərbaycanın beynəlxalq mövqeləri möhkəmləndi və qonşularla bərabərhüquqlu münasibətlər yaradıldı. Heç bir dövlətin və ya dövlətlər qrupunun yanında yer almayan, yalnız özünün milli-dövlət maraqlarını üstün tutan Azərbaycan Respublikasının tərəfdaşlarının sayı artdı.

Bütün səylərə baxmayaraq, Ermənistan işğal altında saxladığı torpaqları boşaltmadı.

Heydər Əliyevin millət qarşısında ən böyük tarixi xidmətlərindən biri özünün başa çatdıra bilmədiyi işləri həyata keçirmək, ən başlıcası, işğal altında qalan torpaqları azad etmək zəkasında, qüdrətində və qətiyyətində olan davamçısını - İlham Əliyevi yetişdirmək oldu.

## *2003-cü il 15 oktyabr - 2020-ci il 27 sentyabr:* ərazilərin işğaldan azad edilməsinə hazırlığın sonuncu mərhələsi

İlham Əliyevin 2003-cü il oktyabrın 15-də Prezident seçilməsindən sonra ərazilərin düşmən işğalından azad edilməsinə hazırlığın növbəti mərhələsi başlandı. Ölkə rəhbəri bütün ikitərəfli və beynəlxalq görüşlərdə qəti şəkildə bildirdi ki, Azərbaycan xalqı və dövləti ərazilərinin işğal altında qalması ilə heç vaxt barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcək və istənilən vasitələrlə onu azad edəcəkdir. Bundan ötrü daxili və xarici siyasət sahəsində inanılmaz fəaliyyət həyata keçirildi. Güclü iqtisadiyyat yaradıldı. Azərbaycan tarixində ilk dəfə olaraq Prezident İlham Əliyev "dövlət canlı orqanizmdir, daim genişlənməlidir" strategiyasını həyata keçirməyə başladı. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin, böyük İpək yolunun və Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi Azərbaycan dövlətinin dünya siyasətində yerini möhkəmləndirdi və rolunu artırdı.

"Sərt güc" daha da qüvvətləndirildi. Silahlı Qüvvələrdə islahatlar aparıldı. Müdafiə sənayesi yaradıldı. Qüdrətli ordu quruldu. Azərbaycan Ordusu dünyanın 50 güclü ordusu cərgəsində yer aldı.

2016-cı ilin Aprel döyüşləri nəticəsində ərazilərinin bir hissəsini azad etməklə Azərbaycan dövləti işğalla qətiyyən barışmayacağını düşmənə və dünyaya qəti şəkildə çatdırdı. Aprel döyüşləri 2020-ci ildəki zəfərin Baş Məşqi oldu.

Azərbaycan kosmik klubun üzvü olmaqla yerlərə nəzarət etməyə başladı.

Aktiv diplomatik fəaliyyət yürüdüldü. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olması, Qoşulmama Hərəkatına üzv və sədrlik etməsi ilə Azərbaycan dövlətinin beynəlxalq mövqeləri gücləndi.

Məqsədə çatmaqdan ötrü Prezident İlham Əliyev "yumşaq güc"dən məharətlə istifadə etdi. İşğalçılıq siyasətini ört-basdır etmək üçün münaqişəyə dini don geyindirməyə, guya xristianların hüquqlarının pozulması kimi qələmə verməyə çalışan Ermənistanın çirkin təbliğatına cavab olaraq məscidlərin, kilsələrin və sinaqoqların yanaşı fəaliyyət göstərdiyi Azərbaycanda sivilizasiyalararası, dinlərarası, mədəniyyətlərarası dialoq forumları keçirildi. "Bakı prosesi" dünyaya örnək oldu. Roma Papası Azərbaycana səfər edərək dini tolerantlığın olduğunu söylədi. Bakıda I Avropa Oyunlarının və IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi ilə dünya idman ictimaiyyəti Azərbaycanın necə bir ölkə olduğunu gördü.

Azərbaycan dövlətinin münaqişəni dinc yolla həll etmək səylərinə baxmayaraq, Ermənistanın baş naziri Nikol Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" deməklə məsələnin dinc, danışıqlar yolu ilə həlli mümkünlüyünə son qoydu. Prezident İlham Əliyev tutarlı cavabları ilə onu rəzil etdi. Lakin Ermənistan təxribatlarını davam etdirdi. Belə təxribatlardan biri 2020-ci ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu hissəsində törədildi. Sərhəddəki strateji yüksəklikləri ələ keçirməyə çalışan Ermənistanın başlıca məqsədi diqqəti Azərbaycan torpaqlarının işğalından yayındırmaq, üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək, Azərbaycanın qərbə çıxışının qarşısını kəsmək, böyük İpək Yolu, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ceyhan qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolunun keçdiyi əraziləri nəzarətə götürmək idi. Təxribatın qarşısı qətiyyətlə alındı və düşmən yerində oturduldu. Lakin Ermənistan təxribatlarından əl çəkməyərək sentyabr ayında yenidən qanlı hərəkətlər törətdi.

## *2020-ci il 27 sentyabr - 10 noyabr* 44 günlük Vətən müharibəsi: ərazilərin işğaldan azad edilməsi

Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən Azərbaycan xalqı düşmənə layiq olduğu cavabı vermək qərarına gələrək müharibəyə qalxdı. Müharibə Azərbaycan tərəfindən ədalətli, azadlıq müharibəsi, torpaqların işğaldan qurtarılması uğrunda Vətən müharibəsi idi. Şuşa şəhərinin azad edilməsi ilə düşmənin beli qırıldı. 44 gün davam edən müharibədə təcavüzkar ölkə əzildi. Torpaqlar işğaldan azad edildi.

Müharibə Prezident İlham Əliyevin mahir hərbi strateq, komandan olduğunu göstərdi. Siyasi, diplomatik və informasiya savaşının da tək komandanı Prezident İlham Əliyev oldu.

Rusiyanın vasitəçiliyi ilə imzalanan üçtərəfli Bəyanat Ermənistanın danışıqsız təslimolma aktı idi. Müharibə nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa edildi. 1920-ci ilin əvvəllərindən etibarən süni şəkildə siyasi leksikona daxil edilmiş "Dağlıq Qarabağ" ifadəsi tarixin zibilliyinə atıldı. Bu, 100 ilin kobud səhvinin Prezident İlham Əliyev tərəfindən düzəldilməsi və tarixi zəfəridir.

Qazanılan qələbə o zamana qədər Prezident İlham Əliyevin liderliyində yürüdülən daxili və xarici siyasətin düzgünlüyünü, mükəmməlliyini göstərdi. Bu qələbə Azərbaycan iqtisadiyyatının, Silahlı Qüvvələrinin, hərb sisteminin, dövlət idarəetmə sisteminin, siyasətinin, diplomatiyasının, ideologiyasının, milli-mənəvi ruhunun düşmən üzərində parlaq qələbəsi idi. Millət və dövlət hakimiyyət orqanları vahid bir orqanizm kimi fəaliyyət göstərdi.

Məğlub olmasına baxmayaraq, Ermənistan üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirmədi. Bütün çağırışlara məhəl qoymayan İrəvan silahlı qruplaşmalarını və terrorçu dəstələrini Azərbaycanın ərazilərindən çıxarmadı.

Müzəffər Ali Baş Komandan İlham Əliyev böyük alicənablıq göstərərək Ermənistana sülh əlini uzatsa da, bu ölkə sanki məğlub olmayıbmış kimi özünü aparmağa, gücü olmasa belə, xarici havadarlarının təhriki ilə yenidən meydan oxumağa başladı və ərazilərimizdəki təbii sərvətlərin talanmasını davam etdirdi. Azərbaycan tərəfinin keçirdiyi görüş heç bir nəticə vermədi.

Prezident İlham Əliyev qətiyyətini daha da artırdı. Əlavə tədbirlər görüldü.

2021-ci il iyunun 15-də Milli Qurtuluş Günü Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında strateji müttəfiqlik haqqında imzalanmış bəyannamədə ilk dəfə olaraq uzun illər boyu Ermənistanın blokadada saxladığı Naxçıvana gedəcək Zəngəzur dəhlizinin açılması niyyətləri bəyan edildi. Bundan bir müddət sonra - iyulun 7-də Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması haqqında fərman imzalamaqla tarixi ədaləti bərpa edərək, siyasi leksikona Zəngəzur ifadəsini daxil etdi. Bu, sadəcə Şərqi Zəngəzur adlı iqtisadi rayonun yaradılması məsələsi deyildi. Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti zamanı qəzalardan biri Zəngəzur adlanırdı. Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması o deməkdir ki, Qərbi Zəngəzur da vardır və bu, tarixi Azərbaycan torpağıdır. Bununla da Azərbaycan dövləti gələcək bütün beynəlxalq fəaliyyətində öz əlini gücləndirir və yeni bir məsələni müzakirə obyektinə çevirmək hüququ qazanırdı.

## *2023-cü il 23 aprel:* Laçında Həkəri çayının üstündəki körpüdə sərhəddə nəzarət-keçid məntəqəsinin qurulması və dövlət sərhədləri üzərində nəzarətin əldə edilməsi

Çağırışlar və ekofəalların aksiyaları da nəticə vermədikdə Azərbaycan dövləti aprelin 23-də Ermənistanla sərhəddə Laçın rayonunda Həkəri çayının üstündə körpüdə nəzarət-buraxılış məntəqəsini yaratmaqla dövlət sərhədləri üzərində nəzarəti tam bərqərar etdi. Azərbaycan Respublikası 1991-ci ildən sonra ilk dəfə olaraq dövlət sərhədlərinə nəzarəti həyata keçirməyə başladı. Bu, Prezident İlham Əliyevin misli görünməmiş tarixi qələbəsi idi. Məntəqənin qurulması Şuşa şəhərinin və digər ərazilərin düşmən işğalından azad edilməsi qədər strateji əhəmiyyət daşıyırdı. Bundan sonra da Azərbaycan rəhbərinin Ermənistana müraciət edərək silahlı qüvvələrini və terrorçu dəstələrini çıxarmağa, bütün məsələləri dinc, danışıqlar yolu ilə həll etməyə dair çağırışları cavabsız qaldı. Ermənistan yenə də kənar qüvvələrin təsiri altında Azərbaycana qarşı böhtan, qarayaxma kampaniyasına başladı və "humanitar yardım" adı altında sərhəddə təxribat törətməyə cəhd etdi. Bu işə Fransa da qoşulsa nəticəsi olmadı. Prezident İlham Əliyev nüvə dövləti, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Fransanın beynəlxalq hüquqa zidd hərəkətlərini qətiyyətlə rədd etdi. Göstərdi ki, dövlətin böyüklüyü ərazisinin həcmi, əhalisinin sayı ilə ölçülmür. Bu, Prezident İlham Əliyevin üstün zəkasının təntənəsi idi.

## 2023-cü il 19-20 sentyabrda lokal xarakterli antiterror tədbirləri: dövlət suverenliyinin qurulması

Azərbaycanın uzatdığı sülh əlini Ermənistan qəbul etmədi. Bakıdan göndərilən humanitar yardımı qəbul etməyən ermənilər öz xislətlərinə uyğun olaraq bütün dünyada haray-həşir qopardılar. Azərbaycan dövləti "sərt güc"dən istifadə etməyə məcbur oldu. Təcavüzkar Ermənistanın işğal nəticəsində qurduğu separatçı, terrorçu rejim Azərbaycan dövlətinin 19-20 sentyabrda həyata keçirdiyi 23 saat 43 dəqiqə sürən lokal xarakterli antiterror tədbirlərindən sonra şərtləri qəbul etdi, ağ bayraq qaldıraraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin ayaqları altında diz çökdü. Terrorçu qrupların və separatçıların təslim olması ilə Azərbaycan dövləti bütün ərazilərində suveren hüquqlarını bərpa etdi. Bu, İlham Əliyevin möhtəşəm tarixi zəfəri idi.

## Misilsiz tarixi əhəmiyyətli qələbənin memarı

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində düşmənin ərazilərimizdən qovulması, bir müddət sonra sərhəddə Laçın rayonunda Həkəri çayının üstündəki körpüdə nəzarət-buraxılış məntəqəsinin qurulması ilə bütün sərhədlərimiz üzərində nəzarətin əldə edilməsi, lokal xarakterli antiterror tədbirlərindən sonra separatçı rejimin dövlətimizin şərtlərini qəbul edərək ağ bayraq qaldırması nəticəsində bütün ərazilərimizdə suverenliyimizin tam bərpa olunması, separatçıların həbs olunması əhəmiyyətinin miqyasına görə geniş, əhatəli, mənasına görə dərindir.

İşğalçı ölkə əzildi, dünya erməniliyinin və havadarlarının XVIII əsrdən etibarən qurduqları planlar darmadağın edildi və millətimizin arzuları, xəyalları gerçəkləşdi. Yaranışından bəri bu ünsür heç vaxt belə ağır zərbə almamışdı. Erməni iş adamlarına və milyonçularına haqq qoyan, verməyəni öldürən erməni terror təşkilatları, dünya erməniliyi süqut dövrünə girdi.

Cənubi Qafqazda yeni şərait yarandı, sülh və əməkdaşlıq dövrü başlandı. Prezident İlham Əliyev bildirdi ki, Cənubi Qafqazın problemlərini bu regionun xalqları həll etməli, kənar müdaxilələr olmamalıdır.

Bu qələbə Ermənistanı müdafiə edən dövlətlər, təşkilatlar, lobbi qrupları üzərində tarixi zəfərdir. Prezident İlham Əliyev Orta əsrlərdə hakim olan səlibçi psixologiyanı, islamafobiya planlarını yeni şəraitdə darmadağın edərək yenilməz, onların hamısından güclü, mahir strateq və üstün zəka sahibi olduğunu sübut etdi.

Bütün təzyiqləri rədd edən Prezident İlham Əliyev özünün dediyi kimi, heç bir yarımçıq qərarın qəbuluna tərəfdar olmadı, millətin və dövlətin inkişafına mane olan əngəli əzdi, əsrin səhvini düzəldərək Azərbaycan ərazisində basdırılmış bombanı əbədi olaraq zərərsizləşdirdi, çıbanı kökündən kəsib atdı, zəmanəmizin ən böyük strateqi, diplomatı, mahir sərkərdəsi, informasiya savaşının qalibi olduğunu göstərdi. Bu gün Xocalı soyqırımı qurbanlarının, Vətən torpaqları uğrunda canlarını fəda etmiş şəhidlərin, həyatlarını itirmiş günahsız mülki insanların ruhları şaddır. Onların qanı hədər getmədi, arzuları gerçəkləşib, dövlət bayrağımız ərazilərimizdə dalğalanır.

İndi işğal altında qalan 8 kəndin azad edilməsi və Naxçıvana gedən Zəngəzur dəhlizinin açılması başlıca hədəfdir...

## Azərbaycanla hədə-qorxu ilə danışmaq əbəsdir

Memarı Prezident İlham Əliyevin olduğu tarixi qələbə təkcə işğalçı Ermənistan, erməni təşkilatları, dünya erməniliyi üzərində deyil, eyni zamanda onun havadarları üzərində qazanıldığından bizi bir sıra təhdidlər gözləyir. İlk növbədə Azərbaycanın siyasi, ictimai və dövlət xadimlərinə, xarici ölkələrdəki səfirlik və nümayəndəliklərə, media əməkdaşlarına, AZAL-ın, Azərbaycan Dəmiryolları Dövlət Agentliyinin xarici ölkələrdəki nümayəndəliklərinə qarşı erməni terror təşkilatları qanlı aktlar törədə bilərlər. Ona görə də təhlükəsizlik ən üst səviyyədə qorunmalıdır. Bunu isə Azərbaycan dövlətinin müvafiq orqanları yaxşı bacarır.

Azərbaycan ərazisindən könüllü və maşınları ilə rahat şəkildə getmələrinə baxmayaraq, Ermənistanda ermənilərdən mal və mülklərinə, uydurulmuş əzablarına dair müsahibələr alınacaq, xatirələri toplanılacaq, kitablar yazılacaq, filmlər çəkiləcək, gələcəkdə heç bir əsas olmasa da, uydurma "zorla köçürülmə", "etnik təmizləmə", "mülk iddiası" adı altında təzminat davası açmağa çalışılacaq. Lakin bunun heç bir hüquqi və siyasi perspektivi yoxdur. Ən azı ona görə ki, Ermənistanın işğalı nəticəsində qurulmuş separatçı rejim xarici ölkələrdən erməniləri gətirərək ərazilərimizdə qanunsuz olaraq azərbaycanlılara məxsus torpaqlarda, mülklərdə, təsərrüfatlarda məskunlaşdırıb və uzun illər boyu sərvətlərimizi istismar edib. Bundan əvvəl isə azərbaycanlılar tarixi torpaqlarından - Ermənistan adlanan ərazidən vəhşicəsinə qovulublar, mal və mülklərini itiriblər. Azərbaycanlıların hüquqlarının pozulmasının, Qərbi Azərbaycana qayıdış proseslərinin gündəlikdə saxlanılması dövlət rəhbərinin strateji xəttinin tərkib hissəsidir.

Ermənistan, erməni təşkilatları və havadarları beynəlxalq təşkilatlarda və ayrı-ayrı ölkələrin parlamentlərində Azərbaycan əleyhinə qərarlar qəbul etdirməyə çalışacaqlar. Lakin bunun da təsirli nəticəsi olmayacaq. Həmin qərarlar qəbul edildiyi andan Azərbaycan dövləti tərəfindən cırılıb atılmış, istifadəyə yararsız kağız parçası olacaqdır. Çünki indi dünya çox kiçikdir və nə baş verirsə, hamısı aydın görünür. Sadəcə onları olduğu kimi dərk etmək həmin dairələrin Orta əsrlərə məxsus olan səlibçi yürüşləri təfəkkürü ilə bağlıdır.

Yenilməz, qüdrətli dövlətin yaradıldığı ötən 20 ilin tarixi təcrübəsi göstərir ki, dövlət başçısı İlham Əliyev bütün bu təhdidlərin fövqündə dayanan, onları dərin zəkası, qətiyyəti ilə əzib keçən dövlət xadimi olduğundan aparılan və gözlənilən qarayaxma kampaniyalarının da heç bir perspektivi yoxdur. Digər sahələrdə olduğu kimi, siyasi-diplomatik sahədə də Ermənistan, erməni dairələri və onları müdafiə edənlər dövlətimizin başçısının qarşısında indiyədək yerə səriliblər və bundan sonra da boynu bükük halda diz çökəcəklər.

Azərbaycan xalqının və dövlətinin uzun illərdən bəri olan arzularını və xəyallarını yalnız Prezident İlham Əliyev gerçəkləşdirdi, gələcək nəsillərə model verdi. Ərazilərin işğaldan azad edilməsi 1994-cü ildə atəşkəsə gedərkən Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanın Ermənistan, dünya erməniliyi və onların havadarları üzərində üstünlüyünü və qalibiyyətini göstərdi.

Yüzilliklər boyu türk dünyasına qarşı quraşdırılan kirli oyunları pozaraq İlham Əliyev türk xalqlarına yol göstərdi, onların başını uca etdi. Zəkası, qətiyyəti, cəsarəti və yenilməz iradəsi ilə dünyaya Möhtəşəm Azərbaycanlı Obrazı təqdim etdi. Göstərdi ki, Azərbaycan haqq işindən geri çəkilməz və kimsəyə boyun əyməz.

Artıq Azərbaycan Respublikası dünya birliyi tərəfindən tanınmış bütün ərazilərində dövlət suverenliyini həyata keçirir. Prezident İlham Əliyevin dediyi kimi, bundan sonra Azərbaycan xalqı qalib xalq kimi yaşayacaq. Bu, İlham Əliyevin yaratdığı qalib xalqdır. Öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycan xalqı və dövləti geniş üfüqlər astanasındadır...

**Musa QASIMLI,**
***Milli Məclisin deputatı***

# Xalq Prezidentinə güvənir

**2003-cü il oktyabrın 15-də Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyevi Prezident seçməklə sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi və ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. Bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başlandı.**

Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Zəmanəmizin dühasından "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - qiymətini alan dövlət başçısı İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son 20 il ərzində özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

Beynəlxalq siyasətçilər, ekspertlər tərəfindən də təsdiqlənir ki, Azərbaycanda həyata keçirilən siyasətin alternativi yoxdur. Xalq-iqtidar birliyi uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə geniş imkanlar açır. Ölkəmizin evsahibliyi etdiyi beynəlxalq səviyyəli tədbirlər ayrı-ayrı sahələrdə mövcud imkanların, həmçinin təcrübənin təqdimatında əhəmiyyətli rol oynayır. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, güclü, qüdrətli Azərbaycan harada yaşamasından asılı olmayaraq, bütün dünya azərbaycanlılarının qürur mənbəyidir.

Prezident İlham Əliyevin hakimiyyətinin 20 ilinin zirvəsində işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı. Tarixə diqqət yetirsək görərik ki, ötən 20 ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülüb. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer alıb. Məhz, bu ordu öz Ali Baş Komandanının qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq Vətən müharibəsini başladı və dünyanı heyrətə salan hərbi uğurlara imza atdı. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın fəthi tariximizə Zəfər Günü kimi yazıldı. İki gün sonra isə işğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi.

Döyüşlər, sadəcə, səngərdə və diplomatik masada deyil, informasiya məkanında da qızğın xarakter aldı. İnformasiya məkanında da ən ali vəzifəni öz üzərinə götürən cənab Prezident 26 xarici KİV-ə müsahibələr verdi, Ermənistan-Azərbaycan münaqişəsinin tarixi, səbəbləri, Azərbaycanın mövqeyini əsaslandıran hüquqi, siyasi, mənəvi və digər amilləri dünyaya bəyan etdi, ölkəmizin haqlı mövqeyini tutarlı faktlarla əsaslandırdı və sual doğuran məsələlərə aydınlıq gətirərək, reallıqları bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Bütün cinahlarda gedən döyüşlərə şəxsən rəhbərlik edən cənab Prezident İlham Əliyev Azərbaycan xalqının milli maraqlarını qətiyyətlə müdafiə edərək tarixi qələbəyə imza atdı.

Əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etmişdiksə, sentyabrın 19-da isə suverenliyimizi tam bərpa etdik. Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələrinin, qeyri-qanuni erməni silahlı dəstələrinin silahı yerə qoyması, döyüş mövqelərindən və hərbi postlardan çıxması və tam şəkildə tərk-silah olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin Azərbaycan ərazilərini tərk etməsi, paralel şəkildə bütün silah-sursat və ağır texnikanın təhvil verilməsi Azərbaycanın növbəti Qələbəsinin təntənəsidir. Müzəffər Ali Baş Komandan, Azərbaycan əsgəri və Azərbaycan xalqı sübut etdilər ki, şəhidlərimizin qisası alındı.

Ərazi bütövlüyümüzün bərpa olunması Prezident İlham Əliyevin siyasətinin şah əsəridir. Bu gün Azərbaycan, məhz, Ulu Öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır.

Prezident İlham Əliyev xalqa verdiyi vədləri bütünlüklə yerinə yetirib. Azərbaycana Prezident kimi rəhbərlik etdiyi 20 ildə ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib.

Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Neft-qaz sahəsində qazandığı uğurları davam etdirən ölkəmiz Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə start verdi. Bununla da Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan "Cənub qaz dəhlizi" layihəsinin aparıcı qüvvəsi kimi çıxış etdi. Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkəmizin dünya enerji sənayesində həlledici rolu olduğunu bir daha təsdiqlədi. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı kimi çox böyük tarixi hadisə baş verdi. Asiyanı Avropa ilə birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, Azərbaycan neftini birbaşa dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi kimi nəhəng layihələrin icrasına nail olundu.

Bu gün Azərbaycan dünyanı həm də azad edilmiş ərazilərdə sürətli bərpa və yenidənqurma işlərilə heyrətləndirir. Yeni yollar çəkilir, elektrik stansiyaları tikilir. Prezident İlham Əliyev azad edilmiş rayonlara çoxsaylı səfərləri zamanı strateji infrastruktur obyektlərinin açılışını edir, yenilərinin təməlini qoyur.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası məqsədilə 7 iyul 2021-ci il tarixdə imzaladığı fərmanla Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü müəyyən edildi və bununla da regionun yeni iqtisadi və siyasi reallığı rəsmiləşdirildi. Fərmana əsasən, ölkəmizdə yaradılmış 14 yeni iqtisadi rayon sistemli islahatların davamı olaraq dayanıqlı inkişafı təmin edir. Ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşmış, əhalinin rifah halı yüksəlmişdir.

***Kamran BAYRAMOV,***
***Milli Məclisin deputatı***



# İlham Əliyevin liderliyi ilə Azərbaycan tarixinin şərəfli dövrünü yaşayır

**Müstəqil Azərbaycan hazırda beynəlxalq münasibətlər sistemində yüksək nüfuza sahib olan dövlətdir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz davamlı olaraq inkişaf edib, güclənib, regionda güc mərkəzinə çevrilib. 20 il öncə -15 oktyabr 2003-cü ildə keçirilən prezident seçkilərində xalqımızın düzgün seçim edərək, Ulu Öndərimiz Heydər Əliyevin müraciətini dəyərləndirərək cənab İlham Əliyevə səs verməsi möhtəşəm nailiyyətlərimizin əsasını təşkil etdi.**

Bu gün bölgəmizdə reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Mövcud tarixi-siyasi, coğrafi şəraitdən, siyasi sistemin xüsusiyyətindən asılı olmayaraq, liderlik fenomeni milli dövlətin formalaşmasında və inkişafında həlledici rola malikdir. Lider, həmçinin mənəvi birliyi təmin edən, cəmiyyətdə müəyyən əhvali-ruhiyyənin, ideya və dəyərlər sisteminin formalaşmasına təsir göstərən mühüm qüvvədir. Məhz cənab İlham Əliyevin bu keyfiyyətləri sayəsində ölkəmizdə siyasi sabitlik təmin olunub və gələcək inkişaf üçün zəmin yaradılıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Həyata keçirilən praqmatik xarici siyasət strategiyası ölkəmizə beynəlxalq münasibətlər sistemində müstəqil xarici siyasət həyata keçirən milli dövlət kimi etibarlı strateji tərəfdaş imici qazandırıb.

Regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsinə, bölgədəki əməkdaşlığın dərinləşməsinə xidmət etdi. Milli mənafelərlə bağlı problemlərin həllinə həssas və fəal yanaşma uzaq və yaxın xaricin də diqqətindən yayınmadı. Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Dünyada beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərdi.

Bundan əlavə, neft-qaz sahəsində qazandığı uğurları davam etdirən ölkəmiz Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə start verdi. Bu layihələr artıq reallığa çevrilib. Bununla da Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan "Cənub qaz dəhlizi" layihəsinin aparıcı qüvvəsi kimi çıxış etməyə başladı. Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkəmizin dünya enerji sənayesində həlledici rolu olduğunu bir daha təsdiqlədi. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı kimi çox böyük tarixi hadisə baş verdi. Asiyanı Avropa ilə birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, Azərbaycan neftini birbaşa dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi kimi nəhəng layihələrin icrasına nail olundu.

Ümummilli Lider Heydər Əliyevin qurduğu müasir müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi ilə öz tarixinin yüksəlişlə müşayiət olunan şərəfli bir dövrünü yaşayır. Bundan sonrakı mərhələlərdə Azərbaycan daha da qüdrətlənəcək, dünyada nüfuzunu artıracaq. Heç bir qüvvə Azərbaycanı tutduğu uğurlu yoldan döndərə bilməyəcək.

44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfər isə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin liderliyinin təntənəsi oldu. Bu möhtəşəm Zəfər nəticəsində torpaqlarımız Ermənistanın işğalından azad olundu və 30 ilə yaxın davam edən Qarabağ münaqişəsinə son qoyuldu. Azərbaycan uzun illər bu münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün səylər göstərsə də, Ermənistanın ötən müddət ərzində işğalçılıq siyasətindən əl çəkməməsi, son illərdə isə bu ölkənin rəsmilərinin yeni ərazilər tutmaq iddialarını açıq şəkildə dilə gətirmələri, tez-tez təhrikedici açıqlamalar vermələri, 2019-cu ildə baş nazir Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" ifadəsi kimi təxribat xarakterli bəyanatları və addımları danışıqlar prosesinə ciddi zərbə vurdu. Nəticə isə göz qabağındadır. Ermənistanın qeyri-konstruktiv, təxribatçı mövqeyi onun kapitulyasiyası ilə nəticələndi.

Bütövlükdə, 44 günlük Vətən müharibəsi Azərbaycanın siyasi, iqtisadi, diplomatik və hərbi qüdrətini, həmçinin xalqımızın milli birliyini və sarsılmaz iradəsini bütün dünyaya nümayiş etdirdi. Təbii ki, bu Zəfərin əsas qəhrəmanı Prezident İlham Əliyevdir. Dövlətimizin başçısı Vətən müharibəsi dövründə bütün təzyiqlərə mətanətlə sinə gərərək, Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə etdi. Bəzi xarici ölkələr, təşkilatlar, siyasi dairələr iddia edirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Lakin Prezident İlham Əliyev "Dəmir yumruq" əməliyyatı ilə sübut etdi ki, münaqişənin hərbi həlli var. Nəticədə ölkəmiz BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı dörd qətnaməsini özü icra etdi. Ötən ay ordumuzun 23 saatlıq antiterror tədbiri nəticəsində Qarabağda qondarma rejim özünü buraxdığını elan etdi və bununla da dövlətimiz öz suverenliyini tam təmin etdi.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə mövqeləri güclənib və bundan sonrakı mərhələdə bu mövqe daha da möhkəmlənəcək. Əminik ki, qarşıdakı dövrdə də Prezident İlham Əliyevin liderliyi ilə müstəqil Azərbaycan yeni-yeni zəfərlərə imza atacaq.

**Sevinc FƏTƏLİYEVA,**
***Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini***

# Qürur doğuran uğurlarımızın müəllifi

**Respublikamızın tarixində mühüm siyasi hadisə olan 2003-cü ilin prezident seçkilərindən 20 il ötür. Məhz həmin seçkilərdə xalqımız ilk dəfə cənab İlham Əliyevə etimad göstərib özünün etibarlı gələcəyinə, inkişafa və güclü dövlətçiliyə səs verdi. 2003-cü ilin seçkiləri həm də Heydər Əliyev ideyalarının təntənəsinə çevrildi və belə bir həqiqətin təsdiqi oldu ki, Ulu Öndərin müəyyən etdiyi siyasi kursun alternativi yoxdur.**

Cənab İlham Əliyevin namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüşdü. Amma İlham Əliyev yalnız YAP-ın deyil, bütün Azərbaycan xalqının, dünya azərbaycanlılarının namizədi idi. Bu baxımdan 2003-cü ilin prezident seçkilərinin nəticəsi xalqımızın siyasi iradəsinin ifadəsinə çevrildi. Ötən 20 ilin mənzərəsi də göstərir ki, xalqımız ilk dəfə 2003-cü ilin seçkilərində cənab İlham Əliyevə etimad göstərməklə özünün müdrik və tarixi seçimini etmişdi.

2003-cü ilin prezident seçkilərində qazandığı qələbədən sonra keçirilən andiçmə mərasimində İlham Əliyev demişdi: "Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Ötən 20 ilin ən böyük həqiqəti məhz cənab İlham Əliyevin 20 il əvvəl dediyi bu sözlərin real həyatda təntənəsidir. Bu 20 ildə respublikamızda cəmiyyət həyatının bütün sahələrində böyük dəyişikliklər baş verib, Azərbaycan sürətlə inkişaf edən müasir dövlətə, regionda və dünyada söz sahibinə çevrilib. Ulu Öndərin müəllifi olduğu enerji siyasətini uğurla davam etdirən cənab Prezident İlham Əliyevin liderliyi və qətiyyətli siyasiəti ilə bu illər ərzində Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, "Cənub qaz dəhlizi" kimi strateji layihələrin reallaşdırılması Azərbaycanın inkişafına təkan verməklə yanaşı, ölkəmizin beynəlxalq mövqelərini möhkəmləndirib. Bakı-Tbilisi-Qars dəmir yolu xətti və digər möhtəşəm nəqliyyat infrastrukturlarının yaradılması nəticəsində cənab İlham Əliyev Azərbaycanın "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərində aparıcı mövqeyə malik olmasını təmin edib.

Ötən 20 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi kompleks iqtisadi siyasətin nəticəsidir ki, bütün sosial-iqtisadi çağırışlar uğurla reallaşıb, iqtisadiyyatımız, hər bir regionumuz tərəqqi yoluna çıxarılıb, bölgələrin iqtisadi potensialının hərəkətə gətirilməsi təmin olunub, şəhər və rayonlarımızın siması dəyişib, modernləşib. Respublikamızda işsizliyin və yoxsulluğun səviyyəsi minimal həddə endirilib. Dövlətimizin başçısının neft kapitalının insan kapitalına çevrilməsi təşəbbüsləri də bu gün öz bəhrəsini verməkdədir.

Bütün bunlar Prezident İlham Əliyevin andiçmə mərasimində dediyi kimi, Heydər Əliyev siyasətinin davamı, Ulu Öndərin ideyalarının həyata vəsiqə almasıdır. Bütövlükdə, 20 ilin hər bir mərhələsi Azərbaycanı inkişafdan-inkişafa, uğurdan-uğura aparıb. Ölkəmiz yüksələrək öz tarixinin ən qüdrətli mərhələsinə qədəm qoyub. Elə buna görə də 2008-ci, 2013-cü və 2018-ci ilin prezident seçkilərində də xalqımız cənab İlham Əliyevin ətrafında səfərbər olub, öz rəhbərinə hər zaman etimad göstərib, eyni zamanda parlament və bələdiyyə seçkilərində İlham Əliyevin rəhbəri olduğu Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verib.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin ən böyük uğur göstəricisi isə əlbəttə ki, torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpası və Qarabağda suverenliyimizin təmin edilməsidir. Dövlət başçısının 2003-cü ildə andiçmə mərasimindəki çıxışı ilə bir daha tanış olduqca görürük ki, cənab İlham Əliyev Azərbaycana rəhbərliyinin ilk günündən torpaqlarımızın işğaldan azad edilməsini öz fəaliyyətinin prioritet istiqaməti kimi müəyyənləşdirib. Həmin andiçmə mərasimində "Bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir" deyən Prezident İlham Əliyev Vətən müharibəsinə qədər bu yolda lazım olan bütün addımları atdı, qətiyyətli və müdrik siyasət yürütdü, modern ordu quruculuğu həyata keçirdi. Təsadüfi deyil ki, 44 gün davam edən Vətən müharibəsi tariximizə Prezident İlham Əliyevin sərkərdə qətiyyətinin, yüksək liderlik keyfiyyətlərinin, ordumuzun əzmkarlığının və yüksək döyüş qabiliyyətinin nəticəsi kimi həkk olundu. Bu savaşda qazandığımız şanlı zəfər Ulu Öndər Heydər Əliyevlə başlanan və cənab İlham Əliyevlə davam edən siyasi kursun dövlətimizin və xalqımızın milli maraqlarını qətiyyətlə təmin etməsinin ən möhtəşəm təcəssümü oldu. Torpaqlarımızın azadlığını təmin etməklə cənab İlham Əliyev tariximizə qızıl hərflərlə həkk olunan milli salnamənin müəllifinə çevrildi.

Eyni zamanda bu savaş möhtərəm Prezidentimizin həyata keçirdiyi mütərəqqi gənclər siyasətinin təntənəsi oldu. Bu siyasətin nəticəsi kimi gənclərimizin vətənpərvər ruhda yetişmələri torpaqlarımızın azad edilməsində öz sözünü dedi.

Cənab İlham Əliyevin ilk dəfə Azərbaycan Prezidenti seçilməsinin və bu ali vəzifədə fəaliyyətinin 20-ci ilinin tamamında dövlətimiz və xalqımız ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsinin növbəti qürurverici təntənəsini yaşayır. Belə ki, sentyabr ayının 19-20-də Azərbaycan Silahlı Qüvvələrinin Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Qarabağda həyata keçirdiyi və cəmi 23 saat davam edən antiterror tədbirləri ilə Azərbaycan ərazisindəki erməni separatizmi məhv edildi. Artıq Qarabağda Azərbaycan qanunlarından kənar qalan "boz zona" yoxdur. Prezident İlham Əliyev qətiyyətli və güclü siyasi iradəsi ilə saxta erməni iddialarına, Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılması kimi riyakar plana həmişəlik son qoydu, xalqımızın milli haqqını və tarixi ədaləti təmin etdi.

Vətən müharibəsinin nəticəsi kimi regionumuzda yeni reallıqlar hakimdir. Bu reallıqların əsas göstəriciləri ərazi bütövlüyümüzün bərpası, Azərbaycanın dünyada nüfuzunun daha da yüksəlməsi, qlobal mövqelərinin daha da güclənməsi, işğaldan azad edilmiş ərazilərimizin sürətlə bərpa olunması, keçmiş məcburi köçkünlərin tədricən doğma torpaqlarına qayıdışıdır. Qüdrətli dövlətçiliyimizi, etibarlı gələcəyimizi və tarixin ən güclü Azərbaycanını şərtləndirən də Prezident İlham Əliyevin yaratdığı bu tarixi reallıqlardır. 20 il əvvəl prezident seçkilərində xalqımız ilk dəfə cənab İlham Əliyevin ətrafında səfərbər olanda da məhz bu amillərə səs vermişdi.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***

# Tarixin ən güclü Azərbaycanını yaratmış LİDER

**Tarixin hansısa əlverişli mərhələsində edilmiş düzgün seçim xalqların gələcək taleyini, milli inkişaf yolunu, uğur strategiyasını müəyyən edir. Bu həlledici seçimin nəticəsi olaraq liderlik missiyasını üzərinə götürən şəxsiyyətlər mənsub olduqları xalqın milli ideyası səviyyəsinə yüksəlmiş hədəflərini də reallaşdırır, ictimai maraq və mənafelərin təminatçısına çevrilirlər.**



2003-cü il oktyabrın 15-də keçirilmiş prezident seçkilərində həlledici seçimə imza atan, Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən çağırışına səs verərək onun ən layiqli davamçısı - cənab İlham Əliyevə etimad göstərən qədirbilən Azərbaycan xalqı dövlətinin sabitlik, tərəqqi və rifahına, beynəlxalq miqyasda layiqli yerini tutmasına, milli maraqlarını reallaşdırmasına etibarlı zəmin yaradıb. Ötən 20 ildə real, əməli fəaliyyətə, yeni dünya nizamının aktual çağırışlarına əsaslanan praqmatik siyasət yürüdən dövlətimizin başçısı Ulu Öndərin xalqa 2003-cü il 1 oktyabr tarixli müraciətində yer alan "Mən öna özüm qədər inanır və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikrini tam mahiyyəti ilə doğruldub, hər bir vətəndaşın layiqli Prezidenti olduğunu sübuta yetirib.

Ulu Öndərin milli inkişafa zəmin yaradan ideyalarını rəhbər tutan və yeni dövrə uyğun zənginləşdirən Prezident İlham Əliyevin çoxşaxəli islahatlar strategiyası ölkəmizin möhtəşəm iqtisadi nailiyyətlərini təmin etməklə yanaşı, xalqımızın son iki əsrdə itirdiyi torpaqlarını ilk dəfə olaraq geri qaytarmasına, zəfərə qovuşmasına imkan yaradıb. 20 il əvvəl dünyanın ikili standartları, haqsızlıqları qarşısında müdafiə mövqeyi seçmək məcburiyyətində qalan Azərbaycan bu gün milli maraqlarını qətiyyətlə qoruyan, Cənubi Qafqaz regionunda sülh gündəliyini müəyyənləşdirən, səmərəli əməkdaşlıq təşəbbüsləri irəli sürən, ən əsası qlobal güclərin təzyiq cəhdlərini qətiyyətlə dəf edən qüdrətli dövlət kimi tanınır.

Siyasi liderin gördüyü işlər, həyata keçirdiyi layihələr onun müəyyən zaman kəsiyindəki fəaliyyətinin dəyərləndirilməsi baxımından ən obyektiv istinad yeridir. "Mən hər bir azərbaycanlının prezidenti olacağam" deyərək səlahiyyətlərinin icrasına başlayan dövlətimizin başçısı ötən müddətdə bu vədini birmənalı doğruldub, sistemli, ardıcıl və koordinasiya olunmuş fəaliyyəti ilə xalq qarşısında verdiyi vədlərə sadiqliyini sübuta yetirib. Yüksək intellekti, işgüzarlığı, təvazökarlığı, səmimiliyi, mütərəqqi idarəçilik prinsipləri, qətiyyət və prinsipiallığı ilə beynəlxalq miqyasda nüfuz sahibinə çevrilmiş cənab İlham Əliyev dövlət başçısı kimi məsuliyyətli və şərəfli vəzifəsinin öhdəsindən layiqincə gəlib. Azərbaycan Prezidentinin ötən dövr ərzində vahid sistem halına gətirdiyi milli inkişaf modeli eyni zamanda onun yüksək idarəçilik qabiliyyətinin və mükəmməl iş təcrübəsinin əyani təzahürü kimi diqqət çəkib.

Ötən 20 ildə Azərbaycanın nail olduğu inanılmaz sosial-iqtisadi nəticələr, yürütdüyü çevik diplomatiya, məhz döyüş meydanında qazandığı ədalətli zəfər fonunda dünya ictimaiyyəti cənab İlham Əliyevi hətta mümkün görünməyəni reallaşdırmaq qabiliyyətində olan lider kimi qəbul edir. Özünün də xüsusi vurğuladığı kimi, "Nəyi necə və nə zaman" etməli olduğunu yaxşı bilən Prezident İlham Əliyevin əsl siyasi liderə xas təmkini, real vəziyyəti, geosiyasi konyunkturanı düzgün dəyərləndirmək, siyasi proseslərin inkişaf axarını düzgün proqnozlaşdırmaq məharəti, pafosdan, populizmdən uzaq olması qazanılan əlahiddə uğurları şərtləndirən mühüm amillər sırasındadır. Dövlətimizin başçısı 2003-cü ilin prezident seçkiləri ərəfəsində xalq qarşısında həllinə söz verdiyi, fəqət, praktikada reallaşdırılması onilliklər tələb edən problem məsələləri cəmi 20 il müddətində reallığa çevirməklə xalqının dərin rəğbətini qazanıb.

Ən ümumi şəkildə desək, dövlətimizin başçısının səmərəli iqtisadi siyasəti ötən dövrdə ölkəmizin davamlı tərəqqisinə, xalqın rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşmasına, işsizlik və yoxsulluğun səviyyəsinin xeyli dərəcədə azaldılmasına, çadır düşərgələrinin ləğvinə, ən əsası Azərbaycanın heç bir dövlətdən asılı olmayan müstəqil siyasət yürütməsinə zəmin yaradıb. Son illərədək obyektiv səbəblərdən həllini tapmayan yeganə məsələ ərazilərimizin işğalı faktı idisə, üç il əvvəl Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazandığımız tarixi Zəfər nəticəsində ərazi bütövlüyümüz təmin edilib. 30 il davam edən işğala cəmi 44 gün ərzində son qoymağı bacaran, təcavüzkar Ermənistanı təslimçiliyə məhkum edən Prezident İlham Əliyev ən yeni tariximizə Zəfər Sərkərdəsi olaraq sanballı möhürünü vurub.

Müasir dünyada dövlətləri qüdrətli, sarsılmaz və söz sahibi edən başlıca amillər sırasında güclü lider ilə yanaşı, güclü iqtisadiyyat da vacib yer tutur. Azərbaycanın möhtəşəm uğurlarında, ölkəmizin dünyanın sayılıb-seçilən, mövqeyi nəzərə alınan dövlətlərdən birinə çevrilməsində ötən illərdə böyük uzaqgörənliklə həyata keçirilən qlobal layihələrin mühüm payı var. Ümummilli Lider Heydər Əliyevin yeni neft strategiyasının bəhrələri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin, Bakı-Tbilisi Ərzurum qaz kəmərinin istifadəyə verilməsi, "Şahdəniz", "Abşeron", "Ümid" kimi perspektivli qaz yataqlarının istismarı, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi, Avropanın enerji təhlükəsizliyində müstəsna rol oynayan "Cənub qaz dəhlizi"nin - TANAP, TAP layihələrinin gerçəkləşdirilməsi, ölkəmizin Orta dəhliz kommunikasiya qovşağındakı rolunun gücləndirilməsi, nəhayət, Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində atılan addımlar bu baxımdan xüsusi vurğulanmalıdır.

Uzaq hədəflərə hesablanmış enerji strategiyası Azərbaycanı son 20 ildə qaz və elektrik enerjisi idxalçısından bu sektorlar üzrə potensial ixracatçıya, habelə investor dövlətə çevirib. Bu fakt özlüyündə Azərbaycanın dünya birliyi üçün önəmini daha da artırmaqla, respublkamızın Avratlantik strukturlara inteqrasiya prosesini sürətləndirib, strateji məsələlərdə Avropa ölkələrindən dəstək almaq imkanlarını genişləndirib.

Dövlət başçısının haqlı olaraq qeyd etdiyi kimi, müstəqil Azərbaycan tarixin heç bir mərhələsində indiki qədər güclü və qüdrətli olmayıb. Cənab İlham Əliyev bu mərhələdə dövlətin mövcud resurslarından xalqın rifahı və firavanlığı naminə məqsədyönlü istifadəni hökumət qarşısında strateji vəzifə kimi müəyyənləşdirib. "Hər bir məmur xalqın xidmətçisi olmalıdır" deyən cənab İlham Əliyev hökumətin xalq qarşısında hesabat verməsini, görülən işlər barədə ictimaiyyətin hərtərəfli məlumatlandırılmasını demokratik idarəetmənin zəruri tələbi kimi önə çəkir. Ötən 20 ildə ayrı-ayrı dövlət məmurlarına etimad meyarı məhz onların fəaliyyətinə əsasən müəyyənləşdirilib, ictimaiyyətin görülmüş işlər, qarşıda duran məqsədlər, həyata keçiriləcək layihələr barədə dolğun məlumatlandırılması zəruri sayılıb.

Prezident İlham Əliyevin iqtisadi siyasəti ilk növbədə hər bir fərdin maraqlarını önə çəkib. "Siyasətimizin əsasında Azərbaycan vətəndaşı dayanır" deyən dövlət başçısı keyfiyyətcə yeni mərhələdə insan və vətəndaş mənafeyinə xidmət edən islahatların dərinləşdirilməsini təmin edib. Bu yanaşma dövlət idarəçiliyində yenilikçi və müasir baxışı, şəffaflığa xidmət edən institusional islahatları genişləndirərək, respublikamızın qısa müddətdə elektron xidmətlər sahəsində mühüm uğurlara imza atmasına şərait yaradıb. Korrupsiyaya qarşı mübarizə, şəffaflığın təmini tədbirləri çərçivəsində yaradılmış "ASAN xidmət", "DOST", "ASAN kommunal", "ABAD" və digər mobil xidmət mərkəzləri hazırda dünyada böyük populyarlıq qazanaraq, Azərbaycanın milli brendi kimi qəbul edilir. Bütün bunlar özəl sektorda geniş yayılmış müştəri məmnunluğu ideyasının dövlət idarəçiliyində tətbiqinə, dövlət-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə təkan verib, insanların hakimiyyətə inam və etimadını gücləndirib.

Ümumiyyətlə, Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənir və cəmiyyətin sosial sifarişini əks etdirir. Aztəminatlı vətəndaşların sosial müdafiəsi, istehsalçı və istehlakçının maraqlarının uzlaşdırılması, bir sözlə, sosial-liberalizm xətti cənab İlham Əliyevin prezidentlik dövrünü səciyyələndirən prioritet istiqamətlərdən biri kimi diqqət çəkir. Azərbaycanda yeni mülkiyyət formalarının yaranması, sahibkarlığın sürətli inkişafı, bazar münasibətləri şəraitində qiymətlərin optimallaşdırılması əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarını inkar etmir. Hər bir islahatın bu təbəqənin maraqlarına vura biləcəyi cüzi ziyan belə təxirəsalınmaz sosial müdafiə tədbirləri hesabına kompensasiya edilir.

Son 15 ildə keçmiş ittifaq respublikaları arasında ilk dəfə məhz Azərbaycanda vətəndaşların sovet dövründən banklarda qalmış əmanətlərinin ədalətli şəkildə qaytarılması təmin edilib, əhalinin qaza və suya olan borcları dövlət büdcəsi hesabına silinib. Cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə işsizlik probleminin həlli, yeni sosial infrastruktur obyektlərinin - təhsil, mədəniyyət, səhiyyə, rabitə müəssisələrinin qısa müddət ərzində tikilərək istifadəyə verilməsi, yeni yolların, su, qaz, elektrik, rabitə xətlərinin çəkilişi son nəticədə Azərbaycan insanının mədəni-intellektual səviyyəsinin yüksəlişinə, mənəvi-əxlaqi dəyərlərin cəmiyyətimizdə əsas meyara çevrilməsinə xidmət edib. Dəniz səviyyəsindən 3000 min metrədək hündürlükdə yerləşən Qubanın Xınalıq kəndinə asfalt yolun çəkilməsi, heç zaman mavi yanacaq üzü görməyən bəzi rayon və kəndlərin təbii qazla təchizatı, Bakıya Oğuz-Qəbələ zonasından su kəmərinin çəkilməsi, yeni təhsil, səhiyyə, mədəniyyət, olimpiya-idman komplekslərinin tikintisi - bütün bunlar Azərbaycan vətəndaşlarının firavan, rahat yaşamasına xidmət edən böyük investisiya layihələrinin çox az qismidir.

2018-ci ilin 11 aprel seçkilərindən sonra ölkəmizdə qlobal miqyası ilə sistem xarakteri alan, uzaq hədəflərə hesablanmış islahatların xalqın arzu və istəklərini ifadə etdiyi göz önündədir. Ötən dövrdə ictimai həyatın bütün sahələrində aparılan kadr dəyişikliklərinin, şəffaflığa, bürokratik amillərin aradan qaldırılmasına xidmət edən struktur islahatlarının, tətbiq olunan innovativ idarəetmə texnologiyalarının başlıca mahiyyəti insanları önə, diqqət mərkəzinə çəkməkdir: idarəçiliyin müasirləşdirilməsi, bir çoxlarına həlli müşkül görünən neqativ amillərin aradan qaldırılması üçün siyasi iradə nümayişi, yerli və mərkəzi icra hakimiyyəti orqanlarında aparılan ciddi kadr dəyişiklikləri, yeniliklərlə ayaqlaşa bilməyən məmurların vəzifələrindən uzaqlaşdırılması sistem islahatlarının mühüm elementləri kimi diqqəti çəlb edir.

Xüsusi vurğulamaq lazımdır ki, hakimiyyətin icraedici qolunun müasirləşdirilməsi istiqamətində həlledici addımlardan biri də 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq referendumu ilə Azərbaycan Respublikasında vitse-prezidentlik institutunun yaradılması olub. 2017-ci il fevralın 21-də Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi idarəçiliyin müasirləşdirilməsi, hakimiyyətə ictimai inamın gücləndirilməsi baxımından səmərəli nəticələr verir. Bu vəzifəyə çoxşaxəli fəaliyyəti ilə milyonların rəğbətini qazanmış layiqli bir şəxsiyyətin təyinatı müasir dövlət idarətməsində keyfiyyətcə yeni mərhələ açdı. Əminliklə demək olar ki, Azərbaycanın birinci xanımı formalaşdırdığı mükəmməl komanda ilə Prezident İlham Əliyevin islahatlar kursunun uğurla reallaşdırılmasına layiqli töhfələrini verir. Aztəminatlı insanların, qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin problemlərinin həllində dövlətimizin basçısı ilə yanaşı, Birinci vitse-prezidentin də xidmətləri müstəsnalıq təşkil edir.

Son 20 ildə ölkənin iqtisadi uğurlarını təmin edən mühüm amillər sırasında konkret dövr üçün həyata keçiriləcək tədbirləri özündə ehtiva edən sahəvi, regional dövlət proqramlarının hazırlanmasını və icrasını da xüsusi qeyd etmək lazım gəlir. Azərbaycanın neft gəlirlərindən asılılığının azaldılması, regionların proporsional inkişafının təmini, biznes və investisiya mühitinin yaxılaşmasına imkan yaradacaq infrastruktur layihələrinin həyata keçirilməsi və sairə bu proqramlarda qarşıya qoyulan başlıca hədəflər olub.

Dövlətin sistemli iqtisadi islahatlar çərçivəsində sahibkarlığın inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər də özünün ardıcıllığı, səmərəliliyi və sistemliliyi ilə diqqəti cəlb edib. Yerli sahibkarlarla müntəzəm görüşlər keçirən dövlətimizin başçısı onları narahat edən məsələləri diqqətlə dinləyib, özəl sektorun təmsilçilərini dəstəklədiyini, iş adamlarına lazımi köməyi göstərəcəyini bəyan edib. Dövlət rəhbəri inhisarçılıq, sahibkarlara süni maneələrin yaradılması, hüquq-mühafizə orqanlarının iş adamlarının fəaliyyətinə müdaxiləsi hallarını hər zaman pisləyib, bu münasibət konkret qərarlarla müşayiət olunub. Sahibkarlıq fəaliyyəti üçün lisenziya və icazələrin sayının, ödənilən rüsumların məbləğlərinin dəfələrlə azaldılması; icazələrin verilməsi prosedurlarının sadələşdirilməsi, o cümlədən bu sahədə elektron portalın yaradılması; sahibkarların hüquqlarının qorunması məqsədilə Apellyasiya şuralarının yaradılması; yoxlamaların məhdudlaşdırılması, ölkə ərazisindən tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiqi; ölkədə investisiyaların təşviqinin artırılması məqsədilə 7 il müddətində vergi və gömrük güzəştlərinin verilməsi; "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi; dövlət orqanlarında sahibkarların müraciətlərinin birbaşa cavablandırılmasını həyata keçirən, məlumatlandırma və məsləhət xidmətləri göstərən çağrı mərkəzlərinin yaradılması, güzəştli kreditlərin həcminin genişləndirilməsi öz müsbət nəticələrini verib.

Azərbaycanın iqtisadi inkişafı əvvəllər daha çox enerji resurslarına əsaslanırdısa, hazırda iqtisadi şaxələndirmənin nəticəsi olaraq qeyri-neft sektoru mühüm artım tempinə malikdir. "Neft bizim üçün məqsəd deyil, iqtisadiyyatı inkişaf etdirmək üçün vasitədir" deyən Prezident İlham Əliyevin milli iqtisadiyyatın şaxələndirilməsi, neft amilindən asılılığın azaldılması istiqamətində həyata keçirdiyi siyasət real nəticələrini verir. 2024-cü ilin müzakirəyə çıxarılan dövlət büdcəsi layihəsinə əsasən, xam neftin bir barelinin orta illik ixrac qiymətinin 60 ABŞ dolları səviyyəsində götürülməsi, büdcə gəlirlərinin ÜDM-nin 28,5 faizi həcmində - 33765 milyon manat olması nəzərdə tutulur. Bu göstəricinin 49,6 faizinin və ya 16756,0 milyon manatının neft, 50,4 faizinin və ya 17009,0 milyon manatının qeyri-neft-qaz sektorunun payına düşəcəyi proznozlaşdırılır.

Dövlət başçısı İlham Əliyev bir neçə gün əvvəl 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində çıxışı zamanı son 20 ildə əldə olunmuş makroiqtisadi nailiyyətlərlə bağlı deyib: "...Son 20 il ərzində ümumi daxili məhsul dörd dəfə artıb, büdcə gəlirlərimiz 30 dəfədən çox artıb, xarici ticarət dövriyyəsi on dəfədən çox artıb. Biz birbaşa xarici borcun həcmini azalda bildik və hazırda o, ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. 2024-cü ilin sonuna qədər planlarımıza uyğun olaraq onun həcmi ümumi daxili məhsulun təxminən 7-7,5 faizini təşkil edəcək. Azərbaycanın xarici valyuta ehtiyatları birbaşa xarici borcumuzu on dəfə üstələyir. Başqa sözlə, əgər lazım gələrsə, biz bütün borclarımızı bir neçə ay ərzində ödəyə bilərik. Biz çox müsbət sərmayə mühitini nəinki enerji, o cümlədən digər sektorlarda yaratmışıq. Beləliklə, son 20 il ərzindəki sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onlardan 190 milyard dolları qeyri-enerji sektoruna yatırılmışdır".

Xüsusi vurğulamaq istərdim ki, bu gün hər bir azərbaycanlı Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti və güclü siyasi iradəsilə ilə reallaşdırılan, cəmi 23 saat davam edən və Ermənistanın Qarabağda 30 il müddətində himayə etdiyi qanunsuz rejimi çökdürən lokal antiterror əməliyyatlarının nəticələri ilə qürur duyur. Separatçı rejimin ağ bayraq qaldıraraq təslim olması, tərk-silah edilməsi və özünü buraxması ilə nəticələnən bu zəfər xalqımızda şükranlıq və fəxarət hissi doğurur. Lokal antiterror tədbirləri ilə Qarabağ iqtisadi rayonu üzərində suverenliyini təmin edən Azərbaycan eyni zamanda İrəvanda son 35 ildə hakimiyyətdə olmuş siyasi qüvvələrin regionda ikinci erməni dövləti yaratmaq istiqamətində apardıqları siyasəti bütün müstəvilərdə iflasa uğradıb. Bu tarixi qələbə ultra-millətçi erməni ideoloqlarının iki əsrdən çox müddətdə təşviq etdikləri saxta ideologiyanın süqutu, xunta rejiminin mövcudluğuna xidmət edən genişmiqyaslı hərbi-siyasi, diplomatik, iqtisadi və hərbi təşəbbüslərin qarşısının birdəfəlik alınması deməkdir. Ermənistanda hakimiyyətdə olmuş siyasi qüvvələr son 30 ildə bütün resurslarını Azərbaycan ərazilərinin ilhaqına yönəltsələr də, Qarabağdakı qondarma rejimin süqutu bu məkrli niyyətləri puça çıxarıb. Ölkəmiz təkcə Ermənistan üzərində deyil, dünya erməniliyi, onların himayədarları ilə aparılan tarixi mücadilədən qələbə ilə çıxıb.

Rəsmi Bakı istər Birinci, istərsə də İkinci Qarabağ müharibələri zamanı ağır hərbi cinayətlər törətmiş şəxslər barəsində cinayət işlərinin açıldığını, onların barəsində beynəlxalq axtarış elan olunduğunu bəyan edib. Qanunsuz rejimin ağır cinayətlərdə təqsirli bilinən ideoloji-siyasi və hərbi rəhbərlərinin saxlanılaraq Bakıya gətirilməsi göstərir ki, rəsmi Bakı müharibə canilərini qətiyyən bağışlamır, hüququn aliliyini və tarixi ədaləti bərpa edir. Ölkə qanunvericiliyinə və beynəlxalq təcrübəyə uyğun olaraq həmin şəxslərin cinayət məsuliyyətinə cəlb olunması istiqamətində tədbirlər davam etdirilir.

Beynəlxalq səviyyədə ölkəmizə qarşı yönələn müəyyən təhdid və təzyiq cəhdlərini əzmlə zərərsizləşdirən Prezident İlham Əliyev Azərbaycan xalqının milli maraqlarını qətiyyətlə qoruyur. Ölkəmizin hələ 2020-ci ildə işğaldan azad etdiyi əraziləri üzərində suverenliyini təmin etməsi ilə rəsmi İrəvanın istinad etdiyi qondarma "mübahisə predmeti" əlindən alınıb, beləliklə, regionda tamamilə yeni geosiyasi vəziyyət yaranıb. 35 illik beynəlxalq hüquqa zidd siyasəti iflasa uğrayan Ermənistanın bundan sonrakı mərhələdə sülh prosesini əngəlləyən yeni iddia və bəhanələrlə çıxış edəcəyi, imitasiya ilə məşğul olacağı inandırıcı görünmür. Qarabağın tarixi Azərbaycan ərazisi olduğunu bütün dünya, eləcə də Ermənistanın uzun illər güvənc yeri kimi baxdığı bəzi qonşu ölkələr də bəyan edirlər.

Hazırkı mərhələdə Ermənistanın Azərbaycanla yekun sülh sazişini imzalamaqdan yayınmaq, vəziyyəti yenidən gərginləşdirmək yolu seçməsi bu ölkənin daha acınacaqlı vəziyyətlə üzləşməsi, növbəti sarsıdıcı zərbələr alması ilə nəticələnər. Son 30 il ərzində faktiki olaraq müstəqil dövlət ola bilməyən Ermənistan yalnız işğalçılıq siyasətindən əl çəkib konstruktiv mövqe nümayiş etdirməklə, zamanla regional müstəvidə üzləşdiyi təcrid vəziyyətindən qismən çıxa, müəyyən layihələrdə iştirak imkanı qazana bilər. Bu proses isə Ermənistan rəhbərliyinin sülhyaratma təşəbbüslərinə konstruktiv yanaşmasından asılı olacaq. Azərbaycanla Türkiyəni birləşdirəcək Zəngəzur dəhlizinin açılması nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşdirilməsi baxımından region dövlətlərinə mühüm perspektivlər vəd edir. Zəngəzurdan keçəcək nəqliyyat-kommunikasiya layihələri ağır sosial-iqtisadi durumda olan Ermənistan üçün də əlavə imkanların açılması deməkdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu günlərdə bəyan etdiyi kimi, regionun inkişafı baxımından mühüm layihə olan Zəngəzur dəhlizinin açılması Ermənistan üçün tarixi fürsət ola bilər.

İqtisadçı alim kimi bu qənaətdəyəm ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda tam suverenliyini təmin etməsi ilə həmin ərazilərin ümumi iqtisadiyyata inteqrasiyası prosesi də sürətlənəcək, regional inkişaf prosesinin ayrılmaz həlqəsinə çevriləcək. Dövlət başçısı İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına müntəzəm səfərləri, həyata keçirilən bərpa və yenidənqurma işlərinin gedişi ilə tanış olması Böyük qayıdış proqramının icrasının hökumət üçün prioritet məsələ olduğunu təsdiqləyir. 16 noyabr 2022-ci il tarixli sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" bu istiqamətdə işlərin sistemli, ardıcıl, əhatəli, konkret plan üzrə aparılmasına təminat yaradıb. Azad edilmiş ərazilərdə iqtisadi fəaliyyətin dirçəldilməsi, əlverişli biznes və sərmayə mühitinin formalaşdırılması, sahibkarlıq fəaliyyəti ilə məşğul olacaq şəxslərin maliyyə resurslarına çıxışının genişləndirilməsi, resursların maya dəyərinin azaldılması və digər mühüm tədbirlər dövlət proqramının əhəmiyyətini artırır.

Qeyd edilən məqamlar bir daha təsdiq edir ki, Prezident İlham Əliyevin son 20 ildə yürütdüyü siyasət Azərbaycanı müstəqil, sürətlə inkişaf edən, ərazilərinin işğalına hərb meydanında son qoyan, erməni separatizmini diz çökdürən, hücum diplomatiyası yürüdən güclü dövlətə çevirib.

*Bu amilllər xalqla hakimiyyət arasında mənəvi-siyasi telləri daha da gücləndirir, Prezident İlham Əliyevin yürütdüyü siyasətin əksəriyyət tərəfindən dəstəklənməsini təmin edir. Cəmiyyətdəki mütləq çoxluq bu qənaətdədir ki, qlobal problemlərinin həllinə nail olan Azərbaycan bundan sonrakı mərhələdə islahatları dərinləşdirməklə daha sürətlə tərəqqi yoluna qədəm qoyacaq, yaxın perspektivdə inkişaf etmiş dövlətlərlə eyni sırada layiqli yerini tutacaqdır.*

**Qüdrət KƏRİMOV,**
***"Xəzər" ASC-nin sədri, iqtisad elmləri doktoru***

# Prezident Azərbaycanı əzmlə irəli aparır

**2003-cü il Azərbaycan xalqının ictimai-siyasi həyatında yeni tarixi dövrün başlanğıcı kimi yadda qaldı. Oktyabrın 15-də Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyev xalqın etimadını qazanaraq Azərbaycan Prezidenti seçildi və bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başlandı.**

Hər bir xalqın və millətin milli identikliyini müəyyən edən bir sıra amillər təbii ki, milli müxtəlifliyi də ortaya qoyur. Güclü, nüfuzlu siyasi xadimlər isə xalqı dünyada tanıdan və onun ictimai surətini formalaşdıran başlıca faktor kimi nəzərdən keçirilir. Bir sözlə, şəxsiyyət fenomeninin xalqın və dövlətin taleyini müəyyənləşdirən əsas amil olması uzun illər sınaqdan keçmiş təcrübədir və isbata ehtiyacı yoxdur.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə bərqərar olan sabitlik və məhz Ümummilli Liderin şəxsi nüfuzu sayəsində Azərbaycanın beynəlxalq səviyyədə özünə yer tutması bu fikirləri daha dolğun tamamlayır. Müasir Azərbaycan dövlətinin memarı olaraq Ulu Öndərin həm daxili, həm də xarici siyasi kursu onun dahi dövlət xadimi, böyük vətənpərvər və tarixi fenomen olduğunu göstərdi.

2003-cü il seçkilərindən bizi ayıran 20 illik dövr, tariximizin hər gün yazılmaqda olan möhtəşəm səhifəsidir. Xalqımızı parlaq qələbəyə inamla aparan Prezident İlham Əliyevin 20 illik siyasi hakimiyyətinin yüksələn xətlə inkişaf edən bütün dövrləri zaman, sürət və nəticə kimi, elmi düsturun dövlət idarəçiliyinə uğurlu inikasıdır.

Müasir respublika tarixinin son dövrü Azərbaycan üçün əlamətdar olub. Cəngavərtək döyüşən, öz torpaqlarını azad edən Böyük Xalq yaxın 500 ilin qürur səhifəsini açıb. İslam və Türk aləminə məhz bu şücaəti ilə şərəf gətirən Azərbaycanın yaratdığı qalib ölkə fenomeni artıq yaxın-uzaq coğrafiyalarda əfsanəyə çevrilib. Müasir hərb sənətini uğurlu siyasi gedişlərin gücünə çevirməyi bacaran ölkəmiz indi örnəkdir. Azərbaycan nüfuzlu, müzəffər və hər cür rəğbətə layiq ölkədir. Bu uğur formulunun memarı isə İlham Əliyevdir. O təkcə dövrünün ustad siyasətçisi deyil, həm də döyüşkən xalqın Lideridir.

Ali Baş Komandanın qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşını başlayan Azərbaycan Ordusu dünyanı heyrətə salan hərbi uğurlara imza atdı. Otuz ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın azadlığı tariximizə Zəfər Günü kimi yazıldı. İki gün sonra isə işğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi.

Dünya hərb tarixində xüsusi yer tutan Zəfər müharibəsi Prezident İlham Əliyevin daha bir keyfiyyətini - sərkərdəlik məharətini üzə çıxartdı. Ali Baş Komandan olaraq o, əməliyyatlara şəxsən nəzarət edir, döyüşən orduya tapşırıqları birbaşa özü verirdi. Qələbəni şərtləndirən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu. Prezident İlham Əliyevin şəxsi nüfuzu bütün beynəlxalq arenalarda ölkəmizin mövqeyini daha da möhkəmləndirdi, Azərbaycanın milli maraqlarının müdafiə olunmasını mümkün etdi. Xüsusi qeyd edilməlidir ki, müharibə dövründə dövlətimizin başçısı İlham Əliyevin xarici KİV-ə verdiyi 30-dan çox müsahibə münaqişə ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı.

Ədalətin bərpa edilməsindən sonra Azərbaycan dövlətinin qarşısında yeni çağırışlar dayanırdı. 2023-cü ilin sentyabrında aparılan uğurlu 24 saatlıq antiterror tədbirləri tarixi qələbəmizi məntiqi sonuna çatdırdı. Azərbaycan torpaqlarında separatizmin kökü kəsildi və suverenliyimiz təmin edildi. İndi isə bir zamanlar xalqımıza qarşı qatı cinayətlər törətmiş canilərin bir-bir cinayət məsuliyyətinə cəlb olunduqlarının şahidi oluruq. Prezident İlham Əliyevin söylədiyi kimi, Azərbaycan xalqına qarşı cinayətlər törətmiş şəxslər cəzasız qalmayacaqlar və qalmırlar.




Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Qazanılmış Qələbə həm də ötən dövrdə həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. Azərbaycan Prezidenti xalqa verdiyi bütün vədləri yerinə yetirib. Bu müddət ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb.

Ötən dövrdə Azərbaycanda bütün sahələrin inkişaf etməsi ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşayiət olunub. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb. Son illər Azərbaycanın regionda aparıcı aktora çevrilməsi, dünyada artan nüfuzu beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər. Ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına sədrlik edib. Təşkilata sədrlik müddətinin daha bir il artırılması Prezident İlham Əliyevin qlobal liderlik səylərinə verilən yüksək qiymətdir.

Azərbaycan dünyada azsaylı ölkələrdəndir ki, həssas və mürəkkəb bölgədə yerləşməsinə baxmayaraq, həm region, həm də dünya ölkələri ilə yüksək səviyyəli əlaqələrə malikdir.

Serbiya Prezidenti Aleksandar Vuçiç haqlı olaraq deyir: "Bu gün Prezident İlham Əliyev dünyanın ən arzuolunan və rəğbət bəslənilən liderlərindən biridir. Müasir dövrdə Prezident İlham Əliyev bütün paltformalarda Azərbaycanın haqq mövqeyini uğurla müdafiə edir".

Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran "Cənub qaz dəhlizi", TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib.

Bu gün Prezident İlham Əliyevin nəzarəti ilə azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işləri, Ermənistan tərəfindən viran qoyulmuş ərazilərin abadlaşdırılması və aparılan nəhəng prosesin sürəti beynəlxalq ictimaiyyət tərəfindən də müsbət anlamda heyrətlə qarşılanır. Bütün sahələrdə olduğu kimi, bu istiqamətdə də Azərbaycan dünya üçün bir örnək model ortaya qoyur.

Azərbaycan xalqı həmişə öz liderinə güvənib və inanıb, ona arxa-dayaq olub. Prezidentimiz həmişə böyük fəxrlə deyir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Bu qarşılıqlı inam sayəsində Prezident İlham Əliyev xalqı zirvədən-zirvəyə, qələbədən-qələbəyə aparır.

Zəfər, qalibiyyət, milli birlik, güclü iradə və güclü xalq. Yüzilliklər boyu davam edən dövlətçilik salnaməsinin bu epoxasını yaradan Azərbaycan Prezidenti İlham Əliyev tarixi şəxsiyyət kimi xalqımızın yaddaşına əbədi həkk olunacaq - Xilaskar və Böyük Lider.

**Sevil MİKAYILOVA,**
***Milli Məclisin deputatı***

# Ata vəsiyyətini yerinə yetirən, arzuları reallaşdıran Ali Baş Komandan

**Azərbaycanın qədim və şanlı tarixində çox sayda dövlət başçıları və sərkərdələr olub. Onların hər biri Azərbaycan xalqının qarşısında xidmətlərinə görə tarixə düşüb, daim xatırlanır. Azərbaycan tarixində ən problemli məsələlərdən biri isə Qarabağla bağlı olub. Bu problemlə dünyanın ən nüfuzlu dövlətləri, təşkilatları, kiçik dövlətlər belə maraqlanıb, hətta Qarabağla bağlı fikir və mülahizələr söyləyiblər.**

Hələ XVIII əsrdə belə bir fikir var idi ki, bu ərazilərdə erməni, xristian dövləti yaratmaq olar. Amma II Yekaterinanın ölümü çar Rusiyasının Qarabağla bağlı arzu və istəklərini yarımçıq qoydu və bu fikri müdafiə edən, uğrunda mübarizə aparan ermənilər bu arzu və istəklərini reallaşdıra bilmədilər. Ən nəhayət, çarizmin Cənubi Azərbaycan torpaqlarını, o cümlədən müstəqil Azərbaycan xanlıqlarını işğal etməsi, Qarabağ xanlığı ilə Kürəkçay müqaviləsi imzalaması, daha sonra Gülüstan və Türkmənçay müqavilələrinin bağlanması ilə Şimali Azərbaycan torpaqları çar Rusiyasının əlinə keçdi. Bu, ermənilərə imkan verdi ki, on minlərlə erməni həm Cənubi Azərbaycan, həm də Osmanlı torpaqlarına köçürülsün. Hətta köçürmə komissiyasına rəhbərlik edən general Lazarev mənşəcə erməni idi. O, ermənilərə müraciətində deyirdi ki, sizin üçün təzə vətən tapmışıq. Bu yeni vətən haradır? Qarabağdır, Naxçıvandır, təbii ki, İrəvan torpaqlarıdır. Qısa müddət ərzində yüz minlərlə erməni Azərbaycan torpaqlarına köçürüldü. Burada demoqrafik vəziyyət dəyişildi və azərbaycanlı əhalinin torpaqları zorla əllərindən alınıb ermənilərə verildi. Beləliklə, azərbaycanlıların faciəli və dəhşətli tarixi başladı. 1918-20-ci illərdə mövcud olan Xalq Cümhuriyyəti də Qarabağla bağlı mümkün olanları etdi. Qarabağ general-qubernatorluğunu yaratdı və buradakı-erməni separatçılarının böyük hissəsini ərazidən uzaqlaşdırdı. Amma bolşevik işğalı Qarabağla bağlı erməni iddialarına birdəfəlik son qoyulmasına imkan vermədi.

Sovet dönəmi, əslində, Azərbaycan xalqı üçün yeni faciələr yaratdı. Bu faciələrin ən birincisi isə sovet Rusiyasının bilavasitə rəhbərliyi ilə 1923-cü ildə Azərbaycanın Qarabağ torpaqlarında Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması oldu. Bu qara yara Azərbaycanı içəridən dağıtmaq, həmişə narahat etmək üçün ermənilərin, sovet Rusiyasının əlində bir qılınc idi. Doğrudan da, 70 illik sovet dönəmində ermənilər imkan düşən, şərait yaranan kimi Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsini dövlət, Moskva səviyyəsində tələb edirdilər. Amma sovet dövləti buna razılıq vermirdi, çünki bu, SSRİ-ni dağıda, zəiflədə bilərdi və ona görə də hər dəfə bu məsələ təxirə salınırdı. 1980-ci illərin sonu, 90-cı illərin əvvəllərində sovet dövlətinin zəifləməsi və süqutu ermənilərə imkan verdi ki, onlar Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirməyə cəhd göstərsinlər. Azərbaycan dövlət müstəqilliyini bərpa edən ərəfədə erməni silahlı dəstələri, xaricdəki havadarları sovet rəhbərliyinin bilavasitə xeyir-duası ilə Azərbaycana qarşı müharibəyə başladılar. Azərbaycan torpaqlarının 20 faizi işğal olundu. Azərbaycanlı əhali həm Qərbi Azərbaycanı, həm də Qarabağı və ətrafındakı torpaqları belə tərk etməyə məcbur edildi. Bir milyon insan qaçqın və köçkün həyatı yaşamağa başladı.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanda qardaş qırğınını, vətəndaş müharibəsini dayandırdı və müstəqil Azərbaycan yavaş-yavaş çətinlikləri aradan qaldıraraq, ərazi bütövlüyünü təmin etmək üçün mümkün olanları etdi. Amma bizim mübarizəmiz və müharibəmiz təkcə Ermənistanla deyildi. Ermənistanı müdafiə edən qüvvələr o qədər çox idi ki, hətta BMT Təhlükəsizlik Şurasının ermənilərin torpaqlarımızı işğalı ilə bağlı dörd qətnaməsi də yerinə yetirilmirdi. ATƏT-in Minsk qrupu da uzun illər ərzində, sadəcə, Azərbaycana turist səfərləri edir, yalnız tövsiyələr, təkliflər verirdi. Bu təkliflərin əksəriyyəti də Azərbaycanın ərazi bütövlüyünün əleyhinə idi.

2003-cü ildə Ümummilli Lider Heydər Əliyevin xeyir-duası ilə İlham Əliyev prezidentliyə namizəd oldu və bütün xalq onu dəstəklədi. Hakimiyyətə gələn İlham Əliyev Azərbaycan iqtisadiyyatı, təsərrüfatı, xarici siyasəti, ümumiyyətlə, bütün sahələrdə uğurlar qazandı və bunlarla bağlı kifayət qədər əsərlər yazılıb.

Amma tarixçi olaraq bir məsələnin üzərində xüsusi dayanmaq istəyirəm. İlham Əliyev Azərbaycan dövlətçilik tarixində zirvədir. Çünki XVII əsrdən sonra Qarabağla bağlı erməni iddiaları, erməni iddialarını reallaşdırmaq üçün 1980-ci illərin sonu, 90-cı illərin əvvəllərində Qarabağın Azərbaycandan ayrılması, azərbaycanlı əhalinin öz evlərindən didərgin salınması, Qarabağdakı Azərbaycan tarixi, dini abidələrinin məhv edilməsindən sonra İlham Əliyev Azərbaycan dövlətçilik tarixində ilk dəfə olaraq, 2020-ci ildə 44 günlük müharibə ilə erməniləri darmadağın etdi və Qarabağı düşməndən azad etdi. Düşmən ilk dəfə Azərbaycanın gücünü, Azərbaycan Ordusunun qəhrəmanlığını, Azərbaycan Prezidentinin cəsarətini, inadkarlığını və təcrübəsini gördü. Bu, təbii ki, Qarabağın tarixində ilk hadisə idi.

Ermənistanı müdafiə edən havadarları 44 gün ərzində əllərindən nə gəldisə etdilər, ancaq Azərbaycan Prezidenti bir addım belə geri çəkilmədi, o qələbə üstünə qələbə gətirdi. İşğaldan azad edilən kənd və şəhərlərin sayı hər gün artdı və sonda isə Şuşanın azad edilməsi dövlət başçısının ən böyük uğuru, ən böyük qəhrəmanlığı və zəfəri oldu.

Prezident İlham Əliyev bununla da kifayətlənmədi. Erməni məkrinin kökünü kəsmək, ermənilərin azərbaycanlılara qarşı törətdiyi təxribatları birdəfəlik sona çatdırmaq üçün 2023-cü ilin sentyabrında antiterror əməliyyatı həyata keçirməklə bütün Qarabağda Azərbaycanın suverenliyini təmin etdi, Vətən bütövləşdi.

1923-cü ildə bu ərazidə Dağlıq Qarabağ Muxtar Vilayəti adlı bir bədnam qurum yaradılmışdı. 100 ildən sonra isə həmin qurum tarixdən silindi. Bu, Azərbaycan tarixi üçün ən böyük hadisədir və bu hadisələrin də qəhrəmanı birmənalı olaraq dövlət başçımız, Ali Baş Komandan İlham Əliyevdir.

Üç il ərzində Azərbaycan Ermənistana sülh müqaviləsi imzalamaq üçün müraciətlər edib və bu məqsədlə dünyanın ayrı-ayrı mötəbər şəhərlərində görüşlər də baş tutub. Amma erməni tərəfi belə başa düşürdü ki, nə vaxtsa Qarabağı geri qaytara biləcək. Ancaq bu il sentyabrda olan birgünlük antiterror əməliyyatı ermənilərin bütün arzu - istəklərini məhv etdi və dünya erməniləri bununla başa düşdülər ki, Azərbaycanın dövlət başçısı heç bir zaman geri çəkilməyəcək və geri çəkilmək xarakterində olan bir adam deyil.

2023-cü ildə Qarabağ probleminin həll olunması Heydər Əliyevin 100 illiyinə Azərbaycanın dövlət başçısının ən böyük töhfəsidir. Çünki vaxtilə Heydər Əliyev Azərbaycan xalqına müraciətində deyirdi ki, O, İlham Əliyevə inanır. İnanır ki, İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təmin edəcək və işğal altında olan bütün torpaqlar azad olunacaq. Ali Baş Komandan həm ata vəsiyyətini yerinə yetirdi, həm də Ümummilli Lider Heydər Əliyevin arzularını reallaşdırdı. Bu gün həm Ulu Öndərin, həm də Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan insanların ruhları şaddır. Onlar Vətən üçün əllərindən gələni etdilər və son olaraq Ali Baş Komandan bütün Azərbaycan xalqını və Azərbaycanı istəyən insanların arzu və istəklərini reallaşdırdı. Azərbaycan xalqı bu gün xoşbəxtdir, ona görə ki, onun güclü, dünyanın nəhəng dövlət xadimləri ilə müqayisə olunan dövlət başçısı var. Prezident İlham Əliyevin 2003-cü ildə hakimiyyətə gələrkən ilk sözü bundan ibarət olmuşdu ki, o, bütün Azərbaycan xalqının Prezidenti olacaq. Bəli, cənab İlham Əliyev bütün Azərbaycan xalqının Prezidentidir.

**Anar İSGƏNDƏROV,**
***Milli Məclisin deputatı***

# Xalqın birmənalı inam ünvanı

**Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk vaxtlar onun daxili siyasəti dövlətçiliyin itirilməsi təhlükəsini yaratmışdı. İdarəetmə dövlətçiliyin hüquqi tələbləri ilə uyğunlaşmırdı, ölkədə hakimiyyət boşluğu yaranmışdı.**

Bunlar separatçılığı təhlükəli səviyyəyə çatdırmışdı. Belə bir vaxtda xalq böyük tarixi şəxsiyyət Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdi. Ulu Öndərin siyasətində Azərbaycan dövlətçiliyi labüd iflasdan xilas oldu.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanda yaranmaqda olan milli qarşıdurmanı aradan qaldırdı, hakimiyyət dövlətçiliyin tələblərinə kökləndi, vəzifəyə həm qabiliyyətlilər, həm də Vətəni sevənlər təyin edildi, dövlət strukturları peşəkar kadrlarla komplektləşdirildi. Qısa müddətdə ordu quruculuğunda həyata keçirilən tədbirlər Silahlı Qüvvələrin formalaşmasının başlanğıcı oldu.

Ulu Öndər Heydər Əliyevin uğurlu xarici siyasəti Azərbaycanın iqtisadi inkişafının təməlini hazırladı, Azərbaycan dünya dövlətləri sırasında layiqli yerini tutdu. Beynəlxalq müqavilələrin imzalanması Azərbaycanın iqtisadi inkişafına təkan verdi.

Böyük dövlətçilik fenomeni olan dahi şəxsiyyət Heydər Əliyev geniş erudisiyaya, davamlı, dönməz siyasi istedada malik olan İlham Əliyevi Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin etdi. Gənc siyasətçi, gənc dövlətçilik fenomeni bu vəzifədə Ulu Öndərin və xalqın etimadını doğrultdu...

Ümummilli Lider Heydər Əliyev 2003-cü il prezident seçkiləri ərəfəsində - oktyabrın 1-də Azərbaycanın gələcəyi naminə xalqa müraciət etdi. Bu müraciət Azərbaycanın sabahlarına qayğıdan yaranmış müraciət idi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu müraciət xalqın istəyinin, niyyətinin mahiyyəti ilə səsləşirdi. Bu müraciət dövlətin, xalqın taleyinə düşən işıq idi...

2003-cü il oktyabr ayının 15-də Azərbaycana Prezident seçkiləri keçirildi. Xalq seçimini etdi. Seçicilərin 76 faizdən çoxu İlham Əliyevə səs verdi. Xalq inanırdı ki, İlham Əliyev Ulu Öndərin siyasi kursunu uğurla davam etdirəcək, ölkədə sabitlik qorunacaq. Belə də oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev respublikanın iqtisadi inkişafının tənzimlənməsi istiqamətində böyük, tarixi işlər gördü, Azərbaycan qısa müddətdə inkişaf etmiş dövlətlər səviyyəsinə çatdı. Müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinin, vətəndaş həmrəyliyinin bərqərar olmasının təməlində Azərbaycan dövlətinin milli maraqlarının qorunması dayanırdı. Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırdı, ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisi yüksəlməyə başladı, nəhəng infrastruktur layihələri həyata keçirildi, nəqliyyat sistemi yenidən quruldu, ölkəmizin dünyaya çıxışı təmin olundu.

Azərbaycan Respublikasının Prezidenti seçilməmişdən əvvəl Milli Olimpiya Komitəsinin Prezidenti olan cənab İlham Əliyev Azərbaycanda Olimpiya hərəkatının daha da yüksəldilməsini təmin etdi. Bu da ölkəmizin tanınmasında, dünya dövlətlərinin ehtiramı ilə əhatələnməsində xeyli əhəmiyyətli oldu.

Prezident İlham Əliyev Azərbaycan üçün, azərbaycanlılar üçün olduqca gərəkli, böyük işlər görüb. Demokratik inkişaf sürətlənib, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda böyük nailiyyətlər əldə olunub. Demokratik inkişaf baxımından həyata keçirilən sistematik tədbirlərin qanunauyğun nəticəsi kimi, Azərbaycanda dayanıqlı, mütərəqqi siyasi sistem möhkəmlənib.

Qanunvericilik bazası təkmilləşdirildi, hüquq və azadlıqların təmin olunması istiqamətində görülən tədbirlər, siyasi plüralizmin dəstəklənməsi, çoxpartiyalı sistemin inkişafı və digər istiqamətlər üzrə prioritet hesab olunan prinsiplər ölkədə davamlı demokratik cəmiyyətin inkişafının təsdiqi kimi tarixləşdi.

Prezident İlham Əliyev qətiyyətlə deyib ki, sosial siyasət Azərbaycanın dövlət siyasətinin ayrılmaz hissəsidir: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır".

Azərbaycanda gənclər siyasəti birmənalı şəkildə dünya ölkələrinin bu istiqamətdə siyasətindən mütərəqqilik və millilik baxımından fərqlidir. Gənclərin potensialından səmərəli istifadə olunması müasir, müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental amillərdən biridir. Dövlət başçısının gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Mütəmadi olaraq təkmilləşdirilən gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaradıb.

İkinci Qarabağ müharibəsində Azərbaycanın bütün potensialı səfərbər olunmuşdu, ölkədə milli həmrəylik mühiti təmin edilmişdi. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki şəxslər, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirdi. Azərbaycanın tarixinə Qələbə səhifəsi yazmış Prezidentə xalqın etibarı və ehtiramı sonsuzdur.

Prezident İlham Əliyev informasiya cəbhəsində də Ermənistanın bütün təbliğatının nəticəsiz qalmasına, dünyanın aparıcı media qurumlarına müsahibələri ilə nail oldu: "Bu müharibə dövründə 30-a yaxın müsahibə vermişəm. Ömrümdə bəlkə də bu qədər müsahibə verməmişəm …o müsahibələrdə demişəm ki, biz beynəlxalq hüquqa hörmətlə yanaşırıq, biz beynəlxalq hüququ müdafiə edirik, biz ədaləti müdafiə edirik, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik. Demişdim ki, bizim bütün addımlarımız beynəlxalq hüququn norma və prinsipləri əsasında, əxlaq əsasında görülüb və bütün addımlarımız bu istiqamətdə atılıb. İntiqamımızı düşməndən aldıq, işğalçıdan aldıq".

Bu gün Azərbaycan dünyanın inkişaf etmiş dövlətləri sırasındadır. İstər siyasi imicinə görə, istər iqtisadi inkişafına görə Azərbaycan dünyəvi siyasətdə ehtiramla əhatələnən dövlətlərdən biridir. Buna görə dünya siyasətçiləri də, xalq da Prezident İlham Əliyevə böyük ehtiram göstərir. Öz Liderinin ətrafında sıx birləşmiş xalq Prezidentini sevir, Ona inanır və güvənir...

**Səbinə XASAYEVA,**
***Milli Məclisin deputatı***



# YOL

**Azərbaycan Avropanın qərbindəki əksər ölkələrdən fərqli olaraq, maraqların kəskin kəsişdiyi mürəkkəb coğrafiyada yerləşdiyindən burada hakimiyyət oradakı kimi, sadəcə ali menecerlik deyil. O səbəbdən də biz dərindən nəzər yetirəndə aydın görürük ki, cənab İlham Əliyevin 20 il Prezidentliyi hakimiyyətdə olmaqdan daha çox, eramızdan əvvəlki proseslərdən bəhs edən bir rəvayətdəki sayaq, xalqını da yanına alıb, yırtıcı dövlətlərlə vuruşa-vuruşa, çarpışa-çarpışa yol getməyə bənzəyir. Amma bu, sözügedən rəvayətdə nəql edildiyi kimi, yurddan gediş yox, yurduna dönüş yoludur və sentyabrın 20-də Azərbaycanın çağdaş sərhədləri çərçivəsində öz torpaqları üzərində suverenliyini tam təmin etməsi ilə birinci mərhələsi başa çatdı.**

Ancaq açıq deyək ki, bu mərhələnin 3 mühüm olayı - 44 günlük savaşla işğala son qoyulması, Laçında sərhəd-buraxılış məntəqəsi qurulmaqla ərazi bütövlüyümüzün təmini və Xankəndidəki hərbi xuntanın çökdürülməsi ilə torpaqlarımız üzərində suverenliyimizin tam təmini, əslində mahiyyətcə qlobal geosiyasi inqilab idi. Çünki bu 3 olay, əksər böyük güclərin, ilk növbədə də keçmiş Minsk qrupu həmsədrlərinin maraqalarına qətiyyən cavab vermirdi və bunu heç gizlətmirdilər də.

Demək, Bismarkın siyasət haqqında azacıq dəyişdirilərək təqdim edilən məşhur fikri elə də düzgün deyilmiş. Bu nəhəng alman dövlət xadimi siyasəti "mümkün olanı reallaşdırmaq" sənəti adlandırırdı. İlham Heydər oğlunun 20 illik fəaliyyətindən isə görürük ki, əsl siyasətçi nəinki mümkün olanı, mümkünlüyü əfsanə təsiri bağışlayanları da reallaşdırmağı bacarır. Və burada söhbət təkcə yuxarıda qeyd etdiyimiz kimi, torpaqlarımız üzərində suverenliyimizin tam təminindən getmir. Regiondakı iki böyük dövlətin əleyhinə çıxdıqları Bakı-Ceyhan kəmərinin çəkilməsi, qərbdəkilərin haradasa 20 il cəhd etsələr də, reallaşdıra bilmədikləri NABUCCO layihəsinə alternativ olaraq "Cənub qaz dəhlizi"nin işə salınması özü də əfsanə təsiri bağışlayan məsələlərin həlli deyildimi?

20 il öncə cənab İlham Əliyev bir Prezident kimi özünün ilk andını içəndə mənim diqqətimi ən çox çəkən iki cümlə vardı. Birincisində o, nə yolla olur-olsun torpaqlarımızın işğaldan azad ediləcəyini, ikincidə isə Heydər Əliyev siyasətinə həmişə sadiq qalacağını bildirirdi. Elə də oldu və orasını da deyək ki, əslində birinci vədin yerinə yetirilməsi məhz ikinciyə dəqiq əməl edilməsinin nəticəsi idi. Ümumiyyətlə, Prezidentimizin 20 ildəki fəaliyyətini bir sözlə qiymətləndirməli olsaq, o sözün adı sədaqətdir. Liderinə sədaqət, onun yoluna sədaqət, milləti qarşısında verdiyi vədə sədaqət! Cənab İlham Əliyevin uğurlarının kökündə ilk növbədə məhz bu sədaqət faktoru durur.

Onun Azərbaycan xalqı qarşısındakı xidmətlərinə toxunularkən bizdə bəzən tarixdə böyük uğurlar qazanmış, imperiyalar yaratmış sərkərdələrimiz xatırladılır. Amma gəlin unutmayaq ki, onların uğurlarında bu coğrafiyada bir-biri ilə yola getməyən iki güclü türk dövlətinin varlığında maraqlı olanların da rolu az deyildi. Qərbdəki bəlli çevrələr Çinin Çingiz xana yanaşmada yeritdiyi siyasətdən örnək götürərək onlara dəstək verirdilər. Səlibçi düşüncəsi ilə hərəkət edən həmin çevrələr son yüz ildəki davranışları ilə göstərdilər ki, onlar bu regionda qətiyyən güclü Azərbaycan görmək istəmirlər. Fransanın, eləcə də ona yandaşlıq edənlərin torpaqlarımızı işğalçılardan təmizləməmizlə barışmaq istəmələrinin kökündə duran da elə budur.

Xatırlayırsınız deyilmi, Ukrayna savaşından sonra Rusiyanın atdığı bütün addımların əleyhinə çıxan, dediklərinin hər birinin əksini sübut etməyə çalışan qərbdəkilər Azərbaycan aprelin 23-də Laçında sərhəd-buraxılış məntəqəsi quranda Moskva ilə necə oxşar mövqe sərgilədilər?

Belə bir reallıq ortadaykən, cənab İlham Əliyevin bizi qələbədən-qələbəyə aparmasının sirri, məncə, onun dünyada barmaqla sayılacaq qədər az yüksəkinformasiyalı liderlərdən biri olması, ən əsası həmin informasiyadan müdrikcəsinə və qətiyyətlə faydalanması ilə əlaqədardır.

2018, 2020-ci illərdə Prezident və parlament seçkilərinin vaxtlarının irəli çəkilməsindən, eləcə də 44 günlük savaşdan az sonra nələr baş verdiyini yada salsaq, Azərbaycanın dövlət başçısının "Nəyi necə, nə vaxt etmək lazımdır - bunu mən bilirəm" sözlərini niyə dediyi tam anlaşılır.

Yeri gəlmişkən, bu gün Yaxın Şərqdə yaşananlar bir daha təsdiqləyir ki, Qarabağdakı son antiterror tədbirləri də vaxtında atılmış bir addımdır. Bu da heç şübhəsiz ki, Prezidentimizin yüksək informasiyalılığından və həmin informasiyalara dayanaraq çevik, düzgün qərar qəbul etmək bacarığından xəbər verir.

Bəli, Azərbaycanın bu günlərə gəlib çatmasının arxasında məhz bu cür qərarlar zənciri durur. Ancaq o da unudulmamalıdır ki, cənab İlham Əliyev bu 20 ildə təkcə dövləti ni əksər parametrlər baxımından regionun liderinə çevirmədi, eyni zamanda öz xalqını da Qafqazda hamıdan ucalara qaldırdı. BMT Təhlükəsizlik Şurasının üzvü seçilən, Qoşulmama Hərakatının sədri olaraq onun fəaliyyətində əsaslı dönüş etməyi bacaran, kosmik dövlətlər sırasında yer alan Azərbaycana olduğu kimi, azərbaycanlılara da yanaşmanı dəyişdirdi.

Digər xalqlar, ilk növbədə də Qafqazdakılar heç vaxt bizə indi yanaşdıqları kimi yanaşmayıblar. İndi azərbaycanlı deyəndə göz önünə ləyaqətli, qürurlu, strateji səbri, yaddaşı və baxışı olan, yad diqtəsinə boyun əyməyən bir xalq gəlir. Açığını deyək ki, Gülüstan anlaşmasından üzübəri biz özümüz də heç vaxt indiki qədər azərbaycanlı olmağımızla qürur duymamışıq. Bax, bütün bunlar o deməkdir ki, Azərbaycan bir dövlət olaraq yeni zirvələr fəth edəcək, daha da güclənəcək və böyüyəcək.

Bilirsiniz, dövlətin böyüklüyünün sonu haçan çatır? Onun yumşaq güc potensialı tükənəndə. Ki, bunun da ən önəmli göstəricilərindən biri, həmin dövləti formalaşdıran xalqa digərlərinin nifrətinin durmadan artmasıdır. Məsələn, Fransa hazırda öz tarixinin məhz bu mərhələsini yaşayır.

Fransadan söz düşmüşkən, son 3 ildə biz bu "böyük bacı"nın öz "kiçik bacı"sından da betər kiçildiyini və kiçildildiyini də seyr etdik. Bu il sentyabrın 21 - də Azərbaycana qarşı sanksiya məqsədi ilə BMT Təhlükəsizlik Şurasını toplayan Fransanın başında duran adamın aradan yarım ay keçməmiş Qranadada özünü bunun əleyinə çıxırmış kimi göstərməsi "Qarabağ Ermənistandır",- deyib də ardından dəfələrlə əksini bildirən Paşinyanın hərəkətlərindən çoxmu fərqlənir?

Beləliklə, son 20 ildə Azərbaycanın böyüməsi ilə yanaşı, biz azərbaycanlıların indiyədək böyük sandıqlarımızın kiçildiklərini də görməmək mümkün deyil. Və qarşıda hələ çox görəcəklərimiz var. Yazının əvvəlində qeyd etdiyim kimi, bizim Liderimiz, cənab İlham Əliyev 20 ildir Böyük Yoldadır. Fəqət misal gətirdiyimiz rəvayətdən də bilinir ki, məqsədə tam çatılması üçün 40 il lazım gəlir. Ümumiyyətlə, 40 ədədi bütün mədəniyyətlərdə, təsəvvüfdə də tamlıq, elə həm də bütövlük rəmzidir. Hətta musiqidə də hər bir takt 40 zərbədən ibarətdir.

Ona görə də Böyük Yolda olan Böyüyümüzün hələ görəcəyi çox məsələlər, göstərdiyi və göstərəcəyi Hədəflərə çatmaqlar var. Hələ göstərmədiyi hədəf yəqin daha böyük və bizim üçün daha müqəddəsdir, göstərdiyi isə Qərbi Azərbaycana dönüşdür.

Biz hər birimiz cənab Prezidentin 2022-ci ilin 24 dekabrında, öz doğum günündə Qərbi Azərbaycan İcması ilə görüşdə dedikləri bu sözləri yaxşı xatırlayırıq: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar".

Əgər bir Lider 2011- ci ildə yenə də doğum günündə Taxtakörpüdə Laçından olan məcburi köçkünlərlə görüşdə onlar üçün salınan yeni qəsəbənin müvəqqəti olduğunu, torpaqlarımızın azad ediləcəyini, yurdlarına dönəcəklərini, "Laçında, Kəlbəcərdə, Ağdamda, hələ ki, işğal altındakı digər torpaqlarda bundan da gözəl evlər tikiləcəyini" deyirsə, həmin evlər artıq tikilirsə, laçınlıları bu il mayın 28 - də özü orada qarşıladısa, sözü imzası olanımızın bizi bu hədəfə də çatdıracağına necə inanmaya bilərik?

Sadəcə, bu 40 illik Yolun başlanğıc nöqtəsi kimi, bilmirəm 2003-cü il götürülməlidir, yoxsa Ulu Öndərin yenidən Azərbaycana rəhbərlik etməyə başladığı 1993-cü il? İstənilən halda, Yol eyni, məqsəd eyni, qətiyyət eyni, bacarıq eyni, soy və soyad eynidir. Ona görə də qarşıda bizi ancaq uğur gözləyir. Həm də ona görə uğur gözləyir ki, biz Fransa və digərləri kimi dənizaşırı torpaqlar peşində deyilik, Müzəffər Ali Baş Komandanımızın əsgərləri, Yol yoldaşları olaraq izimizlə özümüzə doğru gedirik.

**Sahib ALIYEV,**
***Milli Məclisin deputatı***

# Azərbaycan tarixinə yeni missiya ilə daxil olmuş Lider

**Prezident İlham Əliyev Azərbaycan tarixinə yeni missiya ilə qədəm qoymuşdur. Bu missiyanın fəlsəfəsi daha əvvəl "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyərək, ictimai fəaliyyətə başlayan cənab İlham Əliyevin hələ 2003-cü ildə söylədiyi "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm" fikirləri ilə real məzmun kəsb etməyə başladı.**

Bu mərhələnin başlanğıc nöqtəsi 2003-cü il 15 oktyabr tarixli prezident seçkilərində cənab İlham Əliyevin xalqın mütləq əksəriyyətinin səsini toplayaraq (76,86 faiz) dövlətin ali rəhbəri seçilməsi ilə qoyuldu. 31 oktyabr 2003-cü ildə keçirilən andiçmə mərasimindəki çıxışında Azərbaycan Prezidenti İlham Əliyev ölkədə Heydər Əliyev siyasətini davam etdirəcəyini bir daha bəyan etdi: "Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir".

Prezidentliyinin ilk 5 ili ərzində İlham Əliyevin dövlətçiliyimiz tarixində yeni missiyasının həll etməli olduğu vəzifələrə Azərbaycanda bir çadır şəhərçiyinin belə, qalmayacağı, məcburi köçkünlərin sosial müdafiəsinin təşkilinin əsas məsələ olacağı, yoxsulluğun aradan qaldırılması üçün daha səmərəli tədbirlər görüləcəyi, 600 min yeni iş yerinin açılması istiqamətində qısa zamanda real nəticələr əldə olunacağı, regionların sosial-iqtisadi inkişafı və aqrar islahatların ikinci mərhələsi ilə bağlı dövlət proqramları hazırlanacağı, sahibkarlığa dövlət qayğısının artırılacağı, transmilli layihələr çərçivəsində ölkənin yeni infrastrukturunun yaradılmasına nail olunacağı və sairə daxil idi. İlham Əliyevin prezidentlik fəaliyyətinin qeyd edilən dövrü ərzində sadalanan bütün istiqamətlər üzrə nəzərəçarpacaq nailiyyətlər əldə olundu. Neft gəlirlərindən istifadə olunmaqla qeyri-neft sektorunun inkişaf etdirilməsi, sahibkarlığın inkişafına əlverişli şərait yaradılması, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi, hər bir azərbaycanlı ailəsi üçün rifahın və təhlükəsizliyin təmin edilməsi, dövlət strukturlarının işinin səmərəli, dünya standartlarına uyğun şəkildə qurulması, rəhbər işçilərin məsuliyyətinin artırılması, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi, beynəlxalq standartlara cavab verən demokratik parlament seçkilərinin keçirilməsi, Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə imkan verən müstəqil xarici siyasət kursunun yeridilməsi, Avropa və dünya strukturlarına inteqrasiyanın davam etdirilməsi həmin siyasətin real göstəriciləri hesab oluna bilər.

Növbəti seçkilərdə də xalqın mütləq əksəriyyətinin etimadı nəticəsində Prezident seçilən İlham Əliyev iqtisadiyyatın bundan sonra da inkişaf etdirilməsini, siyasi islahatların keçirilməsini və ölkənin modernləşdirilməsini qarşıda duran başlıca vəzifələr kimi müəyyənləşdirdi. İqtisadiyyatın şaxələndirilməsi, siyasi islahatlar, modernləşmə, enerji sektorunda asılılığın azaldılması, təhsil və güclü sosial siyasət ölkəmizin strateji xətti olaraq irəli sürüldü. Optimal məqsəd və vəzifələrin müəyyən edilməsi və onların yerinə yetirilməsi yollarının düzgün tapılması nəticəsində Azərbaycan hətta dünya iqtisadi-maliyyə böhranı illərində analoqu olmayan iqtisadi inkişaf tempinə nail ola bildi. Bu inkişaf kursu sistemli və davamlı xarakter kəsb edir.

Məsələyə bu prizmadan yanaşdıqda Prezident İlham Əliyevin bütövlükdə 20 il ərzində həyata keçirdiyi uğurlu daxili siyasət nəticə etibarilə Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi mənafeyinə xidmət göstərmişdir. Təkcə daxili siyasətdə deyil, xarici siyasətdə də varislik prinsipi qorunub saxlanılmışdır. Başqa sözlə, Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu çoxvektorlu, müstəqil və milli maraqlara əsaslanan xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq çevik, innovativ və hücum taktikasına əsaslanmaqla davam etdirir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi reallığı ilə bağlıdır.

Müzəfər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında yenilməz Azərbaycan ordusu torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirmişdir. 2020-ci il noyabr ayının 8-də qədim Azərbaycan şəhəri, Qarabağın incisi Şuşanın müasir hərb elminin ən nadir və unikal əməliyyatlarından birinin həyata keçirilməsi nəticəsində azad olunması düşmənin müqavimət potensialını heçə endirdi. Nəticədə, noyabrın 10-da prezidentlər İlham Əliyevin, Vladimir Putinin və baş nazir Nikol Paşinyanın imzaladığı üçtərəfli Bəyanat regionda uzunmüddətli münaqişənin hərbi fazasını başa çatdırdı və faktiki olaraq işğalçı Ermənistan dövlətinin kapitulyasiyası aktı oldu. Noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonu bir güllə belə atılmadan, bir nəfər şəhid vermədən işğaldan azad olundu.

Onu da xüsusi olaraq qeyd edək ki, ermənilər hərbi qarşıdurma reallığında öz ənənəvi xislətlərinə sadiq idilər: onlar döyüş meydanını qoyub-qaçır, cəbhə xəttindən xeyli kənarda yerləşən şəhər və kəndlərimizi atəşə tutur, dinc sakinləri qətlə yetirirdilər. Cəsur Azərbaycan Ordusu isə düşmənin yalnız hərbi qüvvələrinə və obyektlərinə zərbə endirir, mülki əhalini və obyektləri hədəfə almırdı.

Azərbaycan dövləti müharibənin acı reallıqlarını nəzərə alaraq informasiya siyasətini də yenidən qurdu. Bu prosesdə hücum taktikasına üstünlük verdi. Uğurlu informasiya siyasətinin də müəllifi Prezident İlham Əliyev idi. Ali Baş Komandan müharibə zamanı müxtəlif nüfuzlu əcnəbi televiziya kanallarına müsahibələr verdi və beynəlxalq aləmdə formalaşmış yanlış təsəvvürləri büsbütün dağıtdı. Bu müsahibələrin hər biri, hər bir cümləsi altından qırmızı xətt çəkiləsi, xalqın ürəyindən xəbər verən sözlərdir. Türkiyənin "A Haber", ABŞ-ın "Fox News", İtaliyanın Rai-1, Almaniyanın ARD və digər televiziya kanallarına, Rusiyanın TASS və İnterfaks, İspaniyanın EFE informasiya agentliklərinə, Yaponiyanın "Nikkei", Fransanın "Figaro", İtaliyanın "La Repubblica" qəzetlərinə və başqalarına müsahibələr zamanı dövlətimizin başçısı erməni faşizminin əsl simasını açıb göstərmiş, erməni vandallığının ağlasığmaz cinayətlərini faktlarla sübut etmişdir. Müdrik Prezidentimiz bəzi xarici müxbirlərin bəzən ittiham xarakterli, böhtan səpkili, qərəzli mövqe nümayiş etdirən qeyri-obyektiv və dezinformasiya səciyyəli suallarını güclü məntiq, əsaslı fakt və dəlillərlə cavablandırmış, onları dəmir məntiqli arqumentləri əsasında susdurmuşdur.

8 Noyabr - Zəfər Günü xalqımızın qürur mənbəyinə çevrilmiş şanlı tarixdir. Həmin tarixin üç qəhrəmanı vardır: Müzəffər Ali baş Komandan, onun formalaşdırdığı yenilməz ordu və "dəmir yumruğ"a çevrilmiş xalq. Bu reallıqda Prezident-Ordu-Xalq sözləri sinonimləşmiş, tarixi Zəfərin simvollarına çevrilmişdir.

Bu tarixi zəfəri ilə Prezident İlham Əliyev öz adını müzəffər sərkərdə olaraq təkcə mənsub olduğu ölkənin deyil, əslində dünyanın hərb tarixinə əbədi olaraq həkk etdi. Bu tarixi qalibiyyət nəticəsində ordumuzun yenilməzliyi, qüdrəti və vətənpərvərliyi sözdə deyil, qanlı döyüş meydanlarında sübuta yetirildi. Xalq olaraq qəddimiz düz, başımız uca oldu. Qürurumuz özümüzə qaytarıldı. Alnımızdan xəcalət təri birdəfəlik silindi. Birləşdik və bütövləşdik. Ən qatı əleyhdarlarımız belə, bu həqiqəti etiraf etmək məcburiyyətində qaldılar.

Tarixi zəfər nəticəsində təkcə ərazi bütövlüyümüz və suverenliyimiz təmin olunmadı, həm də erməni faşizminə ölümcül zərbə endirildi. Eyni zamanda Ermənistanın və dünya ermənilərinin son 30 il ərzində sitayiş etdikləri "miatsum" ideologiyası - İrəvan və Qarabağ ermənilərini vahid dövlət tərkibində görməyi hədəfləyən, bu prosesdə qonşu Gürcüstan ərazisinə də ilhaq zonası kimi yanaşan irticaçı ideya iflasa uğradı. Bu gün Ermənistan dövləti və erməni xalqı milli ideologiyadan məhrum olmuşdur. O, tarixin zibilliyinə atılmışdır. Eyni məkanda "Ermənistan-diaspora-artsax" ideoloji triadası da yer almışdır.

Artıq müzəffər Azərbaycan Ordusu xilaskar Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirmişdir.

Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı. Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur. Prezidentin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı.

Böyük fəxr və qürur hissi ilə onu da qeyd edək ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev 2021-ci ilin 12 noyabr tarixində Türkdilli Ölkələrin Əməldaşlıq Şurasının (Türk Dövlətləri Təşkilatı) İstanbulda keçirilən VIII Zirvə Görüşündə "Türk Dünyasının Ali Ordeni" ilə təltif olundu.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Ali Orden"in təqdimat mərasimində səsləndirdiyi fikirlər olduqca böyük məna kəsb edir: "Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan xarıbülbül türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur."

Təəssüf hissi ilə onu da qeyd edək ki, Ermənistanın siyasi-hərbi rəhbərliyi strateji məğlubiyyətlərindən lazımi nəticə çıxara bilmədi.

Bu xüsusda məsələlərə qiymət verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 53-cü iclasının iştirakçılarını qəbul edərkən qeyd etdi ki, "Təxribat hərəkətlərinə son qoymaqla bağlı Azərbaycanın etdiyi çoxsaylı çağırışlar təəssüf ki, bütün ciddiliyi ilə qəbul edilmədi. Vəziyyət daha da gərginləşdi, çünki bu il sentyabrın 2-də Ermənistanın baş naziri qondarma "Dağlıq Qarabağ respublikası"nın yaradılmasının ildönümü ilə bağlı təbrik məktubu göndərdi. Bu, qırmızı xətti keçmək demək idi və təbii ki, Azərbaycan buna dözə bilməzdi. Bu, bizim ərazimizə qarşı açıq-aşkar iddia irəli sürülməsi idi. Sentyabrın 9-da qondarma "Dağlıq Qarabağ"ın qondarma hakimiyyət orqanları "seçki" keçirdilər, özlərinə yeni başçı seçdilər, bu isə mövcud reallıqların tam şəkildə inkar edilməsi demək idi."

Formalaşmış şəraitdə sentyabrın 19-da Azərbaycana antiterror tədbirləri keçirmək və öz suverenliyini tam şəkildə bərpa etmək üçün başqa seçim yolu qalmadı. Bir sutkadan da az davam edən tədbirlər nəticəsində Ermənistanın Qarabağdakı ordusu tamamilə tərk-silah edildi, 10-15 min nəfərlik çoxminli kontingent silahsızlaşdırıldı və ərazilərimiz üzərində tam nəzarət bərpa olundu. Qeyd olunan tədbirdə Prezident İlham Əliyevin vurğuladığı kimi, "Buna paralel olaraq, biz artıq Qarabağın erməni əhalisinin reinteqrasiya planını açıq şəkildə dərc etdik, bu plan internetdə də mövcuddur. Erməni əhalisinə öz evlərində qalmaqla bağlı çağırış edildi, çünki bizim tədbirlərin hədəfləri dəqiq xarakter daşıyırdı. Mülki infrastruktur, mülki obyektlər və mülki şəxslər zərər çəkmədilər. Artıq dediyim kimi, bütün tədbirlər 24 saatdan da az davam etdi. Bu müddət Ermənistanın qanunsuz hərbi birləşmələrinin tam şəkildə demoralizasiyası və mahiyyət etibarilə, təslim olması üçün kifayət etdi".

Uzun illər ərzində ilmə-ilmə işlənən, müxtəlif dövrlərdə Cənubi Qafqazla bağlı planları olan qüvvələrin dəstəyi ilə reallaşdırılmağa çalışılan "böyük Ermənistan" planı Azərbaycan liderinin uzaqgörən siyasəti, qətiyyəti və iradəsi sayəsində süquta uğradı, darmadağın edildi. Erməni "miatsum"u, "ikinci erməni dövləti" xəyalları birdəfəlik məhv edildi.

Qarabağda Azərbaycan xalqının qanını tökmüş, Xocalıda soyqırımı törətmiş hərbi canilər artıq əliqandallı Bakıya gətirilmiş, onlara qarşı istintaq hərəkətlərinə başlanılmışdır. Ağır cinayətlər törətmiş bu müharibə canilərinə qarşı sərt və ədalətli cəzanın tətbiq olunacağı labüddür.

Beləliklə, müharibədə qalib gələn Ali Baş Komandanın sülhü qazanacağı da sırf zaman məsələsidir. Bu, aksiomdur, isbata ehtiyacı yoxdur.

Yaşasın Xilaskar Ali Baş Komandanımız! Yaşasın Müzəffər Ordumuz! Yaşasın Qalib Xalqımız!

Qarabağ bizimdir. Qarabağ Azərbaycandır!

**Elman NƏSİROV,**
***Milli Məclisin deputatı***

# Millətin iftixarı, dövlətin qarantı, sevgi və inam ünvanı



**Beynəlxalq səviyyədə nüfuzlu dövlət xadimi və siyasətçi şöhrəti qazanan, atdığı hər addımla, söylədiyi hər fikirlə dünyanı heyrətə gətirən, şəxsiyyətinə böyük rəğbət formalaşdıran İlham Əliyev 50 milyonluq millətimizin XXI əsrdə şəriksiz lideridir, adını tarixi şəxsiyyətlər salnaməsinə həkk etdirən milli iftixarımızdır.**

O, yüksək liderlik keyfiyyətlərini hələ ötən yüz ilin 90-cı illərinin ikinci yarısında ikinci dəfə müstəqilliyini bərpa edən dövlətimizin çətin, keşməkeşli, ağır sınaqlarla üz-üzə durduğu günlərdə qazanmışdı. Ölkəmiz üçün taleyüklü əhəmiyyət kəsb edən neft kontraktlarının dünyanın iri, aparıcı şirkətləri ilə bağlanmasında həlledici rol oynayan İlham Əliyev xarici mətbuatda güclü neft strateqi, məharətli siyasətçi, peşəkar diplomat, dərin iqtisadi biliklərə malik şəxs kimi səciyyələndirilirdi. Dünyanın güc mərkəzlərinin geopolitik və geoiqtisadi maraqlarını milli maraqlarımızla böyük ustalıqla uzlaşdıran İlham Əliyev Ulu Öndər Heydər Əliyevin neft strategiyasının uzun illər boyu milli dövlətçiliyimizin güclənməsinə verəcəyi əhəmiyyətli töhfələrdə müstəsna rol oynamaqda idi.

Milli Məclisin deputatı, MOK-in prezidenti, daha sonralar Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin rəhbəri statusunda fəaliyyəti onu artıq böyük siyasətdə söz sahibi etmişdi. İlham Əliyev təmkinli və qətiyyətli addımlarla siyasi proseslərin həlledici amilinə çevrilmişdi.

Ötən əsrin doxsanıncı illərinin ikinci yarısında onun xarici mediaya və ölkə mətbuatına verdiyi müsahibələri və açıqlamaları, ABŞ və Avropanın nüfuzlu siyasi institutlarında etdiyi çıxışları yaxın gələcəyin parlaq siyasətçisi kimi Qərbin beyin mərkəzlərinin, dövlət başçılarının diqqətini cəlb edirdi.

Təbii ki, ölkəmizdəki siyasi proseslərdə də İlham Əliyev amili həlledici mövqe qazanır, Ulu Öndərimizin siyasi kursunun və dövlətçilik konsepsiyasının ən istedadlı, ən ardıcıl davamçısı olmaq imkanını ortaya qoyurdu.

Cəmiyyət və onun siyasi mühiti 1990-cı illərin axırlarından başlayaraq gələcəyin yeni, həm də fərqli, radikallıqdan və populizmdən uzaq, praqmatikliyi və əməli fəaliyyəti ilə, atdığı addımlarla ölkəmizə nüfuz gətirən, onu gücləndirən, problemlərinin həllinə konkret töhfələr verən, yüksək intellekti, siyasi mədəniyyəti və insani keyfiyyətləri ilə fərqlənən, Ulu Öndərimiz Heydər Əliyevin memarı olduğu milli dövlətçilik xəttinin təməl prinsiplərini qəbul edib, dövlətçiliyimizi gücləndirib daha yüksək zirvələrə qaldıra bilən siyasətçinin axtarışında idi. Bütün bu və buna bənzər keyfiyyətləri özündə daşıyan siyasətçi və gələcək dövlət başçısı haqqında düşünərkən baxışlar, düşüncə və ümidlər birmənalı şəkildə İlham Əliyevə köklənirdi.

Bu baxımdan 1999-cu ildə sosial sifarişin və apardığım davamlı müşahidələrin məntiqinə söykənərək hazırladığım "İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivlər" toplusunun ön sözündə yazırdım: "Zamanın önə çəkdiyi və formalaşdırdığı İlham Əliyev yeni keyfiyyətləri özündə cəmləşdirən siyasi xadimdir. Onun cəmiyyətə və ictimai-siyasi proseslərə baxışlar sistemi başqalarından ciddi şəkildə fərqlənir. İlham Əliyevin baxışlar sistemi zəngindir, rəngarəngdir, müasir dünyanın üstün və demokratik dəyərlərinin milli koloritlə vəhdətidir. Dözümlüdür, təmkinli və səbirlidir, dövlətçilikdə, taleyüklü problemlərimizin həllində qətiyyətli və prinsipialdır, adi həyatda sadə, səmimi, xeyirxah bir şəxsiyyətdir. Bütün varlığı ilə Vətənə və mənsub olduğu millətə bağlıdır".

İyirmi illik zaman kəsiyində xalqımızın iradəsinə və etimadına arxalanan İlham Əliyev Prezident kimi Ulu Öndərimizin təməl prinsiplərinə söykənərək, respublikamızı Güney Qafqazın lider və regionun simasını dəyişən aparıcı və qalib dövlətinə çevirdi.

O, beynəlxalq təşkilatların və güc mərkəzlərinin qlobal geosiyasi və geoiqtisadi hədəflərini milli maraqlarımızla uzlaşdırmağı bacardı və bunun konkret siyasi dividendləri özünü çox gözlətmədi.

İlham Əliyevin hakimiyyəti ona görə güclü və yenilməzdir ki, xalqa söykənib, qüvvəsini onun birliyindən, iradəsindən alır. Bunu özü də etiraf edir. Və həmin məqam böyük hakimiyyət ustası Heydər Əliyevin siyasi idarəetmə fəlsəfəsinin aparıcı qayə və prinsipini təşkil edirdi. Göründüyü kimi, Prezident İlham Əliyev də həmin incə hikməti əxz etməklə kifayətlənməmiş, bu üstün keyfiyyəti idarəetmə fəaliyyəti və dövlətçilik təcrübəsinin çalarları ilə daha da zənginləşdirmişdir.

2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimindən sonra dövlət başçısı statusunda ilk çıxışını edən İlham Əliyev Azərbaycanın mövcud vəziyyətini və gələcək inkişaf perspektivlərini dəqiqliklə xarakterizə edərək, özünün əsas fəaliyyət prioritetlərini elan etdi: güclü, müstəqil dövlət, sabitliyə təminat, hər kəs üçün sosial rifah!

Prezident İlham Əliyev ötən dövr ərzində bu prinsiplərə əməl olunması üçün ardıcıl, məqsədyönlü və uğurlu fəaliyyət göstərmişdir. Güclü, mobil və yüksək iş qabiliyyətli komandaya malik olan dövlət başçısı hökumət qarşısında duran prioritet vəzifələri düzgün müəyyənləşdirməklə, yeni dövrün ən səciyyəvi cəhəti kimi, milli iqtisadiyyatda struktur dəyişikliklərinə nail olmağın, kəmiyyət dəyişikliklərini keyfiyyət müstəvisinə keçirməyin zəruriliyini önə çəkdi.

Sosialyönümlü siyasət yeridən Prezident İlham Əliyev ötən 20 il ərzində qəbul etdiyi fundamental qərarlarla, imzaladığı sərəncamlarla daim xalqın mənafeyindən çıxış etdiyini, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini sərgilədi. O, ictimai həyatın bütün sahələrində yeni dövrün tələblərinə uyğun islahatların aparılması, qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin artırılması, regionların proporsional inkişafı, yeni istehsal müəssisələrinin açılması, ən başlıcası, işsizlik probleminin aradan qaldırılması istiqamətində effektiv nəticələrə hesablanmış cəsarətli addımlar atdı.

Ötən dövrdə tarazlı xarici siyasət kursunun davam etdirilməsi, ABŞ, Rusiya kimi böyük dövlətlər, Avropa Birliyinin aparıcı ölkələri və qardaş Türkiyə ilə münasibətlərin inkişaf etdirilməsi, habelə qonşu İranla, Gürcüstanla, strateji tərəfdaşımız Ukrayna ilə, Xəzərin o tayındakı tərəfdaşımız Qazaxıstanla, Özbəkistanla əməkdaşlığın genişləndirilməsi nəticə etibarı ilə Azərbaycanın beynəlxalq münasibətlərinin və imicinin gücləndirilməsinə mühüm töhfədir. Ölkənin xarici siyasəti Heydər Əliyevin dövründə olduğu kimi, bu gün də qarşılıqlı əməkdaşlığa, dinc münasibətlərə və lazım gəldiyi məqamda dişli, Azərbaycanın milli maraqlarını ehtiva edən addımlara dayanır.

Əlbəttə, ölkəmizin davamlı və dinamik inkişafına nail olmadan, güclü iqtisadiyyat formalaşdırmadan, cəmiyyətin immunitetini möhkəmləndirmədən, sosial ədalət prinsiplərini bərqərar etmədən dövlətimizi beynəlxalq səviyyəli oyunçuya çevirmək ancaq xəyallarda yaşana bilərdi.

Prezidentlik illərində İlham Əliyev bütün bunları çox böyük məharətlə həyata keçirdi və paralel olaraq uzun illər dünya miqyasında Azərbaycanı, türk soyunu hədəfə alıb, şər və böhtanla, pulla ələ aldığı beynəlxalq şəbəkə vasitəsilə aşağılayan, mənfi rəy formalaşdıran dünya erməniçiliyinin saxta ideologiyasını alt-üst etmək üçün mühüm addımlar atdı. Bakı dünya sivilizasiyalarının dialoq və əməkdaşlığa, sülhə, əmin-amanlığa xidmət edən qlobal forumlara evsahibliyi edən məkana çevrildi.

Ciddi əhəmiyyət daşıyan bu prosesdə ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Heydər Əliyev Fondu Berlində, Romada, Strasburqda beynəlxalq əhəmiyyətli layihələr həyata keçirməklə ölkəmizin nüfuzuna əhəmiyyətli töhfələrini verdi. Beləliklə, dünya erməniçiliyi tərəfindən əhatəyə alınan informasiya blokadası və saxta erməni mifi darmadağın edildi.

Prezidentlik fəaliyyətinə başladığı ilk gündən ermənilərin və onları himayə edən qüvvələrin işğal etdikləri torpaqlarımızın bir qarışının belə, heç kimə güzəştə getməyəcək qətiyyətini ortalığa qoyan İlham Əliyev zəfərlə başa çatan 44 günlük Vətən müharibəsinin sonuna qədər prinsipial mövqeyinə sadiq qaldı.

Yaratdığı ən müasir, modern, vətənpərvər və döyüşkən ordu ilə, formalaşdırdığı uğurlu xarici siyasətlə, zərgər dəqiqliyi ilə apardığı məharətli diplomatiya və məkrli informasiya bosslarını güclü və təkzibolunmaz arqumentlər, təmkin və təkrarolunmaz manevrlərlə çıxılmaz duruma salmaqla, Vətənimizi 200 illik məğlubiyyət sindromundan qurtarıb qalib ölkəyə, xalqımızı qalib millətə çevirməyi bacardı.

İlham Əliyev Azərbaycan xalqının tarixinə əbədi olaraq müzəffər, qəhrəman, xilaskar, qalib sərkərdə, mahir diplomat kimi möhürünü vurdu. Beynəlxalq səviyyədə XXI əsr müharibəsinin memarı və Müzəffər Sərkərdəsi statusunu qazandı.

"Şərqi Zəngəzur varsa, Qərbi Zəngəzur da var. O torpaqlar bizim tarixi torpaqlarımızdır. Biz ora qayıdacağıq, mütləq qayıdacağıq!" çağırışı və qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsi ilə yeni tarix yaradan İlham Əliyev BMT-nin, ATƏT-in Minsk Qrupunun və onun həmsədrlərinin edə bilmədiyini edib, erməni faşizmini, onun ordusunu, saxta ideologiyasını darmadağın etdi. Dünyanı dəyişən və XXI yüzilliyin şəriksiz lideri zirvəsinə ucalan İlham Əliyevin iradəsi və şəhidlərimizin al-qanı, qazilərimizin qəhrəmanlığı ilə ay-ulduzlu, üçrəngli bayrağımız Murovun zirvəsində, Xudafərin körpüsündə, Şuşa qalasında, Ağdamda, Füzulidə, Şərqi Zəngəzurun hər bir guşəsində dalğalanmaqdadır.

2023-cü il sentyabrın 19-da başlayan və 23 saat 48 dəqiqəyə uğurla başa çatan, ildırım sürətli lokal antiterror tədbirləri separatçı-xunta rejiminin daldalandığı şeytan yuvasını çökdürdü, düşmən ağ bayraq qaldırdı və bütün Qarabağda dövlət suverenliyimiz təmin olundu.

Cənab İlham Əliyev ötən 20 ildə şəxsiyyətinə ümumxalq rəğbəti və inamı yaratmağı bacarmışdır. Bu amilləri qidalandıran, ona yaşamaq hüququ verən əsas amil Prezidentin siyasətə və vəzifəyə məqsəd kimi deyil, məhz bir vasitə - millətinə, vətəninə, dövlətinə sədaqətli bir vətəndaş xidməti göstərməyə geniş imkanlar açan vasitə kimi yanaşmasıdır. Dövlət başçısının 20 illik fəaliyyətinin mahiyyətində vaxtilə söylədiyi və ötən dövrün qazanılmış uğurlarının timsalında çox əyani şəkildə təzahür edən belə bir konseptual-əməli formula dayanır: "Mənim siyasətim ondan ibarətdir ki, əməli-praktiki işlərlə məşğulam. Azərbaycana xarici investisiyalar cəlb etməklə, yeni iş yerlərinin açılması ilə məşğulam. Mənim aləmimdə siyasət belə olmalıdır. Yəni siyasət hansısa konkret nəticə ilə yekunlaşmalıdır... Əsl siyasət - konkret, real iş görməkdən ibarətdir".

2003-cü il oktyabrın 15-də Azərbaycan xalqı böyük coşqu ilə İlham Əliyevə səs verdi və yanılmadı.

Milli iftixarımız, şərəf və qürur mənbəyimiz, 50 milyonluq millətimizin qəlbində və yaddaşında sevgi ilə əbədiləşən, inam ünvanlı Prezidentimiz hələ millətimizə yeni-yeni uğurlar bəxş edəcəkdir. Ulu Tanrı onu, məhz bunun üçün yaratmışdır.

**Fəzail AĞAMALI**
***Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədri***

# Müxalifətdən Prezidentə minnətdarlıq:

## *“İlham Əliyevin bütün tarixi zəfərlərdə silinməz və parlaq imzası var”*

**Xalqları dünyada məşhurlaşdıran təkcə onların zəngin təbii sərvətləri və maddi mədəniyyət inciləri deyil, həm də dünya siyasətində mühüm rol oynayan fenomen şəxsiyyətləridir. Məhz belə fenomen şəxsiyyətlərin müəyyənləşdirdiyi yol hər bir millətin strateji inkişaf konsepsiyasına çevrilməklə onun dünya arenasında özünə layiqli yer tutmasını təmin edir.**

Belə nadir şəxsiyyətlərdən biri, müasir müstəqil Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, özündən sonra çoxşaxəli islahatların varisliyini uğurla təmin edə biləcək peşəkar lider də yetişdirib. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi sistemində özünəməxsus yeri ilə seçilir. Onunla hesablaşırlar, ona hörmət və ehtiramla yanaşırlar.

Prezident İlham Əliyevin ölkəmizin müstəqillik dayaqlarını möhkəmləndirməklə bağlı fəaliyyəti daha çox xarici siyasətdə özünü göstərdi. Xarici siyasət kursunda tarazlaşdırılmış konsepsiyaya üstünlük verən İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq nüfuzu daha da artdı. Ölkəmizin dostlarının sayı çoxaldı, bizimlə müttəfiqlik etmək istəyənlərin sırasına yeniləri əlavə olundu. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanındı və qəbul edildi.

İlham Əliyevin müəyyənləşdirdiyi hücum diplomatiyası nəticəsində erməni təbliğatı və erməni lobbisinin yaratdığı mif darmadağın edildi. Beynəlxalq təşkilatların diqqəti bu probleme yönəldi, "Dağlıq Qarabağ" probleminin mahiyyəti, Azərbaycan haqqında həqiqətlər bütün dünyaya yayıldı və beynəlxalq ictimai rəy Azərbaycanın xeyrinə dəyişdi. Dünya birliyi Xocalı soyqırımını tanımağa və pisləməyə başladı.

Ümummilli Lider Heydər Əliyevin ocağında layiqli Azərbaycan vətəndaşı kimi yetişən İlham Əliyev atasının yolu ilə addımlayaraq və uca şəxsiyyətin yarımçıq qalan taleyüklü işlərini, planlarını gerçəkləşdirərək Azərbaycan xalqı, dövləti adına misilsiz tarixi qələbələr qazandı. Bütün bu misilsiz uğurlar, nailiyyətlər həm də Heydər Əliyevin Azərbaycanın gələcəyini özü qədər inandığı İlham Əliyevə etibar edərək, bir daha müdrikliyini, uzaqgörənliyini və vətən sevgisini izhar etməsinin təcəssümüdür.

2003-cü il oktyabrın 15-dən - İlham Əliyevin xalqın yekdil qərarı ilə Prezident seçilməsindən ötən 20 illik dövrə qısa nəzər yetirdikdə möhtəşəm xronikanın şahidi oluruq. Bu dövrdə Azərbaycanda ictimai-siyasi, sosial-iqtisadi, mədəni, ümumiyyətlə, bütün sahələr üzrə böyük tərəqqi və inkişaf yaşanıb, respublikamız Cənubi Qafqazın lider ölkəsi olub. Ölkəmiz, həmçinin qlobal miqyaslı məsələlərin, problemlərin həlli ilə bağlı müzakirələrin, dialoqların aparıldığı unikal ünvan kimi beynəlxalq aləmə səs salıb.

Respublikamız dünyanın enerji mərkəzinə, yol qovşağına, ərazisi işğal altında olan ölkədən zəfər ölkəsinə, məğlub xalqdan qalib xalqa çevrilib.

Torpaqlarımız 30 illik əsarətdən qurtulub, ərazi bütövlüyümüz, suverenliyimiz təmin olunub, sərsəm erməni millətçilərinin Qarabağda yaratdıqları quldur yuvası dağıdılıb, torpaqlarımızda iki əsrlik erməni layihəsi iflasa uğradılıb. Yüz minlərlə insanımızın yurd həsrəti bitib, cənnətməkana çevrilən Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdış gerçəkləşdirilib.

Cəmi iki onillik ərzində Azərbaycan adına qazanılan bütün bu tarixi zəfərlərdə Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Qalib Lider İlham Əliyevin parlaq və silinməz imzası var.

**Tahir KƏRİMLİ,**
***Milli Məclisin deputatı, Vəhdət Partiyasının sədri***

# AMİP ötən 20 ili uğurlu inkişaf yolu kimi səciyyələndirir:

## “İlham Əliyevin Ali Baş Komandanlığı ilə başımızı dik tutmağa layiq olduğumuzu isbatladıq”

**Oktyabrın 15-də cənab İlham Əliyevin ilk dəfə Azərbaycan Prezidenti seçilməsinin 20 ili tamam olur. Bu dövr ərzində ölkəmiz böyük inkişaf yolu keçmiş, dayanıqlı iqtisadi göstəriciləri özündə əks etdirən uğurlu nəticələrə yiyələnmişdir.**

Azərbaycan Respublikası olaraq iqtisadi, siyasi və hərbi cəhətdən regionun aparıcı dövlətinə çevrilməklə yanaşı, həm də dünya çapında ciddi uğurlara imza atılmışdır. İqtisadi uğurları və nailiyyətləri ilə diqqət mərkəzində olan ölkəmizin valyuta ehtiyatları, o cümlədən respublikamıza qoyulan sərmayələrin həcmi xeyli dərəcədə artmışdır.

Azərbaycanın son illərdə iştirakçısı olduğu qlobal layihələr Avropanın enerji xəritəsini dəyişib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq və irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, həmçinin milli maraqlarımız nəzərə alınmaqla həyata keçirilir. Neft-qaz sahəsində əldə edilən uğurlar sayəsində Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə start verilmiş, bununla da Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamaqla yanaşı, "Cənub qaz dəhlizi" layihəsinin aparıcı qüvvəsi kimi də çıxış etmişdir. Ötən dövrdə Asiyanı Avropa ilə birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu kimi nəhəng layihələrin icrasına da nail olunub. Azərbaycan bu gün həm də bütün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır. Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə bütövlükdə Avrasiya məkanında mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilib.

Bütün bunlarla və əldə olunan digər uğurlarla yanaşı, bir məsələni xüsusi olaraq qeyd etməliyik ki, Azərbaycan Prezidentinin bu dövr ərzində gördüyü işlərin zirvəsində ərazi bütövlüyümüzün bərpası və 30 ilə yaxın müddət ərzində işğal altında qalan torpaqlarımızın azad olunması dayanır. 44 gün davam edən İkinci Qarabağ savaşında əldə edilən möhtəşəm qələbə sayəsində Azərbaycan qalib ölkəyə, xalqımız isə qalib xalqa çevrildi. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə, ən azından son iki əsrdə ilk dəfə olaraq, işğal altındakı ərazilərimizi geri qaytara bildik, bununla da zədələnmiş milli qürurumuzu bərpa etdik, başımızı dik tutmağa layiq olduğumuzu isbatladıq.

İkinci Qarabağ savaşından sonrakı üç il ərzində də dayanmadan hədəfə doğru yürüdük. Addım-addım irəliləməklə bir sıra strateji yüksəklikləri və yolları nəzarətə götürdük. Bu il aprelin 23-də Laçın yolu üzərində nəzarət-buraxılış məntəqəsini təsis etməklə ərazi bütövlüyümüzü bərpa etdik. 1991-ci ildən sonra ilk dəfə olaraq, bütün sərhədlərimiz boyunca nəzarəti ələ aldıq. 19-20 sentyabrda həyata keçirdiyimiz 23 saatlıq antiterror tədbirləri sayəsində isə tam olaraq ərazilərimizdə suveren hüquqlarımızı təsbit etdik. Nəticə etibarilə bu davamlı zəfərlərimiz sayəsində regionda Azərbaycanın liderliyi ilə tam yeni reallıqların yarandığını deyə bilərik. Bütün bu uğurlar isə sözsüz ki, Müzəffər Sərkərdə, Prezident İlham Əliyevin sayəsində xalqımıza nəsib olur.

**Arzuxan ƏLİZADƏ,**
***Azərbaycan Milli İstiqlal Partiyasının sədri***

# Nəyi necə və nə zaman etməyi ən yaxşı bilən Lider



**Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının qarşısındakı ən böyük xidməti ölkənin gələcəyini etibar edə biləcəyi layiqli siyasi varisini cəmiyyətə təqdim etməsidir. Tarix sübut etmişdir ki, bəzi böyük sərkərdələr və liderlər özlərindən sonra dövləti idarə edə biləcək bir şəxsiyyəti yetişdirmədiyinə görə güclü imperiyalar dağılmışdır. Ulu Öndər isə Azərbaycanın dövlət müstəqilliyinin əsaslarını yaratmaqla yanaşı, özündən sonra dövlətin və xalqın taleyini etibar edə biləcəyi bir şəxsiyyət yetişdirdi.**

**15 oktyabr 2003-cü il prezidentliyə seçkilər ərəfəsində 1 oktyabr 2003-cü ildə Ümummilli Lider Heydər Əliyev öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürdü, xalqa müraciət edərək onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərdi:**

"...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ümummilli Liderin xalqa çağırışının dövlətin və xalqın taleyinin gələcəyi ilə bağlı olduğunu zaman sübut etdi. Prezident İlham Əliyevin dövlətə rəhbərliyinin 20 ilində Azərbaycan ictimai-siyasi həyatın bütün sahələrində kompleks inkişaf yolu keçdi. Bu inkişaf yoluna Ulu Öndərin siyasi kursunun və strategiyasının yüksək dəqiqliyi ilə davam etdirilməsi sayəsində nail olunmuşdur. İlk növbədə, ölkədə siyasi sabitliyin daha da möhkəmlənməsini qeyd etmək olar. Bu illərdə ölkədə siyasi sabitliyi pozmaq üçün daxildən və xaricdən çoxlu cəhdlər də oldu. Amma Azərbaycan xalqı öz Prezidentinin ətrafında daha sıx birləşdi və bu birliyi heç bir gücün sarsıda bilməyəcəyini dünyaya nümayiş etdirdi. Bu gün Azərbaycanın hər bir vətəndaşı özünün Prezidenti ilə fəxr edir və qürur duyur. Dövlət başçısı ilə xalq arasındakı monolit birlik uğurların təməlində dayanır.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə dövlət idarəetmə sistemində dərin islahatlar həyata keçirildi. Bu islahatlar korrupsiyaya qarşı mübarizəni gücləndirdi, operativ və şəffaf idarəetmə sisteminin formalaşmasına yol açdı. Prezident İlham Əliyevin həyata keçirdiyi islahatların hakimiyyət qollarına sirayət etməsi ölkədə demokratik və şəffaf idarəetmə sistemini yaratdı. Ölkədə təmin olunmuş siyasi sabitlik və şəffaf dövlət idarəçiliyi iqtisadi islahatların uğurla aparılmasına yol açdı. Cənab İlham Əliyev prezident seçiləndə Azərbaycanın regionları ilə mərkəz arasındakı fərqi aradan qaldıracağını və həyata keçirilən sosial iqtisadi inkişafdan hər bir vətəndaşın yararlanacağını qeyd etmişdi. Məhz 2003-cü ildə imzalanan və 2004-cü ildən icrasına başlanmış regionların sosial - iqtisadi inkişafına dair Dövlət Proqramının icrası sayəsində Azərbaycanın bütün regionları yenilənmişdir. Bu gün də həmin dövlət proqramının 4-cü mərhələsinin icrası davam etdirilir və bu mərhələ yeni bir dövrdə tamam başqa bir ruhda həyata keçirilir. Bu ruh qələbə ruhudur.

Xüsusi qeyd etmək lazımdır ki, son 20 ildə Azərbaycanda ÜDM 5 dəfə artaraq adambaşına düşən ÜDM 888,6 dollardan 4214 dollara yüksəlmişdir. Azərbaycanın valyuta ehtiyatları 67,5 milyard dollara çatmışdır. Bu da xarici dövlət borcumuzu 10 dəfə üstələyir.

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramının üç mərhələsi çərçivəsində ölkə iqtisadiyyatına 245 milyard dollar investisiya yatırılmışdır. 2019-2023-cü illəri əhatə edən dördüncü dövlət proqramının icrasına 20 milyard dollara yaxın investisiyanın yatırılması nəzərdə tutulsa da, torpaqlarımızın işğaldan azad olunması bu məbləğə daha 7 milyard dollar əlavə edilməsini şərtləndirmişdir. Qazlaşma 51 faizdən 98 faizə yüksəlmişdir. Son 20 ildə 18 min kilometrdən çox avtomobil yolu tikilib istifadəyə verilmişdir. Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrildi. Son 20 ildə 50-yə yaxın müxtəlif tipli elektrik stansiyaları tikilib istifadəyə verildi. Bu gün isə bərpaolunan enerjinin istehsalı ilə bağlı yeni layihələrə imza atılır.

Son 20 ildə 4 minə yaxın yeni məktəb, bütün regionlarda Olimpiya İdman Kompleksləri tikilmiş, xəstəxanalar yenidən qurulmuşdur. Sosial sahədə aparılan islahatlar vətəndaşların rifahının artmasına xidmət etmişdir. Son 20 ildə işsizlik 5,5 faiz, yoxsulluq 5 faizə enmiş, ölkədə əməkhaqları, pensiyalar və müavinətlər dəfələrlə artırılmışdır.

Azərbaycan Ordusuna yeni hərbi texnikalar alınaraq müasirləşdirildi. Silahlı Qüvvələrin peşəkarlığı artırıldı. Üç il əvvəl baş verən Vətən müharibəsində Azərbaycanın rəşadətli ordusu yüksək döyüş bacarığını nümayiş etdirib 44 günə torpaqları işğaldan azad etdi, düşmənə kapitulyasiya aktını imzalatdı. Cari ilin 19-20 sentyabrında keçirilən lokal xarakterli antiterror tədbirləri sayəsində Qarabağda erməni separatizminin kökü kəsildi. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan xalqı son 200 ilin ən şərəfli və şanlı tarixini yazdı. Böyük qələbənin təməlində Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə möhkəmlənən milli birlik və həmrəylik dayanır.

Son 20 ilin ən böyük nailiyyəti işğaldan azad edilimiş əraziləri yenidən qurub bərpa etməklə keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılmasıdır. Artıq 8 şəhər və 100 kəndin Baş planları hazırlanaraq təsdiq olunmuş və tikinti işləri sürətlə davam etdirilməkdədir. 30 il doğma yurd həsrəti çəkən ağalılılar, laçınlılar və digərləri öz evlərinə qayıtmışlar. Bütün bu uğurlara nəyi necə və nə zaman etməyi hamıdan yaxşı bilən cənab İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində nail olunur.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı gələcəkdə daha böyük uğurlar və qələbələr gözləyir. Cənab İlham Əliyev Prezident olduğu 20 ildə hər bir azərbaycanlının prezidenti olduğunu sübut etdi.

Yaşasın Prezident İlham Əliyev! Yaşasın çiçəklənən güclü Azərbaycan!

**Azər BADAMOV,**
***Milli Məclisin deputatı***

# Zəfərin memarı

**Həm 2003-cü il prezident seçkisi ərəfəsində, həm də seçkilərdən sonra müxtəlif siyasi bloklar yaradan və boykot çağırışı edənlər sonradan cənab İlham Əliyevin Prezident seçilməsini bayram kimi qeyd etdilər. Çünki onlar başa düşdülər ki, amalı, məqsədi ölkənin suverenliyinin, müstəqilliyinin möhkəmlənməsi, hər bir Azərbaycan vətəndaşının maddi rifahının yüksəlməsi olan cənab İlham Əliyev böyük işlər görür. Doğrudan da bu bir həqiqətdir ki, İlham Əliyev Prezident olaraq qarşıya qoyduğu məsələlərin həlli üçün lazımi tədbirlər görür. Bu, bütün sahələrdə özünü göstərir.**

Prezidentlik dövründə təkcə iqtisadi sahədə əldə edilən nailiyyətlərə baxanda görürük ki, ölkəmiz necə sürətli və davamlı inkişaf dövrü yaşayır. Bu istiqamətdə həyata keçirilən beynəlxalq miqyaslı layihələr mühüm əhəmiyyət kəsb edir, Azərbaycan xüsusilə dünya enerji sektorunda təhlükəsizliyə olan təhdidlərin qlobal səviyyədə qarşısının alınmasında mühüm aktora çevrilib. Bu layihələrin həyata keçirilməsi birmənalı olaraq, İlham Əliyevin adı və onun apardığı məqsədyönlü siyasətlə bağlıdır. Eyni zamanda dövlət başçısının yürütdüyü uğurlu siyasət nəticəsində nəqliyyat-logistika, kənd təsərrüfatı, informasiya texnologiyaları, turizm sahəsi də mütərəqqi dövrünü yaşayır.

Hərbi sahədə mühüm islahatların həyata keçirilməsi, ordumuzun maddi-texniki bazasının gücləndirilməsi bizə Azərbaycan tarixinin ən şanlı Zəfərini qazandırdı. 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti nəticəsində qələbə əldə edildi və işğalçı Ermənistan təslim olmağa məcbur oldu. Bu möhtəşəm Zəfərlə 200 ilə yaxın zaman kəsiyində baş vermiş torpaq itkilərinə son qoyuldu.

Bu, həm də separatçı meyilli dünya erməniçiliyinə ciddi zərbə oldu. 2023-cü il sentyabrın 19-20-də Qarabağ bölgəsində həyata keçirilən lokal xarakterli antiterror tədbirləri Azərbaycan Ordusunun nəyə qadir olduğunu bir daha dünyaya nümayiş etdirdi. Azərbaycan onilliklərin ardından Qarabağ bölgəsində suverenliyini tam bərpa etdi.

Təbii ki, bütün bunlar dövlət başçımız İlham Əliyevin illərlə apardığı mükəmməl ordu quruculuğu siyasətinin parlaq nəticəsi idi. Müasir silahlar, texnoloji yeniliklərə malik ordunun, peşəkar hərbi qüvvələrin, milli kadr potensialının hesabına Azərbaycan Vətən müharibəsində qalib dövlətə çevrildi.

Bu illər ərzində cənab İlham Əliyevin apardığı milli təhlükəsizlik siyasətinə uyğun olaraq ən yüksək standartlara cavab verən, yüksək texnologiyalı silahlarla təchiz olunmuş hərbi qüvvələrimiz formalaşıb, vətənpərvər gənc nəsil yetişib.

Sentyabrın 19-20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində məğlub olaraq ağ bayraq qaldıran erməni hərbi birləşmələri ərazilərimizi tərk etməyə başladı. Bundan sonra isə Qarabağda yaşayan ermənilərin reinteqrasiyası üçün lazımi tədbirlərin görülməsinə start verildi. Xüsusilə qeyd edək ki, Vətən müharibəsi başa çatandan dərhal sonra dövlətimiz Qarabağ və Şərqi Zəngəzurda böyük quruculuq işlərinə başladı, Böyük qayıdışa start verildi.

Bütün dövrlərdə olduğu kimi, 44 günlük müharibədən sonra da dövlətimizin əsas prioritetlərindən biri, həssas təbəqəyə, şəhid ailələrinə, qazilərimizə olan diqqət və qayğıdır. Cənab İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın birbaşa göstərişi və nəzarəti ilə bu kateqoriyadan olan insanlarımıza hər cür dəstək və kömək göstərilir.

Prezident İlham Əliyevin günün tələblərinə uyğun apardığı siyasətin nəticəsidir ki, Azərbaycan bu gün dünyada intellektual məhsulları ilə də tanınır. Cənab İlham Əliyevin təşəbbüsü və nəzarəti ilə 2013-cü ildə ilk peykimiz orbitə buraxılıb, Azərbaycan kosmik klubun üzvünə çevrilib və bu gün artıq üç peykimiz var.

Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biridir və ölkəmizdə etnik mənsubiyyətindən və dini əqidəsindən asılı olmayaraq, hamının hüquq və azadlıqları təmin olunur, mənəvi dəyərləri qorunur. Dünyada yaşayan azərbaycanlıların bir-biri ilə və Azərbaycanla əlaqələrinin güclənməsinə, diaspor təşkilatlarının işinin gücləndirilməsinə yeni töhfələr verilir.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti, Qoşulmama Hərəkatının sədri seçilməsi və sədrlik müddətinin daha bir il uzadılması, QH Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması, Avropa miqyaslı tədbirlərin, nüfuzlu beynəlxalq toplantıların, humanitar forumların ölkəmizdə keçirilməsi Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü siyasətin bariz nəticəsidir.

Azərbaycan dilinin, ənənələrinin və mədəniyyətinin qorunub saxlanılması istiqamətində də cənab İlham Əliyev çox ciddi siyasət həyata keçirir.

Azərbaycan Prezidenti öz fəaliyyəti ilə türk dünyasının birliyinə də mühüm töhfələr verir. O da təsadüfi deyil ki, 2021-ci il noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Prezident İlham Əliyevə "Türk Dünyasının Ali Ordeni" təqdim edilib.

Ulu Öndər Heydər Əliyevin siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevin razılığı və iştirakı olmadan bu gün nəinki Cənubi Qafqazda, hətta beynəlxalq səviyyədə nəhəng layihələrin həyata keçirilməsi mümkün deyil. Azərbaycan xalqı öz Prezidenti ilə fəxr edir, dövlət başçısının yürütdüyü daxili və xarici siyasətin həyata keçirilməsində daim onu dəstəkləyir.

Cənab Prezident İlham Əliyevə bütün işlərində uğurlar diləyir, çətin və şərəfli fəaliyyətində cansağlığı, yeni nailiyyətlər arzulayırıq!

**Arzu NAĞIYEV,**
***Milli Məclisin deputatı***

# "Sözümüz imzamızdır: 20 il"



**Nizami Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının birgə təşkilatçılığı ilə "Sözümüz imzamızdır: 20 il" devizli fləşmob keçirilib.**

Fləşmobda 1000 nəfərdən artıq gənc Prezident İlham Əliyevin "Sözümüz imzamızdır" ifadəsi, dövlət başçısının imzası və "20" rəqəmi formasında düzülüb.

Fləşmobun əsas ideyasını Prezident İlham Əliyevin 20 il ərzində xalqa layiqincə xidmət etməsi, Müzəffər Ali Baş Komandan kimi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin edərək əsrin qalib ölkəsinə çevirməsi təşkil edib.

Fləşmob iştirakçıları 20 il öncə - 2003-cü il 15 oktyabr tarixində xalqın düzgün qərar verərək ölkədə Heydər Əliyev siyasətinə alternativin olmadığını bir daha təsdiqləməsini canlandırıblar. Azərbaycan xalqının cənab İlham Əliyevə etimad göstərməklə əmin-amanlığın, quruculuğun və inkişafın tərəfində olduğunu nümayiş etdirməsi diqqətə çatdırılıb.

Fləşmob rayon sakinlərində də böyük maraq oyadıb və xoş təəssürat yaradıb.



# "Heydər Əliyev 100: Mühəndislik hakatonu"

**Oktyabrın 14-də Yeni Azərbaycan Partiyasının (YAP) və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev 100: Mühəndislik hakatonu" intellektual yarışın açılış mərasimi keçirilib.**

Azərbaycan-Fransız Universitetində keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektor əvəzi Vazeh Əskərov Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunduğunu, Ümummilli Liderin anadan olmasının 100 illiyinin respublikamızda böyük təntənə ilə qeyd edildiyini bildirib. Ulu Öndərin gənclərə hərtərəfli qayğısından bəhs edən Vazeh Əskərov qeyd edib ki, Heydər Əliyev siyasətində gənclərlə iş daim xüsusi yer tutub, gənclərin yüksək təhsilə, bilik və bacarıqlara nail olmaları üçün məqsədyönlü addımlar atılıb. Hazırda bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu siyasətin nəticələri gənclərimizin uğurlarında öz əksini tapır.



V.Əskərov gənclərin inkişafında, bilik və bacarıqlarının artırılmasında mühüm rol oynayan belə intellektual yarışların təşkilinin əhəmiyyətini vurğulayıb, yarışda iştirak edən komandalara uğurlar arzulayıb.

YAP Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Tağıyev anadan olmasının 100-cü ildönümünü qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən bəhs edib. O, Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində son 20 il ərzində Azərbaycanın möhtəşəm nailiyyətlər qazanaraq tərəqqi və Zəfər zirvəsinə yüksəldiyini, qüdrətli və qalib ölkəyə çevrildiyini vurğulayıb.

Ə.Tağıyev bildirib ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu siyasətin nəticəsində ölkəmizdə intellektual, vətənpərvər, bilikli və bacarıqlı gənc nəsil formalaşıb. Onun sözlərinə görə, ölkəmizin ən güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasında da böyük gənclər ordusu birləşib.

Əhliman Tağıyev ali məktəb tələbələri üçün təşkil edilən intellektual yarışın gənclər üçün faydalı olacağına əminliyini ifadə edib.

Kapital Bankın Proqramlaşdırma üzrə funksional lideri Fariz Lətifov da çıxışında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunan intellektual yarışın gənclərimizin innovativ potensialının inkişafındakı əhəmiyyətindən bəhs edib.

Daha sonra yarışın qaydaları və təlimatlar barədə "Eazi Start" startup və innovasiya mərkəzinin koordinatoru Elviz İsmayılov və UFAZ-ın Kompüter Elmləri Proqramı üzrə koordinatoru Samer El Zant məlumat veriblər.

Qeyd edək ki, intellektual yarışda 21 universitetdən 30 komanda təmsil olunur. 120 tələbənin iştirak etdiyi yarışlar oktyabrın 14-15-də keçirilir.







# Ağdamın qara günlərinə son qoyan Sərkərdə

## Doğru seçilən yolda inamla atılan hər addım qələbəyə aparır

**Zaman öz axarındadır. İllər bir-birini sürətlə əvəz edir. Xəyalımızda 30 il əvvəlin ağrı-acılı, ürək göynədən, könül sızladan mənzərəsi canlanır. Ermənistan silahlı qüvvələrinin işğalçılıq siyasəti nəticəsində odlara qalanıb viran qoyulan kəndlərimizdən, şəhərlərimizdən, doğma yuvalarından perik salınan soydaşlarımız ölkənin müxtəlif yerlərinə səpələnmiş, çadır şəhərciklərində, yük vaqonlarında, qazma daxmalarda məskunlaşmış, son dərəcə ağır və dözülməz məişət şəraitində yaşamağa məhkum edilmişdilər.**



O zaman respublikanın bütün bölgələri kimi, Bərdə də məcburi köçkünə çevrilən həmvətənlilərinə isti qucaq açmışdı. Doğma yurdundan qovulan soydaşlarımızın kompakt yaşadığı məkanlardan biri də Bərdədə salınmış Türk Qızıl Ay Çadır şəhərciyi idi. Rahat ev-eşiyini tərk etmək zorunda qalan insanlar uzun illər qışın ilik donduran şaxtasında, yayın hər yeri qovurqa kimi qovurduğu qızmar istilərdə çadırlarda yaşayır, taleyin məşəqqətli günlərinə səbirlə dözür, doğma yurda qayıdacaqlarına olan ümidlərini öləziməyə qoymurdular.

2003-cü ilin oktyabrı idi. İlham Əliyev prezidentliyə namizəd kimi Bərdədəki Türk Qızıl Ay Çadır şəhərciyinin sakinləri - seçiciləri ilə görüşdü. Cənab İlham Əliyev xalqın etimadını qazanıb seçiləcəyi halda özü üçün prioritet olacaq vəzifələri açıqladı. Dedi ki, ölkədə bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Hər cür sosial infrastruktura, rahatlığa malik yeni qəsəbələr tikilib məcburi köçkünlərin istifadəsinə veriləcək. Bir də inamla vurğuladı ki, siz ərazilərimizi, Qarabağı işğaldan azad edib doğma yurda dönüşün sevincini də yaşayacaqsınız.

Görüşdə kəlbəcərlilər, laçınlılar çox olsa da, ağdamlılar əksəriyyət təşkil edirdi. İlham Əliyevin əminlik və qətiyyətlə söylədiyi fikirlər görüş iştirakçılarının içindəki ümid işığını şölələndirirdi. Ağdamlılar bir daha inandılar ki, Heydər Əliyevin varisi, Ulu Öndərin siyasi kursunun layiqli davamçısı olan İlham Əliyev dediyi sözə, verdiyi vədə mütləq sahib çıxacaq.

Doğru seçimini edən xalqın yanılmadığını zaman öz hökmü ilə dəfələrlə təsdiqlədi. Hər zaman Heydər Əliyev ideallarına sədaqətli olan ağdamlılar Azərbaycanın yeni Prezidenti seçilən İlham Əliyevin ətrafında sıx cərgələrlə birləşib, ona arxa oldular, tapşırıq və tövsiyələrini yüksək məsuliyyət hissi ilə yerinə yetirdilər, əsl vətəndaş mövqeyi nümayiş etdirdilər.

İllər bir-birini əvəzlədikcə xalq hər məqamda Prezident İlham Əliyevin öz vədinə, dediyi sözə necə sahib çıxdığını görür, təsdiq edir və bundan qürur duyurdu. Ağdamlılara düşən qayğı payı çox böyükdür. İlham Əliyev prezidentlik fəaliyyətinin ilk illərində "Qaçqın və məcburi köçkünlərin problemləri mənim üçün əsas prioritetdir" deyərək öz yaxın məqsədlərini əzmlə reallaşdırırdı. Çadır şəhərcikləri sürətlə yox olurdu. Əvəzində uzun illər ağır şəraitdə yaşayan soydaşlarımız yeni salınan qəsəbələrdə geniş, rahat, işıqlı mənzillərlə təmin edilirdilər. İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə təkcə Ağdam rayonunun ərazisində 18 yeni qəsəbə inşa olundu. 6625 ailə yeni mənzil və evlərlə təmin edildi. Hər qəsəbədə məktəb, uşaq bağçası, tibb məntəqəsi, klub və s. yaradıldı. Ağdama, qarabağlılara isti münasibətin məntiqi nəticəsidir ki, Prezident İlham Əliyev dövlət başçısı olduğu 20 ildə Ağdama 14 dəfə səfər etmişdir. Bu səfərlərin 9-u rayonun işğal edilməmiş ərazisinə, 5-i isə 44 günlük şanlı Qələbədən sonrakı Ağdama olmuşdur.

Bu qayğıdan, bu isti münasibətdən güc alan ağdamlılar tükənməz həvəslə çalışır, doğma yurdun hər qarışını cənnətə döndərmək üçün səy və bacarıqlarını əsirgəmir, dövlətə, Prezidentə sədaqətlərini hər məqamda nümayiş etdirməkdən sonsuz qürur duyurdular. Minnətdarlıqla qeyd edilməlidir ki, dövlətin Ağdam rayonunun sosial-iqtisadi inkişafına yönəlik dəstəyinin miqyası yetərincə genişdir. 26280 ağdamlının rahatlığa qovuşduğu yeni qəsəbələrdə yaşayış evlərinin ümumi sahəsi 252 min kvadratmetrə çatır. Yeni qəsəbələrdə 18 ümumtəhsil, 3 musiqi məktəbi, 12 tibb, 10 məktəbəqədər təhsil müəssisəsi, 11 klub, icma mərkəzi inşa olunmuşdur. Bütün qəsəbələr içməli su ilə təmin edilmişdir.

Qədirbilən ağdamlılar Quzanlı qəsəbəsində Heydər Əliyev Mərkəzi inşa etmiş, Ulu Öndərin adını daşıyan mədəniyyət parkı salmış, burada dahi rəhbərin əzəmətli abidəsini ucaltmışlar. Heydər Əliyevin əziz xatirəsinə sonsuz məhəbbət və ehtiramın ifadəsidir ki, onun abidəsi önündə hər zaman təzə-tər qızıl güllər olur.

Şanlı Qələbəmizin reallaşdığı, ərazilərimizin işğaldan azad olunduğu dövrədək Ağdam rayonu ərazisində böyük abadlıq və quruculuq işləri görülmüşdür. Olimpiya idman kompleksi, idarə və müəssisələr üçün yeni inzibati binalar, Bayraq meydanı, müasir tələblərə cavab verən xəstəxana, doğum evi, təcili tibb yardım stansiyası, hotel inşa edilmiş, Ağdam Dövlət Dram Teatrının binası əsaslı təmir edilmişdir.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə 46 min nəfərin yaşadığı 29 yaşayış məntəqəsini birləşdirən 28 kilometrlik Quzanlı-Xındırıstan-Əhmədağalı-Əfətli və 21 min nəfərin yaşadığı 14 yaşayış məntəqəsini birləşdirən Quzanlı-Üçoğlan-Xındırıstan-Səfərli yolları yenidən qurulmuş, Əfətli-Hacıturalı-Həsənxanlı avtomobil yolunun 5,7 kilometrlik hissəsi əsaslı təmir edilmişdir. Bayraq muzeyi, Xalçaçılıq müəssisəsi, Muğam Mərkəzi, Ağdam atçılıq kompleksi inşa olunmuş, Xındırıstan məscidi əsaslı təmir edilmiş, Xındırıstan kəndi ərazisində yeni park salınmış, buradakı ikimərtəbəli köhnə məişət evi əsaslı şəkildə yenidən qurulmuşdur. Ən əsası rayonun bütün yaşayış məntəqələri qazlaşdırılmışdır. Amma bunlar da hələ hamısı deyil. Son 20 ildə Ağdamda 39 ümumtəhsil məktəbi inşa edilmiş, 16 məktəb binası əsaslı təmir olunmuş, 5 modul tipli məktəb quraşdırılmışdır. Bu dövrdə 18 yeni uşaq bağçası tikilmiş, 9 uşaq bağçası isə əsaslı təmir edilmiş, 10 mədəniyyət evi, 3 uşaq musiqi məktəbi, 5 kitabxana tikilib istifadəyə verilmişdir.

Ağdam rayonunun sosial-iqtisadi inkişafını sürətləndirmək, bölgə əhalisinin həyat şəraitini yaxşılaşdırmaq məqsədi ilə Prezident İlham Əliyev 20 ildə 23 sərəncam imzalamışdır. Bu sərəncamların hədəfi Ağdamın inkişafına nail olmaq, ağır məhrumiyyətlər yaşamış ağdamlıları xoş güzərana, firavan həyata qovuşdurmaq olmuşdur.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov dövlətin, Prezident İlham Əliyevin rayona göstərdiyi davamlı dəstəyindən minnətdarlıqla danışır:

- 44 günlük müqəddəs vətən savaşında Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qüdrətli sərkərdə qətiyyəti və Azərbaycan əsgərinin qəhrəmanlığı ilə qazanılan şanlı qələbənin sevinc payı hər bir ölkə vətəndaşı üçün yetərlidir. Şəxsən mən sıradan bir ağdamlı kimi özümü xoşbəxt sayıram ki, düşməndən şəhidlərimizin qisasını layiqincə ala bildik. Müzəffər sərkərdənin rəhbərliyi ilə qəhrəman ordumuz bizi 30 ilin xəcalətindən qurtardı, əyilmiş qəddimizi, bükülmüş belimizi düzəltdi. Şuşada Cıdır düzündə Paşinyan öz quldur dəstəsi ilə yallı gedəndə biz için-için yanıb qovrulur, ölüb dirilirdik. İndi necə qürurlanmayasan ki, Şuşaya qalib kimi qayıtmışıq. Ürəyin necə fərəhlə dolmasın ki, indi Cıdır düzündə beynəlxalq musiqi festifalı keçiririk, həm də beynəlxalq diplomatların, dünyanın məşhur incəsənət xadimlərinin iştirakı ilə. Bu gün ürəyimiz fərəhlə, qürurla döyünür. Qəhrəman övladlarımızın qanı, canı bahasına erməni işğalından azad etdiyimiz Qarabağ və Şərqi Zəngəzur bu gün böyük inşaat meydanına çevrilib. Ermənistan silahlı qüvvələrinin odlara qalayıb viran qoyduqları, 30 il işğalda saxladıqları kəndlər, şəhərlər başdan-başa yenidən qurulur. Həm də xüsusi zövqlə, əsl vətəndaş mövqeyi ilə. Dəfələrlə Ağdamın işğaldan azad edilmiş ərazilərində olmuşam. Erməni barbarlarının daş üstə daş qoymadığı, dünyaya "ruhlar şəhəri" kimi təqdim etdiyi Ağdam qışın şaxtasından qurtulan yaz çiçəkləri kimi sürətlə boy atır. 30 ilin həsrətindən sonra qovuşduğumuz Ağdamın oyanışını, canlanmasını görmək adama qol-qanad, yaşamaq, yaratmaq həvəsi verir. Ağdamın şöhrətli, çal-çağırlı günlərinə yenidən, həm də tezliklə qovuşacağı günlər çox yaxındır. Bunu yeni salınan şəhər və kəndlərdəki tikinti, quruculuq işlərinin, Ağdama çəkilən dəmir yolu və avtomobil yolunun inşasındakı sürət həddi diktə edir. Dünən tarixə qızıl hərflərlə yazılan parlaq qələbəmizi təmin edən Ali Baş Komandan İlham Əliyev bu gün yenidən qurulan Qarabağın, Şərqi Zəngəzurun baş memarıdır. Biz isə öz növbəmizdə üzərimizə düşən vəzifənin məsuliyyətini yüksək dəyərləndiririk. Fəaliyyətimizin əsas istiqaməti Prezident İlham Əliyevin verdiyi tapşırıq və tövsiyələrin icrasını yüksək səviyyədə təmin etməkdir. İşimizi elə qurmağa çalışırıq ki, hər bir rayon sakini, hər bir ağdamlı dövlətin qayğıkeşliyini öz gündəlik həyatında hiss edə bilsin. Əsas hədəfimiz şəhid ailələrinin, qazilərin, müharibə veteranlarının qayğılarına diqqətlə yanaşıb onları həll etməkdir. Birinə yeni ev tikilir, digərinin evi təmir olunur, başqa birinin istəyi əsasında sahibkarlıq fəaliyyəti ilə məşğul olması üçün ona torpaq sahəsi ayrılır və s.

Ötən illərin xronikasının yalnız Ağdama aid olan hissəsinin bəzi məqamlarına nəzərə saldıq. Bu dövrlər çətin, lakin şərəfli bir yol keçmişik. Bu yolun başlanğıcı doğma və isti ocağından perik salınan qaçqın və məcburi köçkün soydaşlarımızın məişət şəraitini yaxşılaşdırmaqdan başlayıb Qarabağın işğaldan azad olunmasından, bu ərazilərdə bərpa və quruculuq işlərinin vüsət almasından keçir.

İndi budur - sentyabrın 19-20-də Azərbaycanın keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində erməni separatçılarının Qarabağdakı son quldur yuvaları da məhv edildi. Azərbaycan əsgərinin əzmini və qüdrətini, Ali Baş Komandanımızın iradəsi və qətiyyətini öz üzərlərində hiss edən qanunsuz erməni silahlıları bir sutka keçməmiş ağ bayraq qaldırdılar. Bununla illərdir günümüzü qara edən, əsrlərdir regionun "qara yara"sına çevrilən erməni separatizminin məhv edilməsi əməliyyatı sona çatdı. İndi Qarabağda yaşayan dinc ermənilərin qarşısında iki yol var - ya Azərbaycan vətəndaşlığını qəbul etmək, ya da Laçın yolu gediş üçün açıqdır.

Biz isə böyük hədəflərə aparan şərəfli yoldayıq. Müdrik rəhbərin, Müzəffər Sərkərdənin, məharətlə reallaşdırılan, uğur diplomatiyasının sayəsində işıqlı sabahlara qovuşacağımız, yeni zəfərlər çalacağımız hər kəsə gün kimi aydındır. Doğru seçilən yolun, inamla atılan hər addımın sonu yalnız qələbədir!

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Qeyri-neft ixracında elektrik enerjisi birinci yerdədir

**Bu ilin yanvar-avqust ayları ərzində ölkəmizdən 24,4 milyard dollar dəyərində mal ixrac olunmuşdur. Həmin dövrdə qeyri-neft sektoru üzrə ixrac 2,2 milyard dollar təşkil etmişdir.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) cari ilin yanvar-avqust ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi birinci, pomidor (tomat) ikinci, pambıq mahlıcı isə üçüncü yerdə qərarlaşıb. Bu dövrdə ən çox məhsul Rusiya Federasiyasına, Türkiyəyə, Gürcüstana, İsveçrə Konfederasiyasına və Qazaxıstana ixrac edilib.

Cari ilin avqust ayının qeyri-neft ixracı isə 203,6 milyon dollar olub. Bunun da 51,4 milyon dolları yeyinti məhsulları üzrə, 152,2 milyon dolları isə qeyri-yeyinti məhsulları üzrə ixracın payına düşüb. Həmin ay qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası birinciliyə yüksəlib. Bu siyahıda sonrakı yerlərdə Türkiyə və Gürcüstan qərarlaşıb.

Cari ilin 8 ayı üzrə hazırlanan siyahıda qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk yerdə bu şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Baku Steel Company" QSC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Best Logistik" MMC, "STP Global Cable" MMC, "P-Aqro" MMC, "My Fruit" MMC, "Mega Fruit Az" MMC, "Almeyvə" MMC. Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə "Azərenerji" ATSC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azəripək" MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti.



İlin ilk 8 ayında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") 12,7 milyon dollar dəyərində telekommunikasiya xidməti ixrac edib. Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir. Bu dövrdə "Azərkosmos" tərəfindən dünyanın 45 ölkəsinə peyk telekommunikasiya xidmətləri ixrac olunub. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizini təşkil edib. Bu ilin avqust ayında isə "Azərkosmos" dünyanın 40 ölkəsinə 1,5 milyon dollar dəyərində xidmət ixrac etməyə nail olub. Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində Birləşmiş Krallıq, Lüksemburq, BƏƏ, Almaniya, ABŞ və Nigeriya qərarlaşıb.

Bu ilin sentyabr ayı ərzində "Bir pəncərə" İxraca Dəstək Mərkəzindən 31,6 milyon dollar dəyərində qeyri-neft ixracı həyata keçirilib. Xidmətə ay ərzində 83 müraciət daxil olub. Müvafiq dövr ərzində 210 ədəd sertifikat (41 ədəd mənşə, 158 ədəd fitosanitar, 3 ədəd baytarlıq, 8 ədəd CİTES) təqdim edilib.

Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pendir, qənnadı məmulatları, nar və qarışıq şirələr, narşərab, limonad, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların dondurulmuş əti və kürüsü, iribuynuzlu heyvanların subməhsulu, tibbi zəli, elektrik mühərriki, su nasosları, köklü süxur nümunələri, köpüklənən polistrol əsaslı ekstruz olunmuş lövhələr, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib. Yuxarıda qeyd edilən məhsullar arasında qiymətli metallar, polad armatur yayması, pambıq mahlıcı, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların dondurulmuş əti və kürüsü, meyvə şirələrinin ixracı üstünlük təşkil edib.

Həmin məhsulların əsas alıcıları İsveçrə, Gürcüstan, Rusiya, Türkiyə, BƏƏ, Kanada, Litva, Moldova, Avstraliya, Rumıniya, ABŞ, Türkmənistan, Qazaxıstan, Özbəkistan olub.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# 200 illik erməni layihəsinin sonu



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin liderliyi ilə dövlətimiz regionun tarixində yeni bir səhifə açdı. 44 günlük Vətən müharibəsində qazandığımız parlaq Zəfəri və bu qələbənin bölgəmizdə yaratdığı yeni reallığı dövlətimizin sentyabrın 20-də Qarabağdakı separatçılara qarşı ildırım sürəti ilə həyata keçirdiyi antiterror tədbirləri tamamladı.*

Azərbaycan dövlətinin gücü qarşısında duruş gətirə bilməyən separatçılar ağ bayraq qaldırıb silahı yerə qoymağa, dövlətimizin irəli sürdüyü şərtlərlə razılaşmağa məcbur oldular. Xankəndidəki separatçı rejim buraxıldı, Ermənistanın Qarabağdakı silahlı birləşmələri tamamilə tərk-silah edildi. Qarabağ bölgəsində Azərbaycan dövlətinin tam suverenliyi bərpa olundu. Uzun illər hərbi xuntaya rəhbərlik edənlər, mülki əhalini öz girovluqlarında saxlayanlar, Azərbaycana qarşı dövləti cinayətlər törədənlər qandallanaraq əməllərinə görə ədalət mühakiməsi qarşısında cavab vermək üçün Bakıya gətirildilər.

44 günlük Vətən müharibəsindən ötən iki ildə baş verənləri, antiterror tədbirləri ərəfəsində və tədbirlərindən sonra cərəyan edən prosesləri nəzərdən keçirdikcə bütün həqiqətlər öz yerini tutur. Mənzərə tam aydınlaşır və Azərbaycanın əldə etdiyi tarixi nailiyyət ayrı-ayrı epizodları ilə deyil, tam şəkildə, bütün əzəməti ilə göz önündə canlanır. Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyevin nə qədər böyük bir tarixi missiyanı uğurla yerinə yetirdiyini görürük.

### "Böyük Ermənistan" oyunu darmadağın edildi

Azərbaycanın bu nailiyyəti yalnız ölkənin bəlli bir hissəsində baş qaldırmış separatçılara qarşı tədbirlərdə əldə edilmiş uğur deyil. Bu qələbə qonşu dövlətlə regional münaqişədə qazanılmış zəfər də deyil. Bu, böyük dövlətlərin birbaşa müəllifliyi ilə, onların havadarlığı əsasında 200 ildən bəri davam və inkişaf etdirilən, genişləndirilən layihənin darmadağın edilməsidir. Dünya güclərinin ermənilərdən istifadə edərək əsrlər əvvəldən regionda biz azərbaycanlıların canıqanı bahasına bir-birinə qarşı oynadıqları "böyük Ermənistan" oyununun pozulmasıdır. Azərbaycan Prezidenti İlham Əliyev bu 200 illik layihəni fiaskoya uğratdı. Cənubi Qafqaz regionunun, bu torpaqlarda yaşayan, yaşayacaq insanların gələcəyini bu qanlı oyunun təhlükələrindən xilas etdi. Əsrlər boyu sürən toqquşmalardan, insan faciələrindən, qandan-qadadan, nəhayət ki, qurtuluşa doğru qapı açdı.

Azərbaycan Prezidentinin yaratdığı yeni reallıqdan yaşadığımız coğrafiyada əbədi sülhə, əməkdaşlığa, dayanıqlı inkişafa doğru aydın yol görünür. Məkrli qüvvələrin 200 illik "böyük Ermənistan" layihəsini aradan qaldıran dövlətimiz bu reallıqdakı əməkdaşlıq inkişaf yolunu da qoruyub saxlamaq, davam etdirmək, eyni səmimi niyyətləri paylaşan hər kəsi Cənubi Qafqazın gələcəyi ilə bağlı vahid amallar ətrafında bir araya gətirmək əzmindədir. Dövlət rəhbərimiz tarixi missiyanı davam etdirir və bir zamanlar Cümhuriyyət qurucularımızın da can atdıqları, lakin tarixin gərdişindən, erməni layihəsi müəlliflərinin məkrli planlarından müyəssər ola bilmədikləri Qafqaz Evi ideyasının reallaşmasından ötrü bütün imkanlardan istifadə edilməsinə çalışır. Yaranmış yeni reallıqların belə bir ideyanı həyata keçirmək, Cənubi Qafqazda əbədi sülhü, əməkdaşlığı, qarşılıqlı maraqlara əsaslanan birgə fəaliyyəti təmin etmək üçün nə qədər böyük fürsət olduğunu dövlət rəhbərimizin bu günlərdə Gürcüstana rəsmi səfərində, burada verilən bəyanatlarda, bölgədə yaşayan insanlara və ümumən dünyaya çağırışlarda da hər birimiz izlədik. Bu mənada, Azərbaycan Prezidenti İlham Əliyevin liderliyi təkcə xalqımızın şansı deyil, regionda belə güclü, qətiyyətli bir liderin fəaliyyəti, böyük gələcəyə, strateji hədəflərə yönəlmiş addımları ümumən Cənubi Qafqaz insanları üçün tarixin böyük bir töhfəsidir.

Antiterror əməliyyatının nəticələri ilə, separatçıların xəstə miflərlə zəhərlənmiş başının əzilməsi ilə, bu əməliyyatdan sonra Qarabağdakı quldurların tərk-silah edilərək, silahlarını təhvil verərək 30 il ərzində torpaqlarımızda qazdıqları gizli yuvalardan birdəfəlik çəkilib getmələri ilə yeni tarix başlanır. Hər səhifəsində insan faciələri, göz yaşları, itkilər, ağrı-acılar, məyusluqlar olan, böyük bir nəslin ömrünün itirilmiş illərinin əzablı xatirələri yazılmış köhnə dəftər qapandı.

### Bölgəmizdə insanlar rahat nəfəs alacaqlar

Azərbaycan Prezidentinin antiterror tədbirləri uğurla başa çatdırıldıqdan sonra xalqımıza 20 sentyabr 2023-cü il tarixli müraciətində də bəyan etdiyi kimi, bu, Cənubi Qafqazda yeni reallıq, uzunmüddətli sülh yaradacaq. Bunun üçün Ermənistan tərəfinin revanşist fikirlərlə yaşamadığına əmin olmalıyıq, onlar isə əmin olmalıdırlar ki, Azərbaycanın onların torpağında gözü yoxdur. Azərbaycan bütün ölkələrin beynəlxalq hüquq normaları ilə təsbir olunmuş ərazi bütövlüyünü tanıdığını hər zaman bəyan edib. İndi Cənubi Qafqaz dövlətlərinin kənar təsirlərdən uzaq duraraq, bir-birinin ərazi bütövlüyünə, dövlətçilik dəyərlərinə hörmətlə yanaşaraq, həm də inanaraq və gələcəyə baxaraq bölgədə əbədi sülh və inkişaf üçün birgə çalışması vaxtıdır. Qeyri-adekvat davranışları, Ermənistana dəstək bəyanatları, Azərbaycana qarşı ikili standartları, riyakar yanaşmaları ilə erməniləri daha da başdan çıxaran, onlardan alver predmeti kimi istifadə edən, bulanıq suda balıq tutub pul qazanan, dar məqamda isə ermənilərin yanında durmağa da təpərləri çatmayan dırnaqarası erməni cəfakeşləri də artıq regiondan əl çəkməlidirlər. Bu torpaqlardan uzaq durmalıdırlar. Cənubi Qafqaz artıq rahat nəfəs almalıdır.

200 illik erməni layihəsini yenə davam etdirmək istəyənlərin, buna cəhd göstərənlərin nə qədər riyakar xislətə malik olduqlarına artıq təəccüb hissi də itir. Bir anlıq təsəvvür edək ki, dünyanın ən güclü, ən demokratik, ən ədalətli dövləti adına iddialı bir ölkəyə rəhbərlik etmək istəyən, bunun üçün namizədlik fəaliyyətinə başlayan biri erməni hərbi canilərinin 44 günlük Vətən müharibəsi vaxtı Gəncəyə, Bərdəyə raket hücumunu, cəbhə xəttindən yüz kilometrlərlə kənarda yüzlərlə mülki sakinimizin həyatına son qoymuş cinayətini Azərbaycanın törətdiyi akt kimi efirdən təqdim edir. Yaxud uzun illər ATƏT-in Minsk qrupunun üzvü kimi, guya, münaqişənin həllinə çalışan, guya, regiona sülh gətirməyə can atan Fransa revanşist qüvvələrin dirilib bölgəmizi yenidən qan çanağına döndərmələri üçün Ermənistana silah ötürür. Əfsus ki, bütün bunlar sadəcə absurd təsəvvür deyil, şahidi olduğumuz reallıqlardır. Belə reallıqları izlədikcə Azərbaycan dövlətinin nə qədər qorxulu, təhlükəli qüvvələrə qalib gəldiyini görür və bundan qürurlanırıq.

Onlar öz məkrli oyunlarını, əxlaqsız alverlərini daha buralarda qurmamalıdırlar. Onda davamlı münaqişələrdən, qan-qadadan, gözlənilməzliklərdən cana doymuş insanlar rahatlıq tapacaqlar. Cənubi Qafqaz sülh və inkişaf cənnətinə çevriləcək. Azərbaycan regionun lider dövləti kimi bunu etmək gücündə, imkanındadır.

"Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq!" - deyə dövlətimizin başçısı bildirmişdir.

### Qandallanmış separatçılar

Azərbaycan Prezidentinin bu kəlmələri təxminən 200 il davam edən ssenariyə, uzun illər ərzində müəyyən dairələrə xeyli dividendlər qazandırmış məkrli oyunlara qoyulan qətiyyətli nidadır. Dövlətimizin rəhbəri İlham Əliyevin Vətən müharibəsi ərəfəsində səsləndirdiyi "Qarabağ Azərbaycandır" kəlmələrindən sonra bu mesaj da əsrlər əvvəl başlanmış "böyük Ermənistan" oyununu yenə də davam etdirmək niyyətində olanlara, bu iki əsr ərzində on minlərlə günahsız insanın ömrünə son qoymuş erməni layihəsini davam etdirməyə can atanlara qətiyyətli xəbərdarlıqdır. Azərbaycan bu layihəyə artıq son qoyaraq onu tarixin arxivinə göndərdi. Bundan sonra heç zaman kiminsə onu diriltməsinə imkan verməyəcək.

Azərbaycanın bu tarixi uğuru həm ölkəmizin, həm ümumən regionumuzun gələcək inkişafı və tərəqqisi baxımından çox mühüm strateji perspektivlər müəyyənləşdirir. Dövlətimiz cəmi bir gün çəkən antiterror tədbirləri ilə uzun illərdən bəri Qarabağdakı erməniləri girovluqda saxlayan, onlardan istifadə edərək maddi sərvətlər qazanan kriminal qruplaşmanın, hərbi xuntanın əsarətindən azad etdi. Bu əməliyyatın nəticələri ilə sülh proseslərini yaxınlaşdırdı. Sülhə doğru yolu müxtəlif təxribatlarla qapamağa çalışan kriminal ünsürlərin də, məkrli məqsədlərlə onlara havadarlıq edən xarici dairələrin də əl-qolunu bağladı. Azərbaycanı bölüb parçalamaq, türk dünyasının birliyini əngəlləmək üçün torpaqlarımızda yerləşdirilmiş terror yuvası birdəfəlik dağıdıldı.

Eyni zamanda Xankəndidəki separatçı rejimin liderlərindən olmuş Ruben Vardanyanın, Arkadi Qukasyanın, Bako Saakyanın, Arayik Harutyunyanın, David İşxanyanın, David Babayanın qandallanaraq Bakıya gətirilməsi, bir zamanlar Azərbaycan dövlətinə barmaq silkələyən bu şəxslərin indiki rəzil vəziyyəti göstərir ki, regionumuzda sülhə, təhlükəsizliyə qarşı əməllər törədənlər, insan faciələrinə, itkilərə bais olanlar, başqalarının əlində alət kimi istifadə edilməyə can-başla razılıq verənlər heç bir halda cəzadan qaçıb qurtula bilməyəcəklər. Azərbaycan dövləti onları harada olurlarsa olsunlar tapıb layiq olduqları cəzaya çatdırmaq iqtidarındadır.

Azərbaycan dövləti Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra daha da güclənmiş ordumuzun qüdrətini, peşəkarlığını, yüksək döyüş qabiliyyətini, ruhunu sərgilədi. Əməliyyat zamanı yüksək dəqiqliklə, innovativ silahlarla yalnız hərbi obyektlərin sıradan çıxarılması, heç bir mülki şəxsin, dinc insanın əməliyyatlardan zərər çəkməməsi də bu möhtəşəm tarixin hər zaman rəğbətlə xatırlanmalı olan məqamlarıdır.

Bunu bacarmaq o qədər də asan deyildi. Çünki hərbi ekspert rəylərinə görə, son saatlarda terrorçular geri çəkilərək dinc insanların yaşadığı ərazilərə sığınmaq istəyirdilər. Bu isə mülki şəxslərin də həyatına müəyyən təhlüklər yaradırdı. Amma Azərbaycan dövləti terrorçu-separatçıları vaxtında müəyyənləşdirib lazımi şəkildə tərk-silah etməklə yanaşı, mülki əhalinin də həyatını qorudu. Onların ziyan çəkməməsi üçün bütün vasitələrdən, imkanlardan istifadə etdi. Eyni zamanda antiterror tədbirləri və nəticələri dinc sakinlərin də terrorçuların uzun illərdir davam edən əməllərindən artıq cana doyduqlarını, onlara dəstək vermədiklərini göstərdi. Nəticədə əliqanlı separatçıların silahı yerə qoyub ağ bayraq qaldırmaqdan başqa əlacları qalmadı.

### Yeni strateji dövr başlanır

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qısa müddətdə qazanılmış bu mükəmməl nəticə, bu nəticənin yaratdığı tarixi dəyişikliklər dövlət rəhbərimizin "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" kəlmələrinin nə qədər böyük həqiqət olduğunu, eləcə də Azərbaycan Prezidentinin hər sözünə imzası qədər dəyər verdiyini bir daha sübuta yetirdi. Eyni zamanda hər birimizə növbəti dəfə öytərmiş oldu ki, strateji qərarlar, böyük hədəflərə doğru addımlar tələskənliyi, emosionallığı sevməz. Burada hər addımın öz məqamı, vədəsi var. Azərbaycan həlledici əməliyyatla prosesləri lazımi istiqamətə yönəltdi və Vətən müharibəsi ilə qazandığımız Zəfərin son mərhələsini də eyni möhtəşəmliklə başa çatdırdı. Əgər ermənilər sülh və Azərbaycanın fəal şəkildə həyata keçirdiyi reinteqrasiya proseslərinə sadiqlik göstərsələr, səmimi davransalar, bundan sonra bu torpaqlarda silahlar əbədilik susacaq. Sülhün əldə olunmasından sonrakı inkişaf prosesləri, müxtəlif tərəflərin regionda sıx əməkdaşlıq potensialı, əzəli-əbədi yurdlarımızın dirçəlişi, genişmiqyaslı bərpa-quruculuq tədbirləri, çoxmillətli ölkə olan Azərbaycanın hər kəsə yaratdığı bərabər hüquq və imkanlar proseslərin davamını ən yüksək səviyyədə tənzimləyəcək.

Azərbaycan Respublikasının Prezidenti antiterror tədbirləri uğurla başa çatdıqdan sonra xalqımıza 20 sentyabr 2023-cü il tarixli müraciətində bu möhtəşəm uğurla daxil olduğumuz yeni strateji dövrün ümumi mənzərəsini də təqdim etdi. Azərbaycan dövlətinin bütün dünyaya örnək olan çoxəsrlik milli ənənələri, xalqımızın humanizm dəyərləri, birgəyaşayış qaydalarına sadiqliyi bu mənzərədə öz layiqli yerini tutacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Qələbə dastanının müəllifi

**20 il... Əsrin dörddə birindən 5 il az vaxt, ömürdən də bir parça. Və bu 20 il Azərbaycanda çoxlu sayda dəyişikliklərlə, faydalı əməllər və hadisələrlə müşayiət olundu. Həmin dəyişikliklər fonunda diqqətçəkən məqamlardan biri iqtisadi inkişafdır. Təhsil, elm və mədəniyyətin, əhalinin həyat səviyyəsinin müsbət istiqamətdə dəyişməsi, iqtisadiyyatın rəqabət qabiliyyəti, ümumi daxili məhsulun, eləcə də ümumi milli məhsulun artması iqtisadi proses kimi 20 illik bir zaman kəsiyində baş verdi.**

20 ildə dünyanı idarə edənlərin "mənəm-mənəm"liyinin nəticəsində çoxlu sayda qanlı qarşıdurmaların, müharibələrin, iqtisadi, siyasi, humanitar böhranların baş verdiyi situasiyalarda Azərbaycanı qoruyub saxlamaq, onun real müstəqilliyini daha da möhkəmlətmək, ölkəmizə qarşı törədilən təxribatların qarşısını almaq İlham Əliyev kimi bir liderin adı ilə qoşa çəkildi. Dönüb arxaya baxanda bir fakt açıq-aydın görünür: bütün sahələrdə inkişaf tempinə sürət vermək yalnız və yalnız sayılıb-seçilən, kamil şəxsiyyət və idarəetmə qabiliyyəti ilə fərqlənən liderin boyuna biçilib. Bu, belə də olmalıdır. Axı Azərbaycan Prezidenti İlham Əliyev kamil şəxsiyyəti, fövqəladə intellekti, xüsusi təşkilatçılıq və idarəetmə qabiliyyəti, dövlətinə və millətinə bağlılığı, Azərbaycan uğrunda apardığı bənzərsiz mübarizəsi ilə seçilən Ümummilli Lider Heydər Əliyev siyasətinin layiqli davamçısıdır.

Azərbaycanın 32 illik müstəqilliyinin yarıdan çoxu Prezident İlham Əliyevin adı ilə bağlıdır. 20 ildə Azərbaycanda həyata keçirilən uğurlu siyasət, iqtisadiyyatın dinamik inkişafı, onun davamlı artımı, biznes mühitinin yaxşılaşdırılması sahəsində atılan qətiyyətli və cəsarətli addımlar, eləcə də respublikamızın dünyanın enerji təminatında aparıcı ölkəyə çevrilməsi İlham Əliyevin iqtisadi siyasətinin nəticəsidir. Bu gün Azərbaycan Cənubi Qafqazda iqtisadi güc sahibidir. Bilavasitə ölkə rəhbərinin təşəbbüskarı olduğu və tərəfdaşları ilə birgə həyata keçirdiyi irimiqyaslı layihələr təkcə regionun deyil, digər bölgələrin inkişafında da mühüm rol oynayır. Enerji ixracındakı infrastrukturlar Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına keçidini təmin etdi. Bu təminatın arxasında dayanan Azərbaycan Prezidentidir.

Prezident İlham Əliyev 20 ildir Azərbaycan xalqına verdiyi "hər bir azərbaycanlının prezidenti olacağam" vədini bir an belə unutmur. Millət, xalq yolunda, vətən, torpaq uğrunda dövlətin və dövlətçiliyin nüfuzunu günbəgün artırır. İki onillik ərzində İlham Əliyevin xalqına və dövlətinə müstəsna tarixi xidmətləri sayəsində həm beynəlxalq, həm regional səviyyədə, həm də ölkə daxilində o qədər parlaq uğurlara imza atıldı ki, onun qatı opponentləri belə Azərbaycan liderinin qələbəsini qəbul etməyə məcbur oldular. Prezident 20 ildə Azərbaycanı möhkəmləndirdi, böyütdü, inkişaf etdirdi, ordu quruculuğunu "tramplin sıçrayışı" ilə yüksəltdi, Qarabağ "yara"sını Zəfərlə sağaltdı. Hər bir azərbaycanlının Prezidenti olan İlham Əliyev təkcə Azərbaycanda deyil, dünyanın hər yerində yaşayan soydaşlarımıza Zəfər sevincini yaşatdı, qələbə tamını dadızdırdı.

20 illik bir dövrün ən gözəl, ən möhtəşəm, ən əzəmətli akkordu 44 günlük Vətən müharibəsində vuruldu. Müzəffər Ali Baş Komandanın müstəsna sərkərdəlik qabiliyyəti, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və ordu-xalq-iqtidar birliyi ölkənin gələcəyini təmin edən ən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq tarixini yazaraq özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi, düşmən üzərində tarixi Zəfər çaldı. Bu Zəfər Vətənə qayıdış, tarixə qayıdışdır. Hərbi əməliyyatların aparılması xarakterinə və icrasına, döyüşçülərimizin şücaətinə görə Azərbaycan tarixində misli görünməmiş qələbədir. Əlbəttə ki, bu qələbənin baş memarı Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Azərbaycan liderinin dediyi kimi, döyüş meydanında qazanılan bu qələbə ilə ölkəmiz üçün yeni dövr açıldı. "Qarabağda qazanılan Zəfər həm beynəlxalq hüquq, həm diplomatik, həm də hərbi baxımdan Azərbaycana ana südü kimi halaldır", - deyən qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan nə qədər də haqlıdır! Həmin halallığın mənbəyi Azərbaycan əsgəri və onun Müzəffər Ali Baş Komandanı İlham Əliyevdir.

Ali Baş Komandan bizi bu Zəfərə çatdırana qədər ömrünün 17 ilini yorulmadan, "uf" demədən Azərbaycanın xilasına, torpaqlarının bütövlüyünə nail olmaq üçün gecə-gündüz çalışıb. Prezident bizim gördüklərimizdən əlavə, pərdə arxasında bilmədiyimiz, hətta təsəvvür etməyəcəyimiz problemləri həll edib. Kimlərinsə qarşısında mərdcəsinə duruş gətirib, əyilməyib, Azərbycanın haqlı davasını sübuta yetirərək ermənilərin havadarlarını yerində oturdub, dünyanın ikili standartlarını əlinin arxası ilə geri çevirib. Bütün bunlar üçün nə qədər stres yaşayıb. Amma bir gün olsun belə yolundan dönməyib, saysız-hesabsız problemləri həll edib. Bu sətirləri yazarkən Prezidentin Zəfərdən sonra Şuşada ilk dəfə keçirilən "Xarıbülbül" festivalında kövrəldiyi səhnəni xatırlayıram. Ali Baş Komandanın kövrəlmiş gözlərindən mübarizələrlə dolu ömürdəki 18 illik bir zaman kəsiyinin acılı-şirinli, amma qürurla "yüklənmiş" anları boylanırdı. Bəlkə də, dünyanın ən peşəkar, ən istedadlı rəssamı belə həmin mənzərəni çəkə bilməzdi.

20 illik bir zaman kəsiyi Azərbaycan Prezidentini ömrün sərt yollarında sınadı və o, bütün bunlardan alnıaçıq, başıuca çıxdı, tarixin qalib sərkərdəsi kimi yaddaşlara həkk olundu. Ali Baş Komandan kimi Prezident taleyinin uca şərəfini, toxunulmaz qürurunu 20 illik bir dövrün "alnına yazdı". Ötənlərin ağrıacısına "dəmir yumruğu" ilə Zəfər adlı zərbə vurdu. Bu zərbə Azərbaycan xalqının son 30 illik tarixinə qızıl hərflərlə yazılmış dastan oldu. Bu Zəfər dastanı Prezidentin, Ali Baş Komandanın qətiyyəti, dəyanəti, cəsarəti və doğru siyasətinin təcəssümüdür.

Böyük Zəfərdən əvvəl hər il doğum gününü yurd-yuvasından köçkün düşmüş qəlbisınıq, gözləri nəmli və qəmli insanların yanında qeyd edən dövlət başçısı sinəsində çox böyük ürək daşıyan azərbaycanlıdır. Bu cür geniş ürək hər ölkə rəhbərində olmur. Sadə, səmimi, təvazökar, millətini sevən, xalqına güvənən və bütün bunların qarşılığını artıqlaması ilə hər azərbaycanlıda görən dövlət başçısıdır Ali Baş Komandan İlham Əliyev. Bu dünyada 60 illik yubileyini isti ocağında, rahat evində deyil, işğaldan yenicə azad edilmiş doğma torpağında qeyd edən neçə ölkə rəhbəri var? Bir nəfər! Bu, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevdir.

20 ildə Ali Baş Komandanın Vətən sevgisi ali duyğularla yükləndi. Prezident kimi şərəfli bir vəzifənin məsuliyyətindən doğan və həmin sevgidən yoğrulmuş hisslə 44 günlük bir dönəmdə dünyaya hayqırdı: Qarabağ Azərbaycandır! Böyük sərkərdə təkcə düşmənə deyil, onun havadarlarına da sübut etdi ki, bu millət alnına vurulan ləkə ilə yaşaya bilməz. 44 günlük Xalq-Dövlət-Ordu birliyi Ali Baş Komandanın dəmir yumruğuna dönüb düşmənin başını əzdi. Belə sarsılmaz birlik indiyə kimi nə Azərbaycan tarixində, nə də dünyanın başqa ölkələrində olub.

20 illik zaman kəsiyinin sonuncu sentyabrı, bəlkə də, İlham Əliyevin Prezident taleyində builki kimi möhtəşəm və təntənəli olmayıb. Ali Baş Komandanın qətiyyətinin və cəsarətinin nümunəsini əks etdirən 23 saat 43 dəqiqəlik kiçik bir zaman kəsiyi Azərbaycan tarixinin şərəf səhifəsidir. Bu səhifəni Ali Baş Komandan İlham Əliyev yazdı. Bu yazı Azərbaycan xalqının yenidən doğuşudur, Azərbaycan dövlətinin ən yeni tarixidir. Müzəffər Ali Baş Komandan Azərbaycanın son 200 illik tarixinə Zəfər yazan tək sərkərdədir.

Böyük Zəfərin baş memarı, qələbə dastanının müəllifi İlham Əliyevin həyatının 20 illik Prezidentlik dövrü Azərbaycan xalqının şansı, Azərbaycan dövlətinin şərəfi və ləyaqətidir. Susuzluqdan çatlamış dodaqlar bir damcı suya təşnə olduğu kimi, torpaq həsrətindən qəlbləri paramparça olmuş köçkünlər də yurd-yuvalarına dönməyə təşnə idilər. Üç il əvvvəlki Zəfərin, bir ay əvvəlki tam və qəti Qələbənin memarı oldu İlham Əliyev!

Möhtərəm İlham Əliyev dövlət quruculuğunda və iqtisadi dirçəlişdə, ictimai-siyasi və sosial həyatda tərəqqiyə nail olunan, işğaldan azad olunmuş torpaqlara Böyük qayıdışın uğurla həyata keçirildiyi 20 illik bir epoxanın müəllifidir.

Prezident İlham Əliyev 44 günlük müharibə günlərində dünyaya sübut etdi ki, Azərbaycan xalqı məğrur və yenilməzdir. Və həmin məğrur xalqın başçısı da qürurlu, qətiyyətli, cəsarətli, ləyaqətli, özünə güvənən, xalqına etibar edən, islahatçı, praqmatik, Vətən müharibəsinin "dəmir yumruq"lu qəhrəmanı, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən, adını əbədi olaraq tarixə yazan lider İlham Əliyevdir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***



# Üzündən nur yağan şəhər

## Mingəçevir son 20 ildə daha abad və yaraşıqlı olub

**Dövlətçilik tariximizin son 200 ilində nələr qazanmışıq, nələr itirmişik?! Parçalanmışıq, bölünmüşük. Dövlətimizə, ərazilərimizə, dilimizə dəfələrlə qəsdlər olub. Haqqımız tapdalanıb, sərvətlərimiz talan edilib. Tarixin sınaqlarına sinə gərib, yıxılıb-durmuşuq.**

Tarixin səhifələrindən baxanda 20 il elə də böyük zaman deyil. 20 ilin yolçuluğunda haradan başladıq, haralara gəlib çıxdıq?! Ərazilərimizin 20 faizi 30 il Ermənistan silahlı qüvvələrinin işğalı altında qaldı. Bir milyon soydaşımız Qarabağdan, Şərqi Zəngəzurdan, Göyçə mahalından qovulub qaçqına, məcburi köçkünə çevrildi. Ölkənin hər bucağında salınan çadır şəhərciklərinin miskin görkəmi ürək dağladı. Daxili müxalifətin hakimiyyət ehtirasları, dünyanın aparıcı dövlətlərinin ikili standartları məngənəsində sıxılan xalqımız 2003-cü ilin prezident seçkilərində öz taleyini Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqi davamçısı İlham Əliyevə etibar etməyə yekdilliklə qərar verdi. Ən böyük hakim olan zaman sübut etdi ki, xalq yanılmayıb, ən doğru seçimini edib.

Prezident İlham Əliyev qəbul etdiyi qərarlar, atdığı addımlarla məqsədlərini, hədəflərini zaman-zaman aydınlaşdırdı. Qarabağın işğalına son qoymaq, ərazi bütövlüyümüzü bərpa etmək məramı Prezidentin fəaliyyətində prioritet istiqamətə çevrildi. Necə deyərlər, bütün yollar Qarabağ zəfərinə, şanlı qələbəyə aparmağa başladı.

Bu gün Azərbaycan vətəndaşı olaraq çox qürurluyuq. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman oğullarımız üzərlərinə düşən tarixi missiyanı şərəflə yerinə yetirib ərazi bütövlüyümüzü bərpa edərək, "Qarabağ Azərbaycandır" şüarının sonuna böyük bir nida işarəsi qoyublar! Uğurla, qüdrətli, sərkərdə məharəti ilə hesablanan, cəmi 23 saat davam edən lokal xarakterli antiterror tədbirləri ilə Qarabağ tamamilə erməni separatçıları və quldurlarından azad olunub. Artıq Xankəndidə qondarma qurumun bayraq adlandırdıqları əski parçaları yığışdırılıb, qondarma dövlətin qondarma qurumu özünü buraxmaq haqqında qərar qəbul edib. İndi Xankəndidə Azərbaycanın müvafiq dövlət qurumlarının fəaliyyəti bərpa olunur.

Bu möhtəşəm hadisədən sonra Azərbaycanın son 200 illik dövlətçilik tarixində ən böyük uğurun Qarabağ Zəfəri olduğunu qəbul etməyə haqqımız var. Prezident İlham Əliyev Azərbaycanın dövlətçilik tarixinə öz xilaskar adını qızıl hərflərlə yazmağı çox məharətlə bacardı, bütün dünya azərbaycanlılarının ürəyində özünə əzəmətli məhəbbət və ehtiram abidəsi ucaltdı. Ata vəsiyyətini və xalqımızın istəyini böyük məsuliyyət hissi ilə reallaşdıran və bundan sonsuz xoşbəxtlik duyan layiqli dövlət başçısı olduğunu bir daha sübut etdi.

Möhtəşəm 20 ilin hər günü, hər ayı, hər ili yüksəliş, tərəqqi, genişmiqyaslı quruculuq prosesinin uğur dolu mərhələsidir. Bu illər ərzində Azərbaycan, sözün həqiqi mənasında, dünyaya günəş kimi doğdu. Beynəlxalq tədbirlərin yüksək tribunalarında Prezident İlham Əliyev təmsil etdiyi xalqın və dövlətin mövqeyini cəsarətlə dilə gətirdi, Azərbaycanın regionda güc mərkəzinə, söz sahibinə çevrildiyini konkret faktlarla, günün reallıqları ilə dünya liderlərinin şüuruna yeritdi.

Son 20 il Azərbaycan büsbütün dəyişib. Prezident İlham Əliyevin təşəbbüsü və tövsiyələri ilə hazırlanıb uğurla həyata keçirilən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları şəhər və kəndlərimizin simasını tanınmaz edib, əhalinin həyat səviyyəsini, güzəranını əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Ölkənin böyük potensiala malik sənaye mərkəzlərindən olan Mingəçevirin bu illər ərzindəki inkişafı ölçüyəgəlməzdir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev energetika şəhərinin tikilib-qurulmasına, burada fabrik və zavodların işə salınmasına vaxtilə böyük əmək sərf etmişdir. Qədirbilən mingəçevirlilər Ulu Öndərin bu bölgəyə xüsusi diqqət göstərdiyini hər zaman minnətdarlıqla xatırlayırlar. Çoxşaxəli fəaliyyətinin bütün isqtiqamətlərində öz varislik missiyasını şərəflə yerinə yetirən Prezident İlham Əliyev də nur şəhərinə münasibətdə bu ənənəni davam etdirir. Son illər Mingəçevirə 8 dəfə səfər edən Prezident İlham Əliyev şəhərin sosial-iqtisadi inkişafına yönəlik 15 sərəncam imzalamış, böyük məbləğdə vəsait ayırmışdır.











Bu diqqətin nəticələri isə yetərincə çoxdur. Şəhər üzrə ümumdaxili məhsul buraxılışının həcmi 2003-cü illə müqayisədə 2022-ci ildə 89.4 faiz, əsas kapitala yönəldilmiş vəsait 52,6, tikinti-quraşdırma işlərinin həcmi 43,7 dəfə artmışdır. 2003-2022-ci illərdə 20,4 min yeni iş yeri açılmış, 196 sahibkara 19 milyon manata yaxın güzəştli şərtlərlə kredit verilmişdir. 293 kilometr şəhərdaxili və məhəllədaxili yollara asfalt çəkilmişdir.

Tikinti-quruculuq və abadlıq işləri bu illər ərzində böyük vüsət almışdır. Dövlətin dəstəyindən yararlanan energetiklər şəhərinin sakinləri doğma yurdun hər qarışını cənnətə döndərmək üçün ürəklərinin hərarətini, əllərinin gücünü əsirgəmirlər. Şəhərdə Ulu Öndərə sonsuz məhəbbət və ehtiramdan doğan möhtəşəm Heydər Əliyev Mərkəzi yaradılmış, Ümummilli Liderin adını daşıyan meydanda əzəmətli abidəsi ucaldılmışdır. Mingəçevirlilər sözün həqiqi mənasında tikib-qurmaqdan, gözəllik yaratmaqdan zövq alırlar. Son 20 ildə görülmüş işləri sadalasaq, böyük bir siyahı alınar. Sadəcə, bəzilərini yada salaq: Bayraq meydanı, "Ağsaray" və "River side" mehmanxanaları, Uşaq-gənclər şahmat-idman məktəbi, "Gənclər evi", şəhid və əlil ailələri üçün 140 mənzilli 4 yaşayış binası, 1098 məcburi köçkün ailəsi üçün 2 yaşayış kompleksi, "Kür" Olimpiya Tədris İdman Mərkəzi, Dostluq, Sahil, "Nəsimi" parkları, Dövlət Rəmzləri muzeyi, "ASAN" Xidmət Mərkəzi, Sənaye Parkında 2 müəssisə, İstilik və Su Elektrik stansiyalarının əsaslı şəkildə yenidən qurularaq istehsal gücününü artırılması və s. Bunlar məhz son illərin ünvanlarıdır. Hazırda şəhərin sənaye müəssisələrində ahəngdar ritm davam edir. "Az.İES" MMC, "Mingəçevir SES silsiləsi" MMC, "Azyolneftmaş" ASC, "Azərkabel" ASC, "Akkord Mingəçevir" maşınqayırma zavodu ASC, "Mingəçevir-Tekstil" MMC və "Htech İnvest" MMC-lər şəhərin iqtisadi gücünə əlavə güc qatırlar.

Bu gün Mingəçevirdə bayram ovqatı yaşanır. Qarabağ Zəfəri, bir günlük lokal xarakterli antiterror tədbirlərinin qürurverici nəticələri şəhərdə hər evi, hər ailəni xoş əhvali-ruhiyyəyə kökləyib. Aşıb-daşan sevincin başqa bir səbəbi də qarşıdan əlamətdar yubileyin gəlməsidir. Noyabrın 11-də Mingəçevirin şəhər statusu almasının 75 ili tamam olur.

Bayramın bayrama qarışdığı bu günlər nur şəhərinin qonağı olduq. Ana Kürün ikiyə böldüyü Mingəçevirin payızı da baharı xatırladırdı. Parklar, meydanlar, xiyabanlar, küçələr, prospektlər səliqə-sahmanı, sarı libası, al-əlvan gül-çiçəyi ilə üzə gülürdü. Bu gün Mingəçevirin Azərbaycanın sənaye, elmi, mədəni, turizm mərkəzləri sırasında özünəməxsus yeri vardır. Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov nur şəhərinin bu günü və sabahı haqqında düşüncələrini bizimlə bölüşdü, Prezident İlham Əliyevin hər zaman Mingəçevirə xüsusi diqqət göstərdiyini minnətdarlıqla vurğuladı:

- Ölkənin ən böyük elektrik enerjisi istehsalçısı olan Mingəçevirin sosial-iqtisadi inkişafına dövlət dəstəyinin, xüsusi diqqətin davamlı xarakter almasını hər bir şəhər sakini hədsiz minnətdarlıq və razılıq hissi ilə qarşılayır. Tamamilə səmimi deyirəm: bu gün hər bir mingəçevirli qalib dövlətin məğrur vətəndaşı olmaqdan qürur duyur. Bu sevinci, bu xoş novrağı bizə yaşadan Prezident İlham Əliyev və ordumuzdur. Müqəddəs Qarabağ savaşında, ərazi bütövlüyümüzün bərpası uğrunda döyüşlərdə mingəçevirli oğullar da sinələrini düşmən gülləsinə sipər edib şəhid olublar. Şəhid valideynləri ilə görüşəndə onlar övlad itkisini bir anlığa unudub "təki Vətən yaşasın" deyirlər. Belə bir millətin övladı olduğumuz üçün biz çox xoşbəxtik. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələri fəaliyyətimizin əsas istiqamətini müəyyən edir. Biz davamlı olaraq şəhid ailələrinə baş çəkir, qazilərlə görüşürük. Onların üzləşdikləri çətinlik və problemləri öyrənib aradan qaldırmağa çalışır, qayğıkeşlik və köməyimizi əsirgəmirik.

İlham müəllim söhbətinə davam edib deyir ki, 75 yaşı tamam olan Mingəçevirin son 20 ili Prezident İlham Əliyevin rəhbərliyi dövrünə təsadüf edir. "Bu dövrü nur şəhəri üçün qızıl dövr də adlandırmaq olar. Otuz il ərzində şəhərimizin sənaye gücü müqayisə edilməz dərəcədə artıb. Şəhər sakinlərinin məşğulluq səviyyəsi yeni yaradılan istehsal müəssisələri hesabına xeyli yüksəlib. Kommunal xidmətlər yaxşılaşıb. Əhalinin qaz, su, elektirik enerjisi ilə təminatında heç bir problem yoxdur. Mingəçevirlilər inanırlar ki, onların sabahkı həyatları daha firavan olacaq, yeni sosial layihələrdən hər kəsə yetərli pay düşəcək", - deyə həmsöhbətimiz bildirdi.

Ölkəyə nur paylayan bir şəhər üçün 75 yaş nədir ki... Mingəçeviri həmişə gənclik şəhəri adlandırıblar. Burada məntiqin olduğu şübhəsizdir. Geniş və yaraşıqlı küçələri, məğrur görkəmli xan çinarları, ürəyi sevgi dolu sakinləri ilə həmişə cavan qalmağı çox təbii görünür bu nur şəhərinin.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Tovuzun yaşı 100-dən çox olan Bozalqanlı kəndi heç vaxt belə inkişaf etməmişdi

Son 20 ilin göstəriciləri onu deməyə əsas verir ki, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyada nüfuzu durmadan artan Azərbaycan regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilmişdir. Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir.



Regionların sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində dövlət başçısının təşəbbüsü ilə qəbul edilmiş dövlət proqramlarının böyük əhəmiyyəti var. Bu proqramların icrası ilə bağlı imzalanmış sərəncamlar xüsusilə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda sosial infrastrukturun yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir. Nəticədə regionlarımızdakı vəziyyət 20 il əvvəllə müqayisədə tamamilə dəyişmişdir. Söz yox ki, bu inkişaf İlham Əliyevin 2003-cü ildə keçirilən prezident seçkilərindən sonra andiçmə mərasimi zamanı söylədiyi "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" fikrinə sadiqliyini öz əməlləri ilə sübuta yetirməsinin əyani təsdiqidir.

Azərbaycanın bütün bölgələrinin inkişafını strateji məqsəd kimi müəyyənləşdirən Prezident İlham Əliyev bu istiqamətdə çoxsaylı uğurlara nail olunmasını təmin etdi. Regionların sosial-iqtisadi inkişafı ölkəmizdə yeniləşmə, davamlı inkişaf, sosial-iqtisadi tarazlıq, sosial-iqtisadi islahatlar və digər sistemli hədəflərin reallaşmasına şərait yaratdı. Bu islahatların həyata keçirilməsi nəticəsində vətəndaşların rifahı gündən-günə yüksəldi. Bunu respublikamızın Qərb bölgəsində yerləşən Tovuzun timsalında daha aydın görmək mümkündür. İndi rayonda hansı kəndə, hansı qəsəbəyə yolu düşən olsa, böyük inkişafın şahidi olar.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədovla söhbət zamanı məlum oldu ki, son illər dövlət başçısının diqqət və qayğısı sayəsində respublikamızın hər yerində olduğu kimi, bu bölgədə də genişmiqyaslı abadlıq və yenidənqurma işləri aparılıb. İnsanların həyat tərzi yüksəldikcə əvvəllər mövcud olan problemlər demək olar ki, həll edilib. İndi Tovuzun bütün kənd və qəsəbələrində qaz, işıq, su, yol problemi tamamilə aradan qaldırılıb. Əhalinin maddi vəziyyəti yaxşılaşdıqca, mənzil-məişət məsələləri də öz həllini tapıb.

İcra başçısı ilə söhbətdən sonra belə qərara gəldik ki, yaşı 100-dən çox olan Bozalqanlı kəndinə gedək. Kənd rayon mərkəzindən o qədər də uzaqda olmadığından mənzilbaşına tez çatdıq. Bizi kənd icra nümayəndəsi Azər Hacıyev qarşıladı. İcra nümayəndəsi ilə birlikdə kəndi gəzdik, insanlarla söhbət etdik. Kənddaxili yolların demək olar ki, hamısına asfalt salınıb.

Vurğulandı ki, Bozalqanlının tarixi çox qədimdir. Yaşı yüz illərlə ölçülən kənd keçən əsrin əvvəllərində Kür çayının sahilindən buraya köçürülüb. İnsanlar sovetlər birliyi dövründə yoxsulluq içərisində yaşayıblar. Lakin buna baxmayaraq, kənddən görkəmli şəxsiyyətlər çıxıb. Aşıq Hüseyn Bozalqanlı, aşıq Əkbər Cəfərov, aşıq Ələsgər Tağıyev, həmin illər görkəmli kimya müəllimi olmuş, Sosialist Əməyi Qəhrəmanı Məhər Quliyev də əslən bu kənddəndirlər.

Kənd sakinlərinin xoşbəxt günləri əsasən ölkəmiz müstəqillik qazandıqdan sonra başlayıb. Ulu Öndər Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra sakinlər xoş gün-güzəran görüblər. 2003-cü ildən - İlham Əliyev Prezdent seçildikdən sonra isə kəndin sürətli inkişafı başlayıb. Əhalinin maddi vəziyyəti yaxşılaşdıqca, yeni evlər tikilməklə kənd daha da böyüyüb. Hazırda kəndin 4 min 510 nəfər sakini, 981 təsərrüfatı var. Demək olar ki, burada bir dənə də olsun köhnə ev görmədik. Dövlət başçısının diqqət və qayğısı ilə kənddə 1200 şagird yerlik yeni məktəb binası inşa edilib. Keçən il məktəbin 103 illiyi təntənə ilə qeyd edilib. Gözəl və yaraşıqlı uşaq bağçası istifadəyə verilib. 2019-cu ildə istifadəyə verilən 3 mərtəbəli Aşıq Sənəti Dövlət Muzeyi isə kəndin görkəminə bir yaraşıq verir.

Kənd əhalisinin məşğulluğu da uğurla təmin edilir. Burada 50 nəfərin işlə təmin olunduğu süd və asfalt zavodları, "Turan" MMC kiçik müəssisəsi istifadəyə verilib. Son bir neçə ildə kənddaxili yollara 2,7 kilometr uzunluğunda asfalt salınıb. Bu yaxınlarda kəndin Şəhidlər xiyabanına daha 300 metr uzunluğunda yeni yol çəkilib.

Öyrəndik ki, kənd sakinlərinin əsas gəlir yeri kənd təsərrüfatındandır. Özəlləşdirmə aparılarkən kənd sakinlərinə 820 hektar pay torpağı verilib. Hər il sakinlər 400 hektarda taxıl, 200 hektarda kartof, 30 hektarda qarğıdalı, 50 hektarda soğan, 10 hektarda üzüm, 100 hektarda yonca və xeyli sahədə bostan bitkiləri yetişdirirlər. Bundan başqa, kənddə heyvandarlıq da sürətlə inkişaf edir. Hazırda burada 2500 baş iribuynuzlu, 9 min 450 baş xırdabuynuzlu davar saxlanılır.

Bozalqanlının sakinləri olduqca işgüzardırlar. Hər il yetişdirdikləri bol kənd təsərrüfatı məhsullarından xeyli gəlir əldə edirlər. Onlar bu qazancla dolanışıqlarını təmin etməklə yanaşı, mənzil-məişət şəraitlərini də yaxşılaşdırırlar. Məsələn, kənd sakini Elşən Hüseynov ailəsi üçün tikdirdiyi 3 mərtəbəli evdə son tamamlama işləri görür. Söhbət zamanı Elşən dedi ki, 52 hektar pay torpağı var. Böyük meyvə bağı salıb. Hər il bu bağdan xeyli gəlir götürür. Bundan başqa, taxıl, kartof, noxud və sair kənd təsərrüfatı məhsullarından da qazanc əldə edir. Kənd sakini Vidadi Rzayev də öhdəsində olan torpaqlarda hər il bol məhsul yetişdirir. Əldə etdiyi gəlirdən ailəsi üçün gözəl və yaraşıqlı ikimərtəbəli ev tikdirib.

Onu da qeyd edək ki, kənddə istər içməli, istərsə də suvarma suyu sarıdan heç bir problem yoxdur. Burada 15 artezian quyusu istifadəyə verilib.

Kənddə əhalinin sayı artdıqca əraziləri də genişlənir. Bu məqsədlə kəndin yaxınlığında yeni yaşayış massivi salınıb. Burada 140-dan artıq yeni ev tikilib. Əraziyə yeni qaz, elektrik, su xətləri çəkilib. Hazırda burada uşaq bağçasının tikintisinə hazırlıq işləri görülür.

Deyilənlərə əlavə edək ki, kəndlə rayon mərkəzini birləşdirən avtobus marşrutu da açılıb. Əhali heç bir əziyyət çəkmədən həmin marşrut üzrə işləyən avtobuslarla Tovuzun mərkəzinə gedib-gəlmək imkanı əldə ediblər. Kənd əhalisinin internetdən istifadə etməsi üçün iki provayder fəaliyyət göstərir.

Öyrəndik ki, kənd sakinləri torpaqlarımız uğrunda döyüşlərdə əsl vətənpərvərlik nümayış etdiriblər. Birinci Qarabağ müharibəsində iştirak edən 60 nəfərdən 7-si, 44 günlük Vətən müharibəsində isə bir nəfər şəhidlik zirvəsinə yüksəlmişdir. Ölkəmizin hər yerində olduğu kimi, Tovuzda, o cümlədən Bozalqanlıda da şəhid ailələrinə və qazilərə böyük diqqət və qayğı göstərilir. Kənddə bütün şəhid ailələri və qazilər həyətyanı torpaq sahəsi ilə, eləcə də avtomaşınla təmin olunmuşdur.

Kənddə kiminlə görüşüb, söhbət etdiksə, bir fikir səsləndirdi. Bütün bu inkişafı Prezident İlham Əliyevin uzaqgörən siyasəti ilə əlaqələndirən kənd sakinləri görülən işlərə görə minnətdarlıq edib, ona bundan sonrakı fəaliyyətində də uğurlar arzuladılar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*



# 20 ilin "Cənub mirvarisi"

## Son iki onillikdə Lənkəran sürətli inkişaf yolu keçmişdir

**Yaxşı yadımdadır: 2002-ci ilin dekabr ayı idi. O zaman Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Yaşar Əliyev idi. Günün ikinci yarısında görüşmək üçün ŞİH-ə getdim. O qədər də böyük olmayan yarıqaranlıq otağa daxil olanda iş masasının arxasında oturan Y.Əliyevi güclə seçdim.**

Bunu ona görə misal gətiririk ki, o vaxt nəinki Lənkəran şəhərində, onun qəsəbə və kəndlərində, ölkənin bütün bölgələrində elektrik enerjisi böhranı yaşanırdı. Gün ərzində bir neçə saat aşağı gərginlikli işıq verilirdi. Yollar, küçələr bərbad halda idi. Bu, hələ yaxşı zaman idi. Ölkədə həyat canlanmış, islahatlar başlanmışdı. 90-cı illərin əvvəllərində isə vəziyyət daha acınacaqlı idi. Zavod və fabriklər işini dayandırmış, çay plantasiyaları, sitrus meyvə bağları mal-qaranın otlaq sahəsinə çevrilmişdi. İş yerlərini itirmiş adamlar nə edəcəklərini bilmirdilər.

"Yaman günün ömrü az olar" deyiblər. 1993-cü il iyun ayının 15-də xalqımızın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra ölkədə sabitlik yarandı, daxili və xarici siyasət yeni istiqamətə yönəldi. Mövcud çətinliklər tədricən aradan qaldırıldı.

Heydər Əliyev siyasi kursunun 2003-cü ilin oktyabr ayından Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Lənkəranın da inkişafında başlıca rol oynamışdır. Son 20 il ərzində rayonda yeni zavod və fabriklər yaradılmış, uzun illər fəaliyyətini dayandırmış müəssisələr müasir tələblərə cavab verən avadanlıqlarla yeniləşdirilərək istifadəyə verilmişdir. Bu dövr ərzində meyvə-tərəvəz emalı ilə məşğul olan "Lənkəran Konserv" MMC, "Lənkəran Konserv" ASC, süd və dondurma emalı ilə məşğul olan "Pal Food" MMC, şirniyyat məhsulları istehsal edən Qənnadı məhsulları fabriki, "Azərxalça" ASC-nin Lənkəran filialı, çay emal edən "Beta" MMC, "Yaşıl Çay" FT, "Gilan Tea" MMC, "Sun Tea" MMC, çəltik emal edən "Green East" MMC, "Cənub Aqro" MMC, "Faran" MMC, yetişdirilmiş kənd təsərrüfatı məhsullarının saxlanılması üçün müasir soyuducu anbarlar və digər onlarca irili-xırdalı müəssisələr fəaliyyətə başlamışdır. Həyata keçirilən tədbirlər nəticəsində keçən il rayon üzrə istehsal olunan sənaye məhsullarının dəyəri 135,8 milyon manat təşkil etmişdir ki, bu da 2003-cü ildəkindən 12,7 dəfə çoxdur.

Birinci regional inkişaf dövlət proqramı ilə başlayan bölgələrin sosial-iqtisadi sahələrdə dirçəlişi sonradan qəbul edilmiş analoji sənədlər əsasında ardıcıllıqla davam etdirilmişdir. Bunu Lənkəran rayonunun kənd təsərrüfatında baş verən dinamika da özündə əks etdirir. Prezident İlham Əliyevin 2018-2025-ci illər üçün respublikada çəltikçiliyin və sitrus meyvəçiliyinin, 2018-2027-ci illər üçün çayçılığın inkişaf etdirilməsinə dair dövlət proqramlarının imzalanması həmin sahələrdə əsaslı dönüş yaratmış, kənd təsərrüfatı məhsulları istehsalçılarında torpağa yeni münasibət formalaşdırmışdır. Rəqəmlərin dili ilə bu münasibət özünü daha qabarıq göstərir: Lənkəranda keçən il kənd təsərrüfatı üzrə istehsal edilən ümumi məhsulun dəyəri 162,6 milyon manat olmuşdur və bu, 2003-cü illə müqayisədə 1,4 dəfə çoxdur. Ötən il çay plantasiyalarının ümumi sahəsi 552,8 hektara çatdırılmış və 268,5 ton yaşıl çay yarpağı tədarük edilmişdir. 933,5 hektar sitrus meyvə bağlarından 9 min 684,7 ton məhsul toplanmışdır. Artırılaraq 802,3 hektara çatdırılan çəltik sahəsindən isə 2 min 828 tondan çox məhsul əldə edilmişdir. Ümumiyyətlə, rayonda son illər çəltik istehsalına maraq artmışdır. Bu gün Lənkəranda çəltik emalı ilə məşğul olan "Green East" MMC, "Cənub Aqro" MMC və "Faran" MMC fəaliyyət göstərir. Osaküçə kəndində "Beta" şirkəti, İstisu qəsəbəsində "Yaşıl Çay" fermer təsərrüfatı, Haftoni qəsəbəsində, Vilvan və Xanbulan kəndlərində fermer və ailə təsərrüfatları tərəfindən yeni çay plantasiyaları salınmışdır. "Beta" şirkəti isə tinglik təsərrüfatı yaratmışdır. Onu da qeyd edək ki, kənd təsərrüfatı sahəsində əldə olunmuş uğurları təşviq, fermerlər tərəfindən istehsal olunan məhsulları nümayiş etdirmək üçün Lənkəranda 2017-ci, 2018-ci və 2019-cu illərdə "Çay, çəltik və sitrus meyvələri festivalı" keçirilmişdir.





Yollara iqtisadiyyatın qan damarları deyirlər. Son 20 ildə bütün ölkədə olduğu kimi, Lənkəranda da yerli əhəmiyyətli, habelə kəndarası avtomobil yollarının tikintisi, yenidən qurulması, əsaslı təmiri istiqamətində çox işlər görülmüşdür. 40 min əhalinin yaşadığı Lənkəran-Vilvan-Osakücə-Türkəncil, 28 min əhalinin yaşadığı Şürük-Vel-Qamışovka, 47 min əhalinin yaşadığı Vilvan-Zövlə-Liman, 10 min əhalinin yaşadığı Liman-Nərimanabad-Balıqçılar, 13 min əhalinin yaşadığı Aşağı Nüvədi-Kənarmeşə-Şürük, 7 min əhalinin yaşadığı Hirkan-Daştatük-Biləsər, 11 min əhalinin yaşadığı Hirkan-Mamusta-Siyavar, 33 min nəfər əhalinin yaşadığı Səpnəkəran-Şürük-Sütəmurdov-Vələdi-Gərmətük-Bala Şürük-Kosalar-Kərgəlan-Lüvəsər-Bəllədur-Qurumba avtomobil yolları yenidən qurulmuşdur. Bunlardan başqa, dağ kəndlərinə gedən yollar əsaslı və cari təmir edilmişdir.

Abonentləri davamlı və keyfiyyətli elektrik enerjisi ilə təmin etmək üçün yaşayış məntəqələrinin elektrik təsərrüfatı yenidən qurulmuş, çoxlu sayda elektrik dirəkləri təzələnmiş, xətlər, məftillər SİP kabellə əvəzlənmiş, transformatorlar və digər avadanlıqlar yenilənmişdir. 2018-ci ildə "Azərişıq" ASC tərəfindən Lənkəran-2 yarımstansiyası istifadəyə verilmişdir.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası çərçivəsində rayondakı 93 yaşayış məntəqəsindən 73-ü tam olaraq qazlaşdırılmış, əhali üzrə abunəçilərin sayı 48,4 minə, qeyri-əhali üzrə 582-yə çatdırılmışdır. Bu il həmçinin Daştatük, Moloja, Aşağı Apu kəndlərinə qaz çəkilişi nəzərdə tutulur.

Rayonda içməli su təchizatının və kanalizasiya sisteminin yaxşılaşdırılması ilə əlaqədar həyata keçirilən tədbirlər nəticəsində Lənkəran şəhərinə, Şilavar, Digah, Sütəmurdov, Vələdi kəndlərinə yeni su xətləri çəkilmiş, sakinlərin fasiləsiz və təmiz içməli su təminatı yaxşılaşdırılmışdır. 2013-cü ildə isə Lənkəran Sukanal Sahəsinin Xanbulan sutəmizləyici qurğusu inşa edilmişdir.

Yeni tikilən binalar, obyektlər, salınan park və xiyabanlar bu gün Lənkəran şəhərinə xüsusi yaraşıq verir, onun gözəlliyinə əlavə çalarlar qatır. "Sahil" istirahət parkı, Heydər Əliyev xatirə parkı, Lənkəran Beynəlxalq Hava Limanı, "Cənub" Televiziya Şirkətinin binası, 7 mərtəbəli 14 yaşayış binası, Bayraq meydanı, "Xocalı soyqırımı" abidə kompleksi, Əsgər Əliyev parkı, Gənclər Mərkəzi, habelə şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün tikilən yaşayış evləri, sosial əhəmiyyətli obyektlər, digər binalar son 20 ilin ünvanlarıdır.

"Təhsil millətin gələcəyidir" demişdir Ulu Öndər. Prezident İlham Əliyev Ulu Öndərin bu tövsiyəsini də prioritet götürərək təhsilin inkişafını daim diqqət mərkəzində saxlayır, məktəblərin tikilməsi, köhnələrinin əsaslı təmir edilməsi, onların lazımi avadanlıqlarla təchiz edilməsini ön plana çəkir. Son illər ərzində 1076 şagirdlik Lənkəran şəhər 7 saylı, Gəgiran kəndində 264 şagirdlik, Şıxakəran kəndində 432 şagirdlik tam orta məktəbləri tikilib istifadəyə verilmişdir. Eləcə də Heydər Əliyev Fondu hesabına 632 şagirdlik Haftoni kənd, 420 şagirdlik Nərimanabad qəsəbə və 360 şagirdlik Viravul kənd 2 saylı tam orta məktəbləri üçün yeni binalar inşa olunmuşdur. Bunlarla yanaşı, Əlizərin kəndində 20, Köhnəgəgir kəndində 40, Jidi kəndində 96, Türkəncil kəndində 80 və Kosalar kəndində 96 şagirdlik modul tipli binalar quraşdırılmışdır. Heydər Əliyev Fondunun vəsaiti ilə inteqrasiya təlimli internat tipli gimnaziya əsaslı şəkildə yenidən qurulmuşdur. Ümumilikdə rayon üzrə 53 məktəb tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Lənkəran gənclərin ali və orta, habelə peşə təhsili üzrə müxtəlif sənətlərə yiyələndikləri bir şəhərdir. Təlim və tərbiyənin yüksək səviyyədə qurulması məqsədi ilə Lənkəran Dövlət Universitetinin yeni korpusu, yataqxanası və 1-ci tədris korpusu üçün əlavə dördmərtəbəli bina inşa olunmuş, habelə ali məktəbin 2-ci korpusunda inşaat işləri başa çatdırılmışdır. Universitetin Elmi Kitabxanası üçün də bina tikilmişdir.

Vətəndaşlarımızın sağlamlığı həmişə dövlətin diqqət mərkəzindədir. Bu istiqamətdə Lənkəranda da çoxsaylı işlər görülmüşdür. 2003-2023-cü illər ərzində Lənkəran Mərkəzi Xəstəxanası əsaslı təmir edilmiş, Lənkəran Rayonlararası Psixiatriya Xəstəxanası, 8 həkim ambulatoriyası, 7 feldşer-mama məntəqəsi tikilib istifadəyə verilmişdir. Lənkəran Regional Diaqnostika Mərkəzinin təyinatı dəyişdirilərək 70 çarpayılıq Regional Mərkəzə çevrilmişdir. Rayonlararası Onkoloji Xəstəxanada, Ağciyər Xəstəlikləri Dispanserində və uşaq poliklinikasında təmir işləri aparılmışdır. Səhiyyədən söz düşmüşkən, onu da qeyd edək ki, cari il İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin dəstəyi ilə TƏBİB-in tabeliyindəki Lənkəran Rayon Mərkəzi Xəstəxanasında tibbin müasir tələblərinə cavab verən Kardiologiya üzrə ürək-damar cərrahiyyə şöbəsi açılmışdır. Liman Şəhər Ailə və Sağlamlıq Mərkəzində təcili və təxirəsalınmaz tibbi yardım stansiyası, həmçinin Lənkəran şəhərində Süd Vəzi Diaqnostika Mərkəzi və Çin Təbabət Klinikası da istifadəyə verilmişdir.

Son 20 ildə Lənkəran rayonunda mədəniyyət ocaqlarının əsaslı təmiri və tikintisi, tarixi mədəniyyət abidələrinin bərpası istiqamətində uğurlu tədbirlər həyata keçirilmişdir. 2004-cü ildə N.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı əsaslı şəkildə yenidən qurulmuş, 2006-cı ildə Xalq sənətkarlığı şəhərciyi, 2008-ci ildə Heydər Əliyev Muzeyi, 2015-ci ildə Lənkəran Tarix Diyarşünaslıq Muzeyi (Xan evi), yenə 2015-ci ildə Lənkəran Şəhər Mədəniyyət Mərkəzi əsaslı təmirdən sonra istifadəyə verilmişdir. Hazırda dövlət büdcəsi hesabına Dairəvi qalada əsaslı təmir işləri aparılır.

Prezident İlham Əliyevin idmanın inkişafına göstərdiyi diqqət Lənkəranda da özünü göstərir. Burada 2006-cı ildə "Zirvə" İdman Sağlamlıq Mərkəzi, yenə həmin ildə "Xəzər-Lənkəran" Futbol Stadionu, 2010-cu ildə Regional Boks Təlim Mərkəzi, 2018-ci ildə Olimpiya İdman Kompleksi gənclərin istifadəsinə verilmişdir.

Böyük yaradan Lənkəran torpağından heç nəyi əsirgəməyib. Təbiət burada sanki hər yerə çığal çəkib. Sıra dağlar, yaşıl ormanlar, çaylar, bulaqlar, şəlalələr, bir də mavi gözlü Xəzər. Elə bunlara görə də Lənkərana "Cənub mirvarisi" də deyirlər. Bu gözəlliklər Lənkəranın turizm mərkəzinə çevrilməsi üçün başlıca şərtlər olduğundan 2006-cı ildə rayonda "Palıdlı sahil", "Başəru" istirahət mərkəzləri, 2008-ci ildə "Qafqaz" Turizm İstirahət Mərkəzi, 2017-ci ildə "Xəzər Palace" istirahət kompleksi, 2018-ci ildə "İstisu" Sağlamlıq Mərkəzi istifadəyə verilmişdir. Lənkəranın bir neçə kəndinə, eyni zamanda çay plantasiyalarına, sitrus meyvə bağlarına ekoturizm çərçivəsində səyahətlər təşkil olunur. Bunun üçün İstisu qəsəbəsində "Yaşıl Çay" fermer təsərrüfatında 22 nəfərlik "Nilado" hoteli, hotel tipli kənd evləri tikilib istifadəyə verilmişdir. Eyni zamanda Lənkəran şəhərinin Qala xiyabanı küçəsində "Salyut" hoteli, Rvo kəndində "Riva Hill Resort Lankaran", Lənkəranın özündə "Dəniz Hotel", "Restaurant" və "Hirkan Park Hotel" hotel-restoran kompleksləri fəaliyyət göstərir. Turizm sahəsində görülən işlərin siyahısını daha da artırmaq olar. Həyata keçirilən layihələr öz növbəsində yeni iş yerlərinin açılmasına, işsizlik probleminin həllinə vəsilə olmuşdur. 2003-2023-cü illər ərzində rayonda 53 min 500-dən çox yeni iş yeri açılmışdır. Cari ilin ötən ayları ərzində isə qeyri-məşğul əhali üçün ödənişli əsaslarla 1260 ictimai iş yeri yaradılmışdır.

Qeyd etdiklərimiz son 20 ildə Lənkəranda görülən tikinti-quruculuq, abadlıq və digər sahələrdəki işlərin yalnız kiçik bir hissəsidir. Prezident İlham Əliyev 20 ildə Lənkərana 12 səfər etmişdir. Həmin səfərlər çərçivəsində rayon əhalisi ilə görüşlər keçirmiş, bir çox obyektin təməlqoyma və açılış mərasimlərində iştirak etmişdir.

Bax beləcə, bu əhvali-ruhiyyədə yaşayır, qurub-yaradır Lənkəranın zəhmətkeş, yurdsevər insanları.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***



# Aqrar və sənaye sektorları arasındakı fərqlər tədricən aradan qalxır

**Azərbaycanda qeyri-neft sənayesinin inkişafında sənaye parkları və sənaye məhəllələri mühüm rol oynayır. Bu sahədə aparılan islahatlarla inkişafımız üçün önəmli olan bir çox hədəfə köklənmişik.**

Həmin hədəflər çərçivəsində ölkəyə investisiya cəlb olunur, sahibkarlıq inkişaf edir, məhsul istehsalı artır, ixracın coğrafiyası yenilənir. Yeri gəlmişkən, qeyd edək ki, sənaye zonalarında bu günədək ümumilikdə 10,23 milyard manatlıq məhsul istehsal edilib ki, onun 3,35 milyard manatlığı ixrac olunub. Bu, əsasən ona görə mümkün olur ki, rəqabətqabiliyyətli sənayenin inkişafına təkan vermək üçün innovativ və yüksək texnologiyalar əsasında yaradılan sənaye zonalarına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Təkcə cari ilin 7 ayında İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan sənaye zonalarında 19 sahibkarlıq subyektinə rezident statusu verilib. Qeydiyyata alınmış rezidentlər tərəfindən ümumilikdə 244 milyon manatdan artıq investisiyanın yatırılması, 1500-dən çox iş yerinin yaradılması planlaşdırılır.

Ümumiyyətlə, indiyədək sənaye zonalarında 134 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və onlardan 68-i artıq fəaliyyətə başlayıb. Sənaye zonaları üzrə investisiyanın ümumi həcmi 7,18 milyard manata çatıb, sahibkarlar tərəfindən 6,56 milyard manatdan çox investisiya yatırılıb və 10600-dən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə mövcud layihələr üzrə sənaye zonalarına əlavə olaraq 690 milyon manata yaxın investisiyanın yatırılması, 5200-dən artıq daimi iş yerinin yaradılması gözlənilir.

Sənaye zonalarının müəssisələri "Made in Azerbaijan" brendi adı ilə dünyanın 60-a yaxın ölkəsinə məhsul ixrac edir. Yalnız cari ilin birinci yarısında sənaye zonalarında fəaliyyət göstərən müəssisələr tərəfindən 1,4 milyard manatlıq məhsul satılıb ki, onun 33,6 faizi ixracın payına düşür.

İşğaldan azad edilmiş ərazilərin bərpası, dirçəldilməsi və sənaye potensialının inkişafı məqsədi ilə yaradılan Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında investisiya kapitalı 200 milyon manatdan çox olan 31 sahibkarlıq subyektinə rezidentlik və qeyri-rezidentlik statusu verilib. Bu sahibkarlıq subyektləri tərəfindən 2000-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Onu da qeyd edək ki, sənaye zonalarında sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti yaradılıb. İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye parklarında tətbiq edilmiş idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində rezidentlər son məlumata görə, 455 milyon manata yaxın vəsaitə qənaət ediblər. Bundan əlavə, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, eləcə də onların istehsal vasitələri kimi idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

Məlum olduğu kimi, yüksək texnologiyalardan geniş istifadə sayəsində aqrar və sənaye sektorları arasında olan fərqlər tədricən aradan qalxır. Aqrar sektorda əl əməyi və insan faktoruna ehtiyac ildən-ilə azalır, kənd təsərrüfatının texnologiya təminatı artdıqca onun sənayeləşmə prosesi sürətlənir. Məsələn, İqtisadi Zonaların İnkişaf Agentliyinin verdiyi məlumata görə, "Azərşəkər" MMC-nin Ceyrançöl ərazisində yerləşən aqroparkında Cənubi Qafqazda ilk dəfə olaraq müasir suvarma texnologiyası olan mobil və ya hibrid suvarma sistemlərindən istifadəyə başlanıb. Yeni texnologiyanın tətbiqi su itkisinin qarşısının alınmasında və suya qənaət edilməsində mühüm rol oynayacaq. Bununla bağlı keçirilən tədbirdə "Strip till" texnologiyasının tətbiqinin, həmçinin ən son suvarma texnologiyası olan mobil və ya hibrid suvarma sistemlərinin üstünlükləri barədə məlumat verilib, həmin texnologiya ilə əkilən və müasir suvarma texnologiyaları ilə becərilən qarğıdalı sahəsinə və "Mzuri" əkin texnikası ilə aparılan arpa səpini işlərinə baxış keçirilib. Diqqətə çatdırılıb ki, "Mzuri"nin üstün cəhəti 4 prosesi (dərin yumşaltma, dərinlik boyu gübrə emalı, müxtəlif çeşidli toxumların dəqiq səpini və bərkidici çarxlarla toxumların basdırılması) eyni vaxtda yerinə yetirməsidir. Bu texnikadan istifadənin əsas məqsədi suya və yanacağa qənaət, torpağın münbit qatının qorunub saxlanılması və havaya buraxılan zəhərli qazların təsirinin aradan qaldırılmasıdır.

Yeniliyi tətbiq edən aqropark üzrə ümumi əkinə yararlı 4000 hektar sahənin 1428,6 hektarında pivot, 17,2 hektarında sprinklər, 40 hektarda damlama olmaqla cəmi 1485,8 hektar əkin aparılıb. Aqroparkda cari mövsüm 421,6 hektar şəkər çuğunduru, 268 hektar qarğıdalı, 55,7 hektar soya, 341,6 hektar arpa, 24,6 hektar toxumluq xardal və 320 hektar ərzaqlıq buğda əkilmişdi. Buğda üzrə orta məhsuldarlıq 5,4 ton olmaqla ümumilikdə 1732, arpa üzrə orta məhsuldarlıq 5 ton olmaqla ümumilikdə 1692 ton məhsul istehsal edilib. Soya üzrə məhsuldarlıq 2,1 ton olub.

Aqroparkda 71 nəfər daimi işlə təmin edilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 14 yanvar (Çərşənbə axşamı günü) tarixli 87-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Səşənbə, 11 rəbiülaxir sənə 1337.
14 kanuni-sani sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ZAQATAL MƏSƏLƏSİ

Zaqatal okruqu Zaqafqaziyanın xalis müsəlman əhali ilə məskun vilayətlərindən biridir. Buradakı yüz min əhalidən, ən mübaliğəli hesabla, ancaq 5 min miqdarı "inqlo" adı ilə məşhur gürcümanənd [gürcülərə bənzər] bir cinsdən olub, mabaqisi [qalanı] qismən türk, qismən də ləzgi, həp müsəlmandır. Türkcə bütün müsəlmanlar arasında danışılır ümumi bir dildir. Bura əhalisi əskidən İlisu sultanlığı adı ilə muxtar və müstəqil bir həyati-siyasi ilə yaşayaraq, daima müsəlman məmləkəti olmuş, Rusiya tabeiyyətinə [tabeliyinə] keçdikdən sonra dəxi bir idareyi-müstəqilə [müstəqil idarə] halında bulunmuşdur.

Zaqatal okruqu Zaqafqaziyada təşəkkül edən cümhuriyyətlərin hangisi daxilində olmalıdır? Bu məsələ ortaya atılınca, yuxarıda söylənən əlamətlərə bir də bu vilayətin sıldırım Qafqaz silsiləsi ətəyində olduğunu əlavə etməlidir. Vilayətin Şimali Qafqaziya ilə olan rabitəsi aylarla bağlanır. Coğrafiya nöqteyi-nəzərindən Zaqatal, Nuxu qəzasının məbədidir [davamıdır]. Bunlar nəzərə alındığı zaman yuxarıdakı sualın cavabı kəndi-kəndiliyindən verilmiş olur.

Zaqatal əhaliyi-islamiyyəsi bu xüsusda məntiqin, milli, dini, ictimai və coğrafi məntiqin icab etdirdiyi cavabı zatən vermişdir. Daha Cənubi Qafqaz müsəlmanlarının mərkəzi komitəsi təşkil olunduğu zaman zaqatallı qardaşlarımız kəndi nümayəndələrini göndərməklə, bizimlə mərbut [bizə bağlı] olduqlarını göstərmişlərdi. Azərbaycan Hökuməti ilk dəfə olaraq Gəncədə təşəkkül eylədiyi zaman, Zaqatal vilayəti dəxi bu hökuməti tanıdı. Onun göndərmiş olduğu məmurları qəbul eylədi. Zaqatal Milli Komitəsi vilayətin Azərbaycan daxilində olduğunu rəsmən elan eylədi. Şimdiki halda dəxi Zaqatal nümayəndələri Azərbaycan Parlamanında isbati-vücud [iştirak] edirlər.

Meydanda bu qədər bariz sübutlar, cərh edilməz [rəddedilməz] dəlillər, söz götürməz bürhanlar [sübutlar] var ikən, Gürcüstan-Azərbaycan ittihadının daisi olan [birliyini müdafiə edən] "Qruziya" qəzetəsinin Azərbaycanın Zaqatal üzərindəki haqqi-hakimiyyətini [hakimiyyət haqqını] inkar edəcək bir tərzdə nəşriyyatda bulunması-na təəssüf etməmək qabil deyildir.

Azərbaycan Hökuməti hər bir nöqteyi-nəzərdən ixtilaf götürməz bir qitəsi [hissəsi] olan Zaqatala aid olan övraq [sənəd] və vəsiqələrin kəndisinə təslimi üçün Gürcüstan Hökumətinə müraciət eyləmişdi. Gürcüstan Hökuməti isə bu vilayətin kəndisinə aid olduğunu iddia ilə, məsələ həll olunmayana qədər istənilən övraq və vəsiqələrin Azərbaycan Hökumətinə verilməyəcəyini bildirmişdir. Gürcüstan Hökumətinin bu hər növ heyrət və təəccübə şayan [layiq] olan cavabını "Qruziya" qəzetəsi iki əllə imza edir. Həm də Gürcüstanla Azərbaycan münasibatına [münasibətlərinə] sui-təsir hasil edəcək [pis təsir göstərəcək] bu məsələdə Azərbaycan Hökumətinin bu kimi bir təkliflə Gürcüstana müraciət eyləməsini səlah [doğru] görməyir.

"Qruziya" qəzetəsi hüdud [sərhəd] məsələlərinin həllində yalnız "milliyyət" prinsipindən nəşət [çıxış] edib də, məsələni hangi yerdə hangi millət oturur, deyə həll etməyi müvafiq görməyir. Zaqatal okruqu tarixən bir Gürcüstan vilayətidir, deyir.

Biz bu məsələni şu sırada mövzuyi-bəhs etmək istəməzdik. İstəməzdik ki, arada feilən bir məsələ yox ikən, Zaqafqaziya cümhuriyyətləri bədxahlarına artıq söz danışmaq üçün fəzlə [artıq, əlavə] material verək.

"Qruziya" qəzetəsi torpaq üzərində yaşayan xalqın arzuyi-ümumisi, rə'yi-qatesi [qəti qərarı], nüfusun cinsiyyəti, dili, adat [adətləri] və əxlaqı və bütün bunlar üzərinə cəbrən [zorla] deyil, yerli xalqın kəndi teyyibxatiri [könül xoşluğu] ilə vaqe olan olmuş bir işi (əmri-vaqeni) [faktı] deyil, xatiri sayılır əsas olmaq üzərə yalnız "Gürcüstanın hüquqi-tarixiyyəsini" etibara alır və ancaq bu düsturu təqdis edib [müqəddəsləşdirib] də iddialarını yalnız bu nöqtədə iqamə edərsə [meydana qoyarsa], o zaman əmin olsun ki, tək qalar, kəndisinə dost bulammaz. Gürcüstan böylə bir iştəha ilə yaşarsa, o zaman Qazax qəzası ilə Gəncə qəzasının dəxi təhlükəyə məruz gör-mək qorxusunu bəsləməyə haqlı olmazmıyız?

Bu kimi iddialar nəyə yarar əcəba? Demokrat Gürcüstan kəndisinə bir növ isinəmməyən Axısxanı alar, cəbrlə olsa da Borçalını tutar, yerli əhalinin ruhuna, arzusuna, cinsiyyətinə və əzminə rəğmən, fərz edəlim, Zaqatal ilə Qazax və sairəyə malik olarsa, nə qazanar? Kəndisinə müxalif vilayətlər, kəndisinə dargın qonşular.

Biz Gürcüstan Hökumətini etidala [mötədilliyə], dostunu tanımağa dəvət ediriz. Azərbaycanla Gürcüstanın dostluq və anlaşmaqdan hasil edəcəkləri böyük mənfəətlər yanında bu kimi könül bulandırıcı hərəkətlərə məhəl [yer] qalmamalıdır. Təyini-hüdud [sərhədlərin müəyyənləşdirilməsi] kimi məsələlərdəki əsrimizin ruhuna uyan əsasların milliyyət və rə'yi-amm [camaatın rəyi] (referendum) olduğu hər kəsdən ziyadə Gürcüstan Hökuməti başında duran sosialdemokratlara bəlli olsa gərək. Milli tələbləri demokratlıq cildinə geydirmək məharətində Sereteli kimi natiqəpərdazlar [nitq söyləməkdə məharəti olanlar] hər nə qədər mahir olsalar da, təsirləri yalnız Azərbaycan hüdudunu Neftlikdən bir az uzaqlaşdırmaq, Tiflisə nəfəs verdirmək üzərinə aid ola bilər. Yoxsa, qatı imperialist məsləki olan "hüdudi-tarixiyyə" [tarixi sərhədlər] əfsanəsini Sereteli cənabları belə söyləsə, kimsə onu bir həqiqət olaraq qəbul edəmməz.

Zaqatal müsəlmanları isə heç bir vəchlə Gürcü Hökumətini qəbul edəmməzlər, onların böylə bir əzmdə olduqları gürcü məhafilinə [dairələrinə] məlum olsa gərəkdir.

Zaqatal okruqu Azərbaycanın zəngin, hasili-xübz [çörək qazanan; bərəkətli], qəyur [qeyrətli] və həmiyyətmənd [işgüzar] bir qitəsidir. Bu vilayət, Şərqi Qafqaziyanı anarxiya seli silib-süpürməkdə olduğu bir zamanda kəndi arasından kafi miqdarda könüllü çıxarmış, kəndisini müdafiə eyləmişdir. Azərbaycan Hökuməti əxzi-əsgərə [əsgər yığmağa] başladığı zaman, bu vilayət böyük bir sürur [sevinc] və şövqlə əsgərliyi qəbul eyləmiş, bütün gənclərini silah altına almışdır. Nasıl olur da böylə bir vilayətə bu qədər şövq, zövq və hissiyyatla mərbut [bağlı] olduğu məmləkətdən ayrılmaq, istəmədiyi bir məmləkətə qoşulmaq təklif olunar? Bir məmləkətin bir dövlət tabeiyyətində [tabeliyində] bulunması üçün müasirinin [müasirlərimizin, əsrimizin] qanacağına görə, hər şeydən əvvəl, o məmləkət əhalisinin könlü əldə olmalıdır.

Gürcüstan Hökumətinin Zaqatal okruqu üzərinə iddiayi-təməllük etmək [sahiblik iddia etmək] üçün əlində nəyi var? Azərbaycana vermək istəmədiyi övraqmı?

İştə, o qədər.

Varsın, bir tərəfdə əhalinin milliyyəti, dini, meyli, arzusu və güc istemal etmədən [zor işlətmədən] hasil olan bir əmri-vaqe, digər tərəfdən də təsadüfən əldə qalan köhnə idarələrə aid bir taqım övraq və vəsaiq [vəsiqələr] olsun. Bitərəf bir məhkəmə hüzurunda bunlardan hangisinin daha qüvvətli bir höccət [sübut] olduğu bir taqım rəsmi mülahizələr və "hikməti-hökumət" [hökm sürməyin hikməti] kimi "nazik nüktələrlə" [incə mətləblərlə] bağlı olan Gürcüstan hökumətincə "məchul" olsa da, gürcü-türk dostluğunun mürəvvici [carçısı] bulunan "Qruziya" qəzetəsindən ötrü heç olmasa məlum olmalı idi.

Təəssüf olunur ki, gürcü qonşularımız "tarixi hüdud" prinsipini sui-təvilə uğradırlar [səhv yozurlar]; fəqət, ümid edəlim ki, vaxtın əhəmiyyətini dərk eylər də bu təvili fəna bir surətdə istemal etməyə [bu yozumdan arzuedilməz surətdə istifadə etməyə] qədər getməzlər.

*M. Ə. Rəsulzadə*

## ƏSGƏRLİK VƏZİFƏMİZDİR!

Bu vəzifə, bugünkü gündə biz azəri türklərinin ən vacib vəzifələrimizdən birisidir. Bu vaciblik həm o dərəcə mühümdür ki, bunun əhəmiyyətini son sənələrin sədəmatına [zərbələrinə, fəlakətlərinə] düçar olmuş biz azəri türkləri heç bir cəhətlə yüngül ədd [hesab] edəmməyiz. Zira, əsgərsizliyin, əsgər olmamaqlığın acılığını son hadisələr bizə layiqincə daddırdı. Zəhərli acılarını daddığımız bu hadisələrdən əlavə, indiki halda başqa millətlər kimi biz azəri türkləri də müstəqil cümhuriyyət qurmuşuz, müstəqil məmləkət təşkil etmişiz.

Cümhuriyyətimizin mühafizəsini öhdəmizə almazsaq, məmləkətimizin qarovulunu çəkməzsək, bu necə istiqlal olar? Bu nasıl məmləkətdarlıq [ölkə saxlamaq] olar? Əsgər olmadığımız və əsgərsiz olduğumuz üçün idi ki, Tiflisin Seymi tərəfindən hər kəsə silah paylandı da, biz silahsız qaldıq. Bundan dolayı öz qüvvəmizlə silah ələ gətirmək üçün nə qədər fəlakətlərə uğradıq.

Əsgərsiz olduğumuz və əsgər olmadığımız üçün idi ki, Bakıda, Şamaxıda, İrəvanda, Qubada bir taqım nizami, yəni əsgərlik görmüş quldurların saldırışları qabağında dayanammayıb dağlara, səhralara qaçdıq. Hamımızın məlumu olan fəlakətlərə, müsibətlərə düçar olduq. Genə, əsgərsizlik və əsgər olmamaq nəticəsidir ki, qışın indiki soyuq günlərində İrəvan quberniyasının müsəlman camaatı erməni əsgərlərinin hücumuna uğrayıb, isti yataqlarından çıxıb, qucaqlarında uşaqları, yanlarında xanımları açıq səhralara, qarlı dağlara qaçmaqdadırlar. Halbuki, əsgərimiz olsaydı və biz də əsgər təlimi görmüş olsaydıq, başqalarına hücum etmək istəmədiyimiz halda, öz yerlərimizdə əldə silah olaraq sabit dayanıb qalardıq və saymadıqlarımızın qabağından çox rəzil sifətlərlə qaçıb məhv və pərişan olmazdıq.

Özlərimizi Qafqaziyanın ən birinci igidləri sırasında və tərəfimüqabilimizi [qarşımızdakı tərəfi] də heçə saydığımız halda, əsgəri təlim görmədiyimiz üçün düçar olduğumuz bu fəlakətli hallar bizi büsbütün rüsvay və namusumuzu bərbad etdi. Namusumuza toxunan bu rüsvaylı fəlakətlərdən sonra mənə qalarsa yalnız cavanlarımız deyil, qocalarımıza varıncaya qədər könüllü sifəti ilə əsgəri təlim almağa məcburuz. Zira əsgəri təlim almaqladır ki, namusumuzu, məmləkətimizi, hökumətimizi, hasili bütün varyoxumuzu müdafiə və mühafizə edə biləcəyiz. Yoxsa, bir hadisə üz verdiyi zaman başqalarına ümidli olmaqla, onların köməkliyinə göz tikməklə və hallardan ibrət almayıb, yalnız baqqallığa, restorançılığa məşğul olunmaqla namus saxlamaq olmaz, məmləkət müdafiə ediləmməz, hökumət olmaz, istiqlal paydar [daimi] qalmaz. Əsgərsiz hökumətin sözü heç yerdə keçməz.

Əsgərlik; hazırlanıb da, quldurcasına o qonşunun, bu hökumətin məmləkətinə hücum etmək, başqaların[ın] hüququna təcavüz etməkdən ibarət deyil. Əsgərlik də şərəfli bir vəzifədir ki, o vəzifə də ancaq camaatının namusunu, məmləkətinin hüdudunu, hökumətinin heysiyyətini mühafizə və müdafiə etməkdən ibarətdir. Bu vəzifələr dürüst düşünülərsə, ərz etdiyim kimi, yalnız cavanlarımız deyil, qocalarımıza varıncaya qədər mümkünlük hasil edib, özlərimizi bu vəzifənin altına girməyə məcbur görəriz.

Binaənileyh [ona görə], hökumətimizin əsgərlik dəvətini mümkünü olan bütün cavanlar canla-başla qəbul etməliyiz və şərəfli olan bu vəzifəni öhdəyə götürmək üçün hər kəs onun tərəfinə artıq bir sevinclə qoşaraq getməliyiz. Atalar, analar dəxi bu yolda öz köməkliklərini göstərməklə vəzifədardırlar [borcludurlar]. Namuslarını, məmləkətlərini, mal-dövlətlərini, yer-yurdlarını, izzətlərini, hökumətlərini, istiqlallarını müdafiə [və] mühafizə etmək üçün oğullarını sevinclərlə, məhəbbətlərlə, şadlıqla, vətənə və millətə xeyir-dualarla əsgərliyə göndərməlidirlər. İştə, ataların, anaların şərəfli, namuslu vəzifəsi də budur.

*M. A. Mirbağırzadə*

## TELEQRAF XƏBƏRLƏRİ

**(Royter ajansından)**

Varşavadan "Tayms" qəzetəsinə yazılır: Qrajdanski milissiya [mülki milis], hökuməti iş başından düşürərək Kabinə üzvlərini həbs etmişlərsə də, fəqət yenə onlar həbsdən xilas ola bilmişlərdir.

**Berlində müharibə**

Berlindən gəlmiş olan yekdigərinə zidd xəbərlər orada zühur edən hadisələr xüsusunda dürüst məlumat verməyə müsaidə verməyir. Yanvarın 7-də gəlmiş xəbərlərdən, Berlində qanlı müharibədən bir neçə yüz əhalinin qətl edildiyi anlaşılır. Vilhelmştrassedə xüsusi müharibədə spartaklar (bolşevik) Xariciyyə Nəzarətinə həmlə etmişlərdir. Görünür ki, axşam zamanı Hökumət onlara faiq [üstün] gəlmişdir.

Yenə, son gələn xəbərlər "Spartak" firqəsi tərəfindən Şpandauda cəbbəxana işğal edildiyini bildirirlər. Bütün gecə Berlində küçə müsadiməsi [toqquşması] vaqe olurmuş. Libknext irad etdiyi [söylədiyi] nitqində əmələləri [fəhlələri] hökumət istefa verməyincə işə başlamamağa dəvət edirmiş. Spartaklar Düsseldorf, Manheym və Oberhauzendə hökuməti əllərinə almışlardır.

* Belçika Senatında Van der Ol da bəyan eyləmişdir ki, nemeslər ümumiyyətlə Belçikadan qovulmalıdırlar.

* Polşa Ərkani-hərbinin [Baş qərargahının] məlumatına nəzərən, Lvovda polyaklarla ukraynalılar arasında qırğın müsadimə [toqquşma] gedir.

* Libknext (bolşevik) firqəsi Berlində qalib gəlmişdir. Libknext, imperator sarayını işğal eyləmişdir.

İndi alınmış olan xəbərlərdən anlaşılır ki, inqilab hərəkəti getdikcə qüvvətlənir. Libknext ilə düşmənləri arasında əlaqə fənalaşır. Burjuaznı dəstələr bütün qüvvələrini cəmləşdirirlər. Böylə xəbər verirlər ki, Libknextin müvəffəqiyyəti, Almaniya irticaiyyunlarının [irticaçıların] dəhşətli həyəcanlarına səbəb olmuşdur. Bütün mötədil firqələr Berlinin Müttəfiqlər tərəfindən işğal edilməsini məqul [mümkün, ağlabatan] sanırlar. Bu münasibətlə də ingilis və fransızlara olan münasibat [baxış] bəzi məhafillərdə [dairələrdə] dəyişir.

* Parisdən xəbər verildiyinə görə, imperator Vilhelm, guya qətl edilmiş imiş.

* Qaliş dairəsində polyak və nemes dəstələri arasında müsadimə [toqquşma] davam edir.

* Kiyevdə idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] elan və divani-hərb [hərbi məhkəmə] təsis edilmişdir. Direktoriya əleyhinə gedənlər divani-hərbə təslim ediləcəkdir.

* Sevastopoldan bildirildiyinə görə, ingilis qarovullarına müsəlləh [silahlı] surətdə hücum edilir.

* Peşt - Bolqariyanın böyük şəhərlərində, o cümlədən Sofiyada müdhiş iğtişaşlar vaqe olduğu xəbər verilir. İxtilalı [üsyanı] yatırmaq üçün fransız qoşunları dəvət edilmişdir.

* Berlin - Şeydeman Hökuməti nəşr etdiyi bir intibahnamədə [vərəqədə] camaatı spartakları əzməyə dəvət edir.

* Lion - Berlində əhvalın mükəmmələn müəyyən bir halda olduğu xəbər verilir. Səşənbə [bazar ertəsi] günü küçələrdə hökumət tərəfdarları ilə Spartak tərəfdarları arasında qızğın müsadimə vaqe olmuşdur [toqquşma baş vermişdir].

* Berlin - İtaliyada böhrani-vüzəra [hökumət böhranı] qurtarmışdır. Milli Sosialist firqə, xilafgirlər [müxalifət] tərəfinə keçmişdir. İtaliya sosialistləri Rusiya əleyhinə olan iqdamatdan [təşəbbüsdən] İtaliyanın ictinab etməsini [çəkinməsini] tələb edirlər və əlavə edirlər ki, bu məqsədlə Rusiya əleyhinə nemeslər göndərilsinlər.

* Berlin - Vilson bir məclisdə demişdir ki, Avropanın sabiq müvazinəsi əvəzinə bundan sonra fövqəladə qüvvə təşkil edən dövlətlər dəstəsi olmalıdır.

**Gürcü teleqraf ajansından**

Poti - Qara dənizə varid olmuş [gəlmiş] ingilis hərbi gəmiləri bütün Gürcüstan sahillərini seyr etmişlərdir. Paroxodların bir hissəsi Batuma əzimət etmişdir [getmişdir]. Dekabrın 30-da Batuma İngiltərənin 4 hərbi gəmisi varid olmuş, onlar iskələ [liman] rəisi Qlaviadan Poti iskələsində duran paroxodlara baxmağa icazə xahiş edirlər. İngilis nümayəndəsi sifəti ilə paroxod komandiri iskələdə olan minanosun [torpedo gəmisinin] özünün ixtiyarına verilməsini xahiş eylər. Qlavia buna cavabən, Gürcüstan Hökumətindən icazə olmadıqca bu xahişinə əməl edə bilməyəcəyini bəyan etmişlərdir. Bu barədə Tiflisdən cavab istənilmiş, Gürcüstan Hökuməti icazə verdikdən sonra paroxod ingilislərə təslim edilmişdir.

## QƏZETƏLƏRDƏN

**Müttəfiqlərin Hacı-Tərxana hərəkəti**

"Borba" qəzetəsi yazır ki, alınan məlumata görə, Müttəfiq dövlətlər Batuma böyük qüvvələr çıxarıb, bolşeviklərin arxasında əməliyyatda bulunmaqdan ötrü Bakı ilə münasibatı [rabitəni] qaydaya salırlar. Müttəfiqlərin qəsdi Hacı-Tərxanı zəbt etməkdir. Quruya əsgər çıxarmaqdan ötrü hal-hazırda bütün bəhri-Xəzər [Xəzər dənizi] donanması Müttəfiqlərin əlindədir. İdil nəhri donduğuna görə, bolşeviklərin Müttəfiqlər əməliyyatı əleyhinə bir iş görmələri müşkülləşir.

**İngilis manufakturası**

İngiltərə maryaklarının [dənizçilərinin] dediyinə görə, İngiltərə bazarı manufaktur malları ilə doludur. Uzun müddət İngiltərədən əcnəbi məmləkətlərə mal çıxarılmadığından, malın miqdarı daha da artmışdır. Manufaktura mallarının qiyməti müharibədən əvvəlki qiymətdən aşağı düşmüşdür. Bu qərar üzrə bu yaxın zamanda Rusiyadakı alış-verişçilərin dimağına düşməyən [ağlına gəlməyən] qiymətlə İngiltərə malları gətiriləcəkdir.

**Gürcüstanda**

Gürcüstanda həbs edilən ermənilərin işlərinə baxmaqdan ötrü general-qubernator Maqlakelidzenin sədarəti [sədrliyi] altında bir komissiya təşkil edilmişdir. Tiflis qubernatoru Gürcüstan, Azərbaycan və İran təbəəsi [vətəndaşı] olan məhbus ermənilərin azad edilməsi haqqında bir əmr vermişdir. Qubernatorun bu əmri, müharibədə əsir düşənlərə şamil deyildir.

**Soçi nahiyəsində**

"Borba" qəzetəsi yazır ki, bu axır vaxt Soçi nahiyəsi haqqında bir çox sözlər danışılır, hətta, Soçi nahiyəsinin Könüllü ordu əlinə keçməsi də rəvayət olunurdu. Hal-hazırda mühəqqəq olmuşdur [dəqiqləşmişdir] ki, Soçi heç bir kəs tərəfindən alınmayıb, Gürcüstan dairəsində qalmaqdadır. Könüllü ordu tərəfindən heç bir hərəkat olmamışdır. Gürcü əsgərləri Soçi nahiyəsində qalmaqdadırlar. Qara dəniz sahili cəbhəsinin komandanı böylə bir əmrnamə nəşr etmişdir: "Təhti-idarəmdə [idarəm altında] olan bütün nahiyə əhalisinə xəbər verirəm ki, hökumətimin əmrinə görə mən əsgərləri cəbhədən götürməyib, hətta bir tərəfdə bir çıxış olduğu zaman zərbəni həman tərəfə döndərəcəyəm." Axırıncı alınan xəbərlərə görə, Soçi nahiyəsi məsələsi Sülh Konfransında həll ediləcəkdir.

**Gümrü mövqifinin patlaması**

Tiflis qəzetələrinin yazdığına görə, yanvarın 4-də Gümrü (Aleksandropol) möviqifi [stansiyası] patladılmışdır. Bu barədə hələ təfsilat alınmamışdır.

**Qara dənizdə**

Potidən verilən xəbərlərə görə, indiyə qədər Qara dənizə Müttəfiqlərin 300 ədəd hərbi və nəqliyyat gəmiləri daxil olmuşdur. Bu gəmilərin çox hissəsi hal-hazırda Ukrayna və Romaniya limanlarında dayanmaqdadır.

**Hindistan heyəti-mürəxxəsəsi**

15 nəfərdən ibarət Hindistan heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] Sülh Konfransında iştirak etməkdən ötrü Londona varid olmuşdur [getmişdir].

**Petroqradın işğalı**

"Bakinets" qəzetəsinin yazdığına görə, Kronştadt üç həftə bundan irəli ingilislər tərəfindən zəbt edilmişdir. İngilis gəmiləri birinci top gülləsi buraxdıqdan sonra matroslar Kronştadtın təslim olunmasını ingilislərə xəbər verməkdən ötrü elçi göndərmişlərdir. Bir həftə keçdikdən sonra Müttəfiqlər bilamümaniət [maneəsiz] Petroqradı işğal etmişlərdir. Şəhər alınmadan əvvəl, fəhlələr öz təşəbbüsləri ilə şəhərdən bolşevik hökumətini çıxarıb qovmuşlardır.

**Almaniyada**

Berlində olan Libknext (bolşevik) firqəsi qalib gəlmişdir. Libknext imperator sarayını zəbt etmişdir. Axırıncı xəbərlərə görə, hərəkat şiddətlənməkdədir. Libk-next ilə rəqibləri arasında münasibat kəskinləşməkdədir. Burjuaziya təşkilatları bütün qüvvələrini cəm etməkdədirlər.

Berlindən xəbər verirlər ki, Şverin ətrafında torpaq məsələsi üstündə böyük iğtişaşlar vaqe olmuşdur. Cəbhədən övdət edən [qayıdan] saldatlar da bu iğtişaşlarda iştirak etmişlərdir. Bir çox mülkədar evləri xarab edilmişdir.

**Şimali Qafqaziyada**

Şimali Qafqaziyada Padin istiqamətində general Kolosovski, Aleksandrovsk kəndi yanında bolşeviklərə qalib gəlmişdir. Bolşeviklərin 6 piyada və 4 süvari alayı pərakəndə edilmişdir [dağıdılmışdır].

* Könüllü ordu əsgərləri Krımda, Berdyansk, Melitopol və Yuxarı Tokmaq tərəfdə əməliyyatda bulunurlar.

* Rəsmi verilən xəbərlərə görə, Könüllü ordu əsgərləri Xarkova daxil olmuşlardır.

## BAKI NEFT TİCARƏTİ VƏ ONUN MÜXTƏSƏRCƏ TARİXİ

### VII

Bir vaxt 15 sajından artıq qazılmağa izin verməyən hökumət, bu gün 40 sajın dərinliyə izin verir. Səbəb də odur ki, qabaqlarda neft çox dayazdan çıxırdı, Amma bu gün bəzi yerlərdə 40 sajınlıq icazə də kifayət edəmməyir. Hətta bir çox quyuların dərinliyi bu gün 70-80 sajına çatmışdır.

Dərinliyi 40 sajına çatmış quyunun gər [əgər] neft məhsulatı yoxdursa, var-yoxunu bu quyuya sərf etmiş bədbəxt quyuçu aya [görəsən] nə çarə eyləsin? Bunu atıb yeni bir quyu qazılmasınamı şüru etsin [başlasın]? Yaxud, köhnə quyunu dərinləşdirib aşağı qatlaramı getsin?

Aşağı qatları keçməyə hökumət izin verməyir. Təzə quyunun qazılması da beyhudə və bicadır [boşunadır]. Zira, təzə quyu da köhnə quyu kimi 40 sajınadək neft asarını [əlamətini] göstərməyəcəkdir. Bəs quyuçunun təklifi nədir? Bunun təklifi ancaq 5-6 min manat sərf etdiyi quyunu, xəlvət də olsa, qazıb gizlicə 40 sajından aşağı getməkdir. Odur ki, hökumətin ziddinə olaraq gizli quyu qazmaq adəti bu gün bir çox mədənləri tutmuşdur.

Bəs [deməli], bu 40 sajinlıq məhdudat gərək aralıqdan götürülsün.

Dərinlik məhdudatından əlavə, hökumətin bir də ağır bir məhdudatı vardır ki, o da neftli quyulara borular (обсадные трубы) sallanıb ətrafı torpaqla doldurmaqdan ibarətdir. Borular motor və vışka [buruq] əvəzinə əl ilə gərək sallanılsın. Ancaq bundan sonra məhz borulu quyulardan neft çəkilməsinə ixtiyar [icazə] verilir.

Əvvəla, 40 sajınlıq bir quyuya əl ilə boru sallamaq nə qədər çətindir və bəlkə heç mümkün deyil. Bu barədə ərbabi-fənn [elm adamları, mühəndislər] vaxtında bəhs açmışdır. Lakin burada nazik [həssas] bir mətləb vardır ki, ona hökumət kişiləri [adamları] məna verməmişlərdir. O da bundan ibarətdir ki, əl quyularının dibindən bir qədər neft qalxıb durulursa, yenə neftin ən böyük məhsulatı quyunun yuxarı qatlarından ənvai [müxtəlif] çeşmələrdən üzü aşağı axıb dibində cəmləşir. İştə, hərgah quyulara borular salınıb dalları torpaqlanarsa, divarlarda bir çox çeşmələrin gözlərini tutub neft axıntılarını bağlayacaqdır. Dib neftinin ümidinə qalarsa, bu da əmələcatın məxaricini [işçilərin xərcini] ödəmədiyi üçün böylə borulu quyuların həm sahibinə və həm də xəzinəyə heç bir mənfəəti olmayacaqdır.

Bundan əlavə, əhli-xibrənin [mütəxəssislərin] məlumu olduğu üzrə, quyuların nefti çəkildikcə, çeşmələrin gözləri qum ilə dolub tutulur. Ona görə heç olmazsa, ildə bir kərə bu qumu təmizləmək üçün gərək quyulara kənkan sallanılsın. Lakin quyular borulu olarsa, quyulara adam sallamaq mümkün olmadığı üçün müruri-zaman ilə [vaxt keçdikcə] çeşmələr tamamən tutulub, neftin məhsulatı da axırda kəsiləcəkdir.

Amerikan karastıları [alətləri] ilə quyuları təmizləmək istəmişlərsə də, bir şey hasil olmamışdır. Zira, ağır karastılar quyunun dövrə taxtalarına dəyib onları parçalayır, qırır və bu zərər-ziyandan əlavə, nəticəsi də faydasız və çox baha tamam olur. Hərgah quyuların başına ağızlıq qayırılarsa, bunlar da yuxarıda zikr olunan bəlaya məhkum olacaqlar.

Sabiq Qafqaz canişini təsdiq etdiyi qanunların bir maddəsi də, quyular torpaqlanandan sonra yenidən əl buruğu ilə quyu qazmaq üçün bir ilin müddətinə sair xahişməndlərə [istəyənlərə] icarəyə, yaxud razvedkaya [kəşfiyyata] verilsin. Təcrübə bunu göstərir ki, əl buruğu ilə bir ildə 20 sajından artıq qazmaq olmayır. Böylə olan surətdə icarə müddəti tamam olarkən icarəçi məramına nail olammayıb, hətta bir çox əbəs məsariflə [xərclə] qoyub qaçasıdır. Köhnə icarəçi qoyub qaçarkən, quyuya sərf etdiyi boruları da belə çıxarammayıb hər şeydən məyus olur. Qaçmadığı halda həman şərtlərlə yenə iş görə bilməyib, ikinci il də aciz qalır. Axirüləmr [axırda] məsələ razvedka ilə kəşf olunub pərdə salınır ki, tamam qanunların məğzi və arzusu həman razvedkadır.

Qabaqkı məqalələrdən aşkar oldu ki, Jak cənabının düzəltdiyi qanunlar nə insaniyyət nöqteyi-nəzərindən və nə də xəzinə mənfəəti mülahizəsi ilə olmayıb, min məşəqqətlə əhalinin hazırladığı mədənləri böyük firmaçılara yedirtmək idi. Qurd quzunu yemək istədiyi halda yüz cürə bəhanələr icad etdiyi kimi, bizim qanunçuların da məqsədi bu qanunlar məhdudatı ilə işi razvedkaya müncər etmək [gətirmək] idi. Razvedka (yəni bələdləmək) qanunu bundan ibarətdir ki, razvedkaçıya yaxud bələdçiyə 37 desyatin yer verilir, bu şərtlə ki üç ilin ərzində yerin hansı cəhətində olur olsun 200 sajınlıq dərinliyində bir buruq quyusu qazsın. Bu quyudan hər nə qədər neft hasil olarsa, hamısı məccanən [pulsuz] bələdçinin mənfəətinə qalır. Hərgah bu quyuda güclü neft çeşmələri və axıntıları tapılarsa, əvvəl vaxt yerin bəyənildiyi tərəfindən 5 desyatin 30 ilə, ildə desyatini 100 rublə icarə şərti ilə həman bələdçiyə verilir ki, bu 5 desyatin yerdə quyular qazdırıb özü üçün mədən saldırsın. Qalan 32 desyatin yer bu fəqərədən [hadisədən] sonra firmaçılar arasında böyük şöhrət qazanıb, xəzinə tərəfindən torq [hərrac] vasitəsilə artıq qiymətlərə satılır.

İştə, bələdçilər neft əlaməti aşkar olmayan yerlərə məhəl qoymayıb, sabiq hökumətin müsaidəsi [icazəsi] ilə o yerə soxulurlar ki, orada biçarə əl quyuçuları çoxdan iş görməkdədirlər.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 14 yanvar (Çərşənbə axşamı günü) tarixli 87-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Halbuki, bələdçilərə və razvedkaçılara izin verirlər ki, nefti o yerlərdə axtarsınlar, harada ki, neft əlaməti hələ məlum deyil! Bir şey ki, quyuçular əli ilə çoxdan tapılmışdır daha neftli yerlərdə bu nə razvedkaçılıq?

*Fərhad Ağazadə*

## ŞƏHƏRİMİZDƏ XƏSTƏLİK

Rus[ca] "Azərbaycan" qəzetəsinin Bakı xəstəliyinin statiska qismində səpmə yatalağa mübtəla olanların qədəri qeyri naxoşlardan çoxdur. Deməli, şəhərimizdə yatalaq xəstəliyi davam edir.

Məlumdur ki, səpmə yatalaq köçəridir [yoluxucudur]. Məlumdur ki, hər bir xəstəliyin artması, sirayət etməsinin [yoluxmasının] ən mühüm səbəblərinin biri natəmizlikdir. Bu saatda hansı bir küçə ilə keçərsən, orada zibil koması görməmək qeyri-qabildir və ya hansı bir həyətə nəzər yetirsən zibil qutuları dolub daşmaqları ilə bərabər, qoxusu da hər yeri tutubdur. Nə üçün şəhər təmizlənmir və nə üçün bu barədə bir sərəncam edilmir?

Şəhəri təmiz etmək üçün Bələdiyyə İdarəsinin "Aboz" adlı böyük bir müəssisəsi vardır. Necə ki, məlumdur həman "Aboz"un axırıncı, yəni 1918 sənə smetasına məbni [əsasən] şəhəri təmiz etmək üçün lap azı 220 atı, 175 arabaçısı, 250 küçə süpürənləri, şəhər ətrafında 20-yə qədər qarovul və zibil yandıranları, gözətçiləri və qeyrə, cəmi gərək 500-ə qədər fəhlə şəhəri təmiz edəydilər. Hətta şəhərin Sihhiyyə [Sanitar] komisyonu bu smeta barəsində bir çox iclaslar qurub, şəhəri təmiz etməyə bu miqdarı kafi görmədi. Ya ştatın, ya qeyri makinə alatı (avtomobil kimi) artması barəsində həmin komissiya bir neçə layihənamə düzəldib Bələdiyyə İdarəsinə təqdim etdisə də, hələ ki, nəticəsini görməyirik.

"Aboz"da isə lap azı dediyimiz 220 atdan 45-i qalmış və ondan da neçəsi işləyir, Allah bilir. 500 fəhlədən isə 300 də qalmamışdır. Bu azalmanın əvəzində isə, deyəsən 2 avtomobil artırılmışdır. O[n]lar da ki, yağmur nəticəsindən dağıdılmış küçələrdə bir iş görə bilməyirlər. Xəstəlik hər gün tərəqqi etməkdədir və tərəqqi nəticəsi çox fəna və ağırdır. Biz isə heç bir fikir çəkməyib, əli qoynunda oturub gözləyirik ki, nə vaxt "aboz" gəlib küçə-həyəti təmiz edəcəkdir.

Təəccüb ediləsi hal burasıdır ki, şəhərdə ən böyük Bələdiyyə İdarəsi, Səhiyyə Nəzarəti, Sihhiyyə komissiyaları, çoxlu avtomobil, çoxlu at, qatır və qeyrə ola ola, bir tədbir çəkilməyib ya bir sərəncam edilməyir. Onlardan əlavə isə öz tərəfimizdən də bir fəaliyyət görsənilmir.

Xəstəlik tərəqqi etməkdədir. Ümidlə yaraya dərman etmək olmaz. Sərəncam çəkməli, tədbir etməli, özümüz işə girişməliyiz. Özümüz təmizliyə bir çarə aramalıyız.

*C. P.*

## ERMƏNİ XANIMLARINA MÜRACİƏT

İrəvan, Qarabağ və Lənkəranda olan təqsirsiz qurbanlar barəsində hər gün ah, zar, nalə və fəğanlardır ki, yetişir. Hər gün müavinət [yardım] barəsində israr edilir, kömək istənilir. Minlərlə arvadlar, uşaqlar kəsilir, minlərlə müsəlmanlar aclıqdan və soyuqdan həlak olurlar. Kəndlər yanır, camaatın müqəddəsatı təhqir edilir, əsrlərdən bəri cəm edilmiş olan camaat sərvəti məhv olur. Fəqət, dəhşət bunlarla qurtarmır, bəlkə bu halların ucu-bucağı, intəhası olmadığındadır.

Axıdılan qardaş qanı ilə müdhiş ədavət toxumu səpilir, ədavət ağacları əkilir ki, onun bəhəri [meyvəsi, nəticəsi] də çox yaman olacaqdır. Kor olmuş bir dəstə mütəəssibləri [fanatikləri] saxlamaq olmayır. Halbuki, çoxdan və çoxdan bəri bu qanların qabağı alınmalı idi. İndi də olsa düşünməlidir ki, bütün bir milləti kəsib məhv etmək qabil deyildir.

Neçə vaxt bundan əvvəl müqəddəs iş üçün sülh və müsalimət [əmin-amanlıq] paydar etmək niyyəti ilə bizi dəvət edən erməni bacılarımız, indi nerədə qalmısınız? Hərgah sizin o zamanki dəvətiniz rəqiq [həssas] xanımlar qəlbindən çıxan səmimi bir dəvət idi, indi onu isbat ediniz. İndi qövldən feilə [sözdən işə] keçiniz. Yetər bu qədər qanlar!

Siz bizə deyirdiniz ki:

"O zaman ki, hər bir yerdə sülh sözü danışılır, böylə bir əhəmiyyətli zamanda bizim səsimizin eşidilməməsi cinayətdir."

Böylə isə səsinizi qaldırınız, çəkilmiş olan qılıncları saxladınız.

*Bir dəstə müsəlman xanımları naminə*
*Ziba xanım Qayıbov və*
*Sara xanım Vəlibəyov*

## QARABAĞ ƏHVALI

Qarabağa göndərilmiş və ifayi-vəzifə bə'dində [vəzifəsini yerinə yetirdikdən sonra] bugünlərdə qayıtmış olan komissiya əzasından [üzvlərindən] Parlaman məbusu Qara bəy Əliverdibəyov cənabları ilə vaqe olan müsahibəmizdən böylə anlaşılır ki, Qarabağ uyezdlərindən hamısından artıq ağır hal keçirməkdə olanı əvvəla Zəngəzur və saniyən [ikincisi] Şuşa uyezdləridir.

Zəngəzurdan gələn mürəxxəslərin [nümayəndələrin] – ki, onlardan biri Baxış bəy Sultanov, digəri Xudabaxış Sultanov və biri də Bəhlul Əfəndizadə cənablarıdır – sözlərindən anlaşıldığı üzrə, Zəngəzurda ermənilər tərəfindən dağıdılan və xarab edilən kəndlərin ədədi 119 parədir ki, bunların 40 mindən artıq olan əhalisi qırıldıqdan sonra, yerdə qalanları yer və yurdlarından qaçıb Qarabağın sair yerlərinə səpələnibdirlər. Bu qaçqınların halı o dərəcədə fəlakətlidir ki, yazılmaqla qurtarmaz.

Türklər Zəngəzur tərəflərində olarkən taxıl yığıb dörd-beş anbar doldurubdurlar ki, əqəllən [ən az] otuz-qırx min put taxıl edir. Məbus əfəndi məzkur [adı keçən] mürəxxəslərin dəxi istidasına [xahişinə] görə hökumət yanında təvəssüt [vasitəçilik] edir ki, bu buğdanın heç olmasa bir qədəri Zəngəzurdan gətirilib Şuşa uyezdinə dağılmış olan, ac qalan qaçqınlara verilsin.

Şuşa uyezdinin özündə də aclıq, xəstəlik davam etməkdədir. Yaxşı ki, Ağdamda Ağdamın öz əhlindən olan iki nəfər doktor olub, naxoşlara və xəstəliyə qarşı böyük bir hümmətlə [qeyrətlə] iş görməkdədirlər. Bunlar biduni-təmənna [təmənnasız] öz xərcləri ilə naxoşları tədavi [müalicə] edən kimi, əhaliyə dəxi kamali-rəğbət ilə kömək edib lazım olan ev, mənzil və sair köməkləri müzayiqə etməyirlər [əsirgəmirlər]. Bu doktorlardan birisi Bahadır bəy Əliverdibəyov və o biri də Fərrux bəy Ağakişibəyovdurlar. Təəccüb burasıdır ki, buraya "divizionnı vraç" [diviziya həkimi] sifəti ilə bir nəfər cavan doktor gətirilib, bu iki nəfər doktorların üzərində hakim yerində təyin edilibdir. Halbuki, həman vraç [həkim] Abdulla Həmid Qənizadə yeni kursu qurtarmış və ola bilsin ki, heç qurtarmamış olub, bilik və təcrübə işlərində nə Bahadır bəyin yerini verə bilər, nə də Fərrux bəyin.

Şuşa uyezdində [qəzasında] ermənilər quldurluqlarında davam etməkdədirlər. Hələ məbus əfəndi orada olarkən uyezd qaimməqamı [qəza rəisi] Abuş bəy Qalabəyov namına [adına] Şuşa pristavından raporlar gəlirdi. Bunlar, raporlardan anlaşıldığı üzrə, 6 nəfər erməni quldurу Xəlfəli yoluna tökülüb Alpoutlu Hüseyn Məşədi İbad oğlu nam [adlı] bir nəfəri soyub var-yoxunu əlindən alıbdırlar. Bədəhu [sonra], həman ermənilər Kəhrat yoluna keçib, Malıbəyli arabalarını soyub, əzcümlə [o cümlədən] Məşədi Səlim Quliyevin bir çox şeylərini aparıbdırlar. Xoramord erməniləri dəxi Ağdama gedən Kolanı müsəlmanlarını soyub, 6 yük şeylərini alıbdır ki, 10 min manat ziyan eyləyir. Bu gün quldurluq ermənilər arasında bir sənət yerinə giribdir. Bunlarla müntəzəm mübarizə lazımdır.

Ağdam camaatı, məbus əfəndinin sözünə görə, hökumətdən bunu da istida [xahiş] edirlər ki, Ağdamın özündə xəzinə şöbəsi açılsın ki, bu xüsusda sair yerlərə müraciət etmək məcburiyyəti aradan götürülsün.

Bilümum [bütün] Qarabağ əhalisi ərzaq və xəstəlikdən üsrət [çətinlik] çəkdikləri kimi, manufaktur mallarının yoxluğundan dəxi əziyyət çəkməkdədirlər. Hökumətimizdən təvəqqe olunur ki, oraya ağ bez və bu kimi arşın malı göndərilsin ki, xalq özünə tuman-köynək hazırlaya bilsinlər.

Posta-teleqraf işləri dəxi arzu edilməyən fəna bir haldadır. Məktublar və teleqramlar vaxtlı-vaxtında çatmır. Bir çox yerlərdə teleqraf işləmir. Yollar dəxi pis gündədir. Yevlax-Şuşa yolu bir çox yerlərdə yağış və sel nəticəsi olaraq dağılıb, araba keçməz olubdur.

Şübhəsizdir ki, lazımi diqqət yetirilib ciddiyyətlə işə girilərsə, bu fənalıqların qabağı alınıb, xalq dəxi rahat yaşamaqla, şikayət yeri qalmaz.

## MÜXTƏLİF XƏBƏRLƏR

Noyabr ayı axırlarında Bakıda tif azarından mərhum olmuş naxçıvanlı Hüseyn Musayevin cənazəsini Bakıda olan naxçıvanlılar Naxçıvana göndərməkdən ötrü Tiflisə aparmışdılar. Tiflisdən gələn bir nəfər Naxçıvan əhlinin rəvayətinə görə, mərhumun cənazəsi gürcü-erməni toqquşmasından bir neçə gün əvvəl 14 nəfər Naxçıvan müsəlmanları ilə Tiflisdən yola salınmışdır. Qarakilsədə ermənilər həman müsəlmanları və onlarla bərabər 4 nəfər İran təbəəsini [vətəndaşını] tutub öldürmüşlər. Həman adamlardan Məhəmmədəli nam [adlı] [bir şəxs] ilə cənazənin hara aparılmasından bir xəbər yoxdur.

- Ermənistanda olan gürcü siyasi nümayəndəsi Mdivani erməni-gürcü toqquşması zamanında Tiflisə qayıdarkən, onunla bərabər bir nəfər Ordubad əhli gəlib Tiflisə çıxmışdır. Lakin 6 nəfər iranlının Qarakilsədə başlarına nə gəldiyi məlum deyildir.

## BAKI XƏBƏRLƏRİ

**Lənkərana uyezdni naçalnik göndərilməsi**

Lənkəran uyezdində Azərbaycan Hökumətinin qanununu bərpa etməkdən ötrü keçən gün Lənkəran şəhərinə uyezdni naçalnik [qəza rəisi] göndərilmişdir.

**Böyük təhlükə qarşısında**

Şəhərdə hökmfərma olan yatalaq azarı ilə mübarizə etməyə ciddi çarələr düşünməkdən ötrü keçən gün Bələdiyyə salonunda şəhər həkimlərinin təcili iclası dəvət edilmişdi. Şəhərin sihhiyyə əhvalı [gigiyena vəziyyəti] haqqında doktor Lurye müfəssəl məruzədə bulunduqdan sonra, gəldikcə şiddətlənməkdə olan xəstəlik haqqında müzakirat başlanmışdır. Hesaba görə, hər gün 300 nəfər azarlanmaqdadır. Azarlılardan 100-ə 30 nəfəri ölür.

Müzakirat qurtardıqdan sonra bir çox tədbir maddələri qəbul olmuşdur. Bu maddələrdən ümdələri bunlardır:

1 - Həkimlər cəmiyyəti bütün hökumət və ictimai təşkilatlara müraciət edib, xəstəliklə mübarizə üçün maddi müavinət [köməklik] göstərməyə dəvət edir.

2 - Həkimlər xəstəliklə mübarizə edən cəmiyyətə hamı təşkilat nümayəndələrinin cəlb olunmalarını lazım görürlər.

3 - Cəmiyyət, hamı [bütün] xəstəxanaların müsri xəstəxanaya [yoluxucu xəstəliklər xəstəxanasına] təbdil edilməsini [çevrilməsini] lazım bilirlər.

4 - Biçiz [yoxsul] əhali üçün pulsuz hamam açmalıdır.

5 - Məhəllələrin təmzliyinə baxmaqdan ötrü kontrol təyin edilməlidir.

6 - Petrovsk, Ənzəli və qeyri yerlərdən azarlıların gətirilməsi qadağan edilməlidir.

7 - Bu tədbirləri həyata tətbiq etməkdən ötrü nəqliyyat vəsilələri [vasitələri] lazımdır. Buna görə də Bələdiyyə İdarəsinə və Parlamana müraciət etməlidir.

İngiltərə komandanlığı xəstəliklə mübarizə edən cəmiyyətə izhar etmişdir [bildirmişdir] ki, 50 qatır ilə 25 araba, cəmiyyət ixtiyarına vagüzar edə [verə] bilər.

* Ticarət və Sənaət Nəzarətinin smeta layihəsi təsdiq üçün nazirə təqdim edilmişdir. İşbu smetada 335 min rublə məxaric göstərilmişdir.

* Yanvarın 2-dən təzə əmr verilənə qədər Ticarət və Sənaət Nəzarəti ilə ticarət müqavilənamələrinin əqd edilməsi [bağlanması] dayandırılmışdır.

* Müvəqqəti olaraq təzə binagüzarlıq edilənədək [sərəncam verilənədək] Azərbaycan dairəsinə bu aşağıda yazılan şeylərin gətirilməsinə icazə verilmişdir: taxıl yükləri, qənd, tənbəki, yağ və qeyrə, dərman, xərəzi malı [xırdavat], hər cür manufaktura, mə'dəni şeylər, dəri, kağız, kənd və fəllahət [kənd təsərrüfatı] və qeyri maşinalar.

**Dəmiryolunda**

* Azərbaycan Dəmiryollarında olan Ərzaq şöbəsinin Təftiş komissiyası xahiş edir ki, hər kəs Ərzaq şöbəsində olan xəyanətkarlıqları aşkar etməkdən ötrü bir əhvalat bilirsə, həmin komissiyaya xəbər versin.

* Dəmiryollar naçalniki dəmiryol xətlərinə böylə bir teleqraf göndərmişdir: "Dəmiryollarında sərnişinlərə edilən təcavüzlər haqqında alınan təzə xəbərlərə görə, böylə hadisələrin qarşısını almaqdan ötrü ciddi tədbirlər görülməlidir. Sərnişinləri incidənlər və təhqir edənlər dərhal həbsə alınaraq əsgəri məhkəməyə verilməlidirlər. Hamı naçalniklər öz qulluqçularının hərəkatı [hərəkətləri] haqqında məsul olacaqlardır."

* Bu günlərdə Amerika Maarif Nəzarəti nümayəndələri Tiflisə və Bakıya varid olub [gəlib], Amerikada təhsilə getmək arzusunda olanlara böylə şərait [şərtlər] təklif edirlər: Təhsilə getmək istəyənlər Amerikaya getməkdən təmin olunaraq, təhsili itmam [tamam] edənədək Amerika Hökumətinin hesabına yaşayacaqlardır. Amerikaya gedənlər heç bir məxaric etməyib, ancaq təhsilindən qurtardıqdan sonra 5 il Amerikada qalıb hökumətə pulsuz xidmət etməlidirlər. Bu şəraitlə Tiflis şəhərindən 800 nəfər Amerikaya getmək istəmişdir.

* Asayiş bərpa edildiyinə görə, dəmir yollar ilə əmval [mallar] aparılması məhdudatı [məhdudiyyətləri] ləğv edilmişdir. Bu qərar üzrə dəmiryol ilə getmək istəyənlər şeylərinin siyahısını tutmadan apara bilərlər.

**Xəyanət**

Zaqatalada mövcud kooperativ dükanlarına taxıl gətirib bez, sabun və başqa şeylər aparmaq üçün Zaqataladan Bakıya gələn 4 müsəlman və bir rus vəkilləri Ərzaq Nəzarətindən aldıqları 50 min arşın bezin 20 mini müsəlman vəkillərində qalıb, qalan 200 min manatlıq əşyanı da Similt familiyasındakı rus vəkili Bakıda satmaqla böylə bir xəyanət etmişdir. Rusun yeri məlum deyildir.

**Üçüncü Ali ünas [qızlar] məktəbində**

Bələdiyyə tərəfindən açılmış Üçüncü Ali ünas məktəbində təlim üçün gələn müsəlman qızları bu il sabiq illərdən çox artıq qələbəlik edirlər. Təlim ilinin yarısı keçmişsə də, müsəlmanlar genə öz qızlarını, çox vaxt təlim yaşına çatmamış övladlarını da məktəb rəisəsinin hüzuruna gətirib, min cür xahişlərlə qızlarını məktəbə almağı tələb edirlər. İş bir dərəcəyə çatmış ki, məktəbin ibtiadi sinfi üç müsavi [bərabər, eyni dərəcəli] şöbə açmağa məcbur olmuşdur. Axırıncı "T" şöbəsində bu gün 50-dən ziyadə mütəallimə [qız şagird] yığılmışdır. Bu iş qanuni-təlimə [təhsil qanununa] nə qədər müğayir [zidd] görülərsə də, məktəb rəisəsi 4-cü, yəni "S" şöbəsi açmaqdan dəxi aciz olduğu üçün valideynin təmənnalarına qarşı bu ağır vəzifəni öhdəsinə almaq məcburiyyətində olmuşdur.

Bir tərəfdən müsəlman valideynlərin elm və tərbiyəyə birdənbirə artıq həvəs və şövq göstərmələri, digər tərəfdən də çocuqların tərbiyəyə və elmə əşəddi-ehtiyaclarını [şiddətli ehtiyaclarını] qəlbən təqdir etməklə, rəisə xanım bunları geri qaytarammır.

Hamıdan artıq çocuqların müsavi cəhətdən ehtiyacları, çoxusunun cındır və natəmiz libaslarla getdikləri və çox vaxt təlim və tədrisə lazım olan kitab və dəftərləri pul ilə almağa möhtac olmaları, ümumən müəllimə xanımları çox acındırır. Bu əhvala valideyn şuralarının və baxüsus [xüsusilə] Ünas cəmiyyəti-xeyriyyə heyəti-idarəsinin nəzərini cəlb etməyi məsaili-cariyyədən [cari məsələlərdən] ədd [hesab] ediriz.

## ƏRZAQ İŞLƏRİ

* "Pobeda" giliz [papiros] fabrikasının vəkili Abram İsayeviç Qrjebinə Ticarət və Sənaət Nəzarəti ilə əqd olunan müahidəyə [bağlanan müqaviləyə] əməl etdiyinə görə, Bakıdan Tiflisə 1064 put munştuçnı [müştük] yabin və 800 put kardon aparmasına Ərzaq Nəzarəti icazə vermişdir.

* Ərzaq Nəzarəti, Ticarət və Sənaət Nəzarətinə təcili bir məktub göndərib Azərbaycan Hökuməti dairəsindən çıxarılması qadağan edilən şeylərin siyahısını istəmişdir.

* Ərzaq Nəzarəti, Daxiliyyə Nəzarətinə bir məktub göndərib xəbər verir ki, dekabrın 14, 23 və 31-ində Quba qəza qaimməqamına [qəza rəisinə] Ərzaq Nəzarəti tərəfindən yazılan məktublara cavab alınmamışdır. Xüsusi alınan xəbərlərə görə, Quba uyezdində türklərin zəkat təriqi ilə [zəkat olaraq] yığdıqları taxıl, türklər getdikdən sonra qəza qaimməqamı tərəfindən satılmışdır. Buna binaən [buna görə], xahiş olunur Quba qaimməqamına təklif edəsiniz ki, həmin məsələ haqqında məlumat versin.

**"Sentrodom" və Ərzaq Nəzarəti**

Necə ki məlumdur, "Sentrodom" Bakıda müxtəlif məhəllələrdə xüsusi çörəkçi dükanları açıb əhaliyə ucuz çörək satmaq fikrinə düşmüşdür.

Çün "Tsentrodom"un heç bir sərmayəsi yoxdur, bütün məsarif və məxaricatı da Ərzaq Nəzarətindən alıb əhaliyə payladığı ehtiyacatizəruriyyə [zəruri ehtiyaclar] və ərzaq (rasion) paylarının üstünə gələn faizlərdən ibarətdir. Ona görə də "Sentrodom", Maliyyə Nəzarətinə müraciətlə həmin çörəkçi dükanları üçün külli miqdarda nəqdi müavinət [nağd pul yardımı] istəmişdir. Maliyyə Nəzarəti isə şu məsələ Hökumətin ərzaq politikasına dair olduğu üçün "Sentrodom"un ərizəsini Ərzaq nazirinə göndərib, onun rəyini bilmək istəmişdir.

Keçən gün Ərzaq naziri Lizqar cənabları "Sentrodom"un ərizəsinə görə şu mülahizatını xüsusi məktubla Nəqdiyyə Nəzarətinə [Maliyyə Nazirliyinə] bəyan etmişdir:

1) Şəhərdə çörək bişirib əhaliyə ucuz qiymətlə satmaq işini Mərkəzi Ərzaq Bürosu dəröhdə etmişdir [öhdəsinə götürmüşdür] və bu büronun baş heyəti-idarəsi Müttəfiq hökumətlər nümayəndələrindən ibarətdir.

2) Həman Müttəfiq komandan nümayəndələrinə Ərzaq Nəzarəti bu məqsəd üçün bir neçə milyonluq nəqdi müavinətdə bulunmuşdur.

3) "Sentrodom" bir üzv olmaq şərti ilə həman Mərkəzi Ərzaq Bürosuna daxildir və bu münasibətlə də "Sentrodom" gərək müavinət üçün Mərkəzi Büroya rücu [müraciət] etsin.

4) "Sentrodom"un təhti-idarəsində [idarəsi altında] bir o qədər əmlaki-qeyri-mənqulə [daşınmaz əmlak] və ya ki, malüt-ticarə [ticarət malı] yoxdur ki, onun istədiyi miqdarda nəqdi müavinəti ona vermək olsun. Bu səbəblərdəndir ki, "Sentrodom"un xahişi gərək rədd edilsin.

## İZHARİ-TƏŞƏKKÜR

Möhtərəm "Azərbaycan" qəzetəsi müdiri cənabları.

Cənabınızdan acizanə rica edirəm ki, mənim qaç [bir neçə] sətirdən ibarət zirdəki [aşağıdakı] təşəkkürat sözlərimi təhti-müdiriyyətinizdə mətbu cəridənizin [idarəniz altında çap olunan qəzetinizin] bir sütun[un]da dərc etdirəsiniz.

Bu sənə rəbiülmövludun eyd günündə [rəbiüləvvəl ayında, Peyğəmbərin mövlud bayramı günündə] müdiriyyətim altında bulunan Ərəkit ibtidai məktəbinin biçiz [yoxsul] şagirdləri nəfinə [xeyrinə] olmaq üzrə həmin kəndin hümmətli və zatən daha ilərilərdən maarifpərvərlikdə şöhrət qazanmış vətəndaşları olan Kərbəlayi Nəsrulla Süleymanzadədən 100 manat və Kərbəlayi Əbdüləli Məşədi Əşrəf oğlundan 25 manat müavinəti-nəqdiyyə [pul köməkliyi] olmaqla ianə edilmişdir. Bundan dolayı böylə maarifmənd və tərəqqini sevən, mədəniyyətə maddi cəhətdən müavinətdə bulunan bu zəvatdan [şəxslərdən] möhtərəm cəridəniz [qəzetiniz] vasitəsilə izhari-təşəkkür edirəm, əfəndim.

*Ərəkit ibtidai məktəbi müdiri*
*Həsən Rəhimzadə*

## İDARƏYƏ MƏKTUB

"Bəsirət"in son nömrəsinin "Bakı xəbərləri" qismində bu günlərdə Bakıda "Al bayraq" namında bir qəzetənin "Müsavat" firqəsi tərəfindən çıxarılacağı bildirilirdi. Bu xəbər yanlış dərc edilmişdir. Böylə ki, "Al bayraq" müsəlman sosialistləri tərəfindən nəşr edilir. Bu babda təshihi-keyfiyyət [düzəliş] ediriz.

*"Bəsirət" idarəsi*

## İDARƏDƏN CAVABLAR

Məhəmmədzadə Abbasəli əfəndiyə: Ağır günlərimizdə böyük fədakarlığı ilə məşhur olan Ağdaşın arşın malı, şəkər, çay və sairədən, sair yerlər kimi hissəbərdar olmaması [payına düşəni almaması] xüsusunda Ərzaq Nəzarətinə və məbussuz qaldığı barədə də Parlaman rəyasətinə doğrudan doğruya müraciət etməniz daha mənfəətli olar.

R. Rəhimli əfəndiyə: Lahıc qəsəbəsindəki camaat məktəbinin indiyə qədər qapalı qalmasından mütəəssir olaraq, bu xüsusda həman məktəbin müəllimlərini müqəssir görürsünüz. Halbuki, əldə dəliliniz yoxdur. Məktəbin filhəqiqə [həqiqətən də] nə səbəbdən bağlı olduğu xüsusunda səhih [doğru] məlumat əxz [əldə] etsəniz yaxşı olar.

Zal əfəndiyə: Yazmış olduğunuz "Yaxşı yol" sərlövhəli beş bəndi-mürəbbe [dörd misralıq] şeirlərinizdən xoşumuza gələni bu qədər oldu:

"Gedin, geri gülər üzlə qayıdanda
İsmayıl qurbanı olar muştuluq."

Bu da fəna deyildir:

"Uçun, vətən ürəyinin quşları
Parlaq Qərbə bizdən salam söyləyin."

Bu şərtlə ki, Qərbin tərifi olan "parlaq" sözünün əvəzinə daha münasib bir söz olaydı.

Bakı Sənaye məktəbinin şagirdi Yusif Əlizadə əfəndiyə: Sizin də "Hilala" sərlövhəli şeirinizdən bunu bəyəndik:

"Ey göy üzündə seyr edərək parlayan hilal!
Ey millətim ümidi, müqəddəs, gözəl camal!"

Şeirinizdə, şairi-şəhirimiz [məşhur, tanınmış şairimiz] Məhəmməd Hadi Əbdülsəlimzadə cənablarının əsəri-xamələrinin [qələmindən çıxmış əsərlərin] təsiri görünür.

## İANƏ

Artist Mirzə Muxtar Məhəmmədov nəfinə [xeyrinə] Ağakərim Axundovdan 100 manat ianə vüsul olub [çatıb], idarəmiz tərəfindən Mirzə Muxtar əfəndiyə təslim edilmişdir.

**İtibdir**

3 gün bundan əqdəm [qabaq] Əziz Məhəmmədəli oğlu 14 yaşında evdən çıxıb, bu vaxta kimi qayıtmamışdır. Əynində ağ pencək, ayağında çarıq və başında da təsək [papaq, araqçın] vardır. Bundan xəbəri olanlardan rica olunur 10-cu uçastokda pristava xəbər versinlər.

**Petroqraddan gəlmiş diş həkimi**
**M. B. Şternin**

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

*2642*

**Arvad diş həkimi M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

*209*

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

*2603*

**Doktor Leonid Ter-Avanesov**

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyə başlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

*2627*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

*2603*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

Bakı Obşestvenni Sobraniyasının [Bakı İctimai Yığıncağının] Müvəkkilər Şurası, Obşestvenni Sobraniya işlərini idarə etmək arzusunda olan zəvatdan [şəxslərdən] bu barədə Müvəkkillər Şurasına ərizə vermək təklif olunur. Ərizələr Sobraniya kantorasında bu ilin kanuni-sani [yanvar] 20-sinə kimi qəbul olunur.

*T-9*

**Elan**

Bakı Tacirlər Bankası, Azovsko-Donskoy, Voljsko-Kamski, Beynəlmiləl, Qafqaz, Rus-Asiya, Rus Xariciyyə Ticarəti, Müttəfiq, İran İstiqraz və Tiflis Tacirlər bankalarının Bakı şöbələri, 1-ci və 2-ci Müttəhid İstiqraz cəmiyyətləri ümuma elan edirlər ki, bu bankaların xəzinə və cari hesabatına daxil olan nəqdiyyə məbləğlər yenə də qeyri-məhdud əndazədə nağd pul ilə taliblərə [tələb edənlərə] qaytarılır.

*2644*

**Müdir və baş mühərrir:**
**Ceyhun bəy Hacıbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Zaqatal məsələsi***

"İnqlo": ingiloylar nəzərdə tutulur.

"Sereteli": Gürcüstan Demokratik Respublikasının və Gürcüstan Sosial-Demokrat Partiyasının liderlərindən biri olan İrakli Georgiyeviç Sereteli nəzərdə tutulur.

"Neftlik": Şərqi Gürcüstanda mühüm dəmir yolu qovşağı olan Naftluqi stansiyası nəzərdə tutulur.

***Əsgərlik vəzifəmizdir!***

"…müstəqil cümhuriyyət qurmuşuz…": qəzetdə "müstəqil cümhuriyyətlər qurmuşuz" kimi getmişdir.

"…və biz də əsgər təlimi görmüş olsaydıq...": qəzetdə "və bir də əsgər təlimi görmüş olsaydıq" kimi getmişdir.

***Teleqraf xəbərləri***

"Qaliş": Şərqi Avropada (Polşa və Ukrayna ərazisində) yerləşən tarixi Qalisiya vilayəti nəzərdə tutulur.

***Bakı neft ticarəti və onun müxtəsərcə tarixi***

"…quyunun gər neft məhsulatı…": qəzetdə "gər" yerinə "hər" getmişdir.

"…neftli quyulara borular (обсадные трубы) sallanıb...": çox dözümlü materialdan hazırlanan geniş diametrli belə "oturtma boruları" quyu divarlarının möhkəmləndirilməsi məqsədi ilə quyunun içinə yerləşdirilirdi.

***Şəhərimizdə xəstəlik***

"Aboz" (rusca "обоз"): Bakı şəhərində zibillərin daşınması ilə məşğul olmuş təşkilat.

***Qarabağ əhvalı***

"Abdulla Həmid Qənizadə": çox güman ki, "Əbdülhəmid Qənizadə" olmalıdır.

***Bakı xəbərləri***

"Dəmiryollar naçalniki": Azərbaycan Dəmir Yolu İdarəsinin rəisi Teymur bəy Məlikaslanov idi.

"Axırıncı 'T' şöbəsində… yəni 'S' şöbəsi açmaqdan…": Belə başa düşülür ki, şöbələr əlifba sırasına görə hərflərlə adlandırılmışdır; "T" ərəb əlifbasının 3-cü, "S" isə 4-cü hərfidir.

***Elan***

"Beynəlmiləl": Sankt-Peterburq Beynəlxalq Kommersiya Bankı nəzərdə tutulur.

"Müttəfiq Bank": "Birləşmiş Bank" [Соединённый банк] nəzərdə tutulur.

"İran İstiqraz Bankı": İran Mühasibat və Kredit Bankı nəzərdə tutulur.

"Tiflis Tacirlər Bankı": Tiflis Kommersiya Bankı nəzərdə tutulur.

"1-ci və 2-ci Müttəhid İstiqraz cəmiyyətləri": "Qarşılıqlı Kredit Cəmiyyəti" nəzərdə tutulur. Bu cəmiyyətin Bakıda iki şöbəsi olmuşdur.

# 15-16 oktyabr 2020-ci il
# Azərbaycan: ZƏFƏR gündəliyi

**Oktyabrın 14-dən 15-nə** keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində əvvəlki günlərdə olduğu kimi vəziyyət gərgin olaraq qalıb.

Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərib. Qoşunlarımız tərəfindən həyata keçirilən uğurlu tədbirlər nəticəsində qarşı tərəf ciddi itki verib və cəbhənin müxtəlif istiqamətlərində geri çəkilməyə məcbur edilib.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd “Tor-M2KM” zenit raket kompleksi, 4 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd D-20, 1 ədəd D-30 və 2 ədəd D-1 haubitsa topu, bir neçə PUA-sı və avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin müvəqqəti işğal etdiyi ərazilərdəki qüvvə və ehtiyatlarına ağır zərbə vurulub. Düşmənin canlı qüvvəsi, döyüş texnikası, silah-sursatı, yanacağı tükənmək üzrədir.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhə boyu əməliyyat üstünlüyünü saxlayır.

❖ ❖ ❖



Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atəşə tutublar. Tərtər rayonunda dəfn mərasimi zamanı əraziyə ağır artilleriyadan atəş açılıb. Ölən və yaralananlar olub.

❖ ❖ ❖

Prezident İlham Əliyev Rusiyanın “Ria Novosti” Agentliyi üçün “Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi” media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib.

Ali Baş Komandan döyüş əməliyyatlarının nəticələri ilə bağlı verilən suala cavabında deyib ki, Azərbaycan Ordusu düşmənin dərin eşelonlaşdırılmış müdafiə xəttini yarmağa nail olub: “Bəzi sahələrdə hətta 4 müdafiə xətti vardı. Lakin ərazinin relyefi, dağ relyefi, əlbəttə, müdafiə olunmaq üçün əks-hücumla müqayisədə daha münasibdir. Bu günə qədər onlarca yaşayış məntəqəsi, o cümlədən Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun kəndlərinin çox hissəsi, Füzuli rayonunun kəndlərinin əksəriyyəti, strateji əhəmiyyətli Suqovuşan qəsəbəsi işğaldan azad edilib. Biz işğalçıları Murovdağ silsiləsindəki strateji yüksəkliklərdən çıxarmışıq və ölkəmizin ərazi bütövlüyünün bərpası üzrə uğurlu əməliyyatı davam etdiririk”.

Prezident deyib ki, təkcə pilotsuz zərbə uçuş aparatları vasitəsilə düşmənin 1 milyard dollardan çox dəyərində hərbi texnikası məhv edilib.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində paylaşım edib:

“Nə dərəcədə insaniyyətdən kənar, rəhmsiz və mənəvi tənəzzülə uğramış olmalısan ki, dəfn mərasimi zamanı qəbiristanlığı qəsdən atəşə tutasan? Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram. Həlak olanların ailələrinə və doğmalarına başsağlığı verirəm. Allah rəhmət eləsin”.

❖ ❖ ❖

Prezident İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibə verərək bir daha Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından danışıb. Qeyd edib ki, döyüş meydanında əsas hədəf strateji yüksəklikləri işğalçılardan azad etmək və böyük əraziləri nəzarət altına almaqdır:

“Bizim uğurlu əməliyyatımız davam edir. Bu günə qədər, - əlbəttə ki, hər gün bu rəqəmlər dəyişir, - təqribən 40-a yaxın, ya da ki, 40-dan çox yaşayış məntəqəsi - şəhərlər və kəndlər işğalçılardan azad edilmişdir. Yaxın vaxtlarda növbəti sevincli xəbərlər, xoş xəbərlər gələcəkdir”.

Ali Baş Komandan əməliyyatların tədricən, vahid bir planlama əsasında aparıldığını və bütün hədəflərin seçildiyini söyləyir.

Prezident bir daha Ermənistana mesaj ünvanlayır: “Ermənistan tərəfi, sadəcə olaraq, bu reallıqla hesablaşmalı və təcavüzünü dayandırmalıdır, atəşkəsə əməl etməlidir və qalan torpaqlardan da öz xoşu ilə çıxmalıdır ki, qan tökülməsin və bundan sonra bu məsələ sülh yolu ilə həll edilsin. Biz indi torpaqlarımızı azad edirik. Biz bayrağımızı artıq şəhərlərimizi əhatə edən dağlara sancırıq, şəhərlərimizdə mövcud olan binalara sancırıq, biz zəfər marşındayıq”.

❖ ❖ ❖

Prezident xalqa növbəti xoş xəbəri çatdırıb. İlham Əliyev özünün rəsmi “X” səhifəsində yazıb:

“Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”

❖ ❖ ❖

Əks-hücum əməliyyatları zamanı mənəvi-psixoloji təminat tədbirləri çərçivəsində keçirilən təbliğat-təşviqat işi davam edib.

Ali Baş Komandanın müraciətləri, həmçinin işğaldan azad olunmuş kəndlər haqqında məlumatlar operativ şəkildə çap olunmuş bülletenlər və səyyar radioqovşaq vasitəsilə mülki sakinlərə çatdırılıb.

Keçirilən tədbirlər cəbhəboyu zonada yaşayan dinc sakinlər tərəfindən ruh yüksəkliyi ilə qarşılanıb.

❖ ❖ ❖

“France 24” televiziya kanalına müsahibə verən Prezident İlham Əliyev bir daha həqiqətləri söyləyib. Ermənistanın humanitar atəşkəsə əməl etmədiyini vurğulayan İlham Əliyev bəzi təxribatçı suallara da əsl diplomat və Ali Baş Komandan kimi cavab verib.

Jurnalistin “Siz deyirsiniz ki, atəşkəs müəyyən olunandan sonra Azərbaycan tərəfindən heç bir zərbə endirilməmişdir? Hətta hərbi hədəflərə də?” sualını Prezident belə cavablandırıb: “Xeyr, hərbi hədəflərə zərbələr endirilmişdir. Biz bunu təkzib etmirik. Lakin bu təbiidir, çünki biz özümüzü müdafiə etməli idik. Atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əks halda Ermənistan üstünlüyə malik olacaq və öz məqsədinə çatacaq. Əslində, onlar elə bunu etməyə çalışırlar. Onlar azad edilmiş əraziləri geri götürməyə cəhd edirlər. Xüsusilə onlar Hadrut şəhərini geri götürməyə cəhd ediblər. Lakin uğursuzluğa düçar oldular. Mənim onlara məsləhətim belədir və mən artıq Ermənistan hökumətinə və həmçinin Ermənistan xalqına açıq şəkildə mesajımı ünvanlamışam ki, onlar azad edilmiş əraziləri geri götürmək cəhdlərini dayandırmalıdırlar. Bu, yalnız yeni qurbanlara səbəb olacaq və qan tökülməsinə gətirib çıxaracaqdır”.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Qubadlı rayonu ərazisindən atdığı əməliyyat-taktiki raket Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində partlayıb. Dinc sakinlərə və mülki obyektlərə zərər dəyməyib.

❖ ❖ ❖

**Oktyabrın 16-na** keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində əməliyyat şəraiti yenə də gərgin olaraq qalıb.

İşğaldan azad edilmiş Cəbrayıl və Hadrut istiqamətlərində yerləşən bölmələrimizin mövqelərini, eləcə də cəbhə xəttinə yaxın kəndləri düşmən dünən gün ərzində raket, artilleriya və minaatanlardan atəşə tutub. Gecə ərzində cəbhənin bəzi istiqamətlərində düşmən fəallaşmağa cəhd göstərib. Qoşunlarımız tərəfindən bunun qarşısı alınıb, düşmən ciddi itki verib.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 “Qrad” YARS, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 “Şilka” özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə zolağında hərbi qulluqçular və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər arasında kütləvi şəkildə fərarilik halı qeydə alınıb. Bunun qarşısını almaq məqsədilə Ermənistan rəhbərliyi Gorus və Turşsu yaşayış məntəqələrinin avtomobil yollarında hərbi polisin komendant postlarını qurub.

5-ci dağatıcı alayın müdafiə zolağında mövqe tutan şəxsi heyət arasında xeyli sayda ölən və yaralanan olub. Alayın bölmələrində ərzaq və döyüş sursatı çatışmazlığı açıqlanıb.

10-cu alayın müdafiə zolağına könüllüləri daşıyan avtomobil texnikasının vurulması nəticəsində ölən və yaralanan var. Geri çəkilən düşmən xeyli sayda avtomobil və zirehli texnikanı mövqedə buraxaraq qaçıb.

9-cu motoatıcı alayın müdafiə zolağında artilleriya batareyası məhv edilib, alay komandirinin müavini isə yaralanıb. Dağlıq Qarabağ ərazisinə gələn muzdluların bir qisminin döyüşə girməkdən imtina etməsi məlum olub.

❖ ❖ ❖

Prezident İlham Əliyev Türkiyənin “A Haber” televiziya kanalına müsahibə verib. Ermənistanın humanitar atəşkəs elan olunan zaman Gəncə və Tərtərə artilleriya zərbəsi endirməsinə sərt reaksiya verən Ali Baş Komandan deyib ki, bu namərd hücumlar Azərbaycanı yolundan döndərə bilməz, xalqın iradəsini qıra bilməz: “Biz öz ərazi bütövlüyümüzü bundan sonra da bərpa etməyə davam edəcəyik”.

Prezident həmçinin ordumuzun uğurlu hərbi əməliyyatlarından söz açaraq bildirib ki, artıq Hadrut qəsəbəsi Azərbaycanın nəzarətindədir, Füzulinin ətrafında kəndlərin mütləq əksəriyyəti bizdədir: “Artıq Füzuli bizim gözümüzün qabağındadır. Ondan sonra cənub istiqamətində də irəliləmişik. Şimalda Murovdağ mövqeləri bizdədir, Suqovuşan bizdədir. Yəni bütün istiqamətlər üzrə böyük uğurlar əldə etdik və bu proses davam edir. Hesab edirəm və əminəm ki, Azərbaycan xalqı bunu diqqətlə izləyir. Xüsusilə o kəndlərin sakinləri ki, o kəndlər işğaldan azad edilir, onlar üçün, əlbəttə, bu, tarixi günlərdir”.

❖ ❖ ❖

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri səhər saatlarından başlayaraq Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atəşə tutublar. Səhər saat 06 radələrindən 08-ə



qədər Tərtər, Ağdam, Goranboy və digər rayonlara 220-dən çox mərmi düşüb.

❖ ❖ ❖

Prezident İlham Əliyev özünün rəsmi “X” səhifəsində daha bir xoş xəbəri paylaşıb:

“Rəşadətli Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”

❖ ❖ ❖

Ermənistan uydurma məlumatlar yayaraq Hadrut qəsəbəsinin hələ də onların nəzarətində olduğunu bildirib. Azərbaycan Müdafiə Nazirliyi isə işğaldan azad olunan Hadrut qəsəbəsindən yeni videogörüntülər yaymaqla növbəti erməni yalanını ifşa edib.

*Rəşad BAXŞƏLİYEV,*
*“Azərbaycan”*

# Ermənistan: məğlubiyyətin xronikası

Azərbaycan Ordusu cəbhədə düşmənə getdikcə daha ağır zərbələr vurur. Düşmənin hərbi-texniki potensialı əhəmiyyətli dərəcədə sıradan çıxarılıb. Eyni zamanda Ermənistan canlı qüvvə sarıdan da ciddi korluq çəkir. İşğalçının Qarabağdakı ordusunun şəxsi heyətinin və xaricdən gələn muzdluların böyük qismi ordumuz tərəfindən məhv edilib. Bu səbəbdən Ermənistan artıq 60-70 yaşlı qocaları döyüşə göndərir.

❖ ❖ ❖

Ermənistan hərbi birləşmələrində canlı qüv-



və ilə bağlı yaranan problemin kökündə təkcə Azərbaycanla döyüşdə olan itkilər dayanmır. Bunun bir səbəbi də odur ki, minlərlə erməni ordu sıralarında xidmətdən boyun qaçırır. Erməni gəncləri illərdir ki, hərbi xidmətdən yayınmaq üçün ölkəni tərk edirlər və bu proses son günlər daha da intensivləşib. Hökumətin səfərbərlik barədə qərarına baxmayaraq, müxtəlif bəhanələrlə çağırışçı yaşında olan ermənilər xidmətdən yayınır, imkanı olanlar isə ölkəni tərk edirlər. Bu səbəbdən Ermənistanda yaşlıların orduya cəlb edilməsi daha da sürətlənib. İşğalçı ölkədə bunu yaşlıların təcrübələrinin çox olması səbəbindən könüllü şəkildə ordu sıralarına qoşulması kimi təbliğ edirlər. Amma təcrübə göstərir ki, yaşlı insanlar fiziki göstəricilərinin və çevikliyin aşağı olması səbəbindən elə döyüşə gəldiyi ilk andan həyatla vidalaşırlar.

❖ ❖ ❖

Bu günlərdə Fransanın "Liberation" qəzeti yazmışdı ki, Ermənistan ordusunda əsgər çatışmazlığı yaşanır. Buna görə hətta Fransada yaşayan erməniəsilli qocaları da Qarabağda döyüşməyə razı salmaq üçün iş aparılır. Qəzet erməniəsilli 64 yaşlı Fransa vətəndaşı Qilbert Minasyanın Qarabağ döyüşlərində vuruşmaq üçün Yerevana yola düşməsi barədə material yayımlayıb. Məqalədə həmin şəxsin 1990-cı illərdə də Azərbaycana qarşı Ermənistan ordusunda döyüşdüyü bildirilib.

❖ ❖ ❖

Hazırda işğalçı ölkənin hərbi-siyasi rəhbərliyi əsgər çatışmazlığını əsasən xaricdən gələnlərin hesabına kompensasiya etməyə çalışsa da, bu sahədə ciddi fiaskoya uğrayıb. Yayılan məlumatlarda vurğulanır ki, xaricdə yaşayan ermənilər koronavirusla əlaqədar sərhədlərin bağlı olduğunu bəhanə edərək, Ermənistana gəlməkdən boyun qaçırırlar.

❖ ❖ ❖

İndi işğalçı ölkənin rəhbərliyi əsasən Yaxın Şərq ölkələrindən olan muzdluların döyüşlərə cəlb edilməsinə köklənib. Amma bu sahədə də ciddi problemlər yaşanır. Çünki muzdlulara pul ödəmək lazımdır. Ermənistanın daxili imkanları isə heç vaxt muzdluların maliyyələşdirilməsinə imkan verməyib. İndiki çətin iqtisadi vəziyyətdə isə bütün imkanlar tükənib. Diasporun topladığı vəsait Ermənistanın kiçik problemlərini belə ödəmək iqtidarında deyil. Tükənən iqtisadi imkanlar fonunda yaxın vaxtlarda bu ölkədə ərzaq qıtlığının baş verməsi də gözlənilir.



Ona görə indi Ermənistanda səfərbərliyə qocalar alınır. Onlar hətta qadınları məcburi şəkildə buna cəlb edir və rəsmi təbliğatda qəhrəmanlıq nümunəsi kimi qələmə verirlər. Səfərbərliyə alınan yaşlıların döyüş qabiliyyəti isə yoxdur. Ordunun anbarlarında onlara verməyə hərbi geyim də tapılmır.

❖ ❖ ❖

Bu günlərdə Ermənistan müdafiə nazirliyinin nümayəndəsi Artsrun Ovannisyan feysbuk sosail şəbəkəsində yazıb ki, qadın batalyonu yaradılıb. Göründüyü kimi, Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinə cəbhədə vurduğu ardıcıl ağır zərbələr düşməni çətin vəziyyətə salıb. İşğalçı ölkə kişi döyüşçü tapmaqda çətinlik çəkir. Bütün bunlar Ermənistan ordusunda canlı qüvvə çatışmazlığını həll etməyin mümkünsüzlüyünü göstərir. Video və fotofaktlar, eləcə də sosial şəbəkələrin erməni seqmentində yayılan məlumatlar da bunu təsdiqləyir.

Azərbaycan Ordusunun zərbələri nəticəsində minlərlə itki verən düşmən ordusunda yaralıların sayı da çoxdur. KİV Xankəndidə bütün mülki və hərbi xəstəxanaların çoxdan dolduğunu, bu səbəbdən yaralıların Ermənistanın müxtəlif bölgələrinə aparıldığını yazır. Ölkənin səhiyyə nazirliyi xəstəxanalarda yer olmadığı üçün koronaviruslu xəstələrin qəbulunu məhdudlaşdırıb. Başqa bir problem isə Ermənistanda həkim və digər tibbi personalın çatışmazlığıdır. Görünən odur ki, Ermənistan bu fəlakətdən heç cür xilas ola bilməyəcək.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Tarix yazan əbədiyaşar Lider

**Gəncədə "Tarix yazan əbədiyaşar lider" mövzusunda "dəyirmi masa" keçirilmişdir. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin və elmi ictimaiyyətin nümayəndələri iştirak etmişlər.**

Tədbiri giriş sözü ilə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov açaraq bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir ki, bu gün Azərbaycan Respublikası iqtisadi cəhətdən özünü tam təmin edən, heç bir ölkədən asılı olmayan və tam müstəqil siyasət yeridən bir ölkəyə çevrilib. Bu gün Ümummilli Lider Heydər Əliyevin layiqli davamçışı Prezident İlham Əliyev Ulu Öndərin daxili və xarici siyasətini uğurla davam etdirməkdədir.

Sonra söz iştirakçılara verilmişdir. Akademik Fuad Əliyev çıxışında vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

YAP Gəncə Şəhər Təşkilatının sədri Bayram Aslanov, AMEA-nın müxbir üzvü İbrahim Cəfərov, Əməkdar həkim Mehman Rzayev və ADAU-nun İctimai fənlər kafedrasının müdiri, professor Azad Bayramov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətlərinin əvəzsiz olduğunu qeyd etmiş və bildirmişlər ki, dahi rəhbərin şərəfli ömür yolu gələcək nəsillər üçün əsl örnəkdir. Müasir tariximizi Heydər Əliyevdən ayrı təsəvvür etmək mümkün deyil. Vətən təəssübü, xalq sevgisi Ulu Öndərin həyat yolu, qayəsi idi. Mənsub olduğu xalqına xidmət etmək, Azərbaycanı dünyada layiqincə tanıtmaq bu dahi şəxsiyyətin əsas məqsədi olub.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Qərbi Azərbaycan İcması AŞ PA-nın qəbul etdiyi cızmaqaraları rədd edib

**Qərbi Azərbaycan İcması Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) 2023-cü il oktyabrın 12-də Azərbaycana qarşı qəbul etdiyi cızmaqaraları rədd edir. AZƏRTAC bununla əlaqədar icmanın yaydığı bəyanatı təqdim edir.**

"Ermənilərin Qarabağa qayıdışından, erməni mədəni irsinin mühafizə olunmasından danışan AŞ PA-nın Ermənistanı azərbaycanlıların qayıdışına şərait yaratmağa, Azərbaycan xalqının mədəni irsini qorumağa çağırmaması, Xocalı qatillərinin azad edilməsini tələb edib 4 min azərbaycanlı itkin düşmüş şəxsin məsələsinə toxunmaması rəzalətdir.

"Yaddaşı qısa olan" səlibçi mentalitetli deputatlara xatırladırıq ki, vaxtilə Azərbaycan əraziləri işğal altında olarkən AŞ PA-da keçmiş münaqişə ilə bağlı ad hoc komitə təsis olunmuşdu. Lakin Ermənistan onun işində iştirak etmədi və komitənin işi tamamilə iflic oldu. Amma AŞ PA bundan narahat olmadı. AŞ PA-nı narahat edən Azərbaycanın işğala, separatçılığa, "boz zona"ya son qoyması, özünün ərazi bütövlüyünü, suverenliyini, tarixi ədaləti və beynəlxalq hüququ bərpa etməsi oldu.

Ölkələrə və məsələlərə dini və etnik simpatiya əsasında yanaşan irqçi, islamofob, azərbaycanofob ünsürlərin toplaşdığı AŞ PA bu mənada, Avropa Parlamenti kimi qitənin üz qarasıdır. AŞ PA qoy gedib Avropada tüğyan edən islamofobiyaya, söz azadlığı adı altında müqəddəs Quranın yandırılmasına bəraət qazandırılmasına, dinc nümayişçilərin atların ayağı altına salınmasına, üzərinə itlərin buraxılmasına, Korsika dilinin qadağan edilməsinə münasibət bildirsin. Riyakarların, siyasi buqələmunların Azərbaycana "öyüd-nəsihət" verməsi üçün heç bir mənəvi hüququ yoxdur".

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimliyə qardaşı

**VAQİF MƏSİMLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, komitə üzvləri Mahir Abbaszadə, Elnur Allahverdiyev, Vüqar Bayramov, Məzahir Əfəndiyev, Vahid Əhmədov, Aydın Hüseynov, İmamverdi İsmayılov, Rüfət Quliyev, Anar Məmmədov, İqbal Məmmədov, Məşhur Məmmədov, Ziyad Səmədzadə və Ağalar Vəliyev komitənin sədr müavini Əli Məsimliyə qardaşı

**VAQİF MƏSİMLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini, deputat Əli Məsimliyə qardaşı

**VAQİF MƏSİMLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru






www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5346
Sifariş 2620

Qiyməti 40 qəpik